ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2022
№6 (72)

BAKI-2022

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2022

№6 (72)

BAKU-2022

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by
the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan
to publish the main results of the dissertations of the Republic of Azerbaijan on
***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

# Siyasi elmlər

UOT 32

## BALANSLAŞMA SİYASƏTİ: MAHİYYƏTİ, MƏZMUNU VƏ NÖVLƏRİ

**KƏMALƏ ALOYEVA**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru,*
*Bakı Dövlət Universiteti,*
*Politologiya və sosiologiya kafedrası*

*E-mail: aloyeva_kemale@mail.ru*

Balans (balance) fransız sözü olub “tarazlıq” mənasını ifadə edir. Balanslaşma siyasəti dövlətlər arasında tarazlığın qorunub saxlanması, daxili və xarici siyasətdə müstəqilliyin ən əsas təminatçısıdır. Balanslaşma siyasəti qədim tarixə malikdir. Bu siyasət, əslində dövlət idarəçiliyində hakim mövqe tutan şəxslərin diplomatik bilik və bacarıqlarına əsaslanır. Balans siyasəti mövzusunda ilk kompleks yanaşma alman-amerikan politoloqu Ernst Bernard Haasa məxsusdur. 1979-cu ildə Kenneth N. Waltz “İnternational Structure” adlı əsərində balans siyasətinin beynəlxalq sistemdə və siyasi arenada ən qədim anlayışlardan biri olduğunu qeyd etmişdir. Bu mövzu ilə bağlı Jack S.Levy və William R.Thompson güc balansı və tarazlaşdırma siyasətini “müqəddəs” məfhum kimi qiymətləndirmişdir. Hər şeydən öncə, bu anlayışlar qeyri-müəyyən təbiətə sahibdir. Məsələn, Haasa görə, güc balansının 8 göstəricisi var:

1. güc paylanması
2. qeyri-sabitlik və müharibə
3. güc bərabərliyi
4. hakimiyyət siyasəti
5. hegemonluq
6. tarixin universal qanunu
7. sabitlik və sülh
8. sistem və ya rəhbərlik.

Balans siyasəti nə qədər geniş yayılmış anlayış olsa da, bir sıra cəhətdən müəyyən çatışmazlıqları ilə seçilir. Bu onun xarakterinin mübahisəli olmasından qaynaqlanır. Əvvəllər güc balansı hərbi cəhətdən üstün mövqedə olan dövlətlərarası anlayış olmuşdursa, indi sadəcə hərbi yox, həmçinin siyasi və iqtisadi mənada yüksək inkişafı ilə seçilən dövlətlərə xas anlayışdır. Balanslaşdırma siyasəti öz aktuallığını bütün tarixi dövrlərdə qoruyub saxlamış və daim ölkələrin diqqət mərkəzində olmuşdur. Bunlardan əsas səbəb dövlətlərin xarici siyasətində, torpaq bütövlüyünün müdafiəsində əsas aktor olmasıdır. Balanslaşdırma siyasətini hərfi mənada ifadə etsək, Waltzun fikirlərinə nəzər yetirə bilərik. Onun fikrincə, ən bəsit və sadə formada balanslaşdırma “hegemon dövlətə qarşı zəif dövləti müdafiə etməkdir”. Balans siyasəti neorealistlərin fikrincə, universal bir qanun kimi qələmə alınmışdır. Nəinki neorealistlər üçün, həmçinin, Morgenthau kimi klassik realistlər məktəbinin nümayəndələri üçün balanslaşdırma yeni bir dəyər kimi qəbul edilir. Bu dəyər özündə həm gücü, həm hakimiyyəti, həm də tarazlığı sintez edir. Bu fikirləri ümumi və daha çox mücərrəd fikir adlandıran Randall L.Schweller balanslaşdırmaya qarşı daha konkret fərziyyələr irəli sürmüşdür. Onun fikrincə, balanslaşdırma hər hansı dövlətin digər dövlətə, koalisiyaya və ya ittifaqa qarşı hərbi təcavüzünün qarşısını almaq, ərazi bütövlüyünə hər hansı yol və vasitələrlə müdaxiləyə yol verməməyə istiqamətlənir.

### Balanslaşdırmanın növləri: Daxili və xarici

**Daxili-xarici balanslaşdırma.** Ölkə daxilində baş verən hər hansı iğtişaşın və ya hakimiyyət üçün təhdid sayılan çıxışların qarşısının alınması dövlət tərəfindən yerinə yetirilir. Bəzən daxildə dövlətə əks qüvvələrin fəaliyyətləri həmin ölkənin müttəfiq olduğu digər ölkələr tərəfindən müdaxilə yolu ilə məhdudlaşdırılırsa, bu, xarici balanslaşma adlanır.

Daxili məsələlərdə asayişin təmin edilməsində dövlətin öz rolunun olması xarici qüvvələr tərəfindən məsələnin həll edilməsindən daha güvənlidir. Bu, həm də ölkənin imicinin müsbət mənada formalaşmasına təsir göstərir. Xarici balanslaşdırma daha çox güc nisbətindən asılı olaraq dəyişir. Çünki siyasi və hərbi cəhətdən regiona söz sahibliyi edən dövlətlər rəsmi şəkildə olmasa da, digər sərhəd ölkələri özündən asılı hala gətirirlər.

**Neqativ-pozitiv balanslaşdırma.** Balanslaşdırma strategiyasında dövlətlər öz potensialını artırmaq və hər hansı təhdidlərin qarşısını almaq məqsədilə daxili və xarici balans siyasəti aparırsa, sözügedən siyasət öz fərqliliyi ilə seçilir. Əslində bu siyasət daha çox dövlətlərin bir-birini zəiflətmə səylərini özündə ifadə edir. Neqativ siyasət - bir ölkənin istər daxili, istərsə də xarici potensialı vasitəsilə

digər dövlətin hərbi, siyasi və diplomatik cəhətdən zəiflətmə fəaliyyətidir. Buna misal olaraq Suriyanın vətəndaş müharibəsində Türkiyə tərəfindən Rusiyaya aid təyyarənin vurulması iki güclü ölkə arasında gərginliyi olduqca artırmış və Rusiya tərəfindən hərbi, iqtisadi və diplomatik vasitələrlə Türkiyənin bu ərazidə hərbi təsir gücünün azaldılmasına istiqamətlənən neqativ balanslaşdırma strategiyasından istifadə olunmuşdur. Dövlət beynəlxalq müstəvidə, xarici siyasətdə və digər dünya dövlətləri arasında nüfuz qazanmasına görə pozitiv siyasətə borcludur. Bu siyasət daha çox ölkənin müsbət mənada dünya dövlətləri sırasında fərqlənməsi, inkişaf etmiş ölkələrlə eyni səviyyəyə gəlməsi və resurs cəhətdən hərtərəfli güclənməsinə şərait yaradan başlıca amildir. Pozitiv balanslaşdırma siyasəti daha çox ölkə daxilində uğurlu siyasətin yürüdülməsi, öz imkanlarının inkişaf etdirilməsi, qonşu dövlətlərlə dostluq münasibətlərinin qurulması, beynəlxalq təşkilatlara üzv olunması və bu kimi digər müsbət amilləri özündə ehtiva edən strategiyadır. Eyni mövzudan yola çıxaraq deyə bilərik ki, Türkiyə-Rusiya gərginliyi sonrası Türkiyənin öz daxilindəki bir sıra problemləri həll edərək (hərbi sənayenin inkişafı, NATO, İsraillə münasibətlərin normallaşdırılması) Rusiyanın təhdid və müdaxiləsinin qarşısını alması, həmçinin Suriyadakı mövqeyinin gücləndirilməsi ilə bağlı olaraq apardığı siyasəti pozitiv balanslaşdırma adlandırmaq olar.

**Sərt-mülayim balanslaşdırma.** Balanslaşdırma strategiyasının bu növü digər növlərdən fərqli olaraq daha geniş sahələri əhatə edir və keçmişdən bugünə tez-tez istifadə olunan siyasətdir. Sərt balanslaşdırma fövqəladə hadisələr zamanı istifadə olunur. Görkəmli ingilis politoloqu M.Fortmana görə, balanslaşdırmanın ən qədim növlərindən biri olan sərt balans siyasətindən a) dövlətlər özünə qarşı hər hansı hərbi təhdidlə üzləşdikdə, ərazi bütövlüyünə qəsd olduqda; b) özündən qat-qat güclü dövlət tərəfindən yox edilmə təhlükəsi ilə rastlaşdıqda; c) rəqib ölkələr arasında gərginlik artdıqda istifadə edirlər. Əgər ki, hər hansı bir dövlətin daxilində çevriliş yolu ilə hakimiyyəti ələ keçirən qüvvələr varsa, o zaman əhalini onlara əks qütbdə birləşən daxili və xarici qüvvələri özlərinə tabe etmək üçün bu siyasi yolu əsas tuturlar. Lakin müasir dövrümüzdə öz aktuallığını itirmiş siyasət olaraq nadir hallarda istifadə olunur. XXI əsrdə dövlətlər bu siyasətin əksi olaraq "yumşaq siyasət"ə üstünlük verirlər. Sərt balanslaşdırmada hərbi potensialın güclənməsinə, hərbi sənayenin inkişafına üstünlük verilirsə, yumşaq balanslaşdırmada tam əksi olaraq dövlətin daxili siyasətinə, stabilliyin qorunmasına, müxtəlif regional və beynəlxalq təşkilatlara, birliklərə qoşulması yolu ilə bu siyasətin bərqərar olmasına kömək edir. Yumşaq balanslaşdırma siyasəti hərbi sahəyə deyil, iqtisadi resursların inkişaf etdirilməsinə, sosial siyasətə, əhalinin rifah səviyyəsinin yüksəldilməsinə istiqamətlənir. Bir dövlətin obyektiv siyasət yürütməsinin əsası onun iqtisadi gücünün yüksək səviyyədə olması ilə seçilir. İqtisadi təməlləri güclü olan dövlət hər sahədə mühüm uğurlar əldə edər. Çünki dövlətin dayağı onun digər dövlətlərlə iqtisadi münasibətləri əsasında güclənir. Yumşaq balanslaşdırma Braziliya, Hindistan, Cənubi Afrika və s. bu kimi inkişaf etməkdə olan ölkələrdə tətbiq olunur. 2005-ci ildə Robert A. Pape tərəfindən yumşaq balanslaşdırma mövzusunda ABŞ və digər güclər arasındakı münasibətlər geniş təhlil edilmişdir. Həm hərbi, həm iqtisadi cəhətdən güclü dövlətlər (Çin, Rusiya, Fransa) ABŞ-a qarşı nə sərt balanslaşdırma siyasəti, nə də digər ölkələrlə koalisiya yaratmaq fikrinin uğurlu olmayacağını bildikləri üçün yumşaq tarazlaşdırma siyasəti aparırlar. Bu ölkələr daha çox daxili problemlərə yönəlir və idarəçilikdə çatışmazlıqları tapıb aradan qaldırmağa çalışırlar. Bu balanslaşdırma növü "Soyuq müharibə" dövründə geniş yayılmış, ABŞ-ın hegemonluğuna qarşı tarazlığı əldə saxlamağa yönəlmişdi. Yumşaq balanslaşdırma hegemon gücün təktərəfli strategiyasını zəiflədərək süquta uğratmaq siyasətidir [2, s. 203-204]. Whitaker öz əsərlərində bu siyasəti tənqid etmişdir. Buna səbəb bu konsepsiyada zəif dövlətlərə etinasız yanaşılmasıdır. Kai He və Huiyun Feng dövlətlərin istifadə etdiyi balanslaşdırma siyasətini güc dəyişikiliyi və iqtisadi potensialın həcmi ilə əlaqələndirirlər. Əsərlərində yumşaq balanslaşdırmaya dair müsbət fikirlərlə yanaşı, tənqidi fikirləri də qeyd edən Kai He beynəlxalq siyasətdə daha geniş istifadə olunan multipolyar strategiyaların sözügedən siyasətin təsir gücünü azaltdığını iddia edir. Bəzi çatışmazlıqlarına və əksikliklərinə baxmayaraq, bu konsepsiya dəyər ifadə edir. Kai He və Huiyun Feng balanslaşdırma siyasətini ətraflı təhlil etmişlərdir. Onlar sərt və yumşaq balanslaşmanı 2 yerə ayıraraq təsnifləşdirmişlər.

**Sərt və yumşaq balanslama çeşidləri**

| Növ | Hərbi | Qeyri-hərbi |
|---|---|---|
| **Sərt balanslaşma**<br><br>Dövlətin rəqibi ilə müqayisədə öz gücünü artırması | **Hərbi sərt balanslaşma**<br><br>Daxili hərbi balanslama: Silahlanma yarışı, hərbi səfərbərlik<br><br>Xarici hərbi balanslaşma: ittifaq yaratmaq | **Qeyri-hərbi sərt balanslaşma**<br><br>Müttəfiqlər üçün strateji texnologiya transferi<br><br>Müttəfiqlər üçün maliyyə yardımı |
| **Yumşaq balanslaşma**<br><br>Dövlətin rəqibinin nisbi gücünü zəifl ətməsi və daxili güvənliyinin artırılması | **Hərbi yumşaq balanslaşma**<br><br>Düşməninin düşməninə silah satışı<br><br>Düşmən dövləti hədəf alaraq silah satışına nəzarət etmək/ məhdudlaşdırmaq | **Qeyri-hərbi yumşaq balanslaşma**<br><br>**İqtisadi sanksiyalar və embarqo**<br><br>Strateji əməkdaşlıq etməmək. |

**Yaxın-uzaq balanslaşdırma.** Sadaladığımız növlər qədər mühüm yer tutan bir digər növ uzaq və yaxın balanlaşdırma siyasətidir. Uzaq balanslaşdırma termin kimi ingilis dilindəki "offshore" sözü ilə eyni mənadadır. Neorealistlərin davamçıları olaraq bilinən Walt, Mearsheimer, Posen və Layne kimi tanınmış tənqidçilər uzaq balanslaşdırmanı ABŞ-ın xarici siyasəti nümunəsində təhlil etmişlər. ABŞ-ın qlobal hadisələri daha yaxından izləməli və xarici siyasi fəaliyyətini bu yöndə istiqamətləndirməli olduğunu vurğulamışlar. ABŞ-ın xarici siyasət məsələlərinə öz əsərlərində daha çox yer ayıran və uzaq balanslaşdırma strategiyasını bu ölkə fonunda analiz edərək zənginləşdirən Kristofor Layne tarazlaşdırmanın iki əsas məqsədi olduğunu qeyd etmişdir. İlk olaraq gələcəkdə baş verməsi öngörülən böyükhəcmli müharibələrdə ABŞ-ın qoşulma riskini minimuma endirmək və ikinci olaraq beynəlxalq müstəvidə ABŞ-ın nüfuzunu artırmaqdan ibarətdir. Layneyə görə uzaqdan balanslaşdırma əslində hegemonluğun alternativi kimi qiymətləndirilməlidir [3, s. 132]. Çünki "Soyuq Müharibə"dən sonra hegemonluğun ABŞ üzərindən idarə olunması çətin olduğu qədər də, böyük maliyyə ehtiyacının yaranması kimi problemləri bərabərində gətirmişdir [4, s. 87]. Bəzi tənqidçilər isə bu multipolyar dünya sistemində ABŞ-ın qazanc əldə etməyəcəyini, daha da zərərə uğrayacağını düşünürdülər. Layne isə bu fikrin əsassız olduğunu, tam əksinə ABŞ-ın bu siyasəti düzgün qiymətləndirməsinin nəticəsi olaraq yeni fürsətlərin yaranacağını bildirirdi. Uzaqdan balanslaşdırma ABŞ-ın başqa dövlətlərin güclənməsinə əngəl ola bilməyəcəyini də göstərirdi. Bu məqsədlə maliyyə bazasını gücləndirmək üçün yeni strateji kosepsiyalar hazırlanmalıdır [5]. Uzaqdan balanslaşdırma siyasətini ABŞ nümunəsinə fokuslanaraq analiz edən siyasətçilər ABŞ-ın İraq müharibələri zamanı apardığı xarici siyasəti dəyərləndirmişlər. ABŞ-ın İraq savaşına qarşı çıxan neorealizm tərəfdarı olan Stephen Walt uzaqdan balanslaşdırma siyasətinin ABŞ-ın həm demokratik prinsiplərə önəm verdiyini, həm də bir çox ölkələrdə antiamerikanizm anlayışını yox edəcəyini düşünürdü. O qeyd edir ki, ABŞ-ın tarixi və mədəni baxımdan çox fərqli dinamikası olan ölkələrdəki təşəbbüsləri çox uğurlu nəticələr vermir və bundan başqa, bu təşəbbüslər nə zəruri, nə də ağlabatan deyil [6, s. 241]. Bu məqsədlə ABŞ öz geosiyasi üstünlüyündən istifadə edərək uzaqdan balanslaşdırma siyasəti vasitəsi ilə dünyanın güc dövlətləri ilə rəqabət apara bilər. Bu avantaj sayəsində həm də problemli regionlardan ən az zərərlə mövqeyini möhkəmləndirə bilər. Laynenin fikrincə, ABŞ Orta Asiyada möhkəmlənmək əvəzinə bütün diqqətini Şərqi Asiyaya yönləndirməli və daha çox sahilyanı ölkələri təsir altına salmağı bacarmalıdır. Uzaqdan balanslaşdırma siyasəti daha çox ABŞ idarəetməsi əsas götürülərək araşdırılmışdır. Yaxından balanslaşdırma isə ilk növbədə ölkənin daxili potensialının inkişafı, idarəçilik imkanlarının artırılması, sərt və yumşaq balanslaşdırmanı kombinə edərək özündə tətbiq etməyi təklif edir. İkinci olaraq sərhəd ölkələrlə əlaqələrin genişləndirilməsi və münasibətlərin stabilliyinin qorunub saxlanmasını əsas sayır. Əsasən regionda geostrateji əhəmiyyəti olan ölkə yaxından balanslaşdırma siyasətində bir addım öndə olur. Çünki həm siyasi cəhətdən, həm də regional mövqe baxımından həmin ölkə ilə hesablaşmalı olurlar. Yaxından balanslaşdırma siyasəti hər bir ölkənin coğrafi mövqeyindən asılı olaraq tədqiq olunur.

**Hər yerdə balanslaşdırma.** Siyasətdə güc anlayışı geniş yayılmışdır. Bütün əsərlərin əsasını güc dövlətlərinin təhlili təşkil edir, digər məsələlər isə ikinci plana alınırdı. Bu səbəbdən yaranan boşluğun fərqinə varan Jonhs Hopkins Universitenin beynəlxalq münasibətlər üzrə professoru Steven R. David öz araşdırmalarını üçüncü dünya dövlətləri üzərindən analiz edərək bizə yeni bir balanslaşdırma

növü olan "hər yerdə balanslaşdırma" konsepsiyasını tanıtmışdır. Üçüncü dünya dövlətləri dedikdə, kasıb və zəif inkişaf etmiş dövlətlər başa düşülür. Lakin bu anlayış əvvəllər "Soyuq müharibə"də iştirak etməyən, yəni nə birinci dünyaya (kapitalist və NATO ölkələri), nə də ikinci dünyaya (sosialist blok) aid olan ölkələri ifadə edirdi. Ənənəvi güc balansından fərqli olaraq, hər yerdə tarazlıq siyasəti üçüncü dünya dövlətlərinin liderlərinin ölkələrini qorumaq məqsədilə güvənilir ittifaq yaratmaq və hər cür təhdidə qarşı müdafiə mənbələrindən istifadə etmək arzusudur. Beləliklə, digər balanslaşdırma növləri ölkənin xarici təhdidlərlə üzləşməsini ön plana çəkirsə, bu tarazlaşdırma siyasəti ölkə başçısının və ya liderin daxili və xarici təhdidlərlə qarşılaşmasına diqqət yetirir. Nəhayət, bu ölkələrin ittifaq dövlətləri ilə qarşılıqlı əlaqələri və hansı siyasi rakursdan yanaşmaları aydın şəkildə başa düşülür. Davidə görə, üçüncü dünya dövlətləri liderlərinin ən əsas rasional axtarışı öz iqtidarını qorumaq və buna qarşı təhdid sayılacaq bütün amilləri dəf etməkdir. Lakin üçüncü dünya dövlətlərinə aid olan bəzi ölkələrdə liderlər öz şəxsi ambisiyalarını ölkənin milli maraqlarından üstün tuturlar. Buna görə də bu tipli dövlətlər siyasi atmosfer cəhətdən qeyri-sabit və qaynar münaqişə ocaqları kimi tanınırlar. Hər yerdə balanslaşdırma anlayışı mövcud balanslaşdırma strategiyalarına nəzərən bu ölkələrdəki ittifaq əlaqələrini daha yaxşı açıqlaya biləcək perspektivli konsepsiya kimi dəyərləndirilir [9, s. 235]. Bu strategiya ölkənin daxili və xarici siyasətində körpü rolunu oynayır və dövlətin siyasi davranışını izah edəcək model təklif edir. Balanslaşdırmanın bu növü digər növlər kimi öz təsdiqini tapmış və istənilən situasiyada istifadəyə yararlı olmuşdur.

**Qüvvələr balansı.** Qüvvələr balansı siyasi realizm məktəbinin fundamental anlayışlarından biridir. Beynəlxalq münasibətlərin müəyyən sistemləri üçün xarakterik olan tendensiyaların tədqiqi termininin meydana çıxmasından çox əvvəl başlamışdır. İngilis beynəlxalq münasibətlər nəzəriyəsi məktəbinin banisi və önəmli simalarından biri Martin Wight bu terminin 9 variantını qeyd edir. Bu variantlara nəzər salaq:

1. Gücün bərabər paylanması;
2. Hakimiyyətin bərabər paylanması prinsipi;
3. Hakimiyyətin mövcud bölgüsü;
4. Böyük dövlətlətin zəiflərin hesabına bərabərliyi prinsipi;
5. Gücün qeyri-bərabər paylanması təhlükəsinin qarşısını almaq üçün bir aktorun təhlükəsizlik marjasının olması prinsipi;
6. Hakimiyyətin bərabər paylanmasının təmin edilməsində xüsusi rolu;
7. Mövcud güc bölgüsündə xüsusi üstünlük;
8. Üstünlük [7, s. 15].

**Gücün bərabər paylanmasına doğru beynəlxalq siyasətin daxili tendensiyası.** Balans siyasətindən danışarkən "güc balansı", "qüvvələr nisbəti", "balans siyasətinin idarəetmədə rolu" və xarici siyasətdəki önəmi və s. bu kimi politoloji aspektləri dərindən araşdırmaq lazımdır. Beynəlxalq münasibətlərdə ən çox bəhs olunan mövzulardan biri də "qüvvələr balansı"dır. Bu anlayışın regionda sülhün və asayişin təmin edilməsində, dövlətlərarası əlaqələrin dostluq və qonşuluq fonunda formalaşmasının ən təməl şərti olduğunu iddia edirlər. Qeyd etdiyimiz "qüvvələr balansı" və ya "güc balansı" anlayışı əslində dövlətlərin bir-birinə xarici siyasət vasitəsilə təsirləridir. Bu tarazlığı qoruyaraq ölkənin təhlükəsizliyi təmin edilir və torpaq bütövlüyünə müdaxilənin qarşısını almağa çalışırlar. Ümumiyyətlə, balansın qorunmasında bir sıra hallarda ölkələr bir-biri ilə ittifaq yaradır və tək gücə qarşı birləşirlər. Buna misal olaraq Antik Yunanıstanda Afina və Sparta arasındakı müharibələri göstərmək olar. Həmin dövrdə Afina gücləndiyi üçün digər dövlətlərin müstəqilliyinə təhdid sayılmışdır. Bu səbəbdən Sparta digər şəhər-dövlətləri ilə Afinaya qarşı ittifaqlar quraraq balansı qoruyub saxlamaq istəmişdir. Qədim yunan tarixçisi Fukidid bu qarşıdurmanı "təhlükəsizlik dilemması" adlandırmışdı. Lakin bu termin siyasi leksikona çox sonralar, yəni İntibah dövrünün italyan mütəfəkkirlərinin araşdırmaları nəticəsində daxil olmuşdur. Buna səbəb uzun müddət orta əsrlərdə Avropada sülhü bərqərar edəcək əsas aktorun olmaması idi. Müqəddəs Roma İmperiyasının imperatoru Papanın dövründə qüvvələr balansı nəzəriyyəsinə əsaslanan ilk müqavilə imzalandı. 1454-cü ildə Milan, Florensiya, Venesiya və Neapol arasında "Lodiya"sülhü imzalandı və beləliklə, uzun aradan sonra Avropada balanslaşma təmin olundu. Bu koalisiya və ittifaqlar keçmişdən bugünə, müasir dövrümüzdə də mövcuddur. Ekspansionist bir gücü blokadaya almaq və öz təhlükəsizliyini təmin etmək güc balansı siyasətinin əsas alətidir. Keçən əsrə nəzər salsaq, I və II Dünya müharibələrində bir-birinə qarşı savaşmaq üçün ölkələr ittifaqlar yaratmış və düşmənə qarşı öz qüvvələrini birləşdirmişlər. Misal olaraq,

ABŞ I Dünya müharibəsindən sonra Avropa, Yaxın Şərq və Asiyada hərbi ittifaqlar və bazalar quraraq Sovet İttifaqına qarşı məhdudlaşdırma siyasəti apardı [8]. Bir nəzəriyyə olaraq, güc balansı beynəlxalq güc və statusda sürətli dəyişiklikləri, xüsusən də bir dövlətin regionu zəbt etmək cəhdlərinin əks balanslaşdırıcı hərəkətlərə səbəb olacağını proqnozlaşdırır. Bu səbəbdən balanslaşdırma prosesi dövlətlər arasında münasibətlərin sabitliyini qorumağa kömək edir.

Dövlətlər qüvvələr balansı strategiyasını 2 yolla həyata keçirir: a) ordunun silahla təminatı; b) ittifaq siyasəti.

Əslində qüvvələr balansına daha çox kiçik və inkişaf etməkdə olan ölkələr diqqət yetirməli və öz xarici siyasət prioritetlərini bu əsasda uzlaşdırmalıdır. Balanslaşdırma siyasəti bu mənada sülh və əmin-amanlığın ən əsas göstəricisidir. Düzgün qurulan xarici strategiya ölkənin beynəlxalq aləmdə tanınmasının əsasıdır. Obyektiv xarici siyasət, sadəcə, digər ölkələrlə deyil, daha dəqiq yanaşsaq ölkənin öz daxili idarəetməsində də əvəzsiz rol oynayır. Təbii ki, xarici siyasət qədər ölkə rəhbərinin şəxsi nüfuzuda çox önəmlidir. Şəxsi nüfuz hakim şəxsin dəqiqlik, fürsəti maksimal dərəcədə qiymətləndirməsi, manipulyasiya bacarığı və s. bu kimi digər diplomatik məharətləri özündə ehtiva edir. Qüvvələr balansının özəyində “güc” amili dayanır. Güc dedikdə, əksərən iqtisadi və hərbi potensial nəzərdə tutulur. Bir ölkənin digər ölkəyə müdaxiləsinin kökündə “güc” dayanır. Hər ölkə öz imkanları daxilində güc metodlarından istifadə edərək digər ölkəyə müdaxilə edir. Şübhəsiz ki, bu işdə uğurlu olmaq üçün dövlətin hər cəhətdən güclü olması önəmli faktordur. Onun güclü olması digər dövlətin fəaliyyətinə təsiri ilə seçilir. Ölkələrarası münasibətlərdə gücün, qüvvətin mühüm amil olmasını dərk edən dövlətlər bu istiqamətdə öz potensiallarını artırmağa can atırlar. Burada sadə və ən təsirli üsul hərbi yolla başqa bir dövlətə və ya dövlətlərə müdaxilə etməkdir. Hərbi sahədə rəqabətə yalnızca inkişaf etmiş ölkələr qoşulmaq iqtidarındadır. Dövlətlər qüvvələr balansını 5 yolla öz lehinə uyğun saxlamağa çalışırlar:

a) Hərbi potensialı artırmaq;

b) Rəqib dövlətin mümkün qədər daha çox ərazisini işğal etmək;

c) 2 böyük və düşmən dövlət arasında zəif bir bufer dövlət qurmaq;

d) Müttəfiqlər;

e) Müttəfiqləri əks tərəfə ayırmaqla.

Qüvvələr balansı nəzəriyyəsinə əsasən, müxtəlif gücə malik olan çoxsaylı dövlətlərin olduğu və hər birinin öz gücünü artırmağa can atdığı situasiyada bütöv sistem balansda olur [1, s. 141-144.]. İki növ balans seçilir:

a) Təxminən eyni gücə malik olan 2 dövlət arasında mövcud olan sadə balans;

b) Bir çox dövlətlərarası mövcud olan bir neçə dəfəlik balans.

Güc balansına dəqiq tərif vermək çətindir, çünki Martin Wightın dediyi kimi, balanslaşdırma qarışıqlıqlarla doludur. Bəzi politoloqların fikrincə, güc balansının effektivliyinin təmin olunması 2 üsulla həyata keçirilir:

1) Bir çox dövlətlər, ittifaqlar axıcı olduqda, yəni dinindən, dəyərlərindən, idarəetmə formasından asılı olmayaraq məqsədəuyğunluq əsasında asanlıqla formalaşdıqda və ya pozulduqda güc balansı yarada bilər. Bəzən isə tək bir dövlət balanslaşdırıcı rol oynayır və güclü koalisiya və yaxud ittifaqa öz dəstəyini göstərir. Tarixin müəyyən zamanlarında Böyük Britaniya Avropada, Almaniya, Fransa və Rusiyaya qarşı bu mövqedən çıxış etmişdir.

2) İki dövlət öz hərbi imkanlarını artıraraq bir-birinə qarşı tarazlıq yarada bilər. "Soyuq müharibə" dövründə Sovet İttifaqı və ABŞ bir-birilərinə qarşı balans yaratmaq üçün nüvə arsenallarını genişləndirdilər.

Güc balansı konsepsiyasının zəif cəhətlərindən biri gücün ölçülməsinin çətinliyidir. Dövlətlərin gücü ümumi ərazi, demoqrafik göstərici və texnologiyalardan istifadə sayəsində nisbi şəkildə müəyyənləşir. Daha dəqiq yanaşsaq, dövlətin gücü onun iqtisadiyyatında, adambaşına düşən gəlirdə, ümumi daxili məhsulun (ÜDM) statistikasında özünü göstərir. Önəmli nüanslardan biri də qüvvələr nisbətinə düzgün aspektdən yanaşmaq və dəqiq hesablamaqdır.

### ƏDƏBİYYAT SİYAHISI:

*1. A.Abbasbəyli, E.Nəcəfov, “Beynəlxalq Münasibətlər Nəzəriyyəsi”, 2007, 300 s.*

*2. Beth Elise Whitaker,” Africa’s International Relations: Balancing Domestic&Global Interest” 2019 s 203-204*

*3. Christopher Layne., “The “Poster Child for Offensive Realism”: America as a Global Hegemon” Security Studies, XII/2, 2002, s.132*

*4. Christopher Layne., “From Preponderance to*

*Offshore Balancing: America's Future Grand Strategy", International Security, XXII/1, 1997, s. 87 və 112.*

*5. Christopher Layne, "Offshore Balancing Revisited", The Washington Quarterly, XXV/2, 2002, s. 245*

*6. Erdem Özlük., "Dengeleme mi Peşine takılmak mı?: Dış Politika Stratejilerini Yeniden Düşünmek",X/2, 2017,s. 241*

*7. М.А. Никулин, М.С. Рамич, Н.С. Куклин, "СОБЕННОСТИ ВОСПРИЯТИЯ БАЛАНСА СИЛ В НАЧАЛЕ XX I ВЕКА" ст.15.,2021*

*8. Shubhya Pandey, "Balance of Power in İnterntional Relations" (https://www.legalserviceindia.com/article/l326-Balance-of-Power-in-International-Relations.html)*

*9. Steven R. David, "Explaining Third World Alignment", World Politics, XLIII/2, 1991, s. 235.*

## XÜLASƏ

Məqalədə balanslaşdırma siyasətinin mahiyyəti, növləri tədqiq edilmiş, dövlətlərarası münasibətlər, xarici siyasət strategiyalarının hazırlanmasında onun rolu araşdırılmışdır. Dövlətlər yarandığı dövrdən etibarən hakim zümrələr balans siyasətini etibarlı strategiya kimi qəbul etmiş və regional sülhü məhz bu siyasət vasitəsilə qoruyub saxlaya bilmişlər. Münaqişələrin əksəriyyəti gücləri bərabər olan iki dövlət və ya dövlət blokları arasında baş verirdi. Savaşların baş verməsi səbəbinin dövlətlərin bir-birinə güc nümayişi və öz siyasi təsirlərinin əhatə dairəsini genişləndirməsi kimi qələmə verilirdi. Güclü dövlətlər qüvvələr balansına əsasən zəif dövlətləri hərbi, iqtisadi və siyasi baxımdan asılı hala çevirir və həmin dövlətlərin daxili və xarici məsələlərində söz haqqına sahib olurdu. Hazırda beynəlxalq müstəvidə geniş istifadə olunan balanslaşma siyasəti dövlətlərin daxili-xarici, iqtisadi və hərbi potensialının inkişafı məsələlərində, həmçinin dövlətin suverenliyinin qorunması istiqamətində mühüm rola malikdir.

**Açar sözlər:** *güc, yumşaq balanslaşma, qüvvələr balansı, sərt balanslaşma.*

## РЕЗЮМЕ

В статье изучены сущность и виды балансирующей политики, исследованы межгосударственные отношения и ее роль в подготовке внешнеполитических стратегий. С момента создания государств правящие элиты приняли политику баланса как действенную стратегию и смогли поддерживать региональный мир именно с помощью этой политики. Большинство конфликтов происходило между двумя государствами или блоками государств с равными полномочиями. Причина возникновения войн описывалась как демонстрация силы государствами друг другу и расширение сферы своего политического влияния. Исходя из баланса сил, сильные государства ставили слабые государства в зависимость с военной, экономической и политической точек зрения и имели право голоса во внутренних и внешних делах этих государств. В настоящее время политика балансирования, широко применяемая на международном уровне, играет важную роль во внутренних и внешних делах государств, в развитии их экономического и военного потенциала, а также в направлении защиты суверенитета государств штат.

***Ключевые слова:*** *мощность, мягкая балансировка, баланс сил, жесткая балансировка.*

## SUMMARY

The article examines the essence and types of balancing policy, interstate relations and its role in the preparation of foreign policy strategies. Since the creation of states, the ruling elites have adopted the policy of balance as a viable strategy and have been able to maintain regional peace through this policy. Most conflicts took place between two states or blocs of states with equal powers. The reason for the emergence of wars was described as a demonstration of strength by states to each other and the expansion of their sphere of political influence. Based on the balance of power, strong states made weak states dependent from the military, economic and political points of view and had a say in the internal and external affairs of these states. At present, the balancing policy, widely used at the international level, plays an important role in the internal and external affairs of states, in the development of their economic and military potential, and also in the direction of protecting the sovereignty of states.

**Key words:** *power, soft balancing, balance of forces, hard balancing.*

UOT 321; 323

# REGİONAL İNKİŞAFDA BƏLƏDİYYƏLƏRİN ROLU

**MURTƏZA HƏSƏNOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Dövlət qulluğu və kadr siyasəti" kafedrasının dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*

*E-mail: m_hasanoglu@yahoo.com.tr*

**RƏŞİD BAĞIROV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*

*E-mail: r_baghirov@yahoo.com.tr*

## Giriş

Azərbaycan Respublikasında aparılan hüquqi və iqtisadi islahatlar dövlət idarəetmə sisteminin köklü dəyişikliyinə səbəb olmuşdur. Respublikanın yeni Konstitusiyasında hakimiyyətlərin bölgüsü prinsipinin təsbit olunması ilə (7-ci maddə) dövlət aparatının aparıcı bölməsi olan dövlət idarəetmə orqanları icra hakimiyyəti subyektlərinə dəyişdirilmiş, əmək bölgüsü hakimiyyət bölgüsü ilə əvəz edilmişdir. Azərbaycan Respublikası Konstitusiyasının 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul olunması dövlət və bələdiyyə idarəçiliyində islahatların həyata keçirilməsinin əsasını qoydu. Qloballaşma prosesində dövlət idarəçiliyindəki yeni paradiqmalar dövlət qulluğu sisteminin də dəyişməsinə səbəb olmuşdur. Dövlət idarəçiliyində əsas olaraq Yerli özünüidarəetmə, Ortaq İdarəçilik (governance), Yeni Dövlət İdarəçiliyi (New Public Management), Davamlı İnkişaf (Sustainable Development) və digər paradiqmalar ortaya atılmışdır. Bu gün yerli özünüidarəetmə orqanları demokratiyanın əsas institutları kimi qəbul edilir.

Böyüyən və davamlı inkişaf edən iqtisadiyyatın təmin edilməsi hökumətin bütün sərəncamları, o cümlədən bələdiyyələr üçün prioritet məsələdir. İqtisadiyyatda baş verən dəyişikliklər, o cümlədən qloballaşmanın yüksəlişi və yeni texnologiyaların ortaya çıxması hökumətin iqtisadi inkişaf siyasətinə yanaşmalarını dəyişdi. Biznesi öz icmalarına köçürməyə təşviq etmək üçün nəzərdə tutulan vergi güzəştləri ilə yanaşı, bələdiyyələr hökumətlər, özəl sektor, universitetlər və vətəndaş cəmiyyəti təşkilatları arasında əməkdaşlıq vasitəsilə şəhərlərin və şəhər-regionların rəqabət qabiliyyətini gücləndirmək üçün klaster strategiyalarına üstünlük verməyə başladılar [9].

Bələdiyyələrin öz icmalarının iqtisadi canlılığında əhəmiyyətli marağı var. Məhdud olsa da, onların innovasiya və iqtisadi inkişafa təkan vermək üçün alətlərinə bəzi hallarda maliyyə stimulları, eləcə də biznesin təkmilləşdirmə sahələrinin yaradılması imkanları daxildir. Bundan əlavə, bələdiyyələrin iqtisadi inkişaf siyasəti inkişaf strategiyaları üzrə özəl sektorla, inkişaf mühitinin mühüm komponentləri kimi getdikcə daha çox görülən regional planlar üzrə digər bələdiyyələrlə əməkdaşlığı nəzərdə tutur [9].

Azərbaycanın yerli özünüidarəetmə orqanları olan bələdiyyələr ölkədə köklü islahatların və dinamik tərəqqinin aparıldığı bir dövrdə daha da inkişaf edir, yerli məsələlərin həllində vətəndaşların mənafeyinə uyğun olaraq iştirak edir, onların etimadını və cəmiyyətimizdə özünəməxsus yerini qazanmağa çalışır, öz səlahiyyətlərini artırır [7].

Keçən zaman ərzində bir çox bələdiyyələr yerli əhəmiyyətli məsələlərin həllində dəyərli təcrübə toplayıb, öz fəaliyyətlərində şəffaflığa nail olub, icra strukturları və qeyri-hökumət qrupları ilə işgüzar əlaqələr yaradıb, cəmiyyətdəki rolunu gücləndirib [7].

Müasir şəraitdə regionların sosial-iqtisadi inkişafı bütövlükdə ölkə iqtisadiyyatının stabil fəaliyyətindən, regional siyasətin demokratik cəmiyyətin tələblərinə uyğun qurulmasından, ərazinin sosial-iqtisadi vəziyyətindən və ən başlıcası, regionların sosial-iqtisadi inkişafında mövcud olan kəskin fərqlərdən asılıdır.

Bu baxımdan, Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 11 fevral tarixli 24 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004–2008-ci illər)" əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin

yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur [4].

"Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olmaqdır.

Dövlət Proqramında müəyyən edilmiş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi;
- infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi;
- sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi və sahibkarlığın inkişafının daha da sürətləndirilməsi;
- iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması işinin davam etdirilməsi;
- ixracyönümlü məhsul istehsalının stimullaşdırılması;
- müasir tipli infrastruktur obyektlərinin yaradılması, mövcud obyektlərin beynəlxalq standartlara uyğunlaşdırılması;
- əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılması;
- əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində tədbirlərin davam etdirilməsi;
- yoxsulluğun səviyyəsinin azaldılması [1].

Azərbaycanın uzunmüddətli iqtisadi və sosial inkişafını təmin etmək üçün investisiya siyasəti mühüm alətlərdən biridir. Bu sahədə əsas vəzifə iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşu imkanlarının genişləndirilməsi və daha əlverişli investisiya mühitinin təmin edilməsi məqsədilə bütün investorlar üçün azad rəqabət mühitinin yaradılmasından və mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsindən ibarət olacaqdır [1].

Qarşıdakı illərdə özəlləşdirməyə açılmış müəssisələrdə şəffaf və səmərəli özəlləşdirmə prosesinin həyata keçirilməsi davam etdiriləcəkdir. Qeyri-neft sektorunda müəssisələrin investisiya fəaliyyətinin dəstəklənməsi istiqamətində məqsədyönlü işlər həyata keçiriləcək, müasir istehsal avadanlıqlarının idxalı təşviq ediləcəkdir [1].

Dövlət investisiya siyasəti regionlarda yeni iş yerlərinin yaradılmasına, infrastruktur obyektlərinin etibarlı istismarının təmin edilməsinə, insan kapitalının inkişafı və vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi kimi prioritetlərin həyata keçirilməsinə yönəldiləcəkdir [1].

Məşğulluq siyasətinin mühüm istiqamətlərindən biri yeni iş yerlərinin yaradılmasını məhdudlaşdıran amillərin aradan qaldırılması və məşğulluq səviyyəsinin artırılmasını stimullaşdıran şəraitin yaradılmasıdır. Bu baxımdan, sahibkarlığın, əsasən, kiçik və orta sahibkarlığın inkişafına yönəlmiş tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Qarşıdakı illərdə məşğulluq siyasətində əsas məqsəd əmək ehtiyatlarından daha dolğun istifadə etməklə əhalinin səmərəli məşğulluğunun təmin edilməsindən ibarət olacaqdır. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur:

- sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı üçün daha münbit şəraitin yaradılması;
- məşğulluğun səmərəli inkişafını təmin edən investisiya fəallığının dəstəklənməsi;
- işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, qeyri-normal əmək münasibətlərinin leqallaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi;
- əmək bazarında tələb və təklif arasında dinamik uyğunluğun gücləndirilməsinə yönəldilmiş infrastrukturun təkmilləşdirilməsi;
- kadr hazırlığı sisteminin, o cümlədən peşə hazırlığı və ixtisasartırma şəbəkələrinin fəaliyyətinin dinamik inkişaf edən əmək bazarının tələblərinə uyğunlaşdırılması [1].

Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. Bu hüquqları qanunla müəyyən edilmiş qaydada ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilmiş bələdiyyə üzvlərindən ibarət nümayəndəli kollegial orqanlar (bələdiyyələr) və ya vətəndaşların yığıncaqları həyata keçirirlər. Bələdiyyələr öz vəzifələrini yerinə yetirmək məqsədi ilə onların qarşısında məsuliyyət daşıyan, daimi fəaliyyət göstərən

icra strukturları yarada bilərlər [3].

Azərbaycan Respublikasının vətəndaşları yaşadıqları ərazilərdə yerli özünüidarə hüququnu bələdiyyələrə seçkilər, öz iradəsini birbaşa ifadə etmək, rəy sorğusu, müstəqil fikir söyləmək, təkliflər vermək vasitəsilə və digər formalarda həyata keçirirlər. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında məqsəd dövlətin həyata keçirdiyi sosial inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar təhsil, səhiyyə, mədəniyyət, yaşayış və qeyri-yaşayış binalarının saxlanılması və istifadə edilməsi, sanitariya müəssisələrinin təşkili, saxlanılması və inkişafı, mənzil tikintisi, yerli əhəmiyyətli su mənbələrindən istifadə, su təchizatının və kanalizasiya təsərrüfatının təşkili, saxlanılması və inkişafı, yanacaq təchizinin və satışının təşkili, bələdiyyə yollarının tikilməsi və saxlanılması, yerli nəqliyyat və rabitə xidmətinin təşkili, ticarət, ictimai iaşə və məişət xidmətinin təşkilinə şərait yaradılması, mədəniyyət müəssisələrinin inkişafına yardım göstərilməsi, tarix və mədəniyyət abidələrinin saxlanılması, informasiya xidmətinin təşkili, kütləvi informasiya vasitələrinin fəaliyyəti üçün şərait yaradılması, kimsəsizlərə, xəstələrə, qocalara, maddi imkansızlara, valideyn himayəsindən məhrum olmuş, həmçinin istedadlı uşaqlara əlavə yardım, fiziki tərbiyə və idmanın inkişafına yardım göstərilməsi, əhalinin məşğulluğuna, adamların peşələri üzrə işlə təmin olunmasına, gənclərin sosial hüquqi müdafiəsinə, ailə kəndli təsərrüfatının inkişafına kömək göstərilməsi və yerli infrastrukturun digər sahələrini əhatə edə bilər [3].

Bələdiyyələrin maliyyəsinin formalaşması və istifadəsi ilə əlaqədar yaranan münasibətlər Azərbaycan Respublikasının Konstitusiyası ilə bu Qanunla, "Bələdiyyələrin statusu haqqında", "Büdcə sistemi haqqında", "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ-hüquqi aktlarla tənzimlənir. Bələdiyyə maliyyəsinin iqtisadi əsaslarını bələdiyyə əmlakı, bələdiyyə torpaqları, yerli büdcə və büdcədənkənar fondlar, bələdiyyənin istehsal, xidmət və digər iqtisadi fəaliyyəti təşkil edir. Bələdiyyənin maliyyə vəsaitinin formalaşması və istifadəsi özünüidarəetmə, müstəqillik, aşkarlıq və yerli mənafenin respublika mənafeyi ilə uzlaşması prinsiplərinə əsaslanır. Yerli büdcə bələdiyyə statusuna uyğun olaraq özünüidarəetmə prinsiplərini reallaşdırmaq, Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə müəyyənləşdirilmiş bələdiyyə səlahiyyətlərini həyata keçirmək üçün formalaşan və istifadə olunan maliyyə vəsaitidir. Yerli büdcələrin xərclərinin həcmi və istiqamətləri bələdiyyələr tərəfindən müəyyənləşdirilir. Yerli büdcənin layihəsi bələdiyyə ərazisində fəaliyyət göstərən bələdiyyə müəssisələrinin və digər hüquqi şəxslərin, habelə fiziki şəxslərin təsərrüfat fəaliyyətinin qiymətləndirilməsi, sosial-iqtisadi proqnozlar və məqsədli proqramlar əsasında formalaşır [2].

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı hökumətin həyata keçirdiyi siyasətin aşağıdakı növləri fərqləndirilir:

• Regional inkişafın bərabərləşdirilməsi siyasəti (və ya regionların inkişafındakı qeyri-mütənasibliklərin aradan qaldırılması) - ölkəmizdə həyata keçirilən və yuxarıda sadalanan regionların sosial-iqtisadi inkişaf proqramları belə proqramlardır;

• “Focused inkişaf” siyasəti (yaxud “artım lokomotivləri” və ya “istinad regionlarının” yaradılması siyasəti) - rəsmi olmasa da, son vaxtlar ölkədə bir neçə regiona münasibətdə belə siyasət həyata keçirilir. Belə ki, hər bir rayonda bir inzibati rayonun inkişafına daha çox diqqət yetirilirdi. Məsələn, turizmin inkişafı baxımından Qəbələ və Xaçmaz rayonları xüsusilə yüklənir. Son illərdə ayrı-ayrı bölgələrdə sənaye məhəllələri yaradılaraq sənaye məhəllələrinin sənaye mərkəzlərinə çevrilməsi istiqamətində addımlar atılır. Məsələn, Masallı, Sabirabad və Neftçalada sənaye məhəllələrinin yaradılması;

• Sinerji siyasəti – belə siyasət regionların inkişafında sinxronizasiyanın təmin edilməsinə yönəldilir;

• Differensiallaşdırılmış siyasət – belə siyasət müxtəlif regionlarda xüsusi iqtisadi zonaların və ya klasterlərin yaradılmasını nəzərdə tutur [10].

Hökumətin yoxsulluğun azaldılmasına dair siyasətinin konturları “Yoxsulluğun azaldılması və iqtisadi inkişafa dair Dövlət Proqramında” cızılmışdır. Bunlar altı əsas strategiyadan ibarətdir: [11].

1. gəlir gətirən imkanların artırılması üçün münbit zəminin yaradılmasına kömək etmək,

2. makro-iqtisadi sabitliyi dəstəkləmək,

3. əsas səhiyyə və təhsil xidmətlərinin keyfiyyətini artırmaq və onlara çıxışda bərabərliyə nail olmaq,

4. infrastrukturun yaxşılaşdırılması ,

5. az təminatlıları daha effektiv şəkildə müdafiə etmək üçün mövcud sosial müdafiə sistemində islahatların aparılması,

6. DKŞ və qaçqınların həyat şərtlərinin yaxşılaşdırılması və onlar üçün imkanların artırılması.

YAİİDP strateqiyaları bu prosesdə bələdiyyələrin mühüm rolunu vurğulayır: "Bələdiyyələrin yaradılması bu prosesdə mühüm addımdır. Əks-mərkəzləşdirmə prosesinin bir hissəsi kimi bələdiyyələr yerlərdə mənbələrin bölüşdürülməsinin təkmilləşdirilməsini, regional inkişafın təşviqini və yerli əhalinin qərarvericilikdə daha aktiv iştirak etməsini təmin etməklə yerli idarəetmənin güclənməsinə və qərarvericiliyə yardım edə bilərlər". Bundan əlavə, dövlətin rolunun yenidən müəyyənləşdirilməsi, dövlət idarəçiliyinin şəffaflığının artırılması və əksmərkəzləşdirmənin gücləndirilməsi struktur islahatlarının əsas strateji məqsədləri kimi təqdim olunub [11].

Bələdiyyələr dövlət proqramında olan bütün mümkün boşluqları doldurmalı və dövlət tərəfindən göstərilən xidmətlərə əlavələr etməli və tamamlamalıdır. Bələdiyyələrin statusu haqda qanun onların dövlətin iqtisadi inkişaf proqramlarında qeyd olunmamış və ya dövlət proqramına əlavə olan, yerlərdə inkişafla əlaqədar önəmli məsələləri həll etmək üçün hazırlanmış iqtisadi inkişaf proqramlarına cəlb olunmasını nəzərdə tutur. Bu proqramlar aşağıdakılardan ibarət ola bilər:

- məktəbəqədər təhsil
- təhsil
- səhiyyə
- mədəniyyət
- yaşayış və başqa tipli binaların saxlanılması və istifadəsi
- yerli infrastrukturun saxlanılması və baxımının təşkil olunması
- su işləri və mənzillər
- sosial təminat xidmətləri
- mədəniyyət tədbirləri [5].

İcra aparatı aşağıdakı vəzifələri yerinə yetirmək üçün məsuliyyət daşıyır:

- bələdiyyəyə təqdim etmək üçün büdcə, plan, proqram və qərar layihələrini hazırlamaq;
- bələdiyyə şurasının mandatlarını və qərarlarını həyata keçirmək;
- bələdiyyə əmlakını və bələdiyyələrin istifadəsinə verilmiş digər əmlakı idarə etmək;
- bələdiyyə əmlakının texniki inventarlaşdırılmasını aparmaq;
- qanunvericiliklə müəyyən edilmiş digər öhdəliklər [8].

Bələdiyyə subyektlərinə daxili nəzarət müvafiq bələdiyyə orqanları tərəfindən həyata keçirilir. Bələdiyyələr bələdiyyə subyektlərinin fəaliyyətini tənzimləyən məqsədləri, şərtləri və qaydaları müəyyən edir; onların istehsalı və xidmətlərinin qiymətlərini və dərəcələrini tənzimləmək; öz nizamnamələrini təsdiq edir; rəhbərlərini vəzifəyə təyin və vəzifədən azad edir, fəaliyyətləri haqqında hesabatlara baxır. Bələdiyyələrlə tabeliyində olan bələdiyyə qurumları arasında münasibətlər mülki və əmək qanunvericiliyi ilə tənzimlənir. Bələdiyyə orqanları bələdiyyə ərazisində fəaliyyət göstərən, bələdiyyə idarəsi olmayan digər müəssisələrə də nəzarət edə bilər, lakin qanunla müəyyən edilmiş hallar istisna olmaqla, hüquqi və fiziki şəxslərin təsərrüfat fəaliyyətinə məhdudiyyətlər qoymaq hüququna malik deyillər. Bələdiyyələr digər hüquqi və fiziki şəxslərlə müqavilə əsasında münasibətlər qurur [8].

Regionların sosial-iqtisadi inkişafındakı bərabərsizliklərin aradan qaldırılması və tarazlı inkişafın təmin edilməsi üçün mövcud idarəetmə mexanizmlərinin dəyişdirilməsi yolu ilə regionlarda iqtisadi inkişafı sürətləndirəcək daha səmərəli mexanizmlərin yaradılması zəruridir [10].

"Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Dövlət proqramlarının icra olunduğu 2004–2018-ci illər ərzində ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Dövlət proqramları

çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır [11].

**Nəticə**

Azərbaycan Respublikası Konstitusiyasında yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin yaradılması, onların fəaliyyət istiqamətləri ilə bağlı bir sıra məsələlər öz əksini tapmışdır. Azərbaycanda yerli idarəetmə orqanları olan bələdiyyələrin fəaliyyət istiqamətləri, onların səmərəli fəaliyyətinin təmin edilməsi məqsədi ilə "Bələdiyyələr haqqında" Azərbaycan Respublikasının Qanunları qəbul edilmişdir. 2 iyul 1999-cu ildə “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən, Azərbaycan Respublikasının Konstitusiyasına uyğun olaraq, yerli özünüidarəni həyata keçirən bələdiyyələrin yaradılması prinsiplərini, rolunu, yerli özünüidarənin hüquqi, iqtisadi və maliyyə əsaslarını, onun həyata keçirilməsi üçün dövlət təminatları müəyyənləşdirilmişdir.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı hökumətin həyata keçirdiyi siyasət planlarında bələdiyyələrin rolu və onların fəaliyyəti ilə regionlarda ümumi iqtisadi səviyyənin artması gözlənilir. Bələdiyyələr dövlət proqramında olan bütün mümkün boşluqları doldurmalı və dövlət tərəfindən göstərilən xidmətlərə əlavələr etməli və tamamlamalıdır. Bununla belə, qanuna uyğun olaraq fəaliyyət planı həyata keçirilir. Bu sahədə əsas vəzifə iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşu imkanlarının genişləndirilməsi və daha əlverişli investisiya mühitinin təmin edilməsi məqsədilə bütün investorlar üçün azad rəqabət mühitinin yaradılmasından mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsindən ibarət olacaqdır.

Tətbiq olunan fəaliyyət planı və digər nizamnamələr əsasında tərtib olunmuş qaydalar ilə regionların sosial-iqtisadi inkişafındakı bərabərsizliklərin aradan qaldırılması və tarazlı inkişafın təmin edilməsi üçün mövcud idarəetmə mexanizmlərinin dəyişdirilməsi yolu ilə regionlarda iqtisadi inkişafı sürətləndirəcək daha səmərəli mexanizmlərin yaradılması nəzərdə tutulmuşdur. Bu gün yerli özünüidarəetmə orqanları demokratiyanın əsas institutları kimi qəbul edilir. Bələdiyyələr ölkədə vətəndaş cəmiyyətinin bir forması olmaqla dövlət və cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Bələdiyyələr yerli əhəmiyyətli sosial-iqtisadi məsələlərin həllinə bilavasitə cavabdehdirlər. Azərbaycan Respublikasında yerli özünüidarə vətəndaşların fəaliyyətinin təşkilinin elə bir sistemidir ki, bu sistem onlara qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil və sərbəst şəkildə həll etmək hüququnu həyata keçirmək və yerli əhalinin mənafeyi naminə Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin II hissəsinə uyğun olaraq dövlət işlərinin bir hissəsini yerinə yetirmək imkanı verir. Bununla da, onlar dövlət fəaliyyətində iştirak edərək planın bir parçası olub, bu proseslərdəki real problemlərin həll olunması ilə nəticələnir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan Respublikası regionlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı, Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2009-cu il tarixli 80 nömrəli Fərmanı*

*2. Bələdiyyələrin maliyyəsinin əsasları haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 7 dekabr 1999-cu il, № 772-IQ*

*3. Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 2 iyul 1999-cu il, № 698-IQ*

*4. İbrahimxəlil İbrahimov, Azərbaycan regionlarının inkişafında bələdiyyələrin rolu, 18 may 2019*

*5. İFES tərəfindən Azərbaycanda bələdiyyələrin yerlərdə qiymətləndirilməsi, may 2002*

*6. Internal and external factors in the democratization of Azerbaijan, Aytan Gahramanova, 2009, ss 777-803*

*7. Kamran Bayramov, Bələdiyyələr regionların sosial-iqtisadi inkişafında mühüm rol oynayır, 01 noyabr 2019*

*8. Local Governments in Eastern Europe, in The Caucasus and Central Asia, Chapter 7, Local Government in Azerbaijan, 2001, ss. 386*

*9. Shauna Brail, Charles Conteh, Leann Hackman-Carty - The Municipal Role in Economic Development, April 2022*

*10. Sosial - iqtisadi inkişafda regional qeyri-bərabərlik problemi, Rövşən Ağayev / Azər Mehtiyev, Bakı-2021*

*11. "Yoxsulluğun azaldılması və iqtisadi inkişafa dair Dövlət Proqramı", 2003-2005, ss. 25*

*12. https://e-qanun.az*

**Regional inkişafda bələdiyyələrin rolu**


## XÜLASƏ

Azərbaycanın yerli özünüidarəetmə orqanları olan bələdiyyələr ölkədə köklü islahatların və dinamik tərəqqinin aparıldığı bir dövrdə daha da inkişaf edir, yerli məsələlərin həllində vətəndaşların mənafeyinə uyğun olaraq iştirak edir, onların etimadını və cəmiyyətimizdə özünəməxsus yerini qazanmağa çalışır, öz səlahiyyətlərini artırır. Dövlət investisiya siyasəti regionlarda yeni iş yerlərinin yaradılmasına, infrastruktur obyektlərinin etibarlı istismarının təmin edilməsinə, insan kapitalının inkişafı və vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi kimi prioritetlərin həyata keçirilməsinə yönəldilməsinə dair layihələr həyata keçirir. Hökumətin apardığı bu kimi tədbirlər regionların da inkişafına təkan verərək ölkə üzrə ümumi iqtisadiyyata təsir edir.


**Açar sözlər:** *Yerli özünüidarəetmə, bələdiyyə, hökumət, region, inkişaf, layihə.*


## SUMMARY

Municipalities, which are the local self-governing bodies of Azerbaijan, are developing further in a period of radical reforms and dynamic progress in the country, participating in solving local issues in accordance with the interests of citizens, trying to gain their trust and a unique place in our society, increasing their powers. The state investment policy implements projects aimed at creating new jobs in the regions, ensuring the reliable operation of infrastructure facilities, developing human capital and strengthening the social protection of citizens.Such measures taken by the government stimulate the development of regions and affect the general economy of the country.


**Keywords:** *Local Governments,municipality, government, region, development, project.*


## РЕЗЮМЕ

Муниципалитеты, являющиеся органами местного самоуправления Азербайджана, в период радикальных реформ и динамичного развития страны получают дальнейшее развитие, участвуя в решении вопросов местного значения в соответствии с интересами граждан, стремясь завоевать их доверие и уникальную место в нашем обществе, увеличивая свои полномочия. Государственная инвестиционная политика реализует проекты, направленные на создание новых рабочих мест в регионах, обеспечение надежной работы объектов инфраструктуры, развитие человеческого капитала и усиление социальной защиты граждан. Такие меры, принимаемые правительством, стимулируют развитие регионов и влияют на общую экономику страны.


**Ключевые слова:** *Местное самоуправление, муниципалитет, правительство, регион, развитие, проект.*

UOT 321(4/9)

# TÜRKİYƏDƏ PREZİDENTLİ RESPUBLİKAYA KEÇİDİN XÜSUSİYYƏTLƏRİ

**NURƏDDİN İBRAHİMOV**
*Siyasi elmlər üzrə fəlsəfə doktoru*

*E-mail: nibrahimov@mail.ru*

## Giriş

Türkiyədə 24 iyun 2018-ci il tarixində keçirilmiş parlament və prezident seçkiləri uzunmüddətli institusional dəyişikliklər prosesinin başa çatması və ölkədə prezident sisteminin təsdiqlənməsi ilə nəticələndi. İdarəetmə forması, idarəçiliyin effektivliyi ölkədə daim ən aktual mövzular sırasında olmuşdur. Türkiyənin idarəçilik sisteminə daxil olan inzibati sahə mərkəzi hökumətdən və yerli özünüidarəetmə hissələrindən ibarətdir. Məqalənin yazılmasında əsas məqsədlərdən biri digər sahələri kənarda saxlamaqla Türkiyədəki idarəçilik sisteminin transformasiyasını xüsusi olaraq təhlil etməkdən ibarətdir.

Parlamentli respublikalarda ən mühüm problemlərdən biri olan siyasi sabitlik böhranları qarşısında idarəetmədə yarıprezidentli və prezidentli respublika sistemi alternativləri Türkiyədə zaman-zaman gündəmə gəlmiş və mübahisə mövzusuna çevrilmişdir. Xüsusilə də, koalisiyalı hökumətlərin səbəb olduğu siyasi sabitlik probleminə həll yolu kimi prezidentlik sisteminin tətbiq olunması dövlət idarəçiliyində ən mühüm dəyişikliklərdən biri oldu. Türkiyə Cümhuriyyəti müstəqilliyini elan etdiyi dövrdən bəri onun idarəçilik sistemi tədrici təkamül yolu keçmiş və effektiv idarəetmə, daxili sabitlik, qərar qəbulunda səmərəliliyə nail olmaq üçün müxtəlif üsullar sınanmışdır. Hər bir ölkənin idarəçilik sisteminə tarixi, ictimai və siyasi şərtlər təsir göstərir. Digər vacib məsələ müvafiq konstitusiya-hüquqi əsasların yaradılmasıdır. Bu baxımdan, istənilən dövlətin, o cümlədən Türkiyə Respublikasının hökumət sistemində tətbiq olunan yeni model həmin dövlətin seçimi kimi deyil, mövcud vəziyyətin ortaya çıxardığı bir zərurət kimi qiymətləndirilə bilər. Hələ 2007-ci il referendumunda qəbul olunmuş dəyişikliyə əsasən Prezident ümumxalq seçkilərində beş il müddəti ilə iki dəfə seçilir. 2017-ci ildə keçirilmiş ümumxalq səsverməsində edilmiş düzəlişlər prezidentlik institutunun təkamülü çərçivəsində Prezidentə müvafiq səlahiyyətlər verilməsini nəzərdə tutmaqla ölkənin prezident idarəçilik formasına keçidinə yönəlmişdir.

Bütün bunlar Türkiyənin parlamentli respublikadan prezident sisteminə keçidinin və prezidentlik institutunun təkamülü prosesinin öyrənilməsinin aktuallıq kəsb etdiyini göstərir.

## Türkiyədə prezident sisteminə keçid problemi və prezidentlik institutunun təkamülü

Türkiyə Respublikası yaranandan ölkədə fəaliyyət göstərən parlament sistemi şəraitində dövlətin 3 konstitusiyası qəbul olunub: Respublika rejiminin "quruluş sənədi" olan 1924-cü il Konstitusiyası, 1961-ci ildə qəbul edilən Konstitusiya və müasir Türkiyə Respublikasında qüvvədə olan 1982-ci il Konstitusiyası [6, s. 112; 133]; dörd hərbi çevriliş (o cümlədən 2 "postmodernist") baş verib, 64 hökumət kabineti dəyişib [12, s.181].

Türkiyənin 1961-ci il Konstitusiyasına görə, dövlət başçısı Türkiyə Respublikasını təmsil edən və türk millətinin vahidliyini və bölünməzliyini təmin edən prezident idi. Bu vəzifələri yerinə yetirmək üçün prezident partiyalardan yüksəkdə durmalı idi, buna görə də Konstitusiyaya ilk dəfə olaraq prezidentin neytrallığı və bitərəfliyi barədə müddəa daxil edilmişdir. Konstitusiyaya əsasən, prezident parlamentin - Türkiyə Böyük Millət Məclisinin aşağı palatasının tərkibindən onun üzvlərinin mütləq səs çoxluğu ilə bir dəfə 7 il müddətinə seçilməklə, qanunverici və icraedici hakimiyyət sahələrində müəyyən səlahiyyətlərə malik idi [13]. Prezidentin qanunvericilik səlahiyyətləri parlamentin qəbul etdiyi qanunların promulqasiyası ilə məhdudlaşırdı, prezident fərmanları isə baş nazirin, yaxud profil nazirlərinin kontrasiqnaturasını almalı idi. Prezidentin icraedici səlahiyyətlərinə isə baş nazirin və onun təklifi əsasında hökumət üzvlərinin parlamentin tərkibindən vəzifəyə təyin edilməsi; hökumətin iclaslarına sədrlik etmək və ona təkrar etimadsızlıq göstərilməsindən sonra yeni seçkilərin elan edilməsi daxil idi. Beləliklə də, prezident əsasən təmsilçilik funksiyaları yerinə yetirməklə baş nazir və parlamentin çıxış etdiyi real hakimiyyət oyunçuları sıralarına daxil deyildi. Digər tərəfdən, prezidentin səlahiyyətlərinin az olması onunla parlament arasında münaqişələri istisna edirdi [12, s.183].

Türkiyənin idarəetmə quruluşunun əsas prinsipi hazırda qüvvədə olan 1982-ci il Konstitusiyasının

(qeyd etmək yerinə düşərdi ki, həmin Konstitusiyaya 1987, 2007, 2010, 2017-ci illərdə düzəliş və dəyişikliklər edilmişdir) 123-cü maddəsində ifadəsini tapıb. Bu maddəyə əsasən, inzibati idarəçilik vahid bir sistemdir, onun strukturu və funksiyaları qanunla tənzimlənir. İdarəetmənin təşkili və funksiyaları "mərkəzdən idarəetmə" və "yerli özünüidarəetmə" prinsiplərinə əsaslanır [7].

1982-ci il Konstitusiyası ilə də müvafiq olaraq prezidentin parlament tərəfindən 7 il müddətinə seçilməsi nəzərdə tutulmuşdur. Lakin 2000-ci ilin ikinci yarısından Türkiyə prezident sisteminə keçidə istiqamətlənmişdir. Təhlillər göstərir ki, bundan özlərinin prezidentlik dövrlərində Turqut Ozal və Süleyman Dəmirəl də çıxış edirdilər. Bu keçidlə bağlı önəmli dəyişikliklər 2007-ci il prezident seçkiləri ilə əlaqədar yaranmış böhrana cavab olaraq baş vermişdir. Həmin vaxt parlamentdə yerlərin çoxuna malik olan Ədalət və İnkişaf Partiyasının prezidentliyə namizədinin (Abdullah Gülün) birinci və ikinci turlarda zəruri səsləri – səslərin üçdə ikisini (yəni 367 səsə) toplamadığı üçün seçilməsi mümkün olmamış, ancaq parlamentdə malik olduğu dəstək ona üçüncü turda qalib gəlməsinə imkan verirdi. Lakin bu nəticə həm Partiyanın parlamentdəki rəqibləri, həm də bunu Respublikanın sekulyar əsaslarına təhdid sayan ordu üçün sərfəli deyildi. Bununla bağlı ordu mövqe bildirsə də, proseslərə onun birbaşa müdaxiləsi olmamışdır. Prezident seçkiləri Konstitusiya məhkəməsi tərəfindən dayandırılmış, bundan sonra parlament özünün buraxılması barədə qərar qəbul etmiş, Ədalət və İnkişaf Partiyası isə bir kiçik müxalif partiyanın dəstəyi ilə bir sıra konstitusiya düzəlişlərinin, o cümlədən prezidentin birbaşa xalq tərəfindən seçkisini, onun səlahiyyət müddətinin 7 ildən 5 il müddətinədək azaldılması və ona ikinci müddətə seçilmək imkanının verilməsini nəzərdə tutan düzəlişlərin qəbul olunmasına nail olmuşdur. Həmin düzəlişlər 2007-ci ilin oktyabr referendumunda öz təsdiqini tapmışdır.

Beləliklə də, 2007-ci il referendumundan sonra Konstitusiyaya edilmiş dəyişikliklər əsasında prezident ümumxalq səsverməsi ilə 5 il müddətinə seçilərək, ona daha bir müddətə də seçilmək hüququ verilmişdir. Konstitusiyanın 101-ci maddəsinə əsasən, 40 yaşı tamam olmuş, ali təhsilli, millət vəkili seçilmək hüququ olan Türkiyə vətəndaşları birbaşa xalq tərəfindən prezident seçilə bilərdi. Dövlət başçısı olaraq prezidentə Konstitusiyanın 104-cü maddəsi ilə qanunverici, icraedici və məhkəmə hakimiyyəti sahələrində bir sıra səlahiyyətlər verilmişdir. Məsələn, qanunvericilik fəaliyyəti sahəsində zəruri hesab etdikdə Türkiyə Böyük Millət Məclisinin iclasını çağırmaq, qanunları təkrar baxılması üçün TBMM-yə qaytarmaq, icraedici hakimiyyət sahəsində baş naziri təyin etmək və onun istefasını qəbul etmək, onun təklifi ilə nazirləri vəzifəyə təyin etmək və vəzifədən azad etmək; zəruri hesab etdikdə, özünün sədrliyi altında Nazirlər Kabinetinin iclasını keçirmək, onun üzərində nəzarət həyata keçirmək və s. önəmli səlahiyyətlərdən idi [7].

Bütövlükdə, Konstitusiya ilə prezidentə kifayət qədər səlahiyyətlərin verilməsi və onun ümumxalq seçkilərdə seçilməsi Türkiyənin prezident sisteminə keçməsində xüsusi əhəmiyyət kəsb etmişdir. Onu da qeyd etmək lazımdır ki, referendumdan əvvəl həmin ilin iyul ayında parlament artıq əvvəlki qayda ilə prezidenti seçdiyi üçün yeni sistem üzrə ilk prezident seçkiləri yalnız 2014-cü ildə baş tutmuşdur: seçicilərin 51,79 faizi Rəcəb Tayyib Ərdoğana səs vermişdir [4]. 2014-cü ildə dövlət başçısının Türkiyədə ilk dəfə xalq tərəfindən seçilməsi sistemdəki böhranı dərinləşdirmiş, səlahiyyət və məsuliyyət sistem böhranını ortaya çıxarmışdır.

Parlamentli və prezidentli idarəetmə formaları arasında əsas fərq hökumətin səlahiyyətlərindədir. Parlament respublikası parlamentin aliliyi prinsipinin elan olunması ilə səciyyələnir. Hökumət fəaliyyətinə görə parlament qarşısında tam məsuliyyət daşıyır. Bu idarəetmə üsulu çərçivəsində seçkilər gedişində qələbə qazanmış partiya adətən, hökuməti formalaşdırmaq hüququ qazanır. Həmin hökumət isə lider partiya parlamentdə əksər yerini itirdikdə istefaya getməlidir. Ona görə də parlamentli idarəetmə formasında hakimiyyətin qanunverici və icraedici qolları arasında dəqiq sərhəd yoxdur. Parlamentli respublikanın formal əlaməti baş nazirdir. Ölkədə konstitusiyaya görə, dövlət başçısı funksiyasını icra edən və xalqın vahidliyini təcəssüm etdirən prezident olsa da, icra hakimiyyətinə görə bütün məsuliyyəti baş nazir daşıyır. Elə buna görə də parlamentli respublikada prezident baş nazirə nisbətən daha məhdud səlahiyyətlərə malikdir, hökumət parlament qarşısında məsuliyyət daşıyır və öz növbəsində, parlament hökumətə etimadsızlıq göstərə bilər [11, s.22].

Türkiyədə uzun müddət mövcud olmuş baş nazir postunu səlahiyyətləri və idarəetmə sistemində tutduğu mövqeyə görə səciyyələndirək. Baş nazir

prezident tərəfindən Türkiyə Böyük Millət Məclisi üzvləri sırasından seçilirdi. Adətən o, ən çox səs toplamış siyasi partiyanın lideri olmaqla, Nazirlər Kabinetinin başçısı kimi nazirliklər arasında işi və hökumətin ümumi siyasətinin həyata keçirilməsini təmin edirdi [8, s.3]. Rusiya tədqiqatçısı O.Q.Xaritonova Türkiyədə parlament sisteminin iki fazadan: birincisi, sabit birpartiyalı hökumət və ikincisi, koalisiyalı hökumətlərlə, yaxud azlıq hökumətləri ilə fraksiyalı plüralizm fazalarından keçdiyini göstərir. Birinci halda baş nazirin əlində cəmləşmiş icra hakimiyyəti parlament nəzarətindən kənarda qalırdı, ikinci halda isə səmərəsizlik və qeyri-sabitlik hərbi arbitrin müdaxiləsinə gətirib çıxarırdı [12 , s.187].

Təhlillər göstərir ki, Türkiyədə 2016-cı ilin ortalarında daxili təhlükəsizlik sahəsində getdikcə pisləşən vəziyyət əldə olunan bütün nailiyyətləri kölgədə qoya bilərdi. Dövlət təhlükəsizliyi problemi dünya prosesləri ilə yanaşı, Yaxın Şərq regionunda baş verən qeyri-stabillik: İraqda, Liviyada, Suriyada gedən müharibələr, habelə bu müharibələr nəticəsində Türkiyəyə gələn kütləvi qaçqın axınları (onlardan təkcə 3 mln. Suriyadan gələn qaçqınlar idi) və dünyanın əksər ölkələrində fəaliyyəti qadağan edilmiş “İslam dövləti”nin (İŞİD) terrorçu hücumlarının artması ilə də əlaqədar idi. Belə bir əlverişsiz şəraitdə 2016-cı il iyunun 15-dən 16-sına keçən gecə bir qrup hərbiçi Türkiyədə dövlət çevrilişinə cəhd etmişdir. Ölkədə baş vermiş bu çevriliş cəhdi Türkiyə cəmiyyətinin həyatında olduğu kimi, idarəetmə sistemində də böyük narahatlıq doğurmuşdur. Çevriliş cəhdinin nəticələrinə gəldikdə, bu, həm də prezidentli respublika idarəçiliyinə keçidi daha da sürətləndirdi. 15 iyul 2016-cı il hadisəsini meydana gətirən risklər hələ də davam etməkdə idi. Bu cür riskləri aradan qaldırmaq və Türkiyə Respublikasının ictimai-siyasi həyatını sabitləşdirmək üçün Ədalət və İnkişaf Partiyası (AK Partiya) tərəfindən Milliyyətçi Hərəkat Partiyası (MHP) ilə birlikdə Konstitusiya dəyişikliyi layihəsi hazırlanmışdır.

Qeyd edək ki, Konstitusiya islahatının keçirilməsi Türkiyənin Konstitusiyası ilə nəzərdə tutulmuşdur (maddə 175). Burada göstərilmişdir ki, Əsas Qanuna düzəlişlər parlament üzvlərinin üçdə ikisi (330-367 nəfər) səs verdikdə referenduma çıxarılır [7]. 1982-ci il Konstitusiyası qüvvəyə minəndən daim müzakirələrin mərkəzində olmuş, burada ilk dəfə düzəlişlər 1987-ci ildə edilərək, ümumən 2017-ci ilədək 21 dəfə düzəlişlər olunmuşdur [5, s.3].

Növbəti dəfə Konstitusiya dəyişikliyi ilə əlaqədar Ədalət və İnkişaf Partiyasının təklif etdiyi 21 Konstitusiya düzəlişindən 18 düzəlişlər Paketi 2017-ci ilin yanvarında parlament tərəfindən təsdiq olunmuş, 11 fevral 2017-ci ildə isə Konstitusiya dəyişiklikləri paketini Prezident ratifikasiya etmişdir. Konstitusiyaya dəyişikliklərlə bağlı referendumun keçirilməsi ərəfəsində bu məsələ dövlət daxilində ciddi müzakirə edilirdi və fərqli mövqelərə gətirib çıxardı. Həmin dövrdə Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan Konstitusiya dəyişikliyinin Cümhuriyyət və Demokratiya prinsipləri ilə toqquşmadığını bildirdi. O, Siyasət, İqtisadiyyat və Cəmiyyət Araşdırmaları qurumunun İstanbulda təşkil etdiyi Simpoziumunda çıxış edərək vurğulamışdır: “Məqsədimiz ölkə və millət olaraq keçmişdə yaşadığımız təcrübələr işığında özümüzə daha güclü, daha müqavimətli, hədəflərimizi reallaşdırmağa daha uyğun bir rəhbərlik sistemi qurmaqdır” [15].

Parlament idarəetmə formasından prezidentli respublikaya keçidi nəzərdə tutan bu dəyişikliklər paketinə baş nazir vəzifəsinin ləğv edilməsi və dövlət başçısının icra hakimiyyətində üstün rolu ilə səlahiyyətlərinin əhəmiyyətli dərəcədə genişləndirilməsi, parlament üzvlərinin sayının artırılması, məhkəmə və prokurorların Ali şurasının islahatı daxil idi. Prezidentə vitse-prezident və nazirləri, hakimləri, prokurorlar kollegiyası üzvlərinin bir qismini təyin etmək hüququ da verilirdi. Konstitusiyaya qeyd olunan və bir sıra digər dəyişikliklərə Türkiyə vətəndaşları 2017-ci il 16 aprel tarixində ümumxalq səsverməsində öz münasibətlərini bildirmişlər [2]. Referendumda iştirak dərəcəsi 85,32 faiz təşkil etmiş, ümumi nəticələrə görə, seçicilərin 51,41 faizi Konstitusiyaya düzəlişlər üzrə Qanun Təklifinin lehinə, 48,59 faizi isə əleyhinə səs vermişlər [14]. Məlum olduğu kimi, Rəcəb Tayyib Ərdoğan 2014-cü ildə Türkiyənin Prezidenti seçildiyi üçün AKP-nin sədri postundan istefa vermişdi. 16 aprel 2017-ci il tarixində keçirilən Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendumdan sonra isə Türkiyə lideri həmin ilin may ayında yenidən partiyanın sədri seçilmişdir [16].

Beləliklə də, uzun müddət parlament formasında idarəetmə üsuluna malik respublika olan Türkiyə Cümhuriyyətində 2017-ci ilin aprel ayında ümumxalq səsverməsi yolu ilə həyata keçirilən Konstitusiya islahatları nəticəsində idarəetmə sistemi dəyişdirilmiş və prezidentlik idarəçilik formasına

keçidin əsası qoyulmuşdur. Bu tranzit Rəcəb Tayyib Ərdoğanın 24 iyun 2018-ci il tarixində keçirilmiş prezident seçkilərində təkrarən Türkiyə Respublikasının Prezidenti seçilməsi ilə başa çatmışdır.

**Türkiyənin prezidentli respublikaya transformasiyasının konstitusiya-hüquqi əsaslarının yaradılması**

Türkiyənin siyasi sistemində baş verən transformasiyaların müvafiq konstitusiya-hüquqi əsasları formalaşdırılmışdır. 21 oktyabr 2007-ci ildə referendumla təsdiqlənən 5678 saylı Qanunla Türkiyə Konstitusiyasına edilən dəyişiklik prezidentin seçilməsi üsulunu dəyişdirərək onun xalq tərəfindən seçilməsini təsbit etmişdir. Ancaq prezidentin vəzifə və səlahiyyətləri, habelə icra və qanunverici hakimiyyətlərin qarşılıqlı əlaqələri ilə bağlı dəyişiklik edilməmişdir [9 , s.180]. Bundan sonra 15 iyul 2016-cı il çevriliş cəhdinə qədər uzanan zaman kəsiyində ciddi Konstitusiya dəyişikliyi tələbatı meydana gəldi.

Ədalət və İnkişaf Partiyası (AKP) tərəfindən təklif olunan iyirmi bir düzəlişdən sonda on səkkizi Konstitusiya paketində komplektləşdirildi ki, onlarda da Türkiyənin siyasi sisteminin əhəmiyyətli dərəcədə dəyişdirilməsi nəzərdə tutulurdu. Beləliklə, Türkiyədə prezident sisteminə keçidi nəzərdə tutan və 18 maddədən ibarət olan Konstitusiya paketindəki düzəlişləri nəzərdən keçirək:

- ölkə əhalisinin artması nəzərə alınaraq Konstitusiyanın 75-ci maddəsində dəyişiklik: Türkiyə Böyük Millət Məclisi deputatlarının sayının 550-dən 600-ə çatdırılması.

- Konstitusiyanın 76-cı maddəsinə təklif olunan dəyişiklik: Türkiyədə uzun illər müzakirə mövzusu olan deputatlar üçün seçilmə yaşının 25 yaşdan 18-ə endirilməsi.

- Konstitusiyanın 77-ci maddəsinə təklif olunan dəyişiklik: bundan sonra parlamentə -Türkiyə Böyük Millət Məclisinə seçkilər və prezident seçkilərinin 5 ildən bir və "eyni gündə" keçirilməsi.

- Konstitusiyanın 87-ci maddəsinə təklif olunan dəyişiklik: "...Nazirlər Kabinetinə və nazirlərə nəzarət üzrə" Türkiyə Böyük Millət Məclisinin səlahiyyətlərindən çıxarılmasını nəzərdə tutur.

- Konstitusiyanın 89-cu maddəsinə təklif edilən düzəlişə uyğun olaraq nəzərdə tutulur ki, prezidentin Türkiyənin Böyük Millət Məclisinə göndərdiyi qanunun qəbul edilməsi yalnız parlament üzvlərinin “mütləq əksəriyyət çoxluğu ilə” mümkündür.

- Konstitusiyanın 93-cü maddəsinə edilən dəyişikliyə görə: əgər əvvəllər tətil zamanı Türkiyə Böyük Millət Məclisi “öz mülahizəsinə görə və ya Nazirlər Kabinetinin istəyi ilə” toplanırdısa, bundan belə yalnız prezident tərəfindən toplantıya çağrıla bilər.

- Konstitusiyanın 101-ci maddəsi ilə nəzərdə tutulmuş düzəlişlərə uyğun olaraq ancaq "…doğuşdan Türk vətəndaşı olanlar" prezident seçilə bilər. Bundan başqa, seçkilərin başa çatdırılması mümkün olmadıqda, hazırkı prezidentin "yeni oktyabr ayına qədər" vəzifəsini davam etdirəcəyi nəzərdə tutulur. Təklifdə bu məsələ "yenisi seçilincəyə qədər" şəklində ifadə edilmişdir.

- Konstitusiyaya dəyişiklikdə 104-cü maddənin, demək olar ki, tamamilə yenidən yazılması təklif olunur və prezidentin vəzifələri və səlahiyyətlərinin nədən ibarət olduğu göstərilir.

- Konstitusiyada dəyişikliklərdə 105-ci maddənin başlığı ilə birlikdə dəyişdirilməsi təklif olunur; bu maddədə Prezidentin məsuliyyətə cəlb edilməsi ilə bağlı təklif də irəli sürülmüşdür.

- Konstitusiyanın 106-cı maddəsinə təklif edilən düzəlişə uyğun olaraq prezident "bir və ya daha çox vitse-prezident təyin edə bilər". Bundan başqa, prezident vəzifəsi hər hansı səbəbə görə azad edildikdə və ya prezident xəstəlik və xaricə səfər kimi səbəblərə görə müvəqqəti vəzifəsini yerinə yetirmədikdə bu müddəa tətbiq olunur: "...Vitse-prezident prezidentin vəkilidir və prezidentin səlahiyyətlərindən istifadə edir" və s. [3].

Beləliklə, bütövlükdə, Konstitusiyaya düzəlişlər prezidentin səlahiyyətlərinin genişləndiyini, icra hakimiyyətinin onun əlində cəmləşdiyini, baş nazir vəzifəsinin, hərbi vəzifələrin ləğv olunduğunu, prezident tərəfindən vitse-prezidentlərin, hökumət üzvlərinin təyin olunmasını, illik dövlət büdcəsinin parlamentə təqdim edilməsini, icra səlahiyyətlərinin hökumətdən prezidentə ötürülməsini və s. nəzərdə tuturdu.

Beləliklə, Türkiyə tədqiqatçılarının da qeyd etdiyi kimi, parlamentli idarəçilik formasının prezidentli sistemlə əvəz olunması ilə Türkiyənin tarixində yeni - üçüncü mərhələnin başlanğıcı qoyulmuşdur. Birinci dönüş hadisəsi 1923-cü ildə Türkiyədə respublikanın bəyan edilməsi olmuş, irəliyə ikinci sıçrayış isə 1950-ci idə Türkiyədə çoxpartiyalı demokratiyanın bərqərar olması ilə bağlı baş vermişdir [10].

Türkiyənin strateji tərəfdaşı və beynəlxalq aləm-

də iki qardaş dövlət kimi qəbul edilən Azərbaycan Respublikası daim Türkiyənin yanında olmaqla bu ölkədə baş verən prosesləri, o cümlədən Konstitusiya dəyişikliklərini yaxından izləyir. Yuxarıda da qeyd etdiyimiz kimi, uzun tarixi dövr ərzində parlamentli respublika üsulu ilə idarə edilən Türkiyə dövləti Konstitusiyaya dəyişikliyi nəzərdə tutan 16 aprel 2017-ci il tarixli referendumu keçirərək, prezidentli respublika idarəçilik formasına keçidi ümumxalq səviyyəsində təsdiqləmişdi.Təbii ki, bu dəyişiklik ölkə həyatının bütün sahələrinə təsir etməklə, ictimai proseslərin axınını dəyişməklə yanaşı, özü ilə uyğunlaşma problemlərini də gətirmiş oldu. Həmin anda da Türkiyədə yaranmış yeni vəziyyəti dəstəkləyən ilk dövlətlərdən olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Türkiyə tarixində yeni mərhələ başlayır" başlığı ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana məktub göndərdi. Məktubda dövlətimizin başçısı cənab İlham Əliyev Türkiyə dövlət başçısını və Türkiyə xalqını ölkə tarixində yeni dövrün başlanması münasibətilə təbrik etdi və inamla bəyan etdi ki, "bu referendum qardaş ölkənin tarixində yeni mərhələnin başlanğıcı olacaq, sabit və güclü Türkiyənin beynəlxalq müstəvidə rolunu və mövqeyini daha da gücləndirəcəkdir" [1].

Türkiyədə müasir prezidentlik modeli uzun müddət parlament idarəçiliyi forması çərçivəsində mövcud olmuş prezidentlik modelindən əhəmiyyətli dərəcədə fərqlənir. Artıq qeyd etdiyimiz kimi, ilk öncə, ölkədə baş nazir postu ləğv edildi, icra hakimiyyəti 5 il müddətinə seçilən prezidentə həvalə edildi. Prezident vitse-prezident, önəmli sahələrdəki nazirləri və digər yüksək vəzifəli məmurları vəzifəyə təyin etmək və onları tutduqları vəzifədən azad etmək səlahiyyəti aldı. Bundan başqa, dövlət başçısı ölkənin büdcəsini parlamentə təqdim edir, yəni məhz prezident büdcə vəsaitlərinin əsas xərclərinə nəzarət edir. Bununla yanaşı, millət vəkillərinin prezidentə nəzarət mexanizmi formalaşdırıldı.

Təhlillər göstərir ki, müasir mərhələdə Ədalət və İnkişaf Partiyası Türkiyənin yeni Konstitusiyasının qəbul edilməsi təşəbbüsü ilə çıxış edir. Bu təklif Partiya tərəfindən parlamentin gündəliyinə çıxarılmışdır. Bununla bağlı olaraq Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci ilin oktyabr ayında TBMM üzvlərinə müraciətində bütün parlamentin razılığı ilə hazırlanacaq yeni Konstitusiyanın 2023-cü ildə xalqa ən yaxşı hədiyyə olacağını vurğulamışdır.

**Nəticə**

Türkiyədə prezidentli respublikaya keçid mərhələli proses olub, daxili qarşıdurma və mübarizə şəraitində həyata keçmişdi. Ölkənin idarə edilməsində baş nazir üstün mövqedə olduğundan, o, daxili və xarici siyasət məsələlərində həlledici rol oynayırdı, prezident isə dövlət başçısı kimi xalqın təmsilçisi olmaqla, məhdud səlahiyyətlərə malik idi. Hökumətlərin səmərəsizliyi və ordunun mütəmadi olaraq siyasətə müdaxiləsi parlament modelinin üstünlüklərini bloklaşdırırdı. 2007-ci ildə referendum nəticəsində Konstitusiyaya edilən dəyişikliyə uyğun olaraq 2014-cü ildə prezidentin dövlət başçısı kimi ilk dəfə birbaşa seçkilərdə xalq tərəfindən seçilməsi onun səlahiyyətləri və parlamentli respublikada tutacağı yer dərin müzakirələrə səbəb oldu və artıq prezidentli respublikaya keçid ehtimalı nəzərə alınmağa başlandı. Bu baxımdan, 2007-ci ildə prezidentin birbaşa ümumi seçkilərlə seçilməsi üsuluna keçidi idarəetmə formasında əhəmiyyətli dəyişiklik kimi dəyərləndirmək olar.

Türkiyədə birbaşa prezident seçkiləri parlament sistemindən prezidentli sistemə keçidin başlanğıcı oldu. 15 iyul 2016-cı il dövlət çevrilişinə cəhd Türkiyə xalqının milli maraqlarına, ölkənin demokratik əsaslarına və hüququn aliliyinə qəsd idi. Bu halda dövlət çevrilişinə cəhdin qarşısının alınması, vəziyyətin sabitləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər, ilk növbədə, sistemin qorunması üçün labüd idi. Prezidentlik sisteminə keçid prosesi 2017-ci ilin aprel ayında keçirilmiş referendumla başa çatdı. 2007-ci ildən başlayaraq prezident vəzifəsi ilə bağlı və ümumilikdə idarəetmə formasına edilən dəyişikliklər konstitusiya - hüquqi əsas qazandı. Bu isə siyasi sistemdə gedən proseslərin ölkənin Ali Qanununda əksini tapması idi. Bütün bunların məntiqi davamı müasir mərhələdə Türkiyənin yeni Konstitusiyasının qəbul edilməsi təşəbbüsünün Ədalət və İnkişaf Partiyası tərəfindən irəli sürülməsi oldu.

**Açar sözlər:** *Türkiyə Respublikası, parlamentli idarəçilik forması, prezidentlik institutu, təkamül, keçid, prezident sistemi, konstitusiya-hüquqi əsasları.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan Respublikası Prezidentinin məktubu. Türkiyənin tarixində yeni mərhələ başlayır // Azərbaycan qəzeti. – 2017.- 18 aprel.- səh.1 // http://www.anl.az/down/meqale/azerbaycan/2017/ap-*

*rel/537891.htm*

*2. Türkiyədə referendum və nəticələri // https://www.trt.net.tr/azerbaycan/proqram/2017/05/13/turkiy-d-referendum-v-n-tic-l-ri-731407*

*3. 16 Nisan 2017 Referandumu – Anayasa Değişikliği Neleri İçeriyor? // https://fatsr.org/16-nisan-2017-referandumu-anayasa-degisikligi-neleri-iceriyor/*

*4. Cumhurbaskanligi secimi 2014 // https://www.haberturk.com/secim/secim2014/cumhurbaskanligi-secimi*

*5. Coşkun V. 16 nisan 2017 tarihinde kabul edilen Anayasa değişikliklerinin değerlendirilmesi // DÜHFD, Cilt: 22, Sayı:36, Yıl: 2017, s. 3-30 // https://dergipark.org.tr/tr/download/article-file/322749*

*6. Güler B. A. Türkiye'nin Yönetimi-Yapı, Ankara: İmge Kitapevi,2009. 474 s.*

*7. Türkiye Cumhuriyeti Anayasasi 1982(düzəlişlərlə) // https://www.mevzuat.gov.tr/mevzuatmetin/1.5.2709.pdf*

*8. Sayan Ö. İ. Türkiye'de idari sistem ve örgütlenme //*

*https://www.kas.de/c/document_library/get_file?uuid=a4fd2244-a04a-0eaa-9547-92e52e4fac36&groupId=252038*

*9. Zarplı Ç. Türkiyede başkanlık sistemi tartışmasının kavramsal-kurumsal analizi: Kuvvetler ayrılığı prensibinin kökenleri //Siyaset, Ekonomi ve Yönetim Araştırmaları Dergisi, 2015, cilt 3, sayı 2, s.165-183*

*10. Переход Турции на новую президентскую систему является «критически важной точкой» в истории страны // https://mk-turkey.ru/politics/2018/07/11/perehod-turcii-na-novuyu.html*

*11. Рой О.М. Система государственного и муниципального управления: Учебное пособие. 3-е издание. СПб.: Питер, 2007. – 368с. с. 22*

*12. Харитонова О.Г. Кризисная эволюция Турецкой политической системы // Полития. 2018. № 3 (90). С. 181-205.*

*13. Constitution of the Turkish Republic.(1961) URL: www.anayasa.gen. tr/1961constitution-text.pdf*

*14. Turkey 2017 Referendum results // https://www.dailysabah.com/election/turkey-2017-referendum*

*15. https://www.trt.net.tr/azerbaycan/turkiy/2017/02/12/prezidentlik-sistemini-g-tirm-kd-m-qs-dimizr-t-rdogan-670443*

*16. https://azertag.az/xeber/1063272*

**Нураддин Ибрагимов**
***доктор философии по политическим наукам***

## РЕЗЮМЕ

В статье рассматриваются процессы перехода от парламентской формы правления к президентской системе в Турции, соответствующие институциональные изменения. В целом, в рамках анализа процесса эволюции института президентства в этой стране рассматриваются такие вопросы, как избрание президента на всенародных выборах, сокращение срока его полномочий с семи до пяти лет, анализируется динамика и расширение конституционных полномочий президента, изучаются особенности ранее существовавшей в Турции парламентской формы правления и установившейся президентской системы.

**Ключевые слова:** *Турецкая Республика, парламентская форма правления, институт президентства, эволюция, переход, президентская система, конституционно-правовые основы.*

**Nuraddin Ibragimov**
***Ph.D in Political Science***

## SUMMARY

The article examines the processes of transition from the parliamentary form of government to the presidential system in Turkey, the corresponding institutional changes. In general, as part of the analysis of the process of evolution of the institution of the presidency in this country, such issues as the election of the president in national elections, the reduction of his term of office from seven to five years, the dynamics and expansion of the constitutional powers of the president are analyzed, the features of the previously existing parliamentary form of government in Turkey and the established presidential system are studied.

**Keywords:** *Republic of Turkey, parliamentary form of government, institution of presidency, evolution, transition, presidential system, constitutional and legal framework.*

UOT 327; 930.22

# AZƏRBAYCAN RESPUBLİKASININ ÇOXTƏRƏFLİ VƏ BALANSLAŞDIRILMIŞ XARİCİ SİYASƏTİNDƏ RUSİYA FEDERASİYASININ YERİ

**SƏNUBƏR BABAŞOVA**
*Bakı Dövlət Universiteti,*
*Beynəlxalq münasibətlər kafedrasının doktorantı*

*E-mail: babashlisanubar@yahoo.com*

Rusiya Cənubi Qafqaz regionu ilə tarixi, iqtisadi, mədəni bağlarla bağlı olan bir dövlətdir. Rusiyanın regionla bağlı həyati əhəmiyyətli maraqlarının olduğunu qeyd etmək lazımdır. Rus tədqiqatçıları Rusiyanın Cənubi Qafqazla bağlı yeritdiyi siyasətə təbii olaraq çox liberal nöqteyi-nəzərdən yanaşırlar. Onlar hesab edirlər ki, Rusiyanın regionla bağlı məqsədləri yalnız siyasi xarakter daşımır və region dövlətləri ilə əməkdaşlığın inkişafına yönəlmişdir. Sovet İttifaqının dağılmasından sonra yaranmış yeni şəraitdə Rusiya Federasiyası yeni xarici siyasət konsepsiyasında əksini tapmış "yaxın xaric" adlandırdığı geosiyasi regiona nüfuz və öz təsirini qorumaq üçün baş verən hadisələri yaxından izləmişdir. Geosiyasi dualizm nöqteyi nəzərindən, avrasiyaçılar regiona münasibətdə aktiv xarici siyasət, Rusiyanın müxtəlif vasitələrlə daim nüfuzunu və strateji üstünlüyünü qorumaq, çar Rusiyası və SSRİ geosiyasi ənənələrinin davam etdirilməsi, atlantikaçılar isə, regionu Rusiyanın nüfuzuna, mövcud geosiyasi sistemə son qoymaq, regionda Qərbin maraqlarına uyğun mühitin qurulması marağındadır. Avrasiyaçılığın tərəfdarlarından olan Aleksandr Duqin, geosiyasi nöqteyi-nəzərdən Xəzər-Qara dəniz məkanı üzərində nəzarət atlantizmlə avrasiyaçılığın qlobal qarşıdurmasında strateji məsələlərdən olduğunu hesab edirdi [11, s. 241].

Azərbaycan Respublikası əlaqələrin qurulduğu ilk dönəmdə Rusiya ilə ikitərəfli münasibətlərə xüsusi diqqət ayırmaqda idi. İki dövlət arasında bərabərhüquqlu əməkdaşlığın yaradılması və inkişaf etdirilməsi respublikamızın Rusiya ilə münasibətlərdə əsas məqsədlərindən biri olmuşdur. 1992-ci ilin oktyabrında imzalanmış "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" ikitərəfli münasibətlərin sütünu olmuşdur.

Lakin bu dönəmdə Rusiyanın Ermənistana hərbi yardım göstərməsi iki dövlət arasındakı münasibətlərdə gərginlik yaradan məqam olmuşdur. Azərbaycanın ərazi bütövlüyünü tanımasına baxmayaraq, Rusiya Ermənistanın hərbi potensialının güclənməsinə yönələn addımlar atmışdır. Rusiya – Ermənistan hərbi əməkdaşlığının bir hissəsini də "Kollektiv Təhlükəsizlik Müqaviləsi" çərçivəsindəki münasibətlər təşkil edirdi. Rusiyanın təşəbbüsü ilə NATO hərbi blokunun Cənubi Qafqaz regionuna doğru genişlənməsinə qarşı addım atmaq niyyəti ilə yaranmış "Kollektiv Təhlükəsizlik Müqaviləsi" Cənubi Qafqazda hərbi balansı öz xeyrinə saxlamaq üçün Rusiyanın əlində olan əsas vasitədir. Bu addım NATO-nun regiona inteqrasiyasına qarşı cavab tədbirlərindən biri idi. Eyni vaxtda Rusiyanın Azərbaycanı əməkdaşlığa cəlb etməyə istiqamətlənmiş aktiv siyasəti də müşahidə olunurdu. Bunun da səbəblərindən biri "907-ci düzəliş"in ABŞ – Azərbaycan münasibətlərində gərginlik gətirməsi ilə bağlı idi. Rusiya və Ermənistan arasındakı münasibətlər 1997-ci ildə "Dostluq və əməkdaşlıq haqqında müqavilə" və 2000-ci ildə İttifaq Bəyannaməsinin imzalanması ilə daha da möhkəmləndirilmişdir [12].

Rusiya siyasi dairələrində Cənubi Qafqaz siyasətində iki müxtəlif istiqamət – Rusiyanın regionda hərbi gücünü və nüfuzunu dəstəkləyən strateji yanaşma və Rusiyanın Xəzər dənizi regionunda beynəlxalq layihələrdə iştirakının tərəfdarı olan iqtisadi-praqmatik yanaşma mövcuddur. Əsasən "Lukoil"in təmsil etdiyi iqtisadi-praqmatik istiqamətin Xəzərin hüquqi statusu barəsində Rusiya Xarici İşlər Nazirliyinə müəyyən qədər təzyiq göstərərək Xəzərin milli sektorlara bölgüsünün qəbul olunmasına nail olmuşdur [10, s. 141]. 1999-cu ildə ikinci Çeçen müharibəsinin başlaması, NATO və Qərblə münasibətlərin kəskinləşməsi Rusiyanın Cənubi Qafqaz siyasətində strateji yanaşmanın üstünlük təşkil etməsinə səbəb olmuşdur. Bu dönəmdə Rusiya Ermənistanla hərbi sahədə əməkdaşlığın həcmini artırıb Azərbaycan və Gürcüstana təzyiq göstərmişdir [10, s. 230-231]. Bu dönəmdə Rusiya xarici siyasətində avrasiyaçılığın hökm sürməsi region dövlətlərini mərkəzdənqaçma meyillərinə, qeyri-region gücləri ilə yaxın əməkdaşlığa və qərb strukturlarına inteqrasiyasına rəvac vermişdir.

Rusiya ilə Azərbaycan arasında münasibət-

lər məhz 2000-ci ildən başlayaraq tamamilə yeni məzmun kəsb etmişdir. Xəzər problemi, regional təhlükəsizlik, Qafqazda təhlükəsizlik barəsində anlaşılmazlıq və problemlər doğuran məsələlər tənzimlənmişdir [2]. 9 yanvar 2001-ci il tarixində Vladimir Putinin Bakıya səfəri Rusiyanın Azərbaycan siyasətində yeni bir səhifə idi. V. Putin avrasiyaçılıq çərçivəsindəki iki qütb – sol avrasiyaçılıq (sosialist) və sağ avrasiyaçılıq (liberal) arasında tarazlıq yaratmışdır. V. Putinin hakimiyyətə gəlişi Rusiyanın MDB ölkələri, o cümlədən Azərbaycan ilə münasibətlərində praqmatik dəyişikliklərə yol açmışdır [8, s. 6]. "Lukoil", "Gazprom" və "Yukos" şirkətlərinin Xəzərin enerji resurslarını əhatə edən birgə layihələri Rusiyanın region siyasətindəki iqtisadi-praqmatik istiqaməti gücləndirmişdir.

2001-ci il yanvarın 9-da Rusiya Federasiyası prezidenti Vladimir Putinin Bakıya rəsmi səfəri zamanı imzalanmış iki mühüm sənəd – Azərbaycan Respublikası və Rusiya Federasiyası Bakı Bəyannaməsi və Azərbaycan Respublikası və Rusiya Federasiyasının Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında Birgə Bəyanatı və görüşlər yeni minillikdə ikitərəfli münasibətlərin inkişafına təkan vermişdir. Azərbaycan Respublikası prezidenti Heydər Əliyev və Rusiya Federasiyası prezidenti Vladimir Putin 2001-ci il yanvarın 9-da Azərbaycan-Rusiya münasibətlərinin vəziyyətini və perspektivini hərtərəfli müzakirə edərək, çoxəsrlik dostluq ənənələrinə, Azərbaycan və rus xalqlarının tarixi talelərinin ümumiliyinə əsaslanaraq, ikitərəfli münasibətlər üçün böyük əhəmiyyət kəsb edən və hər iki ölkə arasında strateji tərəfdaşlığın əsasını qoyan 3 iyul 1997-ci il tarixli Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqaviləyə əsaslanaraq Bakı bəyannaməsini imzalamışlar. Bakı Bəyannaməsi ikitərəfli münasibətlərin siyasi, ticarət-iqtisadi, hərbi, humanitar, mədəniyyət, elm, təhsil, informasiya, turizm və idman sahəsində inkişaf etdirilməsini nəzərdə tuturdu. Azərbaycan Respublikası və Rusiya Federasiyasının BMT, ATƏT, Avropa Şurası, MDB, digər beynəlxalq təşkilatlar, universal və regional xarakterli forumlar çərçivəsində sıx və konstruktiv qarşılıqlı fəaliyyətləri inkişaf etdirməsi bəyannamədə əksini tapan məsələlərdən idi [5, s. 39-40].

Dövlət başçıları, həmçinin Xəzər dənizində əməkdaşlıq məsələlərini müzakirə edərək əlaqələrin mehriban qonşuluq, qarşılıqlı anlaşma və hörmət ruhunda inkişafına səy göstərərək, sahilyanı dövlətlərin iqtisadi inkişafı üçün Xəzər dənizinin mühüm həyati əhəmiyyətini, qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsi, Xəzərin mineral ehtiyatlarının mənimsənilməsi üzrə beynəlxalq əməkdaşlığın inkişafı, ətraf mühitin qorunması, müstəsna olaraq dinc məqsədlərlə istifadəsi barədə məsuliyyəti dərk edərək Xəzər regionunda əməkdaşlığın möhkəmləndirilməsi və Xəzər dənizinin statusunun nizama salınması üçün ümumi mövqe ifadə edən bəyanat imzalamışlar. Nəhayət, 2001-ci ildə V. Putin və H. Əliyev qarşılıqlı anlaşma yollarını tapıb, münasibətlərin yeni prinsiplərini işləyib hazırladılar. Bu prinsipləri aşağıdakı kimi xülasə etmək olar:

- bir-birinin suverenliyinə və müstəqilliyinə tam hörmət;
- bir-birinin maraqları və onların səmərəli və qarşılıqlı balans əsasında əməkdaşlığın qurulması;
- bir-birinin uğur və nailiyyətlərində maraqlı olaraq, qarşılıqlı imkanların qiymətləndirilməsində praqmatizm və realizm, bir-birini olduğu kimi qəbul etmək [6, s. 258].

Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Moskvaya 24-26 yanvar 2002-ci il tarixli dövlət səfəri xüsusi əhəmiyyət kəsb edir. Prezident H. Əliyev və prezident V. Putin Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 2010-cu ilədək olan dövr üçün uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında müqavilə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında “Qəbələ Radiolokasiya Stansiyasının” (Dəryal “RLS”) statusu, ondan istifadə olunmasının prinsipləri və şərtləri haqqında saziş, Rusiya Federasiyası prezidentinin və Azərbaycan Respublikası prezidentinin birgə bəyanatını imzalayıblar. Moskva bəyannaməsinə görə, Azərbaycan Respublikası və Rusiya Federasiyası Qafqazda təhlükəsizliyin təmini və münaqişələrin həll edilməsi, regionun davamlı inkişafı üçün şəraitin yaradılması məqsədilə bütün zəruri tədbirləri görəcəklər.

Tərəflər regionda etibarlı təhlükəsizliyin təmini və çoxtərəfli əməkdaşlığın təşkil edilməsi üçün mövcud münaqişələrin tezliklə həll edilməsinin zəruriliyini təsdiq edirlər. Bu kontekstdə tərəflər Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT qərarlarının yerinə yetirilməsinə qəti şəkildə tərəfdar olduqlarını bildirirlər [3]. Moskva

Bəyannaməsi iki dövlət arasında siyasi, iqtisadi, ticarət, humanitar-mədəni, təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı inkişaf etdirmək barəsində razılığa gəlib, Xəzərin hüquqi statusu, regional və qlobal məsələlərdə bir-birinin suveren hüquqlarına və milli maraqlarına hörmət çərçivəsində fəaliyyət göstərmək barədə öhdəlik götürmüşdür. Rusiya Federasiyası Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bir daha bəyan edərək, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı BMT TŞ və ATƏT-in qəbul etdiyi qərarların yerinə yetirilməsinə tərəfdar olduğunu bildirmişdir.

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında münasibətlərin dinamikası növbəti illərdə yüksələn xətt üzrə inkişaf etmişdir. Əvvəlki illərdə mövcud olmuş fikir ayrılıqları, demək olar ki, aradan qaldırılmışdır. Xüsusilə, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin layihəsinin reallaşması Rusiyanın Cənubi Qafqazdakı coğrafi-strateji və iqtisadi maraqları ilə bağlı qayğılarının əsassız olduğunu sübut etdi. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Rusiya səfəri zamanı bir daha bildirmişdi ki, Bakı-Tbilisi-Ceyhan boru kəməri layihəsi sırf iqtisadi layihədir. Azərbaycan neftini dünya bazarına nəql edən iki boru kəməri vardır ki, onlardan biri – Novorossiysk boru kəməri Rusiya ərazisindən keçir və çox uğurla fəaliyyət göstərir. Bakı-Tbilisi-Ceyhan boru kəməri isə, Xəzərin Azərbaycan sektorundan böyük həcmdə nefti alternativ marşrutla nəql etmək üçün vacibdir. Azərbaycan Respublikası Prezidenti qeyd etmişdi ki, boru kəmərinin istifadəyə verilməsinin qonşularımız üçün heç bir mənfi nəticəsi olmayacaqdır [7, s. 57]. Sonralar Rusiyada hasil olunan neftin Bakı-Tbilisi-Ceyhan kəmər sistemi ilə nəqli barəsində təkliflər Rusiyanın narazılığının aradan qalxdığını sübut etmişdir.

2013-cü ilin fevralında müəyyən edilmiş Rusiya Federasiyasının "Yeni xarici siyasət konsepsiyası"nda ilk dəfə "yumşaq güc" anlayışına yer verilmişdir. Burada "yumşaq güc" dedikdə, xarici siyasətdə vətəndaş cəmiyyətinin imkanlarına, informasiya-kommunikasiya, humanitar və klassik diplomatiyaya alternativ olan digər metodlar və texnologiyalara əsaslanmaq nəzərdə tutulmuşdur [13].

Yeni xarici siyasət konsepsiyası bir sıra qərb dövlətlərinin, habelə region dövlətlərinin, o cümlədən Azərbaycan Respublikasının marağını cəlb etmişdir. Yeni xarici siyasət konsepsiyası 2011-ci ildən etibarən Orta Şərq və Şimali Afrika regionunda baş verən hadisələrin təsiri nəticəsində ərsəyə gəlmişdir. Bir sıra mütəxəssislər Rusiyanın xarici siyasətin təcridçiliyin daha da yüksələcəyini hesab etsə belə, yeni xarici siyasət konsepsiyası Rusiyanın beynəlxalq məsələlərdə daha fəal rol oynamasını nəzərdə tuturdu [14, s. 2; 7].

2008-ci ildə Rusiya-Gürcüstan yeni xarici siyasət konsepsiyasının elan edildikdən sonra Rusiyanın qonşu dövlətlərlə həmçinin Azərbaycanla münasibətlərində müəyyən dəyişikliklər baş verdi. "Russkiy Mir" və "Rossotrudniçestvo" kimi rus dili və mədəniyyətini təbliğ etməyə yönəlmiş insitut və agentliklərin fəaliyyətləri stimullaşdırıldı. 2009-cu il martın 12-də Rusiya xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə Bakıda Rusiya İnformasiya-Mədəniyyət Mərkəzi açılmışdır. Mərkəzin fəaliyyəti Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında mədəni, təhsil, elmi-texniki və informasiya əlaqələrinin inkişafına yönəldilmişdir. Mərkəz yalnız ikitərəfli münasibətləri deyil, MDB çərçivəsində çoxtərəfli əlaqələrin inkişaf etdirilməsinə xidmət edir.

2010-cu ildə Bakıda Azərbaycan–Rusiya Humanitar Forumunun və hər iki ölkə prezidentlərinin himayəsi altında 2011-ci ildən etibarən mütəmadi olaraq hər il Bakı Beynəlxalq Humanitar Forumlarının keçirilməsidir. Bu tədbirlərdə hər iki ölkədən ən yüksək səviyyədə nümayəndə heyətlərinin iştirakı, müzakirə olunan məsələlərin əhatəliliyi və aktuallığı, bu səbəbdən forumun hər il keçirilməsi barədə qərar qəbul edilməsi, onun ikitərəfli çərçivədən çıxaraq beynəlxalq müstəviyə keçməsi və Bakı Humanitar Forumunun artıq beynəlxalq miqyasda qəbul edilmiş platformaya çevrilməsi Azərbaycan-Rusiya humanitar əlaqələrinin təkcə ikitərəfli deyil, həmçinin beynəlxalq səviyyədə humanitar əməkdaşlığın inkişafına verdiyi töhfənin bariz göstəricisidir [1].

Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında 22 fevral 2022-ci il tarixində imzalanmış Moskva bəyannaməsi iki dövlət arasında əməkdaşlığın inkişafı və münasibətlərin müttəfiqlik səviyyəsinə çatmasına səbəb olmuşdur. Bəyannamənin yeddinci maddəsində qeyd edilir ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası "Tərəflər iki dövlətin strateji tərəfdaşlığına və müttəfiqlik münasibətlərinə xələl gətirən hər hansı hərəkətlərdən çəkinirlər. Bu məqsədlə onlar iki ölkənin xarici işlər nazirlikləri xətti ilə daimi fəaliyyət göstərən məsləhətləşmələr mexanizmini yaradırlar". Həmçinin, on ikinci maddədə qeyd edilir ki, "Tərəflər milli maraqlara cavab

verən və üçüncü ölkələrə qarşı yönəlməyən ikitərəfli hərbi-siyasi əməkdaşlığı inkişaf etdirirlər" [4].

İyirmi ikinci maddədə "Tərəflər iki ölkənin ticarət-iqtisadi əlaqələrinin davamlı artımının təmin edilməsi üçün vacib əhəmiyyəti olan Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın işinə hərtərəfli yardım etməyə davam edəcəklər" və iyirmi üçüncü maddədə "Tərəflər davamlı inkişafa və hər iki dövlətin iqtisadi potensialından səmərəli istifadəyə böyük əhəmiyyət verərək iqtisadi islahatların həyata keçirilməsində qarşılıqlı fəaliyyət göstərəcək, iki ölkə arasında iqtisadi qarşılıqlı fəaliyyətin dərinləşdirilməsi məqsədilə 1 sentyabr 2018-ci ildə imzalanmış Rusiya-Azərbaycan əməkdaşlığının başlıca istiqamətlərinin inkişafı üzrə Fəaliyyət Planının realizə edilməsinə, ikitərəfli və çoxtərəfli beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərinə uyğun olaraq əmtəə və xidmətlərin sərbəst hərəkəti üçün əlverişli şəraitin yaradılmasına, eləcə də regional iqtisadi əməkdaşlığın irəlilədilməsinə yardım göstərəcəklər" - ticarət və iqtisadi əlaqələrin inkişafına istinad edilməsi tərəflərin yaxın gələcəkdə ticarət və iqtisadiyyat sahələrində münasibətlərin və əməkdaşlığın inkişafına xüsusi diqqət ayıracağını sübut edir [4].

Beləliklə, Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında münasibətlərin ilkin mərhələsində bir sıra problemlər və ziddiyyətli məqamlar mövcud olsa belə, ikitərəfli münasibətlərin və əməkdaşlığın gələcək perspektivləri dövlətlər arasında münasibətlərin inkişaf etdirilməsini şərtləndirmişdir. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında münasibətlər məhz 2000-ci ildən başlayaraq tamamilə yeni məzmun kəsb etmişdir. Rusiya Federasiyasının 2013-cü ildə qəbul edilmiş "Yeni xarici siyasət konsepsiyası" Azərbaycan Respublikası ilə münasibətlərin mədəniyyət, humanitar, informasiya-kommunikasiya sahələrində inkişaf etdirilməsinə töhfə vermişdir. 22 fevral 2022-ci il tarixli Moskva bəyannaməsi əməkdaşlığın və strateji tərəfdaşlığın inkişaf etməsinə səbəb olmuşdur. Nəticədə, müasir dövrdə Azərbaycan Rusiya münasibətləri qədim dostluq və mehriban qonşuluq ənənələri, hüquq bərabərliyi, bir-birinin mənafelərinə hörmət, ortaq tarix və mədəniyyət əsasında yüksək səviyyədə inkişaf etməkdədir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbaycan-Rusiya ikitərəfli münasibətlər. https://moscow.mfa.gov.az/az/content/3*

*2. Azərbaycan Prezidenti İlham Əliyevin adından fevralın 21-də "Gülüstan" sarayında Rusiya Prezidenti Vladimir Putinin şərəfinə qəbul təşkil edilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqləri, çıxışları, müsahibələri və bəyanatları, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin PREZİDENT KİTABXANASI, Azərbaycan Prezidenti İlham Əliyevin nitqi, AzərTAc 21 fevral 2006-cı il*

*3. "Azərbaycan Respublikası və Rusiya Federasiyasının Moskva Bəyannaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Qanunu. / 6 aprel 2004-cü il /http://www.e-qanun.az/framework/5955*

Təbii ki, Rusiya ilə imzalanmış bəyannamə və Rusiyanın Ermənistan-Azərbaycan münaqişəsində iştirakı və Qarabağda yerləşən hərbi kontingentini nəzərə alsaq, bu addımların səbəbi aydın olur. Rəsmi Bakı mövcud vəziyyətdə maksimum siyasi səbr göstərməyə və hadisələrə daha çox humanitar prizmadan baxmağa çalışır.

Lakin bununla belə, Azərbaycan Türkiyə, Avropa İttifaqı və Mərkəzi Asiya dövlətləri ilə münasibətlərdə də ciddi addımlar atmağa davam edir. Nəzərə alsaq ki, müharibə qlobal tədarük zəncirinə və enerji sektoruna ciddi zərbələr vurub. Bu istiqamətdə Azərbaycana olan maraq artıb.

İyul ayında Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen Bakıya rəsmi səfər etdi. Səfər çərçivəsində Azərbaycanla 2027-ci ilə qədər qaz idxalını iki dəfəyə qədər artırmaqla bağlı razılığa gəlindiyi açıqlandı. (9)

Müharibə "Orta Dəhliz" nəqliyyat marşrutuna olan tələbatı artırdı. Bununla bağlı olaraq Azərbaycan Mərkəzi Asiya dövlətləri ilə əməkdaşlığı daha da sıxlaşdırmağa çalışır. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Mərkəzi Asiya dövlətlərinə silsilə səfərləri heç də təsadüfi deyil. Bundan əlavə, Türkdilli Dövlətlərin Təşkilatı mexanizmi də münasibələrin tənzimlənməsində xüsusi rol oynayır.

İyun ayında Azərbaycan, Türkiyə və Qazaxıstan üçtərəfli sammiti keçirildi. Üç dövlətin XİN başçıları nəqliyyat və kommunikasiya sahəsində bəyannamə imzaladılar (10). Daha sonra 15 sentyabrda İlham Əliyev Özbəkistana səfər edərək özbəkistanlı həmkarı Şavkat Mirziyoyev ilə görüşüb. Şanxay Əməkdaşlıq Təşkilatının sammitində də iştirak edən İlham Əliyev Özbəkistan səfərini sadəcə bununla məhdudlaşdırmayaraq Özbəkistan rəsmiləri ilə görüş keçirərək fikir mübadiləsi aparıb (11).

Özbəkistan səfərindən sonra oktyabrın 11-də Azərbaycan Prezidenti Qırğızıstana səfər edib. Səfər çərçivəsində bir sıra sənədlər imzalanıb. Qarşılıqlı imzalanan sənədlər iki dövlət arasında əməkdaşlıq səviyyəsinin yüksəldilməsinə hədəflənib (12).

Azərbaycanın Türkiyə ilə əlaqələri isə İkinci Qarabağ müharibəsindən sonra ən yüksək dövrünü yaşayır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə Azərbaycan Prezidenti İlham Əliyev arasında şəxsi münasibətlərin güclənməsi, iki liderin görüşləri arasında intensivlik Azərbaycan-Türkiyə əlaqələrinin artan inkişafını göstərir. Azərbaycan artıq Türkiyə-

nin Cənubi Qafqazda qırmızı xəttinə çevrilib. İki dövlət arasında istər iqtisadi, istərsə də siyasi və hərbi əlaqələr hər keçən gün artmaqda davam edir.

Azərbaycanın regional əməkdaşlıqlarda daha bir görmək istədiyi tablo Azərbaycan-Türkiyə-İsrail formatının qurulmasıdır. Bu istiqamətdə tərəflər arasında da son dönəmlər müəyyən yaxınlaşma hiss edilir.

Regionda Azərbaycana qarşı əsas təhdidlər İrandan gəlməkdə davam edir. Azərbaycanın Zəngəzur dəhlizinin açılması istiqamətində səyləri İranın narahatlığına səbəb olur. Rəsmi Tehran sıx şəkildə Azərbaycanla sərhəddə hərbi təlimlər keçərək sanki şimala mesaj verir. Lakin bu addımların fonunda Türkiyə və İsrail Azərbaycanla həmrəylik nümayiş etdirərək İranın bu hərəkətlərinə cavab vermiş olur.

Ukraynada baş verən müharibə fonunda Azərbaycan xarici siyasətini yaranmış yeni mühitə uyğunlaşdırmağa çalışır. Rusiyanın aqressiv hərbi addımları və İranın Azərbaycanla münasibətlərinin gərginləşdiyi zamanda Azərbaycan Türkiyə və Qərb ilə əlaqələrin hesabına geosiyasi balansı saxlamağa çalışır.

## Nəticə

Rusiyanın Ukraynaya hücumu dünya siyasətində dönüş nöqtəsi yaratdı. Avroatlantik bloku dövlətləri Rusiyanın hərbi addımlarının qarşısını almaq üçün sadəcə döyüş meydanında deyil, həm də geosiyasi arenada mübarizəyə başladılar. Bunun nəticəsidir ki, bir sıra Avrasiya dövlətləri Qərbin bu duruşuna qarşı addım atmaqdan çəkinir.

Baş verən hadisələr Azərbaycanın yerləşdiyi coğrafiyaya yaxın olduğu üçün onun xarici siyasət istiqamətlərinə birbaşa təsirə malikdir. Yeni dünya siyasəti Azərbaycanı çətin seçimlər qarşısında qoya bilər. Lakin rəsmi Bakı siyasi müvazinəti saxlayaraq öz təhlükəsizliyini və maraqlarını qorumağa çalışır.

Gələcək dövrdə hadisələr keçid dövrünün nəticəsindən çox asılı olacaq. Azərbaycanın qonşu dövlətlərinin sahib olduğu geosiyasi gücün səviyyəsi, onun xarici siyasətində də hiss olunacaq. Lakin görünən odur ki, Azərbaycan Mərkəzi Asiya və Türkiyə ilə əməkdaşlığı gələcəkdə də sıx şəkildə davam etdirəcək.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Primakov Y., Politikanın Mayınlı Tarlası, Selis Kitaplar, İstanbul, 2008, səh. 496.*

*2. Elsherbiny A., Europe On Fire: The Russo-Ukrainian War, Its Causes and Consequences, Global Journal of Political Science and Administration, 2022, Vol. 10, No. 4, pp. 58-73.*

*3. Press conference by NATO Secretary General Jens Stoltenberg following the meeting of the NATO-Russia Council, https://www.nato.int/cps/en/natohq/opinions_190666.htm.*

*4. Masters J., Ukraine: Conflict at the Crossroads of Europe and Russia, Council on Foreign Relations, 11 October 2022, https://www.cfr.org/backgrounder/ukraine-conflict-crossroads-europe-and-russia.*

*5. Ghincea M., Afterword: The Russo-Ukrainian War and Great Power Competition, Valentin NAUMESCU (ed.), Great powers' foreign policy: approaching the global competition and the Russian war against the west, Leiden: Brill, 2022, pp. 472-492.*

*6. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 22 fevral 2022, https://president.az/az/articles/view/55498.*

*7. Huseynov V., The Russia–Ukraine War: Perspective of Azerbaijan, Caucasus Strategic Perspectives, Vol. 3, Issue 1, Summer 2022, pp. 87-100.*

*8. Isayev H., Azerbaijan tries to balance between Ukraine and Russia, Eurasianet, 28 february 2022, https://eurasianet.org/azerbaijan-tries-to-balance-between-ukraine-and-russia.*

*9. EU agrees deal with Azerbaijan to double gas exports by 2027, Euronews, 18 July 2022, https://www.euronews.com/my-europe/2022/07/18/von-der-leyen-heads-to-azerbaijan-to-secure-new-gas-import-deal.*

*10. Huseynov V., Azerbaijan boosts ties with Central Asia as region adjusts to Ukraine crisis, Commonspace EU, 15 July 2022, https://www.commonspace.eu/opinion/opinion-azerbaijan-boosts-ties-central-asia-region-adjusts-ukraine-crisis.*

*11. İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 15 sentyabr 2022, https://president.az/az/articles/view/57192.*

*12. Azərbaycan-Qırğızıstan sənədləri imzalanıb, Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı, 11 oktyabr 2022, https://president.az/az/articles/view/57540.*


## XÜLASƏ


Avroatlanik ölkələri ilə Rusiya arasında güc mübarizəsi özünün ən pik səviyyəsinə çatıb. NATO-nun nüfuzunun Rusiya sərhədlərinə çatması və Kremlin öz gücünü qorumaq üçün aqressiv addımlara baş vurması Ukraynada müharibə ilə nəticələndi.

Məqalə müharibənin yaratdığı yeni geosiyasi mənzərəni və bu vəziyyətdə Azərbaycan xarici siyasətinin istiqamətlərini araşdırır. Azərbaycan siyasi balansı qorumağa və müharibənin təsirlərindən yayınmağa çalışır. Lakin yekun nəticə müharibənin necə başa çatmasından çox asılıdır. İstənilən sonluğa hazır olmaq üçün isə Azərbaycan regionun əsas gücləri olan Türkiyə və İsrail ilə sıx əməkdaşlıq etməyə çalışır.

Geosiyasi təhdidlərin artan dövründə Azərbaycan milli maraqları və təhlükəsizliyinin təminatı üçün müxtəlif güc mərkəzləri ilə əlaqələrini gücləndirərək siyasi müvazinəti saxlamağa çalışır.

**Açar sözlər:** *Azərbaycan, Rusiya-Ukrayna müharibəsi, xarici siyasət, geosiyasət.*

**Vectors of Azerbaijan's foreign policy during the geopolitical struggle between the Euro-Atlantic space and Russia**

**SUMMARY**

The power struggle between the Euro-Atlantic countries and Russia has reached its peak. NATO's influence reaching Russia's borders and the Kremlin's aggressive steps to protect its power resulted in the war in Ukraine.

The article researches the new geopolitical view created by the war and the directions of Azerbaijan's foreign policy in this situation. Azerbaijan is trying to maintain political balance and avoid the effects of war. But the final result depends very much on how the war ends. In order to be ready for any eventuality, Azerbaijan is trying to cooperate closely with the main powers of the region, Turkey and Israel.

In the era of increasing geopolitical threats, Azerbaijan is trying to maintain political balance by strengthening its relations with various power centers to ensure its national interests and security.

**Keywords:** *Azerbaijan, Russia-Ukraine war, foreign policy, geopolitics.*

**Векторы внешней политики Азербайджана в период геополитической борьбы между евроатлантическим пространством и Россией**

**РЕЗЮМЕ**

Борьба за власть между евроатлантическими странами и Россией достигла пик. Влияние НАТО, достигшее границ России, и агрессивные шаги Кремля по защите своей власти привели к войне на Украине.

В статье исследуется новое геополитическое мировоззрение, созданное войной, и направления внешней политики Азербайджана в этой ситуации. Азербайджан пытается сохранить политический баланс и избежать последствий войны. Но конечный результат очень сильно зависит от того, чем закончится война. Чтобы быть готовым к любым неожиданностям, Азербайджан старается тесно сотрудничать с основными державами региона, Турцией и Израилем.

Во время нарастания геополитических угроз Азербайджан пытается сохранить политический баланс, укрепляя отношения с различными центрами силы для обеспечения своих национальных интересов и безопасности.

**Ключевые слова:** *Азербайджан, Российско-украинская война, внешняя политика, геополитика.*

UOT 327; 930.22

# MÜASİR DÖVRDƏ HİNDİSTAN RESPUBLİKASI VƏ PAKİSTAN İSLAM RESPUBLİKASI ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏR

**NƏRMİN YUSİFLİ**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının I kurs magistrantı*

*E-mail: nermin.ysfl@gmail.com*

**Giriş.** Bu gün dünya etnik və konfessional əsaslarla böyüməkdə olan qarşıdurma dövrünü yaşayır. Bəziləri ya ayrı-ayrı etnik qruplar arasında, ya da dövlətlə öz müqəddəratını təyin etmək üçün səy göstərən etnik qrup arasında açıq silahlı qarşıdurmaya keçməyə meyilli olur, bəziləri isə terror taktikasının hakim olduğu xroniki münaqişələrə çevrilməyə meyillidir. Bu kimi problemlər bu gün xüsusi aktuallıq kəsb edir.

İkinci Dünya müharibəsindən sonra dünyanın siyasi xəritəsinin dəyişməsi ilə bəzi regionlarda bir sıra münaqişələr yarandı ki, bundan da böyük dövlətlər, beynəlxalq aktorlar öz maraqlarını həyata keçirmək üçün istifadə edirlər. Bu münaqişələrdən biri də ötən əsrin ortalarında müstəqil olmuş iki dövlət - Hindistan Respublikası və Pakistan İslam Respublikası arasında Kəşmir əyalətində baş qaldıran münaqişədir.

Bu qarşıdurmanın xüsusiyyəti coğrafi olaraq qeyri-sabitlik, sivilizasiyaların toqquşma zonasına daxil olması və davamlı olaraq davam edən qarşıdurmalara səbəb olmasıdır. Hindistan-Pakistan münasibətlərinin Kəşmir dövlətçiliyi ilə bağlı bu günə qədər davam edən problemi davamlı gərgindir. Bununla yanaşı, bu problem ikitərəfli əməkdaşlıq mühitini zəhərləyir və aralarındakı qarşılıqlı düşmənçiliyə səbəb olur. Belə ki, iki ölkə arasında birinci müharibə 1947-48-ci illərdə, ikinci müharibə 1965-ci il və üçüncü müharibə isə 1971-ci ildə başlamış və bu mübahisəli bölgədə döyüşlər 1999-cu ildə də aparılmışdır. Həmçinin iki dövlət arasında 2001-2002-ci illərdə böhranlı vəziyyət yaşanmışdır.

**İkitərəfli münasibətlər.** Hindistan-Pakistan münasibətləri, Cənubi Asiyanın ən böyük iki ölkəsi olan Hindistan Respublikası ilə Pakistan İslam Respublikası arasındakı siyasi, coğrafi, mədəni və iqtisadi əlaqələrə əsaslanır. Bu ölkələr arasındakı münasibətlər hər zaman dəyişkən, bir sıra tarixi və siyasi hadisələrə görə mürəkkəb və böyük dərəcədə düşmən münasibətdə olmuşdur. İki ölkə ortaq coğrafi mövqelərinin çox hissəsini paylaşır, lakin dini demoqrafik baxımdan kəskin fərqlənir. Təkcə Şimali Hindistan və Pakistan müəyyən demoqrafik xüsusiyyətlərdə və ortaq linqvistik dillərdə (əsasən Pəncab, Sindhi və Hindustani) qismən üst-üstə düşür.

Pakistanın bir dövlət kimi dünyanın siyasi xəritəsində öz yerini tapması 1947-ci ilin avqust ayının 14-də baş vermişdir. Belə ki, həmin tarixdə Britaniya Hindistanının daha çox müsəlmanlar yaşayan Qərbi Pəncab, Sind, Şimali-Qərb sərhəd vilayəti və Belucistan rayonları Qərbi Pakistan, Şimali Benqaliya isə Şərqi Pakistan adı ilə dominion statuslu bir dövlət halında birləşdirildi. Yeni yaranan dövlət Pakistan adlandırıldı. Dövlətin ərazisi bir-birindən 1700 km aralı olan Qərbi Pakistan və Şərqi Pakistan olmaqla iki hissədən ibarət idi. Bir qədər irəli gedərək söyləmək istərdik ki, bu birlik 1971-ci ilə qədər davam etmişdir. Məhz 1971-ci ildə Şərqi Pakistan Pakistan dövlətindən ayrıldı və Banqladeş Xalq Respublikası adı ilə müstəqil dövlətə çevrildi [1, səh.301]. Pakistanın müstəqillik qazanmasından dərhal sonra, daha dəqiq desək, 15 avqust tarixində Hindistan Respublikası yarandı. Müstəqillik əldə etdikdən qısa müddət sonra həm Hindistan, həm də Pakistan tərəfi özünü dünyəvi dövlət elan etdi.

İki ölkə müstəqillik qazandıqdan dərhal sonra bir-biriləri ilə yaxşı münasibət aparmağa söz verdilər və diplomatik münasibətlər qurdular. Lakin, hindu-müsəlman qarşıdurmaları sayəsində bu münasibətlər heç də müsbət nəticələnmədi. Qeyd etmək yerinə düşər ki, iki ölkə müstəqillik qazandıqdan sonra 3 böyük müharibə, həmçinin, bir elan olunmamış müharibə aparmış və bu müharibələr ya nəticəsiz qalmış, ya da Hindistanın üstünlüyü ilə nəticələnmişdir. Kəşmir münaqişəsi 1971-ci il Hindistan-Pakistan müharibəsi və Şərqi Pakistanın (indiki Banqladeş) ayrılması ilə nəticələnən Banqladeş Azadlıq Müharibəsi xaricində bütün bu qarşıdurmaların əsas mərkəzidir. Bu qarşıdurmaları yumşaltmaq üçün çoxlu sayda cəhd göstərildi, bir sıra görüşlər keçirildi. Bu görüşlərə xüsusilə Simla, Aqra və Lahor sammitləri daxildir [12].

Hindistan və Pakistan arasındakı münasibətlər 1980-ci illərdən bəri tarixən pisləşdi. Vəziyyətin pisləşməsi 1982-ci ildə baş vermiş Siachen münaqişəsi,

1989-cu ildə Kəşmirdə artan gərginlik, 1998-ci ildə- Hindistan-Pakistan nüvə sınaqları və 1999-cu il Kargil müharibəsi ilə əlaqələndirilir. 1990-cı ildə Cammu və Kəşmir ştatında da yenidən vəziyyət kəskinləşdi. Əhalisinin əsasən müsəlmanlardan ibarət olmasına baxmayaraq Kəşmir Hindistanın tərkibində qalmışdır və Pakistan bu faktla heç zaman razılaşmamışdır. Eyni zamanda Cammu və Kəşmirin özündə də kifayət qədər güclü siyasi qüvvələr vardır ki, onlar da Hindistanın tərkibində olmaq faktını qəbul etmir və ona qarşı çıxırlar. Bu qüvvələrin böyük hissəsi Cammu və Kəşmirin Azadlığı Cəbhəsində birləşmişlər. Hələ 1952-ci ildə Hindistan hökuməti və Maharaca (knyaz) arasında bağlanan sazişə görə, Kəşmirin Hindistanın tərkibinə girməsi elan olunmuşdur. 1956-cı ildə isə ştatın qanunvericilik məclisinin qəbul etdiyi Konstitusiyaya görə "Kəşmir Hindistan İttifaqının tərkib hissəsi" adlandırılmışdır [1, səh. 284].

Cənubi Asiya mürəkkəb-geostrateji coğrafi mövqeyi, əlverişliliyi və s. əlamətlərinə görə dünyada vacib bir bölgədir. İndi isə bu bölgə nüvə alov nöqtəsidir.

Hindistanla müqayisədə hərbi əksikliyini artırmağa çalışan Pakistan ABŞ-a müttəfiq olmaq üçün çox vaxt sərf etmədi. Hələ 1952-ci ildə İslamabad, 1955-ci il Bağdad Paktı üçün zəmin yaradan ABŞ-ın qısamüddətli ittifaqı olan Orta Şərq Müdafiə Təşkilatının (MEDO) yaradılmasında iştirak etmişdi. Pakistanın Qərb blokuna qoşulmaq istəyi 1950-ci illərin ortalarından etibarən Vaşinqtondan İslamabada davamlı olaraq hərbi yardım axını ilə nəticələndi. 1965-ci ilə qədər Pakistanın çoxsaylı və çevik uyğunlaşma siyasəti nəticəsində Pakistan ABŞ, SSRİ və Çinlə dostlaşdı və hamıdan hərbi və iqtisadi yardım aldı. 1965-ci ilin aprelində Pakistan qoşunları Qucaratdakı Böyük Kaç Rannı işğal etdi, orada iki post qurdular və Hindistan polisi ilə döyüşdülər. Sərhəd yaxınlığında hava limanı olan Pakistan məntiqi üstünlüklərdən istifadə edirdi. ABŞ tərəfindən bağışlanan F-86 fi daha yüngül bombardmançı təyyarələr bu hava limanında saxlanıldı. Patton tankları, həmçinin ABŞ-dan gələn hədiyyələr Pakistan tərəfindən Kaçda (Kutch) istifadə edildi, baxmayaraq ki, ABŞ Prezidenti Eyzenhauer Hindistana qarşı bu cür ABŞ silahlarının istifadəsini qadağan edən və onların kommunist ölkələrə qarşı hərəkətlərlə məhdudlaşdırıldığını açıqca bildirmişdi. (1954-cü ildəki Amerika-Pakistan hərbi yardım paktı) [2, səh.138].

Hindistan da öz növbəsində "Soyuq müharibə" dövründə ittifaqdan kənar qalmağa çalışdı. Prinsipcə, bu bitərəflik siyasəti deyil, əksinə Hindistanın qütbləşmiş bir dünyada öz mənfəətini güdmək üçün "dinamik və pozitiv" bir siyasət idi [6]. Ancaq praktikada Hindistanın davranışları sovet xəttinə daha yaxın göründü və bu yaxınlıq Dehli ilə Vaşinqton arasında artan bir uçuruma səbəb oldu.

Hindistan-Pakistan arasındakı düşmən münasibət nüvə böhranları zamanı ən təhlükəli şəkildə özünü göstərdi.

1980-ci illərdən bəri Pakistan ilə Hindistan arasındakı münasibətlərdə böhran münasibətləri müşahidə olunur. Bu böhranlar nüvə brinkmanlığı ilə xarakterizə olunur. Bu cür nüvə brinkmanlığı 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində gizli olsa da, 1990-cı illərin sonu və XXI əsrin əvvəllərində bu cür brinkmanlıq açıq şəkildə ortaya çıxdı.

1986-1987-ci illərdəki Brasstacks böhranı, Pakistanın Rajastan sərhədinə yaxın ərazidə Hindistanın genişmiqyaslı 1986-cı il noyabrda təlim məşqindən meydana gəldi. Təlimlər misli görünməmiş ölçüdə idi və Hindistanın zirehli birləşmələrinin əksəriyyətini əhatə edirdi. Təlimlərə taktiki nüvə silahları daxil edilmişdi. Pakistan bu təlimlərə təhdid kimi baxdı və Pəncab yaxınlığında öz genişmiqyaslı təlimləri ilə cavab verdi. Bundan sonra hər bir dövlət böhranı artıran daha çox təhdid manevrləri etdi. 1987-ci ilin yanvarında A.Q. Khan İddiaya görə, Pakistana uranı zənginləşdirdiyini və nüvə silahı sınağını simulyasiya edə biləcəyini mətbuata açıqladı. Xanın şərhlərini özündə cəmləşdirən məqalə 1 marta qədər dərc olunmadı, bu vaxta qədər böhran aşağı düşməyə başladı. Yenə də "Xan təhdidi" Pakistanda Hindistana qarşı uğurlu bir nüvə silahı təhdidi kimi qəbul edilir [7]. Əlavə olaraq, Pakistan böhranı yatırmaq və aradan qaldırmaq üçün İslamabaddakı Hindistan səfirinə pərdələnmiş bir nüvə təhdidi etdiyini söylədi. Bu hesabatların həqiqiliyi nə olursa-olsun, Pakistanda geniş yayılmışdır. Beləliklə, Pakistan ordusunun Brasstacks-dən aldığı dərs nüvə təhdidlərinin işə yaraması idi.

Hindistan nüvə proqramına, əsasən ərazi mübahisələri olan Çin və Pakistan rəqabətlərindən gələn təhlükəni aradan qaldırmaq üçün başladı. Hindistan nüvə silahları proqramına 1954-cü ildə Trombeydəki Bhabha Atom Tədqiqat Mərkəzində hərbi məqsədlər üçün istifadə olunmayacağına əminlik gətirərək, mülki istifadə üçün hazırlanmış nüvə texnologiyalarından dinc istifadə etmək məqsədilə başladı. Hindis-

tan ilk nüvə sınağını 1974-cü ilin may ayında keçmiş Baş nazir İndira Qandinin hakimiyyəti dövründə həyata keçirdi. Bu nüvə sınağının adı "Gülən Buda" idi [8]. 11 may 1998-ci ildə Hindistan Pokhran yeraltı sınaq poliqonunda üç cihaz, 13 may 1998-ci ildə daha iki cihaz sınaqdan keçirdi. Hindistanın bu addımları dünya dövlətlərini qəzəbləndirdi. Hindistan Nüvə Yayılmaması Müqaviləsini (NPT) imzalamamış ilk nüvə enerji ölkəsi oldu. Bu sınaqlara görə dünya ictimaiyyəti Hindistana bir çox məhdudiyyət qoymuşdu. Bu səbəbdən Hindistan dünya birliyinə Hindistanın məsuliyyətli bir ölkə olduğunu və nüvə siyasətinin bir hissəsi olan nüvə silahlarını heç bir ölkəyə qarşı "istifadə etməyəcəyini" söylədi.

Pakistan 1953-cü ildə ABŞ ilə nüvə texnologiyalarının istifadəsinin sənaye və dinc məqsədlər üçün reaktorların inşasına dair bir memorandum imzaladı. 1953-cü ildə ABŞ-ın 'Atom Forpeace' siyasətini və daha sonra nüvə texnologiyalarının dinc məqsədlə istifadəsinə dair memorandumu dəstəklədikdən sonra, 1953-cü ildə Pakistan Nüvə Proqramını təşviq etmək üçün Atom Enerjisi Komissiyası rəsmi olaraq quruldu.

Pakistan 1960 və 1963-cü illərdə Lahor və Dakkada iki mərkəzin qurulacağı bir uran axtarış layihəsinə başladı. Pakistan Atom Enerjisi Komissiyası Dera Qazi Xanda uran ehtiyatları çıxarmağa başladı [9]. Pakistan 1955-ci ildə ilk Atom Enerjisi İnstitutunu qurdu. Pakistan ilk mülki nüvə reaktorunu 1972-ci ildə Kanadanın köməyi ilə inşa etdi. Elə bu il Zülfiqar Əli Bhutto, Multanda fizik və mühəndislərin görüşü ilə Pakistanın Nüvə Silahı Proqramını qurdu. 28 may 1998-ci ildə Pakistan Bəlucistanda beş nüvə sınağı keçirdi. Daha bir test 30 may 1998-ci il tarixində keçirilmişdir.

1998-ci il nüvə sınaqlarından sonra həm Hindistan, həm də Pakistan tərəfindən çəkindirmə rəsmi olaraq elan edildi və Paul Brackenə görə "ikinci nüvə əsrinin faktiki başlanğıcı" oldu. Hindistan və Pakistan üçün nüvə silahı proqramının inkişaf etdirilməsinin əsas səbəbi düşmənlərinin imkanlarına qarşı durmaq idi.

Hindistan nüvə siyasətini 2003-cü ildə qəbul etdi. Hindistanın nüvə siyasətinin əsas xüsusiyyətləri aşağıdakılardır [8]:

1. Hindistanın nüvə siyasətinin əsas prinsipi "ilk istifadə edilməməlidir" prinsipidir. Bu siyasətə görə, düşmən ölkə Hindistana hücum etməyincə Hindistan heç bir ölkəyə nüvə hücumu etməyəcək.

2. Hindistan nüvə siyasətini o qədər güclü tutacaq ki, düşmənin düşüncəsində qorxu qalacaq.

3. Bir ölkə Hindistana nüvə hücumu edərsə, intiqamı o qədər dəhşətli olacaq ki, düşmən böyük ziyan görəcək və bu hücumdan tez bir zamanda özünə gələ bilməyəcək.

4. Düşmənin nüvə hücumuna qarşı hərəkətə keçmək hüququ üçün Nüvə Komandanlığı Təşkilatının əməkdaşlığı lazım olsa da, yalnız cəmiyyət tərəfindən seçilən nümayəndələrə, yəni ölkənin siyasi rəhbərliyinə veriləcəkdir.

5. Nüvə silahı olmayan ölkələrə qarşı nüvə silahı istifadə olunmayacaq.

6. Hindistana qarşı və ya Hindistan təhlükəsizlik qüvvələrinə qarşı hər hansı bir kimyəvi və ya bioloji hücum olarsa, Hindistan cavabında nüvə hücumu seçimini açıq saxlayacaq.

7. Nüvə və raketlə əlaqəli materialların və texnologiyanın ixracına ciddi nəzarət davam edəcək və nüvə sınaqlarının qadağan edilməsi davam edəcəkdir.

8. Hindistan nüvəsiz dünya yaratmaq və ayrı-seçkiliksiz nüvə tərksilah ideyasını həyata keçirmək üçün qlobal təşəbbüsü dəstəkləməyə davam edəcəkdir.

"Hindistan Nüvə Doktrinası Milli Təhlükəsizlik Şurasının Hesabat Layihəsi" nə əsasən, Hindistanın nüvə qüvvələri üçün əsas məqsədi dinc və demokratik bir çərçivədə iqtisadi, siyasi, sosial, elmi və texnoloji inkişafa nail olmaqdır.

Pakistan nüvə doktrinasını rəsmi olaraq elan etməyib, bu səbəbdən də Pakistanın nüvə silahına çatmağın xüsusi məqsədi və nüvə silahları ilə əlaqəli əsl məqsədi və siyasətinin nədən ibarət olduğu barədə bir çox müəmmalar mövcud olmuşdu. Pakistan Hindistanın ənənəvi və nüvə qüvvələrinə qarşı silahlarını şaxələndirmək, hərtərəfli raket proqramlarını inkişaf etdirmək planlarını hazırlamaq üçün nüvə çəkindirmə siyasətinə malikdir.

**Kəşmir.** Coğrafi olaraq Kəşmir böhranı Pakistan, Hindistan, Əfqanıstan və Çinin qovuşduğu Himalay dağlarında 86.000 kvadrat kilometrlik bölgəni əhatə edir. Kəşmir Vadisi bu gün baş verən döyüş əməliyyatlarının mərkəzini təmsil etsə də, əsas münaqişə bölgəsi bütün Cammu və Kəşmir əyalətini və onun beş bölgəsini (Jammu, Ladakh, Kashmir Valley, Gilgit və Baltistan) əhatə edir.

Kəşmir əhalisinin əksəriyyəti müsəlman olsa da, hökmdarı Maharaca Hari Singh hindu idi. Kəşmir əhalisinin əksəriyyəti müsəlman olsa da, hökmdarı

Maharaca Hari Singh hindu idi. İngilislərin siyahıya almasına görə, 1941-ci ildə Kəşmirin yüzdə 77-si müsəlman, yüzdə 20-si hindu və yüzdə 3-ü digər dinlərdən idi. Beləliklə, praktik olaraq Kəşmir ya Pakistana qoşulacaq, ya da müstəqil bir ölkə olacaqdı. Hari Singh Pakistana və ya Hindistana qoşulmaqda tərəddüd etdi və müstəqil olmaq istədi. Lakin Kəşmirin yüzdə 77-ni təşkil edən müsəlman qəbilələr, Pakistana qoşulmaq üçün 1947-ci ilin oktyabrında paytaxt Srinagarın qapılarına yaxınlaşdılar. Maharaca Hari Singh daha sonra Hindistana qaçdı və hərbi yardım istədi.

Hindistan müəyyən şərtlər altında hərbi yardım göstərməyə razı oldu: Birincisi, Maharaca Kəşmirin Hindistana qoşulduğunu elan etməli idi, ikincisi, "dövlətin iştirak problemi insanlara istinad edilməklə həll edilməlidir". Maharaca Hindistana 26 oktyabr 1947-ci ildə Kəşmir xalqının səsi olmadan Hindistan tərəfindən qəbul edilmək üçün bir üzvlük məktubu verdi. Bu məktub ertəsi gün general qubernator tərəfindən alındı.

Pakistan, Maharacanın Hindistanla bağladığı müqaviləni tanımadı və 1947-ci ilin oktyabrında iki ölkə arasında Kəşmir mövzusunda müharibə başladı. Hindistan və Pakistan ilk silahlı qarşıdurmasını 1947-ci ildə Kəşmir bölgəsində yaşadı və 1947-1949 arasında müharibəyə çevrildi. Bu müharibəyə "Birinci Hindistan-Pakistan" müharibəsi də deyilir.

Pakistan hökuməti Cammu və Kəşmirin mübahisəli bir ərazi olduğunu müdafiə etdi. Dövlətin 1947-ci ilin oktyabrında Hindistana qoşulması müvəqqəti idi və Hindistan hərbi varlığının məcburi təzyiqi altında həyata keçirildi. Cammu və Kəşmirin mübahisəli statusu BMT Təhlükəsizlik Şurasının həm Pakistan, həm də Hindistanın qəbul etdiyi 13 avqust 1948 və 5 yanvar 1949 saylı qətnamələrində qəbul edilir. Bu qətnamələr bu gün tam qüvvədə qalır və tərəflərdən heç biri birtərəfli qaydada rədd edə bilməz.

**1948-1949 BMT Təhlükəsizlik Şurasının qərarları:**

(1) Hindistan və Pakistan arasında Cammu və Kəşmirin gələcək statusu ilə bağlı danışıqların məqsədi Kəşmir xalqının öz müqəddəratını təyinetmə hüququnu təmin etməlidir. Bu hüquq razılaşdırıldığı kimi sərbəst, ədalətli və beynəlxalq səviyyədə nəzarət olunan bir plebisit tələb edir;

(2) plebisit Kəşmir xalqına ya Pakistana, ya da Hindistana daimi qoşulma seçimini təklif etməlidir;

(3) Hindistan və Pakistan arasında Cammu və Kəşmirin gələcək statusu ilə bağlı danışıqlar həm iyul 1972-ci il tarixli Simla Sazişi, həm də BMT Təhlükəsizlik Şurasının müvafiq qərarlarına uyğun olaraq aparılmalıdır. Bu danışıqlarda beynəlxalq vasitəçilik rolu uyğun ola bilər.

Hindistan və Pakistan ikinci müharibəni 1965-ci ildə apardılar. Bu müharibə iki faktorla əlaqələndirilir: Birincisi, 1965-ci ilin aprelində Hindistan qoşunlarının Pakistan tərəfinə nüfuz etdiyi Böyük Kaç Pannı adlanan ərazidə sərhəd atışmaları; ikincisi, Pakistan ordusunun 1965-ci ilin avqust ayında Hindistanın nəzarətində olan Kəşmirdə "azadlıq mübarizəsini" dəstəkləmək üçün başlatdığı Cəbəllütariq əməliyyatı [10]. Hərbi əməliyyatlar nəticəsində Pakistan tərəfindən 3800, Hindistan tərəfindən 3000 nəfər həlak olmuş, 8623 nəfər yaralanmışdır.

1971-ci il Hindistan-Pakistan müharibəsi, İkinci Dünya müharibəsindən bəri ən çox sayda hərbi əsirin tutulmasına səbəb olduğu kimi, indiyədək olan bütün Hindistan-Pakistan qarşıdurmalarının ən qanlısı idi. 1971-ci il Hindistan-Pakistan qarşıdurması haqlı olaraq iki qonşu dövlət - Hindistan və Pakistan arasında regional qısa müddətli müharibə kimi tərif edilə bilər. Bu, keçən əsrin qlobal miqyasda ən ciddi silahlı qarşıdurmalarından biridir, Orta və Cənubi Asiya bölgələri miqyasında, ikitərəfli və beynəlxalq əlaqələrin inanılmaz səyləri sayəsində ən əhəmiyyətli hadisələrdən biridir. Ancaq bu, Hindistan-Pakistan qarşıdurması tarixinin sonu olmadı. Bir qədər sonra Hindistan və Pakistan arasında 2 iyul 1972-ci ildə Hindistanın Himaçal Pradeş əyalətinin paytaxtı Şimla şəhərində Simla və ya Shimla müqaviləsi imzalanmışdır. Razılaşma hər iki ölkənin "münasibətlərini indiyədək pozan qarşıdurmaya son qoymaq" üçün verdiyi qətiyyətin nəticəsi idi. Qarşılıqlı münasibətlərin daha da normallaşdırılması üçün atılacaq addımlar düşünüldü və gələcək münasibətlərini tənzimləmək üçün zəmin yaradıldı.

Kəşmir Hindistan-Pakistan qarşıdurmasının və səfalətin səbəbi və nəticəsidir. Tarixi, coğrafi, mədəni və strateji baxımdan Pakistan 13 milyondan çox Kəşmir xalqının azadlığı məsələsindən kənarda qala bilməzdi. Bu səbəbdən Pakistan həmişə Kəşmir xalqının İstiqlal hərəkatını dəstəkləməyə borcludur və sadiqdir və öz müqəddəratlarını təyinetmə hüquqlarını əldə edə bilmələri üçün məsələnin ən qısa müddətdə həll edilməsinə çalışır.

2019-cu il fevral ayının 26-da Hindistan, Pakis-

tan mənşəli üsyançı qrup olan Ceyş-e-Məhəmmədin (JeM) Balakotdakı ən böyük təlim düşərgəsi adlandırdığı yerə hava zərbələri endirdi və çox sayda terrorçunu məhv etdi. Bundan bir neçə gün əvvəl, fevral ayının 14-də bir ordu yük maşınına bomba yüklənmiş intihar hücumu nəticəsində təxminən 60 ordu əsgərinin öldüyü Pulwama hücumunun qisası olaraq edildiyi bildirildi.

2020-ci ilin noyabr ayında da iki dövlət arasında münasibətlər gərginləşmişdi. 2021-ci ilin fevral ayının 25-də aralarında atəşkəs imzalandı. Bəhs olunan əsas hadisələr xaricində hər iki tərəfin Hindistan və Pakistan əsgərlərinin atəşə tutulması və öldürülməsi Hindistan-Pakistan sərhədində Kəşmirdə gündəlik xəbər kimi görünür. Bu il iki ölkə arasında baş verən hadisələr də buna əsas verir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Rafiq Bəy İsmayıl və Nərgiz Axundova "Asiya və Afrika ölkələrinin çağdaş tarixi", 1945 - 2000 - ci illər, Bakı: Çaşıoğlu, 2001. - 400s.*

*2. India's Foreign Relations, 1947–2007 Jayanta Kumar Ray, 2011 – 831s.*

*3. Emrin Çebi "Keşmir raporu", İNSAMER, İstanbul 2018 – 44s.*

*4. Cengiz Topel Mermer "Keşmir sorunu ve Pakistan-Hindistan ilişkileri üzerine etkisi", İstanbul 2018 – 367s.*

*5. Jaynal Abed "Keşmir sorunu ve Hindistan-Pakistan nükleer silahlanma yarışına etkisi", İstanbul 2019 - 318s.*

*6. A. Appadorai and M.S. Rajan. 1985. India's Foreign Policy and Relations. New Delhi: South Asian Publishers.*

*7. https://core.ac.uk/download/pdf/72732284.pdf*

*8. https://www.jagranjosh.com/general-knowledge/what-is-the-nuclear-doctrine-of-india-in-hindi-1524576078-2*

9. پاکستان کا ایٹمی پروگرام: کب شروع ہوا اور کب جوہری ہتھیار بنائے؟ | Urdu News – اردو نیوز

*10. http://pu.edu.pk/images/journal/pols/pdf-files/9_25_1_18.pdf*

*11. https://www.jstor.org/stable/48602133*

*12. https://www.wikipedia.org/*

*13. https://www.academia.edu/*

## XÜLASƏ

İkinci Dünya müharibəsindən sonra imperatorluq qabiliyyətini itirən İngiltərənin 1947-ci ildə Hindistan yarımadasından çəkilmək məcburiyyətində qaldığı zaman Hindistan imperiyasının iki müstəqil dövlətə bölünməsi ilə Hindistan Respublikası və Pakistan İslam Respublikası yaranmışdır. İngiltərə bu bölgədən çəkilərkən Kəşmir vilayətinə başçı olaraq xalqın əksəriyyətinin müsəlman olmasına baxmayaraq, Hindu Maharaca Hari Singhi təyin edir. Bununla da, əslində, İngiltərə Pakistan və Hindistan arasında Kəşmir bölgəsi üzərində uzun illərdir həllini tapmayan münaqişə ocağının yaranmasına səbəb olmuşdur.

Pakistan və Hindistanın müstəqilliyindən 75 il keçməsinə baxmayaraq, Kəşmir problemi hələ də iki dövlət arasındakı ən böyük münaqişədir. Pakistan, Hindistan və Çin arasında üç hissəyə ayrılan Kəşmir bu gün də parçalanmış quruluşunu qoruyur.

Hindistana qoşulduğu ilk gündən bəri ona verilən statusdan razı olmayan Cammu və Kəşmir xalqının qarşısında təxminən üç yol var. Bunlardan birincisi muxtar quruluşdur. Ancaq Hindistana bağlı dövlətlərdən biri olan Cammu və Kəşmirin bu statusu qəbul etmədiyi açıqdır. Bu səbəbdən Hindistanın bölgəyə birbaşa müdaxiləsi mövcud muxtar quruluşun həll yolu gətirmədiyini ortaya qoyur. İkinci həll yolu Kəşmirin bütövlükdə ya Pakistanla, ya da Hindistanla əlaqələndirilməsidir. Ancaq Cammu və Kəşmir əhalisini nəzərə alsaq, insanların Pakistana qoşulma meyli olduğunu düşünən Hindistan belə bir həll yoluna yaxınlaşmır. Üçüncü və ən vacib həll yolu isə Kəşmirin müstəqilliyidir. Ancaq Kəşmirin tarixi keçmişinə baxdıqda, hər iki dövlətin də Kəşmir bölgəsindəki varlıqlarını bir-birinin lehinə verə bilməyəcəyi açıqdır.

Pakistan Kəşmir probleminin həllinin Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 1948-ci il referendum qərarı çərçivəsində həll olunmasını istəyir. Hindistan isə əhalisinin əksəriyyəti müsəlman olduğu üçün Kəşmirlə razılaşmır. Bu səbəbdən də Kəşmiri hərbi varlığı ilə saxlamağa çalışır.

Dünya aktorları Kəşmir məsələsinin sülh yolu ilə həllinə biganə yanaşmamalıdır. Əks təqdirdə, Kəşmir məsələsi Pakistanla Hindistan arasında qanayan bir yara olmaqda davam edəcəkdir.

**Açar sözlər:** *Hindistan-Pakistan, Kəşmir, nüvə, müharibə.*

## РЕЗЮМЕ

После Второй мировой войны, когда империя была вынуждена уйти с Индийского субконтинента после Второй мировой войны, Индийская империя распалась на два независимых государства, образовав Исламскую Республику Индию и Пакистан. Хду назначает Махараджу Хари Сингха главой провинции Кашмир, несмотря на уровень жизни людей. Кроме того, район Кашмира между Пакистаном и Индией является очагом конфликта, который не решается уже много лет.

Спустя 75 лет после обретения Пакистаном и Индией независимости кашмирский вопрос по-прежнему остается самым острым конфликтом между двумя государствами. Разделенный на три части между Пакистаном, Индией и Китаем, Кашмир сохраняет свою фрагментированную структуру даже сегодня.

У жителей Джамму и Кашмира, недовольных статусом, данным им с первого дня его присоединения к Индии, впереди около трех путей. Первая из них является автономной структурой. Однако ясно, что Джамму и Кашмир, один из зависимых от Индии штатов, не принимает этот статус. Это показывает, что в значительной степени автономная структура не является решением судьбы Индии. Второе решение заключается в реализации Кашмира в целом либо с Пакистаном, либо с Индией. Но если взять еще Джамму, то Индия, думая, что люди имеют склонность к присоединению к Пакистану, не приемлет такого решения и Кашмира. Третье и самое важное решение — независимость Кашмира. Однако, глядя на историческую подоплеку Камира, возможно, что оба государства могут знать о своем присутствии в Кашмирском регионе в пользу друг друга.

Мы просим, чтобы референдум 1948 года разрешил Организацию Объединенных Наций решить пакистанско-кашмирскую проблему. Он не согласен с Кашмиром, так как это часть Индии. Для этого она пытается удержать Кашмир своим военным присутствием.

Мировые акторы не должны оставаться равнодушными к мирному решению кашмирской проблемы. В противном случае проблема Кашмира так и останется кровоточащей раной между Пакистаном и Индией.


**Ключевые слова:** *Индия-Пакистан, Кашмир, ядерный, война.*


## SUMMARY

After the Second World War, when the empire was forced to withdraw from the Indian subcontinent after World War II, the Indian Empire split into two independent states to form the Islamic Republic of India and Pakistan. Hdu appoints Maharaja Hari Singh as the head of the Kashmir Province despite the standard of living of the people. In addition, the Kashmir region between Pakistan and India has been a hotbed of conflict that has not been resolved for many years.

75 years after the independence of Pakistan and India, the Kashmir issue is still the most intense conflict between the two states. Divided into three parts between Pakistan, India and China, Kashmir maintains its fragmented structure even today.

The people of Jammu and Kashmir who are not satisfied with the status given to them since the first day of its accession to India, have about three paths before them. The first of these is an autonomous structure. However, it is clear that Jammu and Kashmir, one of India's dependent states, does not accept this status. This reveals that a largely autonomous structure is not the solution to India's destiny. The second solution is to implement Kashmir as a whole either with Pakistan or with India. But if we take Jammu more, India, thinking that people have a tendency to join Pakistan, does not accept such a solution and Kashmir. The third and most important solution is the independence of Kashmir. However, looking at the historical background of Kashmir, it is possible that both the states may know their presence in the Kashmir region in favor of each other.

We ask that the 1948 referendum be allowed to settle the Pakistan Kashmir problem by the United Nations. He does not agree with Kashmir as it is a part of India. For this purpose, it is trying to keep Kashmir with its military presence.

World actors should not be indifferent to a peaceful solution to the Kashmir issue. Otherwise, the Kashmir issue will continue to be a bleeding wound between Pakistan and India.


**Keywords:** *India-Pakistan, Kashmir, nuclear, war.*

UOT 32

# DÖVLƏT-ÖZƏL SEKTOR MÜNASİBƏTLƏRİ ƏNƏNƏVİ İQTİSADİ NƏZƏRİYYƏLƏRDƏ

**AYSEL QULİYEVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Politologiya və siyasi idarəetmə kafedrası*
*E-mail: aguliyeva@mail.ru*

Məfhum olaraq dövlət-özəl sektor əməkdaşlığının meydana gəlməsi XX əsrin sonlarında İngiltərədə D. Meycor hökumətinin liberal islahatları ilə bağlıdır. Mahiyyət etibarı ilə bu islahatlara görə dövlət öz tabeçiliyində olan bir sıra istehsal sferalarının və bəzi sosial-mədəniyyət sahələrinin maliyyələşdirilməsi səlahiyyətlərini özəl sektora həvalə etməyə başladı. [14]

Dünya Bankının təklif etdiyi izaha görə, dövlət özəl sektor əməkdaşlığı infrastrukturun inkişafına olan ehtiyacların qarşılanması prosesində imkanları məhdud olan dövlətin əməkdaşlıq təşəbbüsüdür.

Bütövlükdə dünya miqyasında dövlət-özəl sektor əməkdaşlığı iki formada təhrif olunur: Birinci halda, milli, beynəlxalq, regional, şəhər, bələdiyyə, iqtisadi, siyasi inkişaf naminə dövlət və biznes münasibəti kimi. İkinci halda, dövlətə və yerli özünüidarəetmə orqanlarına məxsus obyektlərdə dövlət qurumları və özəl sektorun nümayəndələri arasında gerçəkləşdirilən layihə kimi (8).

Bir sıra tədqiqatçılar belə mövqedən çıxış edir ki, dövlət-özəl sektor münasibətlərinin nəzəri konseptual bazasına praktiki olaraq əksər iqtisadi yanaşmalarda rast gəlmək mümkündür (17). Hesab edilir ki, qarşılıqlı marağın mahiyyəti baxımından dövlət-özəl sektorun əməkdaşlığını təlqin edən klassik yanaşmalardan biri və demək olar ki, ilki, merkantilizmdir. Ticarət proteksionizmini əsas götürən merkantilistlərin fikrincə, dövlət-özəl əməkdaşlığının mahiyyətində dövlətin öz problemlərini həll etmək üçün kapitala olan ehtiyacı, istehsal etdiyi əmtəələrin daxili istehlak bazarında mühafizəsi və yeni xarici bazarlara çıxarılmasında dəstək axtaran özəl sektorun maraqları durur. Birinci daxili özəl sektorun maraqlarını qoruyur, ona yeni bazarlar axtarır, gömrük siyasəti ilə ucuz xammalın idxalını təşkil edir, daxili sahibkarları, rezident status daşıyan özəl sektorun inkişafını təmin edir. Bunun əvəzində ikinci dövləti vaxtaşırı ortaya çıxan iqtisadi və siyasi problemlərin aradan qaldırılması işində ehtiyac duyduğu vəsaitlərlə təmin edir (17).

Dövlət-özəl sektor münasibətlərinə diqqət yetirən ikinci iqtisadi cərəyan klassik siyasi-iqtisad məktəbidir. Bu məktəbin nümayəndələri ikitərəfli əməkdaşlığın sosial aspektlərinə diqqət yetirir. Cərəyanın nümayəndələrinin fikrincə, iqtisadi münasibətlər çərçivəsində dövlətin əsas vəzifəsi sahibkarlıq fəaliyyətinin şərtlərinin müəyyən edilməsidir. Dövlətin bu fəaliyyətə müdaxiləsi ictimai rifahın təmin olunması ilə bağlı olmalıdır. Başqa sözlə, sahibkarlıq fəaliyyəti gəlirlərin əldə edilməsi zamanı ictimai rifahı nəzərə almalı və bu prinsip pozularsa, dövlətin prosesə müdaxiləsinə yol verilməlidir. Dövlət-özəl sektor münasibətlərinin səciyyəvi xüsusiyyətləri klassik siyasi iqtisad məktəbinin A. Smit (18) və C.S. Mill (16) kimi nümayəndələri tərəfindən araşdırılır. A. Smitə görə, iqtisadi münasibətlərin tənzimlənməsindən uzaq durmalı olan dövlətin əsas bir neçə vəzifəsi var ki, bunlara daxili və xarici düşmənlərdən müdafiə, ədalətin və qanunçuluğun təmin edilməsi, cəmiyyətin bütün üzvləri üçün ictimai rifahın təmin edilməsi daxildir. (9)

Millə görə, dövlət iqtisadi proseslərdə cəmiyyətin ümumi sosial-iqtisadi problemlərinin aradan qaldırılması üçün iştirak etməlidir. Dövlətin ictimai rifah naminə iqtisadi proseslərə müdaxiləsi elmin inkişafına dəstək, sosial infrastrukturun inkişaf etdirilməsi, həmkarlar ittifaqlarının fəaliyyətinin stimullaşdırılması formasında özünü büruzə verməlidir (2, S.403).

E. Markovskaya siyasi-iqtisad məktəbi üzrə dövlətin iqtisadi münasibətlər sistemində rolunu və azad sahibkarlıq sferası ilə əməkdaşlığını aşağıdakı kimi qruplaşdırır:

• Cəmiyyətdə vahid davranış və əsasən, iqtisadi davranış formalarının müəyyən edilməsi, səmərəli məhkəmə sisteminin qurulmasını və biznes üçün qanunverici bazanın formalaşdırılması;

• Sərbəst subyektlərin sərbəst iqtisadi fəaliyyətlə məşğul olması üçün önəmli olan ictimai sabitliyin təmin edilməsi;

• İlk növbədə, sosial olmaq şərti ilə ümummilli institutların formalaşması və fəaliyyətinin dəstəklənməsi. Bu işdə dövlət və özəl sektorun əməkdaşlığı qaçılmazdır (9, S. 14).

Dövlət və özəl sektor arasında qarşılıqlı əlaqələrin təhlilinə **Alman tarix məktəbi**ndə də rast gəlmək mümkündür. Alman tarix məktəbi XIX əsrin əvvəllərində sosial iqtisadi inkişafının tam kapitalist mərhələsinə keçən Almaniyada klassik siyasi iqtisad məktəbinin alternativi kimi ortaya çıxır. Məhz bu məktəbin əsas yaradıcılarından hesab olunan D. F. List öz tədqiqatlarında dövlət və iqtisadi subyektlər arasında münasibətləri özünəməxsus formada nəzərdən keçirir. Özünün "Siyasi iqtisadın milli sistemi" adlı kitabında klassik siyasi iqtisad məktəbinin əsas postulatlarını tənqid edən List qeyd edir ki, iqtisadi subyektlərlə yanaşı, milli iqtisadiyyat, milli maraq kimi məfhumlar var ki, birbaşa dövlətin beynəlxalq aləmdə gücünün göstəricisidir və bu amil dövləti iqtisadi münasibətlər sistemində, iqtisadi proseslərdə tənzimləyici iştirakçıya çevirir. İqtisadi münasibətlər sistemində dövlətin başlıca rolu iqtisadi subyektlər üçün əlverişli şəraitin yaradılmasındadır. F. List iqtisadi özəl sektor olaraq xüsusi kapitalı nəzərdən keçirir. O, iqtisadi inkişaf səviyyələrinə görə dövlətləri bir neçə inkişaf mərhələsinə bölür ki, hər bir mərhələdə xüsusi kapital və dövlət arasında əməkdaşlıq dövlətin konkret olaraq vəzifələr yerinə yetirməsi formasında təzahür edir. II (aqrar səviyyə) və IV (aqrar, sənaye və ticarət) səviyyələrdə dövlətin xarici ticarət əlaqələrinə müdaxiləsini zəruri edir. III (aqrar, sənaye) mərhələdə dövlət və xüsusi kapital arasında əməkdaşlıq milli sənayenin güclənməsinə yönəlməlidir (3, S.167).

XIX əsrin 70-90-cı illərində dövlət və özəl sektor əməkdaşlığı haqqında mülahizələr neoklassik siyasi iqtisad məktəbinin nümayəndələrinin əsərlərində irəli sürülməyə başlayır. Dövlət və biznes sferasında əməkdaşlıq neoklassik siyasi iqtisad məktəbinin amerikan nümayəndələrindən hesab olunan C.B. Klark tərəfindən araşdırılır. O, "sərvətlərin bölgüsü: nəzəriyyə, əməkhaqqı, faiz və gəlir" adlı əsərində dövlət və özəl sektorun subyektləri arasında əməkdaşlığı sərvətlərdən gəlirlərin ədalətli bölgüsü üçün universal mexanizm kimi təqdim edir. Klarka görə özəl sektorun subyektlərinə münasibətdə dövlətin başlıca funksiyası xüsusi mülkiyyət hüququnun qorunmasıdır. C.Klarka görə, xüsusi kapitalın qorunması öna görə zəruridir ki, o, iqtisadi münasibətlər sistemində xidmətləri yaradan və gəlir gətirən ehtiyatdır (1, S.31).

1874-cü ildə "Səlist siyasi iqtisadın elementləri" adlı kitabında neoklassisizmin təmsilçilərindən hesab olunan L.Valras iqtisadi münasibətlər sistemində dövləti siyasi üstqurum kimi təqdim edir. Onun əsas funksiyalarını pulun sabitliyinin, vətəndaş təhlükəsizliyinin, təhsilin əlçatanlığının, işçilərin sosial müdafiəsinin, azad rəqabətin təmin edilməsi olaraq təsnifləndirir. Valras bu xidmətlərə görə özəl sektordan vergi toplanmasına haqq qazandırır və dövlətin istehsalla məşğul olmasını istisna edir (19. S.46).

Neoklassisizmin başqa bir nümayəndəsi A. Piqu dövlətin iqtisadiyyata müdaxiləsini iki tipə bölür: Birinci, vergi və subsidiyalar. Bu mexanizm kənar təsirlərin aradan qaldırılması üçün tətbiq olunur. İkincisi, dövlətin birbaşa müdaxiləsi. Başqa sözlə, qiymət və taariflər üzərində dövlət nəzarəti. Piqu hesab edir ki, dövlətin iqtisadi proseslərə müdaxiləsi hər hansı bir sektora birbaşa investisiya formasında da təzahür edə bilər (19. S.46).

İkinci Dünya müharibəsindən sonra **neoliberalizm** dövlət və özəl sektor arasında birgə proqramların işlənməsini nəzərdə tutan kompromisli iqtisadi inkişaf doktrinası kimi ortaya çıxır. Doktrinanın mahiyyəti, əslində sosialyönümlü, ictimai sferanın və iqtisadiyyatın azad subyektlərinin maraqlarını uzlaşdıracaq bir sistem yaratmaq idi. Belə doktrinalardan biri Almaniyanın Frayburq Məktəbi tərəfindən irəli sürülürdü. Məhz Almaniyada neoliberalizm doktrinalarının inkişafı alman biznes mühitində hökm sürən etatizmlə və inhisarçılıq əleyhinə əhval ruhiyyə ilə bağlı idi. Etatizmin tənqidçiləri sahibkarlıq subyektlərinin fəaliyyət azadlığının məhdudlaşdırılmasını dövlətlə əməkdaşlıqda görürdülər. Neoliberalizmin nümayəndəsi kimi Hayek dövlətin iqtisadiyyata müdaxiləsini sosial siyasətin təmin edilməsi baxımından zəruri hesab edirdi. Bununla belə, o hesab edirdi ki, dövlət biznes subyektlərinin rəqabətinə mane olmamalıdır. F. Fon Hayek hər şeydən öncə dövlətin antiinhisar siyasətini önəmli sayırdı. O qeyd edirdi ki, "əgər bu və ya digər sahədə inhisarın mövcudluğu qaçılmazdırsa, onda bu inhisarçı üzərində güclü dövlət nəzarəti olmalıdır". (20, S. 147)

Fon Hayekin ardıcılı L.Fon Mizes dövlət-biznes sektoru münasibətlərində dövlətin rolunu bazar qaydalarının müəyyən edilməsində görürdü. Mizesə görə, bazar iqtisadiyyatında baş verən böhranlar dövlətin müdaxiləsi üçün əsas yaratmır. Onun fikrincə, dövlətin iştirakı biznes sektorunun fəaliyyəti üçün əlverişli şərait yaratmalıdır. Burada dövlətin hansısa siyasətindən söhbət getmir. Dövlətin üzərinə düşən vəzifələr strateji xarakter daşımalıdır. Misal

üçün nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və genişləndirilməsi dövlət tərəfindən ona görə həyata keçirilməlidir ki, ölkənin bütün regionlarının iqtisadi inkişafında tarazlıq yaransın (15, S.41). Neoliberalizmin təmsilçiləri infrastrukturu dövlət və biznes sektorunun əməkdaşlığının ortaq nöqtəsi kimi qələmə verir. İnfrastruktur layihələrinin gerçəkləşməsində biznes subyekti kimi çıxış edən dövlətin üzərində demokratik nəzarət mexanizmlərinin zəruriliyini də qeyd edirlər.

Neoliberallara görə dövlətin iqtisadiyyata müdaxiləsinin üç əsas səbəbi ola bilər: təbii inhisarçılığın labüdlüyü (dövlət əhəmiyyətli infrastruktur layihələrin həyata keçirilməsi), bazar münasibətlərinin tam formalaşmaması və bir sıra sosial sferalar. Neoliberalizmə görə, dövlətin biznes subyektləri ilə əməkdaşlığı o zaman mümkündür ki, iqtisadiyyatın bütün sferalarını inhisarçılıq və qeyri-sağlam rəqabət bürüyür. Bu zaman ayrı-ayrı iqtisadi subyektlərin problemlə bağlı fəaliyyəti səmərəsiz olarsa, dövlət köməkçi qüvvə kimi prosesə müdaxilə edə bilər (14, S. 180).

Dövlət özəl sektor əməkdaşlığının nəzəri əsaslarının formalaşmasında **keynsçilik** iqtisadi cərəyanının xüsusi rolu olmuşdur. Bu cərəyanın əsasını qoyan C. Keyns dövrünün liberal yanaşmalarından fərqli olaraq iqtisadiyyatın makro səviyyədə tənzimlənməsində dövlətin rolunun zəruri olması iddiası ilə çıxış edir.

XX əsrin 40-70-ci illərində keynsçilik iqtisadi model kimi ABŞ və Qərbi Avropa ölkələrində başlıca iqtisadi siyasət forması kimi paralel aktual olan liberalyönümlü cərəyanları sıxışdırıb sıradan çıxarır. Bunun bir sıra obyektiv səbəbləri var idi. ABŞ-da 30-cu illərdə geniş vüsət alan "böyük iqtisadi depressiya" və Qərbi Avropada İkinci dünya müharibəsinin nəticələri dövlətin iqtisadiyyatın inkişafını stimullaşdıra biləcək yeganə aktor kimi rolunu xeyli yüksəldirdi. Dövlətin iqtisadiyyata və onun özəl subyektlərinə hamiliyi məhz keynsçilik iqtisadi cərəyanı tərəfindən müdafiə edilirdi. Klassik keynsçilərin dövlətin iqtisadi münasibətləri tənzimlənməsi metodu Qərb iqtisadi nəzəriyyələrində "dirijizm" kimi təqdim edilirdi. Keynin ardıcıllarından hesab olunan fransız iqtisadçısı F. Perru dirijizmi dövlət tərəfindən iqtisadiyyatın önəmli sektorlarının inkişafını təmin etmək üçün vaxtaşırı qəbul etdiyi proqramlar və bu proqramları həyata keçirmək üçün özəl sektorun subyektləri ilə əməkdaşlığı kimi izah edirdi (12).

D. Keyns 1936-cı ildə işıq üzü görən "Məşğulluğun, faizin və pulun əsas nəzəriyyəsi" adlı əsərində özünün dövlət və iqtisadi münasibətlərlə bağlı əsas müddəalarını formulə edir. Məhz bu əsəri ilə o, dövrünün iqtisadi proseslərinin şərhi üzrə dünya liderlərindən birinə çevrilir. Keyns iddia edir ki, özəl sektorun sərbəst institutlarının əsas spesifik xüsusiyyəti ondadır ki, onların fəaliyyəti şəxsi mənfəət prinsipinə əsaslanır. Son nəticədə belə bir xüsusiyyət bazar münasibətlərinin sərbəst şəkildə özünü tənzimləməsini mümkünsüz edir. Özəl sektor gəlirlərinin bir hissəsini yığım formasında saxlamağa cəhd edir. Bunun nəticəsi olaraq tələbin ümumi səviyyəsi təklifin ümumi səviyyəsindən aşağı düşür. Bunun qarşısını almaq isə mümkün deyil. Buna görə də dövlət məcmu halda tələbin səviyyəsini müxtəlif üsullarla artırmalıdır: pul kütləsinin ümumi çəkisini şişirtməli, faiz səviyyələrini aşağı salmalıdır. Nəticədə tələbin çatışmazlığı ictimai işlərlə və büdcə maliyyələşməsi ilə kompensasiya olunur.

Keynsin konsepsiyasında xüsusi məntiq var. O iddia edir ki, bütün iqtisadi problemlər istehlak tələbinin ümumi səviyyəsinin aşağı düşməsindən başlayır. Nəticə etibarı ilə əmtəə və xidmətlərin istehsal səviyyəsi aşağı düşür. Bu isə xırda istehsalçıların müflisləşməsinə gətirib çıxarır. Nəticədə ölkədə işsizlərin sayı çoxalır. İşsizlik əhalinin gəlirlərinin aşağı düşməsinə səbəb olur. Gəlirlərin aşağı düşməsi istehlakçıların alıcılıq qabiliyyətinə təsir edir. Nəticədə, "sonsuz" dövriyyə formalaşır. Bu dövriyyə iqtisadiyyatı xroniki depressiyada saxlayır. Keyns hesab edir ki, bu tip depressiyaların aradan qaldırılması vəzifəsi məhz dövlətin üzərinə düşür. Əgər kütləvi alıcı ümumi tələbin səviyyəsini ümummilli səviyyədə artırmaq qabiliyyətinə malik deyilsə, bunu dövlət etməlidir. Bu zaman dövlət bazara iri sifarişçi kimi daxil olmalı, özəl sahibkarlara xüsusi sifariş verməli, bu isə özəl sektoru yeni əmək qüvvəsi axtarışına sövq etməlidir. Əməkhaqqı alan işçi alıcılıq qabiliyyətini artırır və iqtisadi tələbatın artımına səbəb olur. Son nəticədə bu, iqtisadiyyatın inkişafı deməkdir.

İqtisadiyyatın keynsçilik modelinin bir sıra nümayəndələri dövlətin iqtisadi inkişaf naminə bu sferaya dolayı müdaxiləsinin ən müxtəlif aspektlərini nəzərdən keçirirlər. Belə nəzəriyyəçilərdən biri C. Tobin olmuşdur. O iddia edirdi ki, ÜMM-də dövlət xərclərinin həcmi böyük olan ölkələrdə də iqtisadi artımın sürətlənməsi müşahidə olunur. Tobina görə, iqtisadi inkişafın sürətləndirilməsi üçün dövlətin sırf

bu sferaya yatırım etməsi əsas şərt deyil. Böyük Britaniyanı misal göstərən Tobin qeyd edirdi ki, bu ölkədə dövlət hər şeydən öncə təhsil və səhiyyəyə yatırım edir. Buna insan kapitalına yatırım demək olar. Bu da dolayı yolla iqtisadi inkişafın əsaslarından birini təşkil edir. Böyük Britaniyada insan kapitalına sərmayə qoyuluşu son nəticədə ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artmasına səbəb olmuşdur. Təbii ki, sosial sferaya qoyulan investisiya dərhal gəlir vermir. Lakin bununla belə, gəlirin stabilləşməsinə və uzunmüddətli olmasına yardımçı olur.

Keynsçilik XX əsrin 70-ci illərinə qədər qərb ölkələrində iqtisadi siyasətin əsas modelinə çevrilir. Qeyd etmək lazımdır ki, bu illərdə model olaraq o özünü doğruldur və bu modelin çoxlu sayda tərəfdarları meydana gəlir.

XX əsrin 70-ci illərində ənənəvi keynsçilik metodları arxa plana keçir. Keynsçilik yeni Keynsçiliklə yaxud neokeynsçiliklə əvəz olunur ki, burada da dövlət və özəl sektor münasibətləri yeni prizmadan nəzərdən keçirilir. Əgər ənənəvi keynsçilik dövlətin iqtisadi proseslərə maliyyə-kredit və büdcə siyasəti mexanizmləri ilə dolayı müdaxiləsini nəzərdə tuturdusa, yeni keynsçilik dövlət-özəl sektor əməkdaşlığını uzunmüddətli perspektivdə hər iki tərəfin eyni statusda əməkdaşlığını nəzərdən keçirməyə başlayır. Neokeynsçilik dövlət və özəl sektor əməkdaşlığının predmetini makroiqtisadi infrastrukturun qurulmasında görür (14, S. 41).

Dövlətin iqtisadi proseslərə müdaxiləsi və özəl sektorla əlaqələrinə yanaşma baxımından neokeynsçilik ABŞ və Qərbi Avropa cərəyanlarına bölünür. ABŞ-da bu cərəyanın əsas siması iqtisadçı və amerikan keynsi adlandırılan E. Hansen idi. Hansenin iqtisadi proseslərin tənzimlənməsində tutduğu mövqe dövlət və özəl sektorun funksional baxımından eyniləşdirilməsinə gətirib çıxarır. Özünün “İqtisadi silk və milli gəlir” adlı əsərində Hansen qeyd edir: “Dövlət xərcləri və müstəqil investisiyalar milli gəlirin genişlənməsi və azalmasının ən mühüm və dinamik amilləridir. Qeyd olunmalıdır ki, gəlirlərə təsir baxımından dövlətin çəkdiyi xərclər özəl sektorun investisiyaları ilə eynilik təşkil edir. ...Milli gəlirlərin formalaşması üçün çəkilən dövlət xərcləri vegi siyasəti vasitəsilə qarşılanır” (5, S. 172). Dövlət xərclərini investisiya adlandıran Hansen hesab edir ki, bu investisiya istər dövlət, istər özəl sektor üçün əhəmiyyət daşıyan sahələrə qoyulmalıdır. Hansen belə sahələri makro səviyyədə götürür. Misal üçün ABŞ-da enerji resursları və su nəqliyyatını, o cümlədən dəmir yol nəqliyyatını göstərir (10). O, faydalı qazıntıların mənimsənilməsini, şəhər təsərrüfatının bərpası və inkişaf etdirilməsini, yaşayış binalarının tikintisini dövlət investisiyasının əsas istiqamətləri kimi sadalayaraq bu sferaya qoyulan sərmayəni cəmiyyətin tələbatları ilə izah edir. Başqa sözlə, Hansen izah edir ki, özəl sektor iqtisadi münasibətlərin subyekti kimi resurslarının məhdudluğu və uzunmüddətli layihələri maliyyələşdirə bilməməsi səbəbindən bütövlükdə iqtisadi sferaların balanslı inkişafı prosesində iştirak edə bilmir. O sferalar ki, özəl sektorun maraq dairəsinə daxil deyil, bu sferalarda dövlət investisiyaları xüsusi mexanizm kimi işə düşür. Bütövlükdə isə dövlət və özəl sektor qarşılıqlı fayda naminə əməkdaşlıq etmiş olur.

Təbii ki, nəzərdən keçirilən iqtisadi nəzəriyyələr hər şeydən öncə, dövlətin iqtisadi proseslərə müdaxiləsinin mümkünlüyü ilə yanaşı, onun məqsədəuyğunluğunu, bu müdaxilənin əsas vəzifələrini, effektivlik dərəcəsini, müdaxilə formalarını, müdaxilə nəticələrini qiymətləndirməyə imkan verir. Təbii ki, iqtisadi nəzəriyyələrdə bu proses təsadüfən tədqiq olunmamışdır. Əslində, dövlət və özəl sektor əməkdaşlığı minillər boyu təcrübədən keçirilmiş bir prosesdir və onun tarixin müxtəlif dövrlərində bizə məlum olan əsas formaları konsessiyalardır[1]. Orta əsrlər Avropasında da bu konsessiyalar tətbiq olunurdu. Misal üçün Fransa zadəganı Luis de Bernam 1438-ci ildə Reyn çayı üzrə malların daşınması konsessiyasını əldə etmişdir. XVIII əsrin sonu, XIX əsr boyu Avropa ölkələrində, ABŞ-da, Yaponiyada yolların, dəmir yollarının, su kanallarının tikilməsi və istifadəsi prosesində konsessiyalar geniş tətbiq edilirdi (6, S.3).

Praktiki olaraq iqtisadi nəzəriyyələrdə özəl sektor subyektlərinin dövlət funksiyalarını yerinə yetirməsi məsələsinə toxunulmur. Müasir dövlət idarəçiliyinin əsas problemlərindən biri kimi dövlət-özəl əməkdaşlığının qəbul edilən iki əsas şərhi bu fikri söyləməyə əsas verir. Bu şərhlərdən birinə görə, dövlət özəl əməkdaşlığı dövlət əmlakının özəlləşdirilməsi, yaxud dövlət funksiyalarının ötürülməsidir (7, S. 67). Bu şərh özəl sektor institutlarının dövlət funksiyalarının (layihələndirmə, maliyyələşmə, tikinti, dövlət müəssisələrinin işlədilməsi) əldə etməsinin miqyasını nəzərdə tutur. İkinci şərhə görə isə dövlət-özəl əməkdaşlığı hər iki sektorun fəaliyyət sərhədlərində yaranır. Burada milliləşmə, yaxud özəlləşmədən

söhbət getmir. Mahiyyət etibarı ilə ikinci şərhə görə, dövlət-özəl sektor əməkdaşlığı əhaliyə ictimai xidmətlərin göstərilməsinin siyasiləşmiş mexanizmidir (4). Bu şərhlər onu deməyə əsas verir ki, bizə idarəetmə kateqoriyası kimi məlum olan dövlət-özəl əməkdaşlığı obyekt-subyekt münasibətləri səviyyəsində ikili vektora malik olur. Bir vektor dövlətin özəl sektora, onun institutlarına olan münasibətini, onların funksiyalarını yerinə yetirmək cəhdlərini, digər vektor isə ikincinin dövlət institutuna yönəlməsini, onun vəzifə və səlahiyyətlərini yerinə yetirmək cəhdlərini nəzərdə tutur. Məhz buna görə idarəetmə kateqoriyası kimi dövlət-özəl sektor əməkdaşlığını sırf iqtisadi nəzəriyyələr prizmasından müəyyənləşdirmək çətindir. Baxmayaraq ki, onların bəziləri konkret olaraq dövlət-özəl sektor əməkdaşlığının xüsusi bir tədqiqat istiqamətinə çevrilməsinə səbəb olmuşdur. Təbii ki, söhbət neoliberalizm və nekeynsiyançılıqdan gedir.

**Qeyd:** *1. Konsessiyalar dövlət mülkiyyətində və nəzarətində olan, tikilməsi, yaxud bərpası qeyri-dövlət subyektlərinə ötürülən və daha sonra bu obyektlərdən gəlir əldə etmək hüququ verən müqavilələrdir.*

## ƏDƏBİYYAT SİYAHISI:

***Azərbaycan dilində:***

*1. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı, Elm, 2006. 509 səh. səh 31*

***İngilis dilində:***

*2. Beth E. Warner. John Stuart Mill's Theory of Bureaucracy within Representative Government: Balancing Competence and Participation/Public Administration Review Vol. 61, No. 4 (Jul. - Aug., 2001), pp. 403-413 (11 pages). Səh. 403*

*3. David Levi-Faur. Friedrich List and the political economy of the nation-state. Review of International Political Economy 4:1 Spring 1997: 154–178 Səh 167*

*4. Gerrard Michael B., Public-Private Partnerships // Finance and development, September 2001, Volume 38, № 3.*

*5. Hansen, Alvin H. (1964). Business Cycles and National Income. London: Allen Unin. P 172*

*6. Jomo KS, Anis Chowdhury, Krishnan Sharma, Daniel Platz. Public-Private Partnerships and the 2030 Agenda for Sustainable Development: Fit for purpose? DESA Working Paper No. 148 ST/ESA/2016/DWP/148 30 pages. Səh 3*

*7. Public/Private Parthnerships: Financing a Common Wealth. Fd. Weiss B. Wash., 1985. – P. 67*

***На русском:***

*8. ГОСУДАРСТВЕННО-ЧАСТНОЕ ПАРТНЕРСТВО теория и практика/Коллектив авторов: В.Г. Варнавский, А.В. Клименко, В.А. Королев (Институт государственного и муниципального управления Государственного университета – Высшей школы экономики);-Мосва 2010. Səh 12*

*9. Взаимодействие бизнеса и органов власти : учебник и практикум для вузов / Е. И. Марковская [и др.] ; под редакцией Е. И. Марковской. — 2-е изд. — Москва : Издательство Юрайт, 2020. — 368 с. S. 14*

*10. Классики кейнсианства.Т. 2. Предисл., сост. А.Г. Худокормов / Хансен Э. Экономические циклы и национальный доход / Пер. с англ. М.: Экономика, 1997.*

*11. Клинова М. Взаимодействие государство и бизнеса. Взгляд сквозь время. Экономическая стратегия. № 4/2016. Стр 189-196 Səh 190*

*12. Л. И. Лопатников. Экономико-математический словарь: Словарь современной экономической науки. — М.: Дело. 2003*

*13. Лукина А.Н. Административно-правовое регулирование государственно-частного партнерства в России: диссертация ... кандидата юридических наук: 12.00.14. - Москва, 2016. – С. 17*

*14. М.В. Клинова. Взаимодействие государства и бизнеса. Взгляд сквозь время. Экономические стратегии № 3/2016 Стр. 172-181. Səh 180*

*15. Мизес Л. фон. Либерализм / Пер. с англ. М.: Экономика, Социум, 2001 S. 41*

*16. Милль Дж. С. Основы политической экономии и некоторые аспекты их приложения к социальной философии: в 3 т. / Дж. С. Милль. - М.: Прогресс, 1998. - 447 с*

*17. Мостепанюк А. В. Формирование научных взглядов на сотрудничество государства и частного капитала в рыночной экономике. Современная наука №3 (3) 2010. Стр. 182-186.*

*18. Смит А. Исследование о природе и причинах богатства народов. / А. Смит; пер. с англ. В. С. Афанасьев. -М.: Эксмо, 2007. - 957 с,*

*19. Фролова. Е. А. Государство в современной экономической теории: кейнсианские, неокласси-*

*ческие и институциональне трактовки проблемы. Вестник ТГПУ. 2000. Выпуск 5 (21). Серия: Экономика. Стр 44-51 Səh 46*

*20. Хайек Ф. фон. Дорога к рабству / Пер. с англ. М.: Экономика, 1992. Səh 147*

## XÜLASƏ

Məqalə dövlət-özəl sektor əməkdaşlığının nəzəri əsaslarının təhlilinə həsr edilmişdir. Müasir dövlət idarəçiliyi ilə bağlı elmi tədqiqatların yeniliyini nəzərə alan müəllif problemi hər şeydən öncə bazar iqtisadiyyatı mühitində dövlətin iqtisadi proseslərə müdaxiləsi rakursundan nəzərdən keçirməyi düzgün hesab edir. Bu mənada ənənəvi iqtisadi yanaşmalarda dövlət-özəl sektor münasibətlərini münasibəti araşdırır. Məqalə dövlət-özəl sektor tərəfdaşlığının metodoloji aspektlərini əhatə edir.

**Açar sözlər:** *dövlət özəl münasibətləri, liberalizm, keynsçilik, neoliberalizm, iqtisadiyyata dövlət müdaxiləsi.*

## SUMMARY

The article is devoted to the analysis of the theoretical foundations of public private sector cooperation. Taking into account the novelty of scientific research on modern state administration, the author considers it correct to consider the problem first of all from the point of view of the state's intervention in economic processes in the environment of the market economy. In this sense, traditional economic approaches examine the attitude of the state to private sector relations. The article covers methodological aspects of public private sector partnership.

**Key words:** *public-private relations, liberalism, Keynesianism, neoliberalism, state intervention in the economy.*

UOT 32

# VƏTƏNDAŞ CƏMİYYƏTİ DEMOKRATİK DÖVLƏTİN MÜHÜM KOMPONENTİ KİMİ

**ƏFSANƏ QƏHRƏMANLI**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*Email: afsanaqahramanli@gmail.com*

**Giriş.** Müasir dövrümüzdə populyarlığa malik olan demokratiya, idarəçilik forması kimi geniş aspektdə araşdırılmaqda davam edir. Müharibələr və bəzi ölkələrdə insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması, hüquq və azadlıqların təminatına zəmanət verən demokratiya kimi bir idarəetmə formasını xalqların başlıca tələbinə çevirmişdir. Mövcud olan və indiyə kimi sınaqdan keçirilmiş idarəetmə formaları arasında ən yaxşı idarəetmə forması hesab edilən demokratiya xalq üçün ona görə əhəmiyyət kəsb edir ki, yalnız demokratiya cəmiyyətin həqiqi mənada özünü ifadə etməsinə və idarəetmədə iştirakına icazə verir. Cəmiyyətin idarəetmədə özünü ifadə etməsinin, siyasi iştirakının və dövlət idarəçiliyinə təsirinin formalarından biri və ən başlıcası vətəndaş cəmiyyətidir. Müxtəlif tarixi mərhələlərdən keçərək bugünki mənasına gəlib çatan vətəndaş cəmiyyəti demokratiyanın ayrılmaz tərkib hissələrindən biri hesab edilməklə yanaşı, cəmiyyətin idarə edilməsində iştirak edən 3 sektordan biri olaraq xüsusi əhəmiyyətə malikdir.

**Vətəndaş cəmiyyəti anlayışına baxış.** Vətəndaş cəmiyyəti anlayışı siyasi fikir tarixində dərin kök salmış anlayışlardan biridir. Vətəndaş cəmiyyəti demokratik əsaslara malik olan idarəetmə formasında önəmli mövqeyə malik olduğu kimi, həm dövlət, həm də xalq üçün mühüm əhəmiyyət kəsb etməkdədir. Vətəndaş cəmiyyəti özünü formalaşdıran, öz dayaqları olan, dövlətdən asılı olmayan, öz qərarlarını müstəqil qəbul edən və ictimai fəaliyyətlə məşğul olan insanların birliyi, özəl sektorla dövlət arasında bir növ vasitəçi olan mütəşəkkil sosial strukturdur [10, 46]. Vətəndaş cəmiyyəti həm də dövlət və fərd arasında danışıqların və birləşmənin məcburiyyət və məhdudiyyət olmadan baş verdiyi ara məkan kimi də müəyyən edilir [4]. Başqa bir tərifə görə, vətəndaş cəmiyyəti ümumi rifah naminə qanunun aliliyini təmin etməyə sadiq olan rejim kimi müəyyən edilir [17, 1]. Vətəndaş cəmiyyətinin inkişafı mədəni prosesdir və plüralizm, müstəqillik, həmrəylik, sosial məlumatlılıq, siyasi iştirak, təhsil, mədəniyyət və s. kimi elementlərin inkişafı ilə paraleldir. Con Kinin tərifinə görə, vətəndaş cəmiyyəti zorakılıqlara və şiddətə qarşı olan, özünü təşkil edən, özünü qiymətləndirən və əks etdirən, həm bir-biri ilə, həm də onların hərəkətlərini çərçivələyən, məhdudlaşdıran və fəaliyyətinə imkan verən dövlət qurumları ilə daim gərginlikdə fəaliyyət göstərən, qanunla qorunan qeyri-dövlət qurumlarının mürəkkəb və dinamik bir kompleksini həm müəyyən edən, həm də nəzərdə tutan ideal tipli kateqoriyadır [20, 6].

Tarixə müraciət etsək, ilk dəfə vətəndaş cəmiyyəti anlayışına qədim Yunanıstanda Aristoteldə rast gəlinir [15, 45-83]. Aristotel vətəndaş cəmiyyəti anlayışını həm cəmiyyət, həm də dövlət müqabilində mütəşəkkil hakimiyyət mənasında işlədirdi [5, 40]. Aristotelə görə vətəndaş cəmiyyəti fərdi maraqlardan asılı olmayan qaydalara uyğun idarə olunan və ictimai rifahı təmin etməyi qarşısına məqsəd qoyan bir cəmiyyətdir [8,48].

Orta əsrlərdə vətəndaş cəmiyyəti fenomeni haqqında düşüncənin təməl strukturu, əsasən, maarifçilik dövrü mütəfəkkirlərinin dövlət-cəmiyyət münasibətlərinə dair fikirlərində formalaşmışdır.

Bu mütəffəkkirlərdən biri olan Lokk, vətəndaş cəmiyyətini insanların sağlam düşüncəli qərarlarının dövlət siyasətində əks etdirməsi kimi müəyyən etmişdir. Onun fikrincə, ictimai sahədə özünü ifadə edənlərin ağlabatan istəkləri siyasətlərin hazırlanması üçün istifadə olunurdu [3, 46].

Dövlət idarəetməsi sahəsində öz fikirləri ilə fərqlənən maarifçi mütəfəkkir Russoya görə vətəndaş cəmiyyəti iki məqsədə xidmət etmək üçün yaranır: hamı üçün sülhü və mal sahibi olmaq şansı olan hər kəsin mülkiyyət hüququnu təmin etmək. Lakin bunun hər kəs üçün müəyyən üstünlükləri olsa da, vətəndaş cəmiyyəti daha çox varlı təbəqənin xeyrinə olan bir sosial-siyasi qurum kimi görünürdü, çünki bu onların faktiki mülkiyyətini qanuni mülkiyyətə çevirir və yoxsulları sahibsiz buraxırdı [28].

Neoklassik alman fəlsəfəsinin banisi, filosof İmmanuel Kant iddia edirdi ki, vətəndaş cəmiyyəti vətəndaşların qanunvericilikdə iştirak etdiyi cəmiyyət və ya nizamdır [9, 29]. Vətəndaş cəmiyyəti

anlayışı indiki mənasını daha çox Hegelin yazdığı dövlət fəlsəfəsi haqqında fikirlərində tapmışdır. O, vətəndaş cəmiyyəti anlayışına siyasi baxımdan daha çox hüquqi baxımdan yanaşmış, onun dövlətdən ayrı bir qurum olduğunu qeyd etmişdir [22, 140]. Hegel vətəndaş cəmiyyəti ilə siyasi cəmiyyətin ayrı olduğunu müəyyənləşdirirdi. Hegelə görə, vətəndaş cəmiyyəti fərdi maraqların toqquşma sahəsi olduğu üçün fərd yalnız öz maraq və məqsədlərinə üz tutacaqdır [11, 152]. Həmçinin, Hegel vətəndaş cəmiyyətini müasir dünyanın tarixi inkişaf prosesinin nəticəsi, başqa sözlə desək, tarixi transformasiya prosesinin məhsulu kimi görürdü. O, hesab edirdi ki, vətəndaş cəmiyyətində insanlar öz ehtiyaclarını ödəməyə çalışır və bu səbəbdən bir-birinə ehtiyac duyurlar [5, 153].

Hegeldən fərqli olaraq Marks, vətəndaş cəmiyyəti və dövləti bir-birindən ayırmırdı. Tarixin bütün dövrlərində vətəndaş cəmiyyətinin mövcud olduğunu iddia edən Marks elə hesab edirdi ki, vətəndaş cəmiyyəti məhsuldar qüvvələr tərəfindən idarə olunan sinfi münasibətlər növüdür [5, 207-209].

İtalyan filosof və siyasi xadim Qramşi vətəndaş cəmiyyətini Marks kimi bir infrastruktur sahəsi kimi deyil, üst struktur sahəsi kimi görürdü və onu bir sosial qrupun bütün sosial quruluş üzərində hegemonluğu kimi təsvir edirdi [1, 1-13].

Müasir dövrün tanınmış alman filosofu və sosioloqu Yurgen Habermas vətəndaş cəmiyyətini, vətəndaşların dövlətin təsir dairəsi və iqtisadiyyatı hüdudlarından kənarda qruplar yaratmaq və könüllü olaraq bir araya gəldikləri ictimai münasibətlərdə istehsal olunan və yaradılan kommunikasiya strukturları kimi ifadə edir [6, 52].

Vətəndaş cəmiyyəti haqqında tarix boyu səsləndirilən bu fikirlərə nəzər yetirdikdə deyə bilərik ki, fikirlərin müxtəlifliyi, bu anlayışın tarixən müxtəlif mənalarda işlədilməsinə və bugünkü mənası kimi başa düşülənə qədər mühüm bir inkişaf yolu keçdiyinə dəlalət edir. Termin olaraq, "vətəndaş cəmiyyəti" "hakimiyyətin zülmündən qurtuluş" kimi ifadə edilir [2, 7]. Vətəndaş cəmiyyəti günümüzdə, xalqın idarəetməyə təsirinin önəmli bir növü kimi çıxış edir. Vətəndaş cəmiyyəti təşkilatları idarəetmə qərarlarını yaxından izləyərək, bir növ şəffaflığın təmin edilməsində iştirak edirlər. Yəni, vətəndaş cəmiyyəti siyasi iştirak anlayışına, seçkilərdə iştirak etməkdən daha geniş məna qazandırır. Vətəndaşlar vətəndaş cəmiyyəti təşkilatları vasitəsilə aksiyalar, tətillər, etirazlar həyata keçirir və dövlət idarəetməsinə təsir göstərirlər.

Bütün bu mənalarından başqa, vətəndaş cəmiyyəti həm də vətəndaşların dövləti cəlb etmədən öz maraqlarını həyata keçirmək üçün iqtisadi muxtar məkandır [12, 23]. Yəni, vətəndaşlar könüllü birlikləri vasitəsilə iqtisadi və mədəni istehsal, məişət həyatı ilə məşğul olan və dövlətə yeri gəldiyində, hər hansı qərarın qəbulu üçün təzyiq etmə imkanına malik olan, həmçinin siyasi qərarların qəbulu və həyata keçirilməsi prosesində dövlətə nəzarət etməyə qadir olan bir siyasi, ictimai və sosial fenomendir.

**Vətəndaş cəmiyyəti və demokratiya.** Dövlətlə vətəndaş cəmiyyətinin qarşılıqlı sağlam fəaliyyətinin olması üçün cəmiyyətdə heç bir sosial qrup hakim qüvvəyə malik olmamalı və dominant ideologiya hökm sürməməlidir. Əgər dövlət cəmiyyəti müəyyən ideologiyaya uyğun formalaşdırmağa çalışırsa, cəmiyyətdə dövlətin ideologiyasından kənar və yaxud ona qarşı fəaliyyət sahəsi yaratmaq çox çətin, bəzən isə mümkünsüzdür. Bu mənada, vətəndaş cəmiyyətinin ideal mənada mövcud olması və inkişafı üçün dövlətin tərəfsiz olması mühüm zərurətdir. Məhz, bu istiqamətdə demokratiyanı, vətəndaş cəmiyyətinin mövcudluğu və düzgün fəaliyyəti üçün ən uyğun idarəetmə forması hesab etmək olar. Vətəndaş cəmiyyəti, demokratiya adı altında idarə olunan qeyri-demokratik dövlətlərdə vətəndaşların həqiqi demokratiya yolunda mübarizəsini alovlandıra bilir.

Ümumiyyətlə, siyasi ədəbiyyatlarda vətəndaş cəmiyyətinin güclü və fəal olduğu siyasi rejimlər demokratik, vətəndaş cəmiyyətinin qadağan edildiyi və ya məhv edildiyi rejimlər totalitar [30], vətəndaş cəmiyyəti üzərində güclü dövlət nəzarəti tətbiq edən rejimlər isə avtoritar [23] olaraq təsnif edilir [27]. Buradan çıxış edərək deyə bilərik ki, vətəndaş cəmiyyəti, mövcudluğunun təminatçısı kimi demokratik rejimə möhtacdır.

Həmçinin, dövlətdən asılı olmayan, özü-özünü formalaşan vətəndaş cəmiyyətinin mövcudluğu dövlətin repressiv müdaxilələrinin qarşısını almaqla dövlət hakimiyyətinin məhdudlaşdırılmasında mühüm rol oynayır. Ona görə də demokratiyanın qorunub saxlanması və yaşaması üçün real vətəndaş cəmiyyətinin mövcudluğu da son dərəcə vacibdir. Filosof Rocer Skrutonun fikrincə, vətəndaş cəmiyyəti institutları olmadan demokratiya özlüyündə şəxsi və siyasi azadlığı təmin edə bilməz [26]. Əslində,

demokratiya ilə vətəndaş cəmiyyəti arasındakı bu sıx əlaqə, hər ikisi üçün də ortaq olan dövlət hakimiyyətinin məhdudlaşdırılması, onun neytrallığının təmin edilməsi və dövlət-cəmiyyət münasibətlərinin gücləndirilməsi, o cümlədən plüralizm, siyasi iştirak və ifadə azadlığının təmin edilməsi kimi bəzi əsas funksiyaların mövcudluğu səbəbindən irəli gəlir. Bu funksiyalar həm də demokratiyanın fəaliyyətində vətəndaş cəmiyyətinin əsas rollarını ifadə edir və demokratik idarəçiliyə sahib olan ölkələrdə vətəndaş cəmiyyəti demokratiyanın işləməsində mühüm rol oynayır. Schmitter və O'Donnell iddia edirdilər ki, dövlətlərin demokratikləşməsinin başlanğıcı həmin ölkədə qurulan vətəndaş cəmiyyətinin dirçəlişi ilə paralel başlayır [21].

Əgər tarixə nəzər yetirsək, demokratiyanın yaranmasına və mövcudluğuna öz töhfələrini vermiş vətəndaş cəmiyyəti təşkilatlarının şahidi olarıq. Məsələn, 1970-ci illərdən demokratiya uğrunda mübarizədə qadın hərəkatları, işçi hərəkatları, icma təşkilatları və s. kimi vətəndaş cəmiyyətinin bir sıra aktorları meydana çıxdı. Onlardan bəziləri demokratiyaya keçidə təsir göstərmiş, daha az hissəsi isə yeni demokratiyaların siyasətinin formalaşmasında böyük rol oynamışdır [18, 99]. Latın Amerikasındakı qadın hərəkatlarının rolu onların diktaturaya son qoymaqda əldə etdikləri nailiyyətlərə yaxşı nümunədir. 1970 və 1980-ci illərdə Latın Amerikasında avtoritar hökumətlər qadınları ailə daxilində və ailəni isə siyasətdən kənarda saxlamaq üçün nəzərdə tutulmuş gender diskursunu elan etdilər. Buna baxmayaraq, repressiya və yoxsulluq birləşərək qadınları ictimai-siyasi sahəyə atılmaya məcbur etdi və onlar ailələrinin müdafiəsi üçün səfərbər olundular [14, 16]. Qadın hərəkatı təşkilatları arasında beynəlxalq səviyyədə tanınanı uşaqlarını və nəvələrini müharibələrdə itirmiş, Argentinadakı hərbi diktaturaya qarşı yaradılmış Plaza de Mayo Anaları birliyi olmuşdur [29].

Vətəndaş cəmiyyəti təşkilatlarından olan Cənubi Avropa və Latın Amerikasındakı işçi hərəkatları birlikləri mühüm demokratiya tərəfdarı təşkilatlar idi. İspaniyada əmək müxalifəti 1960-1970-ci illərdə Franko rejiminin geniş şəkildə rədd edilməsinin ən mühüm istiqaməti idi. Çilidə ölkənin ən güclü həmkarlar ittifaqı olan Mis İşçiləri həmkarlar ittifaqı 1983-cü ildə etiraz günlərinin arxasında duran ilk qüvvə, Pinoçet rejiminə qarşı ilk kütləvi müxalifət olmuşdur [18, 103].

Günümüzdən nümunə göstərəsi olsaq, vətəndaş cəmiyyəti ABŞ və Qərbi Avropada siyasi hakimiyyətin demokratik olmasının təminatçısı və onun avtoritar gücə çevrilməsinin qarşısını alan mühüm bir siyasi aktor rolunda çıxış edir [13, 399-400].

Xose Orteqa-i-Qasset, Erix Fromm, Uilyam Kornhauzer, Hanna Arendt kimi nəzəriyyəçilərə görə, vətəndaş cəmiyyəti, cəmiyyətə təsir edən siyasi viruslara qarşı həlledici antidotdur. Həmçinin, müasirlik insanları ənənəvi sosial norma və adət-ənənələrin məhdudiyyətlərindən azad etdiyi halda, vətəndaş cəmiyyəti fəaliyyətləri insanlara tarazlığı və nizamı qorumağa kömək edən bir fenomendir [7, 79].

**Nəticə.** Demokratik idarəetmə formasında vətəndaş cəmiyyəti olduqca vacib mövqelərdən birinə sahibdir. Belə ki, düzgün əsaslarla qurulmuş və müstəqil fəaliyyət göstərən, öz vətəndaşlarının hüquq və azadlıqlarını təmin edən demokratik rejimi vətəndaş cəmiyyəti olmadan təsəvvür etmək mümkün deyil. Demokratiya və vətəndaş cəmiyyəti bir-birləri ilə əlaqəli anlayışlar olmaqla yanaşı, bir çox ortaq xüsusiyyətlərə də malikdirlər ki, bu da birinin mövcudluğunu digərinin yaranması üçün bir səbəbə çevirir.

Vətəndaş cəmiyyəti ilə demokratiyanın münasibəti bənzətmə ilə ifadə etsək, "yumurta toyuqdan yaranıb, yoxsa toyuq yumurtadan?" paradoksuna bənzəyir. Yəni, "vətəndaş cəmiyyəti inkişaf edən cəmiyyətdə demokratiya inkişaf edir, yoxsa demokratiya inkişaf edən yerdə vətəndaş cəmiyyəti inkişaf edir?" sualına dəqiq və aydın cavab tapmaq mümkün deyil [7, 84]. Çünki güclü vətəndaş cəmiyyətinin qurulması və onun mövcudluğunun qorunması siyasi rejimdən asılıdır. Dolayısı ilə, bunun üçün demokratik rejimə ehtiyac yaranır. Eləcə də yuxarıda göstərilən nümunələrdə biz vətəndaş cəmiyyəti təşkilatlarının demokratiyanın yaradılmasında məhək daşı rolunu oynadığının da şahidi olduq. Ona görə də gəlinən nəticə bundan ibarətdir ki, demokratiya və vətəndaş cəmiyyəti ikitərəfli əlaqələrə malik və bir-birinə ehtiyacları olan, bir-birini tələb edən anlayışlardır.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Bayhan, V. Demokrasi ve Sivil Toplum Örgütlerinin Engelleri: Patronaj ve Nepotizm. C.Ü. Sosyal Bilimler Dergisi, 2002, 26(1)*
2. *Bolay, H. Sivil Toplum ve Manası , Yeni Türkiye, Sivil Toplum Özel Sayısı, Yıl: 3, Sayı: 18, 1997*

3. Çaha, Ö. Aşkın Devletten Sivil Topluma, İstanbul: Gendaş Kültür Sanat Yayıncılık, 2000, 336 s.

4. Doğan, İ. Özgürlükçü ve Totaliter Düşünce Geleneğinde Sivil Toplum, İstanbul: Alfa Kitapevi, 2012, 307 s.

5. Doğan, İ. Sivil Toplum Anlayışı ve Siyasal Sistemler, Ankara: Astana Yayınları, 2015, 260 s.

6. Habermas, J. Kamusallığın Yapısal Dönüşümü, İstanbul: İletişim Yayınları, 2015, 414 s

7. Kabasakal, M. Sivil toplum ve demokrasi, Yeterlilik Tezi, İç işleri Bakanlığı Dernekler Dairesi Başkanlığı, Ankara 2008, 88 s.

8. Karadağ, A. Demokratikleşme ve Sivil Toplum: Liberal Düşünce Topluluğu Örneği, Sivil Toplum dergisi, 2003, 1 (4), ss. 45-58.

9. Kuçuradi, İ. Düşünen Sivil Toplum: Felsefi Yaklaşımlar-Açılımlar, İstanbul: Türkiye Ekonomik ve Toplumsal Tarih Vakfı, 2003, 148 s.

10. Onbaşı, F. Sivil Toplum, İstanbul: L&M Yayınları, 2005, 140 s.

11. Sarıbay, A. Y. Global Bir Bakışla Politik Sosyoloji, İstanbul: Everest Yayınları, 2008, 262 s.

12. Türköne, M. Sivil Toplum Tanrısı Öldü mü?, Yeni Türkiye, Sivil Toplum Özel Sayısı, Yıl : 3, Sayı: 18., 1997

13. Uluç, V. Türkiye'de Sivil Toplum ve Demokrasi İlişkisi. C.Ü. İktisadi ve İdari Bilimler Dergisi, 2013, 14(1), 399-418

14. Alvarez, S. Engendering Democracy: The Women's Movement in Brazil, Princeton, NJ: Princeton University Press, 1990, 320 p.

15. Blumenfeld, B. The Political Paul: Democracy and Kingship in Paul's Thought, Sheffield Academic Press, 2001, 507 p.

16. Craske, N. Women and Politics in Latin America , New Brunswick: Rutgers University Press, 1999, 242 pp

17. DeLue, S. M., Dale, T. M.Political Thinking, Political Theory, and Civil Society, New York: Routledge, 2016, 488 p

18. Grugel, J. Democratization: A Critical Introduction, New York: ‎Palgrave Macmillan, 2002, 287 p.

19. Jean L. C., Andrew A. Civil Society and Political Theory, Cambridge: MIT Press, 1994, 800 p.

20. Keane, J. Civil Society: Old Images New Visions, Cambridge: Polity Press, 1998, 208 p.

21. Schmitter P., O'Donnell G., Whitehead L., Transitions from Authoritarian Rule, Baltimore: Johns Hopkins University Press, 1986, 190 p.

22. Splichal S., Calabrese A., Sparks C. Information Society and Civil Society-Contemporary Perspectives on the Changing World Order, West Lafayette: Purdue University Press, 1994, 371 p.

23. Authoritarianism, 23 october 2022 https://en.wikipedia.org/wiki/Authoritarianism

24. Civil Society, 24 october 2022, https://en.wikipedia.org/wiki/Civil_society

25. Civil society, Kenny M., 25 may 2016 https://www.britannica.com/topic/civil-society

26. Democracy, 24 october 2022 https://en.wikipedia.org/wiki/Democracy

27. Keyman, E. F. Avrupa'da ve Türkiye'de Sivil Toplum, 2008, https://www.academia.edu/2971550/Avrupada_ve_Türkiyede_sivil_toplum

28. Major works of political philosophy of Jean-Jacques Rousseau, By Maurice Cranston Sep 6, 2022, https://www.britannica.com/biography/Jean-Jacques-Rousseau/Major-works-of-political-philosophy

29. Mothers of the Plaza de Mayo, 20 september 2022, https://en.wikipedia.org/wiki/Mothers_of_the_Plaza_de_Mayo

30. Totalitarianism, 1 october 2022 https://www.newworldencyclopedia.org/entry/Totalitarianism

## XÜLASƏ

Məqalədə demokratik idarəetmə formasının mühüm tərkib hissəsi olaraq vətəndaş cəmiyyəti araşdırılır. O cümlədən, vətəndaş cəmiyyəti anlayışı görkəmli mütəfəkkirlərin fikirlərinə istinad edilərək təhlil və onun demokratiya ilə əlaqələri tədqiq edilir.

Vətəndaş cəmiyyəti, tarix boyu müxtəlif mənaları ifadə etmiş və uzun inkişaf yolu qət etmişdir. Günümüz mənası ilə, dövlətdən müstəqil sfera kimi fəaliyyət göstərən vətəndaş cəmiyyəti, yalnız demokratik idarəetmə formasına malik cəmiyyətlərdə mövcudluğunu davam etdirə bilər. Başqa sözlə desək, demokratiya vətəndaş cəmiyyətinin təminatçısı kimi çıxış edir. Eyni zamanda, vətəndaş cəmiyyəti də, öz növbəsində, demokratiyanın düzgün fəaliyyət göstərməsi və siyasi qərarların qəbulu prosesində vətəndaşların mənafeyinin təmsil olunması üçün bir növ nəzarət və təsir mexanizmi rolunu oynayır.

**Açar sözlər:** *vətəndaş cəmiyyəti, demokratiya, siyasi cəmiyyət, idarəetmə, mütəfəkkirlər*

## CIVIL SOCIETY AS AN IMPORTANT COMPONENT OF A DEMOCRATIC STATE


### SUMMARY

The article examines civil society as an important component of the form of democratic governance. Including, the concept of civil society is analyzed with reference to the opinions of prominent thinkers and its relations with democracy are researched.

Civil society has expressed various meanings throughout history and has traveled a long path of development. In today's sense, civil society, which operates as an independent sphere from the state, can continue to exist only in societies with a democratic form of governance. In other words, democracy acts as a guarantor of civil society. At the same time, civil society, in turn, plays the role of a kind of control and influence mechanism for the proper functioning of democracy and the representation of citizens' interests in the process of making political decisions.


**Keywords:** *civil society, democracy, political society, management, thinkers*

## ГРАЖДАНСКОЕ ОБЩЕСТВО КАК ВАЖНАЯ СОСТАВЛЯЮЩАЯ ДЕМОКРАТИЧЕСКОГО ГОСУДАРСТВА


### РЕЗЮМЕ

В статье рассматривается гражданское общество как важная составляющая формы демократического правления. В частности, анализируется понятие гражданского общества со ссылкой на мнения выдающихся мыслителей и исследуются его связи с демократией.

Гражданское общество выражало различные смыслы на протяжении всей истории и прошло долгий путь развития. В современном понимании гражданское общество, функционирующее как независимая от государства сфера, может продолжать свое существование только в обществах с демократической формой правления. Другими словами, демократия выступает гарантом гражданского общества. При этом гражданское общество, в свою очередь, играет роль своеобразного механизма контроля и влияния для надлежащего функционирования демократии и представительства интересов граждан в процессе принятия политических решений.


**Ключевые слова:** *гражданское общество, демократия, политическое общество, управление, мыслители.*

UOT: 327

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ DÖVRÜNDƏ VƏ MÜHARİBƏDƏN SONRA MİLLƏTLƏRARASI DİALOQUN FORMALAŞMASINDA AZƏRBAYCAN DİASPORUNUN ROLU

**AYNUR İSAYEVA**
*Azərbaycan Dillər Universitetinin doktorantı*
*E-mail: perviz.aynur111@gmail.com*

Azərbaycanda diaspor anlayışı ilə bağlı fikirlər yeni yaransa da, qeyd etmək lazımdır ki, soydaşlarımızın dünyanın müxtəlif ölkələrinə köçməsi prosesi bir neçə əsr əvvəl başlamışdır. Azərbaycanlıların digər xalqlarla müqayisədə vətənə daha çox bağlılığı səbəbindən vətənlərini tərk etmək və xaricdə yaşamaq onlar üçün çətin idi. Təsadüfi deyil ki, vətən-qürbət mövzusu Azərbaycanın şifahi xalq ədəbiyyatında mühüm yer tutur. Özü də bu mənəvi amil Azərbaycan diasporunun yaranmasının olduqca qədim tarixə malik olduğunu təsdiqləyir.

Dövlətlərarası münasibətlər keçmişdən bu günə qədər mövcud olub və bu münasibətlər getdikcə daha geniş miqyas almışdır. Xüsusən də qloballaşan dünyada dövlətlərarası münasibətlərin əvvəlki dövrlərdən qat-qat asan qurulduğu məlumdur.

Dövlətlər arasında problemlər, böhranlar diplomatiya yolu ilə həll olunmasa, diplomatiyanın yetərsizliyi nəticəsində müxtəlif münaqişələr, müharibələr yaranması labüddür. Diplomatiya irqindən, cinsindən, dilindən asılı olmayaraq bütün dövlətlərarası münasibətlərdə fəal rol oynayır. Diplomatiya geniş mənada beynəlxalq münasibətlər, dar mənada isə Xarici İşlər Nazirliyi və əlaqədar şəxslər və qurumlar vasitəsilə həyata keçirilən kompromis vasitəsidir.

Müasir dövrdə dövlətlərarası sərhədlərin aşınması ilə nəticələnən qloballaşma prosesinin geniş vüsət alması ilə əlaqədar olaraq hər hansı dinin, mədəniyyətin, etnos, yaxud dilin identikliyinin təyin edilməsi olduqca çətin bir prosesə çevrilməkdədir. Bu zaman artıq dövlətlərin daxili və xarici siyasəti arasındakı fərqlərin tədricən azalması, yeni ölkələrin yaranması və millətlərin kütləvi yerdəyişməsi prosesləri bir-birini əvəzləyir. Son nəticədə qlobal səviyyədə miqrasiya prosesi isə diaspor cəmiyyətlərinin formalaşmasına gətirib çıxarır.

Müasir beynəlxalq münasibətlər aktorları bir çox xüsusiyyətlərinə görə fərqlənirlər: maraqlar, məqsədlər, resurslar, dünyanın siyasi inkişafına təsir imkanları, daxili təşkilatlanma prinsipləri və sair. Diaspor da belə qeyri-dövlət aktorlarından biri olaraq maraqlarına uyğun olan beynəlxalq sistemə əhəmiyyətli və davamlı təsir göstərə bilir.

Böyük Zəfər ili Azərbaycan diasporu üçün böyük sınaq və qələbə ili olmuşdur. Vətən müharibəsi dövründə xaricdəki soydaşlarımız yaşadığı ölkədən, çalışdığı yerdən asılı olmayaraq, milli birlik nümayiş etdirərək bütün imkanları ilə dövlətimizə dəstək göstərmişlər.

Müharibə dövründə Diaspor Komitəsinin koordinasiyası ilə 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatı, beynəlxalq təşkilatlar və Azərbaycandakı icmalar müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, BMT, Avropa Şurası və digər beynəlxalq qurumlara 23 dildə 2000-dək bəyanat göndərmişdir. Avropa Parlamentinin üzvlərinə 775 bəyanat çatdırılmış, müxtəlif ölkələrin 641 nəfər parlament üzvünə isə bəyanat və müraciətlər birbaşa təqdim olunmuşdur. Təkcə "Azərbaycan Diaspor Qadınları Şəbəkəsi"nin müraciəti elektron poçt vasitəsilə 58 dövlət başçısına, 44 beynəlxalq təşkilata və 5 minə yaxın vəzifəli şəxsə göndərilmişdir.

Diasporumuz tərəfindən sistemli və ardıcıl şəkildə 30-dan artıq xarici ölkədə 200-dək aksiya keçirilmişdir. Təkcə Berlin şəhərində keçirilən izdihamlı mitinqə 10 mindən çox soydaşımız qatılmışdır. Bu tədbirlərdə Türkiyə, İsrail, Pakistan, Ukrayna və digər xalqların nümayəndələri də iştirak etmişdir. Komitə əməkdaşlarının və diaspor təşkilatları üzvlərinin xarici media orqanlarına çıxışları intensivləşmiş, diaspor nümayəndələri xarici TV-lərdə 98 dəfə canlı yayıma qatılmışlar. Dünyanın 60 ölkəsindən minlərlə soydaşımızın qatıldığı 300-dən çox videokonfrans təşkil olunmuş, diaspor təşkilatları və üzvləri 60 ölkədə 32 dildə 535 məqalə dərc etdirmişlər. Soydaşlarımız tərəfindən Paris, Haaqa, Cenevrə, Nyu-York, Boston, Vaşinqton, Çikaqo, Toronto və digər böyük şəhərlərdə müxtəlif dillərdə hazırlanmış minlərlə poster yerləşdirilmişdir. Komitə tərəfindən Azərbaycan həqiqətlərini əks etdirən 55-dən çox qısa videomaterial hazırlanaraq yayımlanmışdır.

27 Sentyabr – Anım Günü və 8 Noyabr – Zəfər Günü ilə əlaqədar olaraq 50-yə yaxın ölkədə Azər-

baycan diasporu tərəfindən müxtəlif formatda 200-dən artıq layihə və tədbirlər təşkil olunmuşdur. Nüfuzlu qurumlara, beynəlxalq təşkilatlara müraciətlər ünvanlanmış, xarici KİV-də məqalələr dərc edilmiş, videoçarxlar yayımlanmışdır. Nyu-Yorkun "Times Square" meydanı, Yekaterinburq şəhərində Boris Yeltsin adına Prezident Mərkəzi, Londonun 10 məşhur binasında, eləcə də Helsinki, Bern, Roma və Saloniki kimi böyük şəhərlərin mərkəzlərində qələbə simvollarımızın təsvir olunduğu rəqəmsal lövhələr yerləşdirilmişdir.

Tarix 44 günlük Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda əməkdaşlıq və sülh üçün yeni imkanlar açıb. Ermənistan və Azərbaycan, regionun təxminən üç onillik davam edən münaqişəyə cəlb edilmiş iki ölkəsi, mövcud öhdəliklər, xüsusən də 10 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyannamə əsasında münasibətlərini normallaşdırmaq üçün ehtiyatla çalışırlar. Digər məsələlər arasında (yəni siyasi, humanitar və s.) noyabr Bəyannaməsi bölgədəki bütün iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasına xüsusi diqqət yetirir. Üçtərəfli Bəyannamənin 9-cu maddəsində aydın şəkildə deyilir: Regionda bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa olunmalıdır. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və malların hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının Qərb regionları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyata nəzarət Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FSB) Sərhəd Xidməti orqanları tərəfindən həyata keçirilir [6].

Məlumdur ki, Azərbaycan diasporu indi bütün ölkələrdə geniş fəaliyyət göstərir. Tədqiqatlara və rəsmi mənbələrə əsaslanaraq mütləq əminliklə qeyd etmək olar ki, Avropada, Şimali və Cənubi Amerikada, MDB-də və Özbəkistan, Qırğızıstan, Norveç, Hollandiya, Almaniya, İspaniya, İtaliya, Belçika, Bolqarıstan, Çexiya, Finlandiya, Estoniya, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Misir Ərəb Respublikası da daxil olmaqla bir sıra ölkələrdə 460-dan çox Azərbaycan icması yaradılmışdır, Türkiyədə müasir Azərbaycan icmalarının və birliklərinin yaradılması ölkəmizdə müasir diaspor quruculuğu prosesinin uğurları şəklində qiymətləndirilməyə layiqdir. Burada kiçik təşkilatların az sayda üzvü nəzərə alınmaqla, ildən-ilə bu rəqəm artır və aydın olur ki, bütün ölkələrdə yaşayan azərbaycanlılar öz saylarına görə təşkilatlanırlar. 44 günlük Zəfər müharibəsi zamanı Amerikadakı Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsinin şahidi ola bilərik. Məsələn, Azərbaycan Mərkəzinin təşkil etdiyi tədbirdə iştirak edən soydaşlarımız bu ölkədə dünya azərbaycanlılarının həmrəyliyini əks etdirmiş və Amerika ictimaiyyətinin diqqəti Gəncədə işğalçı Ermənistan ordusunun törətdiyi terror aktlarına, dinc sakinlərin, xüsusən də yetkinlik yaşına çatmayanların qətlə yetirilməsinə cəlb olunmuşdur [2, s.21].

2020-ci il müasir Azərbaycan diasporu üçün dönüş ili kimi xarakterizə olunur. Beləliklə, diasporumuz ilin əvvəlində dünyanı qəflətən bürümüş koronavirus pandemiyası səbəbindən çətin vəziyyətdə olan soydaşlarımıza dəstək olmaq üçün böyük birlik, həmrəylik və humanizm nümayiş etdirdi. Pandemiya ilə başlayan bu birlik Ermənistanın Tovuz təxribatı zamanı daha da gücləndi və torpaqlarımızın azad edilməsi uğrunda Vətən müharibəsində ən yüksək zirvəsinə çatdı. 44 günlük hərbi əməliyyatlar dövründə xaricdəki soydaşlarımız siyasi baxışlarından, dünyagörüşündən, yaşadığı ölkədən, iş yerindən asılı olmayaraq milli birlik nümayiş etdirmiş və dövlətimizə və ordumuza hər cür dəstək vermişlər. Onlar nəinki orduya, yaralı əsgərlərə, şəhid ailələrinə, cəbhəyanı ərazilərdə yaşayan, müharibədən zərər çəkmiş mülki şəxslərə, şəhid ailələrinə maddi və humanitar yardım göndərdilər, həm də düzgün səsimizi dünyaya çatdırmaqda böyük təşkilatçılıq və fədakarlıq göstərdilər. Milli birliyimiz Azərbaycanın cəbhədə böyük qələbəsinə gətirib çıxardı və beləliklə, Azərbaycan xalqı və dövləti ilə birlikdə diasporumuz yeni mərhələyə qədəm qoydu [4, s.48].

44 günlük Vətən müharibəsində böyük qələbədən sonra diaspor təşkilatlarımızın üzərinə böyük məsuliyyət düşdüyünü deyən S. Nəsirov ölkəmizin Misirdəki səfirliyi ilə birgə fəaliyyət göstərən "Vətənpərvər" Azərbaycan haqqında həqiqətlərin, o cümlədən torpaqlarımızın azad edilməsi və sonrakı proseslərin yerli və beynəlxalq ictimaiyyətin məlumatlandırılması istiqamətində mühüm işlər gördüyünü qeyd edib: "Vətən müharibəsi zamanı və qələbədən sonra biz bu istiqamətdə fəaliyyətimizi davam etdirdiyimizi geniş auditoriyaya çatdırmağa çalışdıq. Beləliklə, Misir və digər ərəb ölkələrinin kütləvi informasiya vasitələrində məqalələr dərc olunur, ərəbdilli ölkələrin oxucularına ermənilərin törətdikləri vəhşiliklər, tarixi və dini abidələrin dağıdılması və məscidlərin təhqir edilməsi barədə ətraflı məlumat verilir". Beləliklə, dünyanın müxtəlif

ölkələrində fəaliyyət göstərən diaspor təşkilatlarının ölkəmizin Azərbaycan dilinə, tarixinə və mədəniyyətinə marağın formalaşdırılması istiqamətində addımları göz qabağındadır. Diaspor nümayəndələri qeyd ediblər ki, Azərbaycan həqiqətlərinin dünya birliyinə çatdırılması məqsədilə yeni çağırışlar əsasında müvafiq fəaliyyətin davam etdirilməsi prioritet hesab olunur [8].

Şanlı 44 gündə diaspor təşkilatlarımız dünyanın 30-dan çox ölkəsində 200-ə yaxın aksiya keçirib və ümumilikdə bu aksiyalarda 25 mindən çox soydaşımız, eləcə də dost xalqların nümayəndələri iştirak edib. Bundan başqa, biz fəxr edirik ki, 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatı müxtəlif ölkələrin dövlət və hökumət başçılarına, parlament üzvlərinə və beynəlxalq təşkilatlara məktub və müraciətlər göndərir. Eyni zamanda, Azərbaycanda diaspor nümayəndələri ilə lazımi təbliğat işləri aparılır. 2022-ci ilin yanvar ayında Belçikadakı Azərbaycan diaspor və icma təşkilatlarının nümayəndələrinin iştirakı ilə işgüzar tədbir təşkil olunub. Səfir Vaqif Sadıqov fəaliyyət proqramını soydaşlarımızla müzakirə edib. O, Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsindən, Avropada yaşayan azərbaycanlıların lobbiçilik fəaliyyətindən, diaspor təşkilatlarının Azərbaycanın diplomatik korpusu ilə birlikdə bu qələbəyə verdiyi töhfələrdən danışıb. Belçika və Lüksemburqda Azərbaycan diasporunun təşkilat və icmalarının daha fəal olması və proseslərə fəal münasibət göstərməsi tövsiyə olunub [7].

Moldova Azərbaycanlıları Konqresinin təşəbbüsü və təşkilatçılığı ilə baş tutan aksiyada soydaşlarımız ölkəmizin dövlət sərhədində Ermənistan silahlı qüvvələrinin törətdiyi son təxribatlara, rəsmi İrəvanın Cənubi Qafqaz bölgəsində uzunmüddətli sülhün bərqarar olmasına mane olan cəhdlərinə etirazlarını bildiriblər. Yaxud da Gürcüstanın paytaxtı Tiflisdə yerləşən nüfuzlu beynəlxalq təşkilatların nümayəndəlikləri önündə Ermənistanın hərbi cinayətlərinə etiraz məqsədilə soydaşlarımızın dinc aksiyaları keçirilib. Marneulidəki "Azərbaycan Evi"nin rəhbəri Məhəbbət İmanovun təşkilatçılığı ilə baş tutan aksiyalar Gürcüstan İnsan Hüquqları üzrə Müvəkkil aparatının, BMT, Avropa Şurası və Avropa İttifaqının Tbilisidəki ofisləri qarşısında gerçəkləşdirilib. Almaniyanın paytaxtı Berlində də Ermənistanın hərbi cinayətlərinə etiraz olaraq soydaşlarımızın avtomobil yürüşü keçirilib. Azərbaycan icması Ermənistanın Niderland Krallığındakı səfirliyi qarşısında da piket keçirib. BMT-nin Cenevrədəki mənzil-qərargahının qarşısında isə yenə bu günlərdə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mina probleminə və Qarabağ müharibəsi zamanı itkin düşmüş şəxslərə həsr olunmuş sərgi-aksiya keçirilib. Qeyd edək ki, bütün bu tədbirlər sadəcə oktyabr ayının ilk yarısında reallaşıb və belə aksiyaların sayı daha çoxdur. Bu da Azərbaycan diasporunun ötən dövrlərlə müqayisədə indi daha aktiv fəaliyyət mərhələsinə daxil olduğunu göstərir [3].

44 günlük müharibədə dünya azərbaycanlılarını vahid cəbhədə birləşdirmək, xaricdəki siyasi və ictimai fəaliyyətləri ilə Ali Baş Komandanımızın dəmir yumruğuna güc qatmaq əsas məqsəd idi. Ona görə də xaricdəki erməni diasporunun yalan və böhtan kampaniyasına tutarlı cavab vermək Diasporla İş üzrə Dövlət Komitəsinin və dünya azərbaycanlılarının əsas hədəfinə çevrilmişdi. Diasporun Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması istiqamətində fəaliyyəti, Vətən müharibəsi dövründə diaspor təşkilatlarının dünyanın 30-dan çox ölkəsində 200-dək aksiya keçirməsi, bu aksiyalarda ümumilikdə 25 mindən çox soydaşımızın və dost xalqların nümayəndələrinin iştirakı, 50-dən çox ölkədə fəaliyyət göstərən 300-ə yaxın diaspor təşkilatının müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərməsi bu sahədə qurulmuş vahid siyasətin nəticəsidir. Müharibədən sonra isə əziz soydaşlarımızın Şuşaya səfəri təşkil olundu. Orada Prezident İlham Əliyevin iştirakı ilə növbəti möhtəşəm tədbir keçirildi, bütün dünyaya əzəli torpağımızdan, əsrarəngiz Şuşamızdan milli birliyimizin mesajları verildi. Bu ilin aprel ayında Ermənistan üzərində tarixi Qələbəmizdən sonra mədəniyyət paytaxtımız Şuşada keçirilən Dünya Azərbaycanlılarının V – Zəfər Qurultayı xalqımızın birlik və həmrəyliyinin daha bir nümunəsi oldu. Bu, Zəfərdən sonra keçirilən Dünya Azərbaycanlılarının ilk qurultayı idi. Dünyanın 65 ölkəsindən 400-dən çox soydaşımızı bir araya gətirən qurultay həm də böyük rəmzi məna daşıyırdı. Dünya Azərbaycanlılarının V Qurultayında Prezident İlham Əliyev bəyan etdi ki, Zəfər Qurultayı dünyada yaşayan hər bir azərbaycanlı üçün qürurverici hadisədir. Dövlətimizin başçısı qurultaydakı nitqi ilə Zəfərimizi 50 milyonluq Azərbaycan xalqının yenilməzlik rəmzi adlandırdı [1].

Hazırkı dövrdə müharibə bitsə belə, tərəflər arasındakı anlaşılmazlıqlar, düşmən tərəfin təxribatçı addımları, erməni diasporunun yalan mülahizələri diaspor fəaliyyətinin hər zamankından daha sistemli və mütərəqqi fəaliyyətini şərtləndirir. Daha dəqiq desək, ön cəbhədə bitmiş müharibə diplomatiya və informasiya sferasında hələ də davam etməkdədir. Diasporumuzun indiki fəaliyyətinə nəzər yetirsək, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, soydaşlarımızın uğurları, həmçinin, görkəmli xadimlərimizin dünyada tanıdılması sahəsində bir çox məsələlərin işıqlandırıldığının şahidi olarıq. Bunlara misal olaraq, Kanadada Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş ədəbi-bədii tədbir keçirilməsi, Kanada mətbuatında Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki biznes imkanlarından bəhs edilməsi, fransız deputatların ölkəmizə qarşı sanksiyalar tətbiq olunmasına dair qərəzli qətnamə layihəsinə etiraz olaraq Fransa Milli Assambleyası qarşısında mitinq keçirilməsi, “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi”nin imzalanması, “Azərbaycan alimləri diasporu” informasiya sistemi – www.elmidiaspora.az kimi qiymətli və zəngin mənbələr yaradılması, Şuşada Diaspor Gənclərinin III Yay Düşərgəsinin yaradılması, piyada əleyhinə mina risklərinə həsr olunmuş beynəlxalq konfrans təşkil edilməsi və s. göstərmək olar [6].

Cənubi Qafqazda on illərlə davam edən nifrət və münaqişələrdən sonra sülhün bərqərar olması üçün unikal imkan var. Ermənistan–Azərbaycan münasibətlərinin normallaşması və sülh müqaviləsinin imzalanması siyasi prosesi, əsasən Avropa İttifaqının köməyi ilə tam sürətlə gedir. Bununla birlikdə, bölgədəki son normallaşma və sülh iqtisadi qarşılıqlı asılılıq olmadan əldə edilə bilməz, bundan əvvəl bütün kommunikasiyaların açılması və möhkəm bir əlaqənin yaradılması da olmalıdır. Ümid edək ki, nəticədə hər şey düzgün istiqamətdə gedəcək.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Ağaşahqızı Y. 20 yaşlı diasporumuz: Dünən, bu gün və… Xaricdə yaşayan soydaşlarımızın Vətən sevgisi İkinci Qarabağ müharibəsində bir daha təntənəli şəkildə nümayiş olundu, İki sahil, 2022. – 9 iyul. - № 121. – S. 3.*

*2. Hüseynov İ.A. ABŞ-da azərbaycan diasporunun yaranmasi və inkişafi (XX əsrin sonu - XXI əsrin əvvəlləri) AVTOREFERATI, Bakı, 2022, s.32.*

*3. Tağıyev T. Ölkəmizin beynəlxalq mövqelərinin güclənməsində diasporun rolu artır Bakı Xəbər, 2022, 18 oktyabr. - № 189. - S. 11 Tahir Tağıyev*

*4. Məhəmmədəli Q. 44 günlük uğurlu müharibə və Azərbaycan diaspor quruculuğuna yeni baxış – nələri, harda, necə etdik və etməli idik. S.47-50 https://files.preslib.az/projects/diaspora/articles/eart2020*

*5. http://www.anl.az/down/meqale/xalqqazeti/2022/aprel/792060(meqalə)*

*6. https://files.preslib.az/projects/diaspora/articles/eart2022.pdf*

*7. https://www.yeniazerbaycan.com/MEDIA_e61178_az.html*

*8. Progress On Connectivity Issues Indispensable For Post-Conflict Normalization Between Armenia And Azerbaijan – OpEd (aircenter.az)*


## XÜLASƏ


Hərbi əməliyyatların 44 günü ərzində xaricdəki soydaşlarımız siyasi baxışlarından, fikirlərindən, yaşadığı ölkədən, iş yerindən asılı olmayaraq milli birlik nümayiş etdirərək dövlətimizə və ordumuza bütün mümkün vasitələrlə dəstək veriblər. Onlar nəinki orduya, yaralı əsgərlərə, şəhid ailələrinə, cəbhəyanı ərazilərin dinc sakinlərinə, müharibədən əziyyət çəkənlərə, şəhid ailələrinə maddi, humanitar xatirə əşyaları göndərdilər, həm də səsimizi dünyaya çatdırmaqda böyük təşkilatçılıq və fədakarlıq göstərdilər. Milli birliyimiz Azərbaycanın cəbhədə böyük qələbəsi ilə başa çatdı və beləliklə, diasporumuz Azərbaycan xalqı və dövləti ilə bərabər yeni mərhələyə qədəm qoydu. Məqalədə II Qarabağ müharibəsi dövründə Azərbaycan diasporunun dialoqlarda rolu, soydaşlarımızın müharibə dövründə və post-müharibə dövründə fəaliyyətləri təhlil edilmişdir.



**Açar sözlər:** *II Qarabağ müharibəsi, Cənubi Qafqaz regionu, postmüharibə, diaspora, milli birlik*


## SUMMARY


During 44 days of military operations, our compatriots abroad, regardless of their political views, opinions, country of residence and place of work, demonstrated national unity and supported our state and army by all means. They not only sent material and humanitarian memorabilia to the army, wounded soldiers, families of martyrs, civilians of the frontline territories, those suffering from the war, families of martyrs, but also showed great organization and

dedication in delivering our right voice to the world. Our national unity ended with the great victory of Azerbaijan at the front, and thus our diaspora entered a new stage along with the Azerbaijani people and state. The article analyzes the role of the Azerbaijani diaspora in dialogues during the second Karabakh War, the activities of our compatriots during the war and during the post-war period.

**Keywords:** *II Karabakh War, South Caucasus region, post-war, diaspora, national unity*

**РЕЗЮМЕ**

В течение 44 дней боевых действий наши соотечественники за рубежом всеми возможными средствами поддерживали наше государство и армию, демонстрируя национальное единство независимо от политических взглядов, взглядов, страны проживания, места работы. Они не только отправляли материальные, гуманитарные памятные вещи в армию, раненым солдатам, семьям шехидов, мирным жителям прифронтовых территорий, пострадавшим от войны, семьям шехидов, но и проявили большую организованность и самоотверженность в передаче нашего правого голоса миру. Наше национальное единство завершилось великой победой Азербайджана на фронте и, таким образом, наша диаспора вступила в новый этап наравне с азербайджанским народом и государством. В статье проанализирована роль азербайджанской диаспоры в диалоге во время Второй Карабахской войны, деятельность наших соотечественников в военное и послевоенное время.

**Ключевые слова:** *Вторая Карабахская война, Южно-Кавказский регион, послевоенный период, диаспора, национальное единство*

**UOT 32**

# ŞƏKİ-ZAQATALA İQTİSADİ RAYONUNDA İNSAN RESURSLARININ MƏSKUNLAŞMASI VƏ İSTİFADƏSİ

**SİMNAR MAMEDOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

*E-mail: simnar86@gmail.com*

Ölkənin təbii-iqtisadi potensialının mühüm tərkib hissəsindən biri əmək ehtiyatlarıdır. Azərbaycan əhalinin təbii artım tempi yüksək olan ölkələr sırasına aiddir. Habelə, ölkənin əmək ehtiyatlarının əhəmiyyətli hissəsi iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərə biləcək ixtisaslı işçi qüvvəsidir. Amerika iqtisadçısı F.Xarbinson qeyd edir ki, "insan resursları ölkənin sərvətinin başlıca əsasıdır. Kapital və təbii resurslar istehsalın passiv, insanlar isə kapital yığımını təmin edən, təbii resursları istifadə edən, sosial, iqtisadi və siyasi təşkilatlar yaradan və inkişaf prosesini irəli aparan istehsalın aktiv amilidir. Öz insan resurslarının bilik və bacarıqlarını inkişaf etdirməyi və bunlardan səmərəli istifadə etməyi bacarmayan ölkə, bütün digər sahələrdə də müvəffəqiyyətsizliyə uğrayır" [1, s.334]. Davamlı inkişafın əsasında bilik, bacarıq və onların daşıyıcısı olan insan dayanır [2, s.51]. Bu baxımdan, istənilən ölkənin və regionun əsas resursu ixtisaslı insan resurslarıdır. Belə ki, müasir dövrdə dünya iqtisadiyyatında biliklərin rolu artdığından, iqtisadi artımın dayanıqlılığının və davamlılığının təmin edilməsinin əsas şərti insan resurslarının keyfiyyət parametrlərinin artırılmasıdır. Bu baxımdan,"hər bir dövlətin həqiqi sərvəti onun insanlarıdır. İnkişafın əsas məqsədi insanların uzun, sağlam və yaradıcı həyat yaşaması üçün əlverişli mühitin yaradılmasıdır."

Qeyd edilən kontekstdə ölkənin iqtisadi inkişafı ilə insan inkişafı arasında qarşılıqlı əlaqə vardır. Belə ki, insan kapitalına investisiya insanların əmək məhsuldarlığını artırır və onların məşğulluq şanslarını çoxaldır, bununla da gələcək iqtisadi artım üçün potensial artmış olur [3, s.27]. Belə ki, insan kapitalı insanın gəlir qazanmaq üçün bilik və bacarıqları ilə əlaqədardır. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd edilir ki, "təhsil və səhiyyədə keyfiyyətin yüksəldilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, gender bərabərliyinin təmin olunması və ailənin inkişafı, gənclərin potensialının və idmanın inkişaf etdirilməsi bu prioritet çərçivəsində əsas istiqamətlərdir." Habelə, 2006-2015-ci illərdə ölkədə həyata keçirilmiş Azərbaycan Respublikasında məşğulluq strategiyasının əsas məqsədi əmək ehtiyatlarından daha dolğun istifadə etməklə əhalinin səmərəli məşğulluğunu təmin etməkdən ibarət olmuşdur. Xüsusilə, 2004-cü ildən həyata keçirilən regional inkişaf proqramlarının əsas məqsədlərindən biri regionlarda məşğulluğun artırılması, əhalinin ölkənin ərazisi üzrə məskunlaşmasında kəskin fərqlərin azaldılması təşkil etmişdir. Şəki-Zaqatala iqtisadi rayonunda əhalinin sayı 2017-ci ilin sonunda 2000-ci ilin sonuna nisbətən 16,7 faiz, 2010-cu ilin sonuna nisbətən isə 7,2 faiz artmışdır ki, bu da ölkə üzrə orta göstəricidən azdır. Son 30 ildə iqtisadi rayonun şəhər əhalisinin payı davamlı şəkildə artmasına baxmayaraq şəhər əhalisinin payı nisbətən kiçik olaraq qalır. 2017-ci ildə əhalinin 28,0 faizi şəhər, 72 faizi isə kənd əhalisinin payına düşmüşdür. Balakən və Oğuz rayonlarında əhalinin 83 fazindən çoxu, Qax və Zaqatala rayonlarında 74 fazindən çoxu kəndlərdə yaşayır. Yalnız Şəki və Qəbələ rayonlarında şəhər əhalisinin sayı ümumi əhalinin üçdə birindən çoxdur. 2017-ci ildə ölkə əhalisinin təqribən 53 faizinin şəhərlərdə yaşadığını nəzərə alsaq, onda bu regionda kənd yerlərinin üstünlük təşkil etdiyi və buna görə də, kənd təsərrüfatının bu regionun iqtisadiyyatının əhəmiyyətli hissəsini təşkil etdiyi qənaətinə gələrik. Göründüyü kimi, iqtisadi rayonda urbanizasiya səviyyəsi nisbətən aşağıdır. Burada əsasən kiçik və orta şəhərlər inkişaf etmişdir ki, bunların da iqtisadiyyatının ətraf yaşayış məntəqələrinin inkişafına təsiri məhduddur.

2000-2017-ci illərdə Şəki-Zaqatala iqtisadi rayonunda əhalinin hər 1000 nəfərinə orta illik təbii artım 9,5-ə bərabər olmuşdur ki, bu da ölkə səviyyəsindən təqribən 13,8 faiz azdır. Bununla yanaşı, qeyd edilən dövrdə iqtisadi rayonda şəhər əhalisinin orta illik artımı 7,5-ə bərabər olduğu halda, kənd yerlərində bu göstərici 10,3-ə bərabər olmuşdur. Göründüyü kimi, iqtisadi rayonda şəhər əhalisinin əhalinin ümumi sayında payının artmasında təbii artımın payı mənfi olmuşdur. Bu əsasən bəzi böyük kəndlərə qəsəbə sta-

tusunun verilməsi və miqrasiya ilə bağlı olmuşdur. Məsələn, 2006-cı ildə Qəbələ rayonunda Vəndam, Bum və Nic kəndlərinə qəsəbə statusunun verilməsi nəticəsində bu rayonda şəhər əhalisinin sayı əvvəlki ilə nisbətən 2,7 dəfə artmış, kənd əhalisi isə 1,3 dəfə azalmışdır. Qeyd etmək lazımdır ki, regionda şəhər əhalisinin sayının artmasına əhalinin şəhər yerlərinə miqrasiyası da təsir göstərmişdir, lakin bu amilin təsiri çox kiçikdir.

Qeyd etmək lazımdır ki, kənd yerləri öz iqtisadi ehtiyaclarını əsasən ilkin iqtisadi fəaliyyətə əsaslanan torpaqdan əldə etdikləri halda, şəhər yerləri bir tərəfdən xammal və materialların emalı və son məhsulların istehsalından, digər tərəfdən isə müxtəlif xidmətlər hesabına ödəyirlər. Kənd yerlərində əhali şəhərlərə nisbətən az mobil olur və nəticədə, burada insanlar arasında sosial münasibətlər şəhərə nisbətən yaxın olur. Şəhərlərin kəndlərə nisbətən iqtisadi artıma töhfəsi böyük olur. Bu, həm istehsal, həm də bazar baxımından öz təsirini göstərir. Belə ki, miqyas istehsalın səmərəliliyini müəyyən edən əsas amillərdən biridir. Şəhər və kəndləri fərqləndirən meyarlardan biri sıxlıqdır. Sıxlığın böyük olduğu şəhərlər kəndlərə nisbətən bazarın miqyası baxımından böyük olur ki, bu həm istehsal xərclərini, həm də satış xərclərinin aşağı düşməsinə səbəb olur. Ümumi şəkildə təhlil edildikdə Şəki-Zaqatala iqtisadi rayonunda əhali 6 şəhər, 7 qəsəbə və 336 kənddə məskunlaşmışdır. Regionda şəhərlər inzibati rayonların mərkəzləri olmaqla su və bitki resurslarının mövcud olduğu dağətəyi zonalarda yerləşirlər. Məsələn, Şəki şəhəri Kişçay və Qurcanaçay çaylarının, Qax şəhəri Kürmükçay çayının üzərində yerləşir. Burada şəhərlərin orta ölçüsü ölkə üzrə səviyyədən əhəmiyyətli dərəcədə aşağı olduğu halda, kəndlərin orta ölçüsü yüksək olmuşdur. Belə ki, iqtisadi rayonda orta hesabla bir şəhərə təqribən 29 min nəfər düşdüyü halda, ölkə üzrə bu göstərici 67 min nəfərə bərabər olmuşdur.

İqtisadi rayonda şəhər əhalisinin azlığı burada məskunlaşma səviyyəsinə də təsir göstərmişdir. Belə ki, kənd ərazilərində əhalinin sıxlığı nisbətən aşağı olur. 2017-ci ildə regionda 1 kv. km-ə 70 nəfər düşmüşdür ki, bu da ölkə üzrə göstəricidən təqribən 1,6 dəfə azdır. Qeyd etmək lazımdır ki, kənd yerlərinin sıxlığına burada olan torpaq sahələrinin yerləşməsi və sahəsi əhəmiyyətli dərəcədə təsir göstərir. Belə ki, böyük və bütöv torpaq massivlərinin kənarında iri kəndlər formalaşır ki, bu da onların sıxlığını məhdudlaşdıra bilər. Bununla yanaşı, kiçik torpaq sahələrinin ətrafında böyük sıxlığa malik kiçik kəndlər yerləşə bilər. Belə hal regionda əyani görünür. Belə ki, Şəki rayonunda böyük kəndlərlə yanaşı, ətrafında kiçik torpaq sahələri olan kiçik kəndlər də geniş yayılmışdır. Belə ki, ölkə üzrə orta hesabla bir yaşayış məntəqəsinə 18,9 kv.km sahə və 2157,9 nəfər əhali düşdüyü halda, bu göstərici iqtisadi rayon üzrə müvafiq olaraq 25,3 kv.km-ə və 1767,3 nəfərə, bu göstəricilər Balakən rayonu üzrə müvafiq olaraq 15,9 kv.km-ə və 1654,2 nəfərə, Zaqatala rayonu üzrə müvafiq olaraq 21,8 kv.km-ə və 2061,3 nəfərə, Qax rayonu üzrə müvafiq olaraq 25,3 kv.km-ə və 957,6 nəfərə, Şəki rayonu üzrə müvafiq olaraq 34,8 kv.km-ə və 2611,3 nəfərə, Oğuz rayonu üzrə müvafiq olaraq 31,8 kv.km-ə və 1294,1 nəfərə, Qəbələ rayonu üzrə müvafiq olaraq 24,2 kv.km-ə və 1648,4 nəfərə bərabər olmuşdur. Bununla yanaşı, regionda kəndlərin 17 faizinin olduğu Balakən rayonunda əkin və çoxillik əkmələr üçün istifadə edilən torpaq sahələrinin 11 faizi, adambaşına düşən belə torpaqların sahəsi isə 0,25 hektara bərabər olmuşdur. Şəki rayonunda isə regionda kəndlərin 20,2 faizi yerləşdiyi halda, regionda əkin və çoxillik əkmələr üçün istifadə edilən torpaq sahələrinin 35,8 faizi bu rayonun payına düşmüş, adambaşına düşən belə torpaqların sahəsi isə 0,76 hektara bərabər olmuşdur.

Əhalinin məşğulluq səviyyəsi ilə bağlı məlumatlara əsasən iqtisadi rayonda 2017-ci ildə məşğul əhalinin sayı 2010-cu ilə nisbətən 12,6 faiz artmışdır. Bu artım ölkə üzrə orta səviyyədən yüksək olmuşdur. Xüsusilə, məşğul əhalinin artım tempi əhalinin artım tempindən əhəmiyyətli dərəcədə yüksək olmuşdur. Belə ki, qeyd edilən dövrdə əhalinin sayı 7,2 faiz artmışdır. Regionun inzibati rayonları içərisində 2010-2017-ci illər ərzində məşğul əhalinin sayının ən yüksək artımı Oğuz, Qəbələ və Qax rayonlarında baş vermişdir. Habelə, regionda əhalinin ümumi sayında məşğul olanların payı 2010-cu ildə 48,0 faizdən 2017-ci ildə 50,4 faizə qədər artmışdır ki, bu da ölkə üzrə olan səviyyədən 1,7 faiz artıqdır. Buna regionda əhalinin yaş strukturunda əmək qabiliyyətli əhalinin payının böyük olması da təsir göstərmişdir.

Bütövlükdə, iqtisadi rayon üzrə əhalinin məşğulluğu ölkə üzrə orta səviyyəyə uyğun olsa da, həmin məşğulluğun keyfiyyət tərəfləri baxımından geri qalır.

Qeyd etmək lazımdır ki, regionda əhalinin məşğulluğunu təmin edən əsas sahə kənd təsərrüfatıdır.

Burada 2017-ci ildə təqribən 36 min ailə kəndli təsərrüfatı yanacaq və motor yağlarına görə yardımı almaq üçün müraciət etmişdir. İlkin qiymətləndirmələr göstərir ki, regionda məşğul əhalinin təqribən 50 faizi bu sahənin payına düşür. Bu baxımdan, regionlarda əhalinin özünüməşğulluğuna kömək göstərilməsi məqsədilə 2016-cı ildə dövlət büdcəsindən ayrılmış vəsaitin 83,6 faizi kənd təsərrüfatında məşğulluğun təmin edilməsi üçün yönəlmişdir.

Bununla yanaşı, Şəki-Zaqatala iqtisadi rayonunda qeyri-kənd təsərrüfatında məşğulluğun artırılması istiqamətində də tədbirlər həyata keçirilməkdədir. Belə ki, 2017-ci ildə sənayedə məşğul olanların sayı 2010-cu ilə nisbətən 25,9 faiz artmışdır. Bununla belə, bu sahə regionda məşğulluğun təmin edilməsində 1,7 faizə malikdir. Qeyd edilənlərlə yanaşı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) daxil olan ölkələrdə kənd yerlərində mövcud əmək ehtiyatlarının cəmi 10 faizi kənd təsərrüfatı və meşəçilik sahəsində məşğuldurlar [4, s.13]. Bu baxımdan, iqtisadi rayonda kənd təsərrüfatı xammalının emalı sahələrinin və turizmin inkişaf etdirilməsi istiqamətində tədbirlər regionda məşğulluq səviyyəsinin yüksəldilməsi və muzdlu işçilərin sayının artımı baxımından əhəmiyyətli rol oynaya bilər.

Ümumi olaraq təhillərin nəticəsində belə qənaətə gəlmək olar ki, iqtisadi rayon üzrə 2017-ci ildə əmək məhsuldarlığı 2010-cu ilə nisbətən 69,5 faiz artmışdır. Bu artım ölkə üzrə göstəricini qismən üstələmişdir. Regionda əmək məhsuldarlığının səviyyəsində ən yüksək artım Zaqatala rayonunda baş vermişdir ki, bu da burada sənaye müəssisələrinin yaradılması ilə bağlı olmuşdur. Bütövlükdə, Şəki-Zaqatala iqtisadi rayonunda əmək məhsuldarlığının səviyyəsi ölkə üzrə olan göstəricidən təqribən 3,3 dəfə azdır.

2017-ci ildə iqtisadi rayon üzrə məşğul əhalinin hər nəfərinə orta hesabla illik 4829,1 manat, aylıq isə 402,4 manat məbləğində ümumi məhsul düşmüşdür ki, bu da əməkhaqqı məbləğini məhdudlaşdıran əsas amildir. Belə ki, adətən ümumi məhsulun təqribən yarısını aralıq istehlak təşkil etdiyindən yaradılan əlavə dəyərin hamısını əməkhaqqına yönəldildiyi halda təqribən 200 manat məbləğində əməkhaqqı vermək mümkündür. Göründüyü kimi, regionda əmək ehtiyatlarından sahə strukturu və əmək məhsuldarlığı baxımından istifadə səmərəliliyi aşağıdır.

**Açar sözlər:** *Əhali, məskunlaşma, artım, məşğulluq, insan resursları.*

## ƏDƏBİYYAT SİYAHISI:

1. М.Н.Тодаро. Экономическое развитие. М. ЮНИТИ. 1997, 527 с.

2. Urxan Ələkbərov. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı: Təhsil, 224 s.

3. Human Development Report: 1990. New York: Oxford University Press, 1990, 141 p.

4. The New Rural Paradigm: Policies and Governance. Paris: OECD Publishing, 2006,168 p.

5. http://economy.gov.az/regions/state-programs/2014-2018-dp-reg/reg-serencam-dp-2014-2018/?page=1

## SUMMARY

Current research examines the existing socio-economic trends of the Shaki-Zaqatala economic region's population based on the statistical data.In general, paper includes data on the population's growth rate, its distribution based on the age, employment, settlement across the area and etc.Paper draws conclusion about the idea of how efficient the human resource management policy of the executive government and local authorities.

**Key words:** *Population, settlement, growth, employment, human resources.*

## РЕЗЮМЕ

В статье рассматривается существующие социально-экономические тенденции населения Шеки-Закатальского экономического района на основе статистических данных. В целом в работе приведены данные о темпах прироста населения, его распределении по возрасту, занятости, расселенности по территории и т. д. В статье делается вывод о том, насколько эффективна кадровая политика исполнительной власти и органов местного самоуправления в области управления персоналом.

**Ключевые слова:** *Население, заселение, рост, занятость, человеческие ресурсы.*

UOT 327:005.591.45

# ОСНОВНЫЕ ЗАДАЧИ МИГРАЦИОННОЙ ПОЛИТИКИ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

**ФАРИДА АЛИЕВА**
*Докторант Академии Государственного Управления при Президенте Азербайджанской Республики*
*E-mail: f_aliyeva@mail.ru*

В эпоху глобализации международные миграции приобрели качественно новый характер. Исследователи выделяют несколько факторов, оказывающих воздействие на миграционные процессы, а именно факторы военно-политического характера, экономические, культурные, фактор новых географических открытий и т.д[6]. Экономические причины, а именно неравномерность уровня экономического развития, все больше и больше выходят на первое место, в числе непосредственных причин миграций в современном мире. Миграционные потоки направляются из стран Третьего и Четвертого мира в страны так называемого золотого миллиарда. В наши дни разница в среднедушевом ВВП между самыми богатыми и самыми бедными странами достигает нескольких сотен раз, только шесть десятков стран из двух сотен, имеющихся на карте обладают среднедушевым ВВП выше, чем весь мир в среднем, а 10 % населения Земли проживает в пяти десятках государств, относимых к числу наименее развитых стран, т.е. таких, где годовой ВВП на душу населения гораздо ниже 1000 долларов США [3]. Как же этот разрыв в доходах между странами мира влияет на направление миграционных потоков и размещение мигрантов между различными группами стран?

Во-первых, необходимо сказать о том, что количество мигрантов за последние несколько десятков лет увеличилось более чем в три раза. Если в 1970-м году их было в мире порядка 81,5 млн. то, в 2017 году уже более 257, 7 млн [4].

При этом, если в 1970-м году из общей численности мигрантов 38,3 млн. находились в развитых странах, а 43,2 в развивающихся, то в наши дни 64% из них находятся в странах с высоким уровнем дохода, 32% в странах со средним уровнем, и только 4% - с низким [4].

Если говорить об отдельных странах, то в первой десятке среди стран принимающих мигрантов находятся США (49,8 млн), Германия (12,2 млн), Россия (11,7 млн), Великобритания (8,8 млн), ОАЭ (8,3 млн), Франция (7,9 млн), Канада (7,9 млн), Австралия (7,0 млн), Испания (5,9 млн) – все они, за исключением России, относятся, согласно статистике Всемирного Банка, к странам с высоким уровнем доходов [4].

Основными центрами притяжения для мигрантов со всего мира в наши дни являются, таким образом, высокоразвитые страны Европы, Северной Америки и Австралии, а также нефтедобывающие арабские монархии. Какова же детальная картина миграционных потоков между различными странами?

Северная Америка является пристанищем для 8 миллионов мигрантов из Европы, 26 млн. из Латинской Америки и Карибского бассейна, Европа – для 9 миллионов африканцев, и 20 миллионов азиатов, примерно 7 миллионов европейцев в свою очередь переселились в страны Азии, внутри самих этих больших регионов также проходят значительные миграционные потоки, примерно 63 миллиона человек переселилось из одних стран Азии в другие, 41 млн. человек переместилось внутри Европы, 19 млн. внутри Африки.

Если говорить об отдельных странах - источниках международной миграции, то здесь в первой десятке находятся Индия (16,6 млн), Мексика (13,0 млн), Россия (10,6 млн), Китай (10,0 млн), Бангладеш (7,5 млн), Сирия (6,9 млн), Пакистан (6,0 млн), Украина (5,9 млн), Филиппины (5,7 млн), и Великобритания (4,9 млн). Как видим, все они, кроме одной, являются странами со средним или низким уровнем доходов.

Среди уроженцев конкретных стран, проживающих в других государствах выделяются: мексиканцы в США (12,7 млн), индийцы в ОАЭ (3,3 млн), россияне в Украине (3,3 млн), украинцы в Росси (3,3 млн), сирийцы в Турции (3,3 млн), бангладешцы в Индии (3,1 млн), казахстанцы в России (2,6 млн), китайцы в США (2,4 млн), россияне в Казахстане (2,4 млн), и китайцы в Гонконге (2,3 млн) [4].

Период после окончания Второй Мировой войны был отмечен ростом экономического процветания, сконцентрированного, правда, лишь в некоторых странах. Этот рост во многом был обеспечен за счет либерализации внешней торговли, облегчения экспорта товаров и услуг, а также снятия таможенных барьеров и свободы движения капиталов. Но рабочая сила продолжает оставаться под контролем и ее свободное передвижение возможно только в интеграционных объединениях, таких как Европейский Союз. Этот создает дисбаланс между свободным передвижением товаров, услуг и капитала и всевозможными барьерами, создаваемыми на путях миграции рабочий силы.

В идеальном состоянии миграция будет продолжаться до тех пор, пока не приведет к перемещению всех недовольных уровнем доходов из одних стран в другие. При этом сам факт наличия сплоченой диаспоры оказывает на темпы миграции положительное воздействие, поскольку мигранты в условиях наличия диаспоры обладают более благоприятной средой для адаптации к новым условиям. Если же исходные условия (уровень материального благополучия) в стране доноре и стране реципиенте продолжают оставаться неизменными, то именно наличие диаспоры способствует увеличению темпов миграции. С другой стороны, рост числа мигрантов при прочих равных условиях приведет к выравниванию уровня доходов между той страной, откуда они происходят и той, в которую они стремятся проникнуть. Мигранты тогда начинают понимать, что их переезд ничего не изменит в их материальном положении. Так, например, обстояло дело с европейцами, спасавшиеся от малоземелья в американских странах: с увеличением числа фермеров размер их земельных участков становился все меньше, пока не сравнялся с тем, которым обладали они в странах Европы.

Какими же будут миграционные процессы в будущем? Во-первых, поскольку разрыв в уровне доходов не только сохранится, но и увеличится, поток мигрантов направляющихся из бедных стран в богатые будет расти. Во-вторых, каким бы ни был мощным поток мигрантов, он не способствует снижению этого разрыва. И, в-третьих, наличие многочисленных диаспор является лишь еще одним фактором, подстегивающим миграционные процессы.

Миграционные потоки из богатых стран в бедные при этом практически замерли, между богатыми сторонами миграции тоже не переживают подъёма сравнимого с потоками мигрантов, перетекающих из стран третьего мира в более развитые и благополучные.

Все это говорит о том, что миграция нуждается в регулировании со стороны государства. Наивно было бы ожидать, что сами мигранты будут ограничивать себя в своем стремлении покинуть более бедную страну с тем, чтобы поселиться в более богатой. С другой стороны, правительства бедных стран тоже не будут отличаться ограничить миграцию, поскольку она является наиболее простым и не требующим от них затрат средства выпустить пар и приуменьшить остроту социальных конфликтов.

Таким образом, единственным реально ориентированным на урегулирование проблем связанных с миграцией и необходимостью контроля над нею институтом остается правительство тех стран, в которые мигранты направляются. Именно на их плечи ложится груз ответственности по выявлению тех пороговых значений, при которых размер миграции становиться избыточным для принимающих сообществ.

Здесь во многом приходиться иметь дело с гипотетическими предположениями, а не с выверенными закономерностями, поскольку международная миграция в том виде, в каком она существует в нашу эпоху - явление относительно новое и слабо изученное с точки зрения необходимых эмпирических данных, которые должны стать основой для анализа.

Основная задача для государства и его институтов, во-первых, это установление пороговых значений, при достижении которых оценка миграционных процессов, протекающих в тот или иной момент, должна будет изменяться.

Необходимо также внимательно изучить структуру миграционных потоков. Здесь большое значение приобретает контроль над тем, какой процент в общем количестве мигрантов занимают нетрудоспособные, в том числе члены семей, наличие или отсутствие у мигрантов образования, величину культурного разрыва между мигрантами и принимающей их страной.

Отдельно стоят задачи интеграции прибыва-

ющих в страну мигрантов в общество, решение проблем нелегальных иммигрантов и целый ряд других, требующих пристального внимания.

Миграционная политика развитых стран, которые стали центром притяжения миграционных потоков неизбежно носит двойственный характер. Она, с одной стороны, достаточно технократична, т.е. направлена на максимализацию положительного экономического эффекта от миграции и минимизацию негативных. А с другой, она достаточно идеологизирована, поскольку контроль над миграционными процессами рассматривается как способ защиты национальной культуры и уникальности того или иного государства [1].

Отсюда следует вывод: международная миграция является следствием глобального неравенства, но она не способна решить эту проблему. Механическое перекачивание народонаселения из бедных стран в богатые не способно улучшить экономическое благополучие тех, кто остается на месте, но вполне может привести к такому социальному взрыву в тех странах, которые принимают у себя мигрантов, что это отбросит их назад.

В зависимости от местных особенностей исследователи выделяют несколько типов миграционной политики. Во-первых, это политика, ориентированная на привлечение мигрантов из традиционных стран-доноров, дополняемая привлечением временных мигрантов (США, Канада). Данная политика, с одной стороны, направлена на привлечение высококлассных специалистов из европейских стран, а с другой – на низкоквалифицированную рабочую силу из стран Третьего Мира, например - Латинской Америки. Второй тип – это ориентированная на привлечение временных мигрантов политика стран Персидского залива, Южной Кореи. Здесь опять-таки акцент делается на дешевую рабочую силу из Индии, Пакистана, Филиппин. Третий тип направлен на циркулирующую миграцию, например, на привлечение сезонных рабочих для сельского хозяйства и распространен, например, в Новой Зеландии, Германии. Четвертый тип – это система неограниченной миграции между странами, добившимися высокого уровня взаимной интеграции, например, внутри ЕС. Естественно каждый из этих типов характеризуется целым набором критериев, таких как условия принятия мигрантов, объем предоставляемых им прав, требования к их квалификации, максимально возможный срок их непрерывного пребывания, перспективы получения гражданства, право на воссоединения семей и т.д [5].

Итак, мы можем сказать, что миграционная политика – это чрезвычайно важный инструмент государственного воздействия, целью которой является обеспечение социально-экономического развития страны, посредством целенаправленного регулирования миграционных потоков. Миграционная политика основывается на эффективной системе пограничного контроля, способной защитить от проникновения нелегальных и нежелательных лиц, также и на выверенной оценке потребностей в трудовых ресурсах, а также наличие отлаженной системы адаптации и интеграции мигрантов.

Эффективная миграционная политика должна строиться на учете целого ряда факторов, среди которых мы можем выделить следующие:

1. Демографический – каковы тенденции изменения численности населения, его возрастной, этнической структуры.

2. Экономический – каковы тенденции глобального и территориального развития, требующие оперативного реагирования со стороны государства.

3. Фактор связанный с задачами обеспечения национальной безопасности, требующий эффективного государственного контроля над миграционными потоками.

4. Гуманитарный– исходит из обязанностей государства оказывать помощь беженцам и вынужденным переселенцам

5. Внешнеполитический – взаимодействие с другими государствами требующее согласованного с международными партнерами решения миграционных проблем.

Таким образом, миграционная политика должна основываться следующих принципах:

- она должна соответствовать нормам национального и международного законодательства;

- соблюдать необходимый баланс интересов местного населения и мигрантов;

- опираться на надежные и проверенные данные, адекватно отражающие качественные и количественные характеристики миграционного процесса;

- осуществляться в соответствии с четкими и устойчивыми правилами и нормами;

- быть открытой в обеспечении необходимыми финансовыми, материальными и кадровыми ресурсами;

- иммиграционная политика должна быть ориентирована на конкретные категории мигрантов, находится во взаимосвязи с социальной и национальной политикой государства, его внешнеполитической и правоохранительной деятельностью;

- иммиграционная политика должна осуществляться целым рядом государственных органов, действующих во взаимодействии, так что одни из них отвечают за пограничный контроль, другие – за постановку на учет прибывающих в страну иностранцев, третьи – за выдачу разрешений на работу. Это делает необходимым постоянную координацию их совместной деятельности.

Можно выделить следующие направления миграционной политики:

- регулирование переселения на новое место жительство - в этой связи необходимо определить те категории граждан, которые обладают преимуществами в порядке определения их очереди на переселение, и тех, кто является нежелательными лицами;

- организация и контроль над экономической миграцией, с учетом потребностей национальной экономики в различных категориях свободных рабочих рук;

- определение категорий лиц, которые могут надеяться на въезд на постоянное проживание в рамках программы по воссоединению семей;

- правовое и финансовое обеспечение беженцев и других категорий вынужденных мигрантов;

- осуществление пограничного контроля с целью предотвращения проникновения на территорию государства нежелательных лиц;

- борьба с нелегальной иммиграцией;

- адаптация и интеграция мигрантов;

- международное сотрудничество в данной сфере.

## ИСТОЧНИКИ:

*1) Anderson B. Nation Building: Domestic labour and immigration controls in the UK /B. Anderson I. Shutes Migration and Care Labour. Theory, Policy and Politics*

*2) The International Monetary Fund. World Economic Outlook Database, April 2019. Report for Selected Countries and Subjects*

*3) International Migration Report 2017*

*4) Koser Kh. İnternational migration. A very short introduction. Oxford University Press. 2007*

*5) Wickramasekara P. Migration Regimes and Their Linkages for Family Unity, Integrity and Development /M. Panizzon, G. Zurcher, E. Fornalé The Palgrave handbook of international labour migration: Law and policy perspectives. Palgrave and Macmillan 2015*

*6) Nəsibov E. Miqrasiyanın əsasları, I-ci kitabı, B. 2014*

## XÜLASƏ

Qloballaşma şəraitində miqrasiya proseslərinin sürətlənməsi, miqrasiya axınlarının istiqamətlərinin dəyişməsi baş verir ki, bu da milli dövlətlərin idarəetmə orqanlarından müasir zamanın tələblərinə cavab verən miqrasiya siyasəti yürütməyi tələb edir. Miqrasiya siyasətinin effektivliyi bir sıra amillərdən asılıdır və bir neçə istiqamət üzrə qurulmalıdır. Miqrasiya siyasəti beynəlxalq hüquqi öhdəliklərdən irəli gələn prinsipləri, dövlətin milli maraqlarını nəzərə almalıdır.

**Açar sözlər:** *miqrasiya siyasəti, qloballaşma, axınlar, miqrasiya axınları, miqrasiya tipləri.*

## SUMMARY

In the context of globalization, there is a sharp acceleration of migration processes, there is a change in the directions of migration flows, which requires the governments of national states to conduct a balanced and time-appropriate migration policy. The effectiveness of migration policy depends on a number of factors and should be built in several directions, in accordance with the principles arising from the international legal obligations of the state and its national interests.

**Keywords:** *migration policy, globalization, flows, migration flows, types of migration.*

UOT: 32

# İNFORMASİYA MÜHARİBƏSİNƏ "QAVRAYIŞLARIN İDARƏ OLUNMASI" VƏ "STRATEJİ KOMMUNİKASİYALAR" ANLAYIŞLARI PRİZMASINDAN BAXIŞ

**VÜQAR MUXTAROV**
*Qərbi Kaspi Universitetinin dissertantı*

*E-mail: vuqar.muxtarov33@gmail.com*

Siyasi təhlil və araşdırmalarımız göstərir ki, müasir dünyada informasiya müharibəsi (İM) anlayışı əksər dövlətlərdə ümumən eyni qiymətləndirilsə də, onun məzmunu müxtəlif cür təqdim olunur. Müxtəlif məzmunları ümumiləşdirərək İM anlayışına aşağıdakı tərifi vermək olar:

İM böhran və ya müharibə (silahlı münaqişə) dövründə qlobal informasiya mühitinin formalaşdırılması üzrə rəqib (düşmən) və neytral dövlətlərin infokommunikasiya sistemlərinə yönəldilən informasiya təsiri, eləcə də özünün informasiya resurslarının qorunması üzrə fəaliyyətlər kompleksidir.

Bununla yanaşı, araşdırmalarımız göstərir ki, İM-in iki əsas elementi (funksiyası) vardır:

- təsiretmə (influence) əməliyyatları;
- kiber (cyber) və ya elektron (electronic) əməliyyatlar.

Bu elementlərin hər biri özünün müvafiq komponentlərinə malikdir. Məsələn, təsiretmə elementinə "psixoloji əməliyyatlar", "hərbi aldatma" və s-ni, kiber və ya elektron elementinə isə "əməliyyatların təhlükəsizliyi", "elektron mübarizə", "kompüter şəbəkə əməliyyatları" və s. aid etmək olar [8].

Qeyd olunmalıdır ki, Qərb dövlətlərində təsiretmə əməliyyatları "qavrayışların idarə olunması" (Perception management) kimi də adlandırılır. "Qavrayışların idarə olunması" anlayışı isə özünün müvafiq komponentlərinə malikdir. Digər tərəfdən də bu dövlətlərdə strateji səviyyəli kiber (elektron) əməliyyatlar "strateji kommunikasiyalar" (Strategic Communications, StratCom) adlı rəsmi sənədlər (konsepsiya və s.) çərçivəsində öyrənilir və həyata keçirilir. "Strateji kommunikasiyalar" anlayışının da özünün müvafiq komponentləri vardır. Bu baxımdan, İM-in strateji səviyyəli komponentlərinin, xüsusən də dövlətin mülki orqanlarının bu sahədəki fəaliyyətlərinin öyrənilməsi üçün "qavrayışların idarə olunması" və "strateji kommunikasiyalar" anlayışlarının təhlil edilməsi zəruriyyət kəsb edir. Bununla yanaşı, İM-in böhran və ya müharibə (silahlı münaqişə) dövrlərində həyata keçirildiyinə baxmayaraq, onun "qavrayışların idarə olunması" və "strateji kommunikasiyalar" anlayışları kontekstində daha hansı dövrü əhatə edəcəyi nəzərdən keçirilməlidir. Bu səbəbdən biz burada "qavrayışların idarə olunması" və "strateji kommunikasiyalar" anlayışlarını ayrı-ayrılıqda nəzərdən keçirəcək, İM-in komponentlərini və əhatə edəcək dövrləri müəyyən edəcəyik.

"Qavrayışların İdarə Olunması" (QİO) anlayışı termin olaraq ilk dəfə ABŞ Müdafiə Nazirliyi (MN) tərəfindən yaradılmış və ona belə bir tərif verilmişdir: "QİO - xarici auditoriyaların emosiyalarına, motivlərinə və obyektiv mülahizələrinə təsir etmək məqsədi ilə seçilmiş informasiya və göstəricilərin çatdırılması və ya inkar edilməsi, eləcə də bütün səviyyələrdəki kəşfiyyat sistemlərinin və liderlərin rəsmi rəylərinə təsirin göstərilməsi üzrə fəaliyyətlərdir. Sonda bu fəaliyyətlər yaradıcının (tətbiq edən tərəfin) məqsədlərinə uyğun davranışlar və rəsmi hərəkətlər ilə nəticələnir" [10]. ABŞ ordusunun müvafiq sənədinə əsasən QİO aşağıdakı komponentləri əhatə edir:

- Həqiqətin proyeksiyası (Truth projection);
- Əməliyyatların təhlükəsizliyi (Operations Security);
- Gizli fəaliyyətlər (Covert Action);
- Aldatma fəaliyyətləri (Deception Actions);
- Psixoloji əməliyyatlar (Psychological Operations).

Vaxtı ikən NATO-da Psixoloji əməliyyatlar şöbəsinin rəisi olmuş, ABŞ hərbi mütəxəssisi Stiven Kollinz isə QİO anlayışına belə tərif verir: "QİO - xarici dövlətlərin auditoriyalarının obyektiv düşüncə və münasibətlərinə yönəldilmiş bütün növ fəaliyyətləri əhatə edir" [3]. Onun fikrindən belə məlum olur ki, xarici auditoriyaların düşüncə və münasibətlərinə yönələn yalnız "informasiya fəaliyyətləri" deyil, bu istiqamətdə "bütün növ fəaliyyətlər"dir. Bundan əlavə, o, qeyd edir ki, QİO hökumət səviyyəsində planlaşdırılıb və təşkil edilərək, dövlətin mülki və hərbi orqanları tərəfindən həyata keçirilir. Onun fikrincə, QİO münaqişə zəminində artıq böhran dövründə ikən (hərbi əməliyyatdan əvvəl) həyata keçirilməyə başlayır, silahlı qarşıdurma (hərbi əməliyyat

və ya müharibə) dövründə gücləndirilir və nəhayət, ondan sonra da davam etdirilir. Stiven Kollinz öz məqaləsində QİO-nun aşağıdakı komponentlərini qeyd etmişdir:

- İctimai diplomatiya (Public Diplomacy);
- Psixoloji əməliyyatlar (Psychological Operations);
- İctimaiyyətin məlumatlandırılması (Public Information);
- Aldatma fəaliyyətləri (Deception Actions);
- Gizli fəaliyyətlər (Covert Action) [3].

Pakistanlı hərbi mütəxəssis Khyber Zaman və başqaları isə öz tədqiqatlarında QİO-nun mahiyyətini daha da genişləndirərək buraya daxili auditoriyanın da düşüncə və münasibətlərinə yönəldilmiş müvafiq fəaliyyətləri aid etmişlər. Khyber Zaman dinc dövrdə QİO-nun məzmununu aldadıcı məlumatlardan istifadə məcburiyyətinin olmaması kimi xarakterizə edir. Bu dövrdə QİO-nun məqsədi uzun müddətli və mürəkkəb manipulyasiya prosesi vasitəsilə qarşı ölkənin yüksəkrütbəli məmurlarının fikirlərinə təsir etməkdir. Bu zaman əsas məqsəd öz imicinin yaxşılaşdırılması ilə yanaşı, mövcud münaqişənin qarşısının alınmasından ibarətdir [12].

ABŞ mütəxəssisi Richard O'Neill QİO üçün tələb olunan əsas məsələləri ümumiləşdirərək belə qeyd edir: rəqibin imkanları haqqında bilik əldə etmək vacibdir, lakin təsirli olmaq üçün onun qərarvermə prosesi, psixoloji düşüncə tərzi, mədəniyyəti, tarixi və liderliyi də öyrənilməlidir [11].

Hindistan hərbi mütəxəssisi B.M. Kapoor QİO barədə belə yazır: "Qavrayışların idarə olunmasının adətən beynəlxalq arenada həyata keçirilməsinə baxmayaraq, onun istifadə edildiyi üsullar əsas informasiya idarəetmə sistemlərinin bir hissəsinə çevrilmişdir". O, QİO-nun xüsusən xarici auditoriyaya yönəldilməsinə baxmayaraq, təcrübədə daxili auditoriyaya da yönəldilməsini qeyd edir. O, Pentaqonun hesabatında qeyd olunan "döyüş gücü informasiyaya çıxışı idarə edən, eləcə də birbaşa manipulyasiya edən kommunikasiya şəbəkələri və texnologiyaları ilə gücləndirilə bilər", - fikirlərinə əsaslanaraq belə bir fikir irəli sürür: "Nəticədə informasiyanın özü indi həm müharibə alətinə, həm də hədəfinə (məqsədinə) çevrilir" [9].

Araşdırmalarımız göstərir ki, ABŞ və digər Qərb dövlətlərinin müvafiq sənədlərində QİO anlayışının tərifi, mahiyyəti və komponentlərinin qeyd olunmasına baxmayaraq, bu dövlətlərdə, eləcə də bütövlükdə NATO təşkilatında QİO-nun məzmunu və həyata keçirilməsi qaydalarına həsr olunmuş heç bir ayrıca doktrinal sənəd yoxdur. Hazırda bu məsələlər ABŞ və müttəfiq dövlətlərdə "Strateji kommunikasiyalar" adlı konseptual və doktrinal sənədlər çərçivəsində öyrənilir və müvafiq təşkilatlar vasitəsi ilə həyata keçirilir.

"Strateji kommunikasiyalar" (StratKom) anlayışı yalnız böhran və ya müharibə dövrlərini əhatə etmədiyi üçün İM-ə nisbətən daha geniş məna kəsb edir. Belə ki, burada müvafiq fəaliyyətlər böhran və ya müharibə (silahlı münaqişə) olmadığı hallarda – yəni dinc dövrdə də aparılaraq, əksər (hətta müttəfiq) dövlətlərə qarşı həyata keçirilir.

ABŞ-da dövlət orqanları sırasından StratKoma tərif verən ilk təşkilat MN olmuşdur. ABŞ ordusu StratKom anlayışına belə tərif vermişdir: "Hökumətin əsas auditoriyanı anlamaq və onları cəlb etmək üçün milli gücün bütün elementlərinin hərəkətləri ilə sinxronlaşdırılmış koordinasiya edilmiş proqramlar, planlar, mövzular, mesajlar və məhsulların istifadəsi ilə dövlət maraqları, siyasəti və məqsədlərinin irəliləməsinə əlverişli şəraitin yaradılması, möhkəmləndirilməsi və ya qorunması üçün göstərdiyi səyləridir" [6]. ABŞ MN-i StratKomu özünün yol xəritəsinə daxil edərək belə bəyan etmişdir: "Uzun müharibədə qələbə nəhayətdə ABŞ və onun beynəlxalq tərəfdaşlarının Strateji Kommunikasiyasından asılıdır" [6].

Nisbətən dəqiq tərifi ABŞ-ın RAND korporasiyasının aparıcı tədqiqatçısı Xristofor Pol təqdim etmişdir. Onun fikrincə, StratKom "dövlətin məqsədlərinin dəstəklənməsi zəminində koordinə edilmiş hərəkətlər, məlumatlar, obrazlar və digər xəbərdarlıq növləri olub, seçilmiş auditoriyaların məlumatlandırılmasına, onlara təsir göstərilməsinə və inandırılmasına yönəldilən fəaliyyətlərdir" [5].

Zənnimizcə, daha dəqiq tərifi ABŞ Dövlət Departamentinin Strateji Kommunikasiyalar üzrə mütəxəssisi Emili Qoldman özünün "Strateji kommunikasiyalar: Asimmetrik döyüş aləti" adlı məqaləsində qeyd etmişdir: "Strateji kommunikasiyaların əsasını qavrayışların idarə olunması təşkil edir ki, burada informasiya axınlarının, ideyaların, hərəkətlərin və qərarların koordinasiyası vasitəsi ilə seçilmiş auditoriyaların qavrayışlarının dövlət siyasətinin məqsədlərinə uyğunlaşdırılması əsas rol oynamalıdır" [2].

Birləşmiş Krallığın (İngiltərə, BK) tədqiqatçıları P.Cornish, J.Lindley-French və C.Yorke Kral Bey-

nəlxalq Münasibətlər İnstitutunun “Chatham House” şöbəsinin hesabatında StratKoma belə bir tərif vermişlər: “StratKom - idarəetmənin strateji, əməliyyat və taktiki səviyyələrində həyata keçirilən, seçilmiş auditoriyaların maraq və ehtiyaclarının öyrənilməsinə yönəldilən və həmin auditoriyaların müəyyən davranış növlərinin fəallaşdırılması və dəstəklənməsi üzrə effektiv metod və mexanizmləri müəyyən edən qarşılıqlı əlaqəli tədbirlər sistemidir” [4]. Məhz bu tərifdən Avropa Parlamentinin 23 noyabr 2016-cı il tarixli “Aİ-nin strateji kommunikasiyaları və təbliğata qarşı mübarizə” adlı qətnaməsində istifadə olunmuşdur [7]. Bununla yanaşı, “Chatham House” şöbəsinin hesabatında StratKomun aşağıdakı əsas komponentləri qeyd olunmuşdur:

- İnformasiya əməliyyatları (İnformation Operations);
- Psixoloji əməliyyatlar (Psychological Operations);
- İctimai diplomatiya (Public Diplomacy);
- İctimaiyyətlə əlaqələr (Public Affairs) [4].

NATO-nun müvafiq (NATO Strategic Communications Policy, 2009) sənədində StratKom barədə belə qeyd olunmuşdur: “NATO-nun StratKomu Alyansın siyasətlərinin, əməliyyatlarının və fəaliyyətlərinin dəstəklənməsi üçün həyata keçirilən koordinə edilmiş tədbirlər kompleksi olub aşağıdakı fəaliyyətləri (komponentləri) əhatə edir:

- İctimai diplomatiya (Public Diplomacy);
- İctimaiyyətlə əlaqələr (Public Affairs);
- Hərbi-ictimai əlaqələr (Military Public Affairs);
- Informasiya əməliyyatları (Information Operations);
- Psixoloji əməliyyatlar (Psychological Operations)” [1].

StratKomun yuxarıda qeyd olunan tərif və komponentlərini araşdırarkən müəyyən edirik ki, burada olan komponentlər QİO-nun komponentləri ilə ümumən eynidir. Nəzərə alsaq ki, ABŞ və onun müttəfiq dövlətlərində İM əsasən İƏ üzrə müvafiq doktrinalarda açıqlanır, bu səbəbdən İM-in strateji (hökumət) – milli (dövlət) səviyyəli komponentlərinin mahiyyəti və həyata keçirilməsi məsələlərini məhz StratKom üzrə müvafiq sənədlər və araşdırmalar əsasında öyrənmək olar.

Bəs, StratKomu yalnız strateji səviyyədə həyata keçirilən İM ilə eyniləşdirmək olarmı? Yuxarıda qeyd olunan təriflərdən müəyyən olundu ki, StratKom həm strateji, həm əməliyyat, həm də taktiki səviyyəli fəaliyyətləri nəzərdə tutur. Bu baxımdan StratKom ilə İM arasında müqayisəli təhlilə əsasən aşağıdakı müddəanı irəli sürmək olar: İM nisbətən qısa müddəti əhatə edib, əsasən münaqişə zəminində həyata keçirilən StratKom komponentlərinə malikdir. StratKom isə uzun müddəti əhatə edib (münaqişə dövrünü də əhatə etməklə) dövlət siyasətinə əsaslanan dəyərlərlə digər dövlətləri özünə cəlb etmək - diplomatiyadan, mədəniyyətdən, tarixdən və təhsildən istifadə edərək əlaqələr qurub, özünün məqsədlərinə nail olmaqdan ibarətdir. Bütün bunlar “Yumşaq güç” (Soft Power) adlandırılan məsələlərdir ki, İM anlayışının məzmunundan qat-qat kənara çıxır.

Beləliklə, müəyyən edirik ki, müasir dövlətlərdə, xüsusən ABŞ və digər Qərb dövlətlərində İM anlayışının məzmunu həm QİO, həm də StratKom anlayışlarının məzmunu ilə kəsişir. Hesab edirik ki, bu dövlətlərin rəsmi sənədlərində İM anlayışının StratKom termini ilə əvəz edilməsi bu məfhumun hərbi xarakterinin geri plana çəkilərək, siyasi mahiyyətinin önə çəkilməsinə xidmət edir. Digər məsələ isə İM anlayışının məhz münaqişə zəminində, StratKomun isə daha geniş kontekstdə - öz dövlətinin dəyərlərinin əksər xarici dövlətlərə ixrac edilməsi zəminində həyata keçrilməsi mahiyyətini kəsb etməsidir.

Bununla yanaşı, müəyyən edirik ki, “qavrayışların idarə olunması” və “strateji kommunikasiyalar” anlayışlarının komponentləri İM-in strateji səviyyəli komponentləri ilə əsasən eynilik təşkil edir. Digər tərəfdən isə ABŞ-ın İƏ üzrə hərbi doktrinalarına əsasən, İƏ-nin də komponentlərini nəzərdən keçirərək, onlardan bəzilərinin müstəqil qaydada (yəni İƏ keçirilmədən) tətbiq edilmə imkanlarını müəyyən edirik. Qeyd olunanları nəzərə alaraq, aşağıdakı müddəaları irəli sürürük:

1. İM-in aşağıdakı komponentləri vardır:

a. İctimai diplomatiya (Public Diplomacy);

b. İctimaiyyətin məlumatlandırılması (Public Information);

c. Psixoloji əməliyyatlar (Psychological Operations);

d. Əməliyyatların təhlükəsizliyi (Operations Security);

e. Gizli fəaliyyətlər (Covert Action);

f. İnformasiya əməliyyatları (Information Operations).

2. İM-in komponentləri hər biri ayrı-ayrılıqda öyrənilməli və onların həyata keçirilmə mexanizm-

ləri müəyyən olunmalıdır.

3. "Böhran" zamanı keçirilən İM aşağıdakı dövrləri əhatə etməlidir:

a. Böhran (real təhdid) dövrü;

b. Dinc dövrü (böhrandan sonrakı dövr).

4. "Müharibə (silahlı münaqişə)" zamanı keçirilən İM aşağıdakı dövrləri əhatə etməlidir:

a. Böhran (real təhdid) dövrü;

b. Müharibə (silahlı münaqişə) dövrü;

c. Dinc dövrü (müharibə və ya silahlı münaqişədən sonrakı dövr).

5. İM-in ayrı-ayrı (dinc, böhran və müharibə) dövrləri kompleks halda (münaqişə zəminində) nəzərdən keçirilərək öyrənilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. About strategic communicatons // https://stratcomcoe.org/about_us/*

*2. Goldman Emily. Strategic Communication: A Tool for Asymmetric Warfare / Small Wars Journal. October 6, 2007. // URL: http://smallwarsjournal.com/blog*

*3. Collins Stiven. Mind games: Lieutenant-Colonel Steven Collins assesses the Coalition's perception-management operations before, during and after Operation Iraqi Freedom and their implications for NATO // https://www.nato.int/cps/en/natolive/opinions_20499.htm*

*4. Cornish P., Lindley-French J., Yorke C. Strategic Communications and National Strategy / A Chatham House Report // https://www.chathamhouse.org/sites/files/chathamhouse/*

*5. Christopher Paul. Strategic Communication: Origins, Concepts, and Current Debates // https://publisher.abc-clio.com/9780313386411/*

*6. DoD Dictionary of Military and Associated Terms / Defense Technical Information Center. November 8, 2010 // URL: http://www.dtic.mil/doctrine/new_pubs/jp1_02.pdf*

*7. EU Strategic Communications with a View to Counteracting Propaganda. In-depth Analysis / European Union Institute for Security Studies (EUISS) // http://www.europarl.europa.eu/RegData/et*

*8. JP -313 Information Operations – 2006 // https://www.globalsecurity.org/intell/library/policy/dod/joint/jp3_13_2006.pdf*

*9. Kapoor B.M. The art of perception management in information warfare today // https://usiofindia.org/publication/usi-journal*

*10. Perception Management (Us Dod Definition) - Military Factory // https://www.militaryfactory.com/dictionary/military-terms-defined.php?term_id=4039*

*11. Richard O'Neill. Toward a Methodology for Perception Management, 1989 // https://usnwcarchives.org/repositories/2/archival_objects/151947*

*12. Zaman Khyber. Perception management a core IO capability // https://core.ac.uk/download/pdf/36696936.pdf*


## XÜLASƏ


Müasir dünyada informasiya müharibəsinin mahiyyəti əksər dövlətlərdə ümumən eyni qiymətləndirilsə də, onun məzmunu müxtəlif cür təqdim olunur. Bununla yanaşı, bu məzmun "qavrayışların idarə olunması" və "strateji kommunikasiyalar" anlayışlarının məzmunu ilə də bu və digər dərəcədə kəsişir. İstər "qavrayışların idarə olunması", istərsə də "strateji kommunikasiyalar" anlayışı hər biri özünün komponentlərinə məxsusdur. Bu məqalədə "qavrayışların idarə olunması" və "strateji kommunikasiyalar" anlayışlarının məzmunu və əsas komponentləri təhlil edilərək, müasir informasiya müharibəsinin komponentləri müəyyən edilir. Bununla yanaşı, burada informasiya müharibəsinin hansı (dinc dövrü, müharibə dövrü və s.) dövrləri əhatə etməli olacağı da öyrənilir.



**Açar sözlər:** *İnformasiya müharibəsi, informasiya əməliyyatları, qavrayışların idarə olunması, strateji kommunikasiyalar.*


**Обзор информационной войны через понятия «Управление восприятием» и «Стратегические коммуникации»**

## РЕЗЮМЕ


Хотя сущность информационной войны в современном мире в целом оценивается в большинстве стран одинаково, ее содержание преподносится по-разному. В то же время это содержание в некоторой степени пересекается с содержанием понятий «управление восприятием» и «стратегические коммуникации». И понятие «управление восприятием», и «стратегические коммуникации» имеют свои составляющие. В данной статье анализируются содержание и основные ком-

поненты понятий «управление восприятием» и «стратегические коммуникации», в результате чего определяются компоненты современной информационной войны. Кроме того, в данной статье также изучается, какие периоды (мирное время, военное время и т.д.) должны быть охвачены информационной войной.

**Ключевые слова:** *Информационная война, информационные операции, управление восприятием, стратегические коммуникации.*

**Review of Information War through the concepts of "Perception management" and "Strategic Communications"**

**SUMMARY**

Although the essence of the information war in the modern world is generally assessed similarly in most countries, its content is presented in different ways. At the same time, this content to some degree overlaps with the content of the concepts of "perception management" and "strategic communications". Both the concept of "perception management" and "strategic communications" have their own components. In this article, the content and main components of the concepts of "perception management" and "strategic communications" are analyzed, and as a result, the components of modern information warfare are determined. In addition, in this articles it is also studied which periods (peacetime, wartime, etc.) should be covered by the information war.

**Key words:** *Information war, information operations, perception management, strategic communications.*

UOT 327; 930.22

# EYNİ İTTİFAQDAKİ İKİ RƏQİB

**VÜQAR ƏHMƏDOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: vuqarehmedov236@gmail.com*

**ALTAY MUSAYEV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: musayev.altay@inbox.ru*

**ƏLƏKBƏR SADIXLI**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: elekber_sahinoglu@mail.ru*

**Yunan-Türk münasibətlərində Kipr məsələsi**

Yunanıstan və Türkiyə arasında olan gərginliklərdə Kipr problemini xüsusilə qeyd etmək lazımdır. Kipr problemi Yunanıstanın "ENOSIS" siyasətinin elan etdiyi zamandan başlanmışdır. Yunanıstan Kipri Yunanıstan ərazisi etmək üçün can atır. Hətta bununla yanaşı türkləri tamamilə Kiprdən yox etmək Yunanıstan və həmçinin Kiprdəki rumların əsas məqsədlərindən biri olmuşdur. 1963-cü ildə Qanlı Milad məhz bu məqsədlərini həyata keçirmək üçün Kipr rumları tərəfindən həyata keçirilmişdi. Qanlı Milad Makariosun dönəmində gerçəkləşmişdi.

Hər zaman siyasi baxımdan əsas problemlərdən olan və öz aktuallığını itirməyən Kipr problemi son zamanlarda Türkiyənin Avropa İttifaqına qoşulması kontekstində öz vacibliyini daha da artırmışdır. Strateji cəhətdən Kiprin üstün mövqeyə sahib olması problemin həllini ciddi şəkildə gecikdirir. Strateji cəhətdən üstünlüyü Süveyş kanalından Sakit okean və Hind okeanına qədər davamı edən dəniz yolunun nəzarət nöqtələrindən olması, enerji mənbələrinə yaxın yerləşməsi, Yaxın Şərqlə Afrika arasında bir mövqeyə sahib olması, Anadolu-Süveyş kanalı bölgəsində önəmli mövqeyə sahib olması kimi məsələrlə izah oluna bilər.

Kipr məsələsində Türkiyə və Yunanıstanla yanaşı, böyük dövlətlərin də öz maraqları mövcuddur. Əsas səbəb isə Kiprin strateji cəhətdən üstün mövqeyə sahib olmasıdır. Bu məsələləri aydınlaşdırmaq üçün Kiprlə əlaqədar tarixən cərəyan edən hadisələri təhlil etməyin böyük önəmi vardır.

Roma, Böyük Britaniya, Osmanlı imperiyası kimi böyük dövlətlərin Kipr adasına tarixən xüsusi maraqları olub. Kipr də öz növbəsində geosiyasi həmçinin geostrateji cəhətdən əlverişli şəraitdə olmuşdur. Regionun dəniz yollarına, strateji cəhətdən üstün mövqeyə sahib məntəqələrə böyük dövlətlər daim bu adanın öz təsir dairələrində olması üçün çalışmışlar. 1570 və 1571-ci illərdə baş verən müharibənin nəticəsi olaraq Osmanlı Kipri fəth etdi. Və bununla da 308 il ərzində Kipr Osmanlı təsiri altında qaldı. 1878-ci ildə Berlin anlaşması gerçəkləşdi. Bununla da Kipr müvəqqəti İngiltərəyə verilirdi. Həmçinin Kiprə göndərəcəyi hərbi qüvvəsi ilə İngiltərə rusların Anadoluya ola biləcək istənilən hücumuna qarşı olaraq Osmanlıya yardım etməyi öz öhdəsinə götürürdü. 1923-cü ildə reallaşan Lozanna razılığına əsasən Türkiyə Kipr adasının İngiltərə tərəfindən təktərəfli işğalını tanıdı. 1925-ci ildə artıq Kipr Tac Koloniyası adını aldı (Eroğlu, 2002:739).

1952-ci ildə bir neçə dəfə Makarios Yunanıstana getmiş və Papaqosun Kipr məsələsinin BMT-də müzakirə olunması ilə əlaqədar razılığına nail olmuşdu. Yunanıstan bununla da Kipr xalqının özünü idarə etmək, öz müqəddəratını həll etmək məsələlərinin gündəmə gətirilməsini istəmişdir (Çalik Orhun,2020:185).

Xüsusilə 1950-ci ilin əvvəlində Türkiyə Kipr problemini Ingiltərənin daxili məsələsi kimi nəzərdən keçirirdi. Lakin məhz 1954-cü ildən sonra Türkiyə Kipr problemini özlərinin problemi olaraq görmüşdür. 1954 -cü ildə BMT-də özünü idarəetmə ilə Yunanıstanın müraciəti uğursuzluqla nəticələndi (Köse,2007:909).

1959-cü ildə isə Kiprə müstəqillik verilməsi müzakirə olundu və Paris, Sürix və Londonda müzakirələr nəticəsində hər iki tərəf anlaşma imzalamışlar. Bununla yanaşı, daha sonra Kipr Cümhuriyyəti Konstitusiyası, həmçinin Qarantiya və İttifaq andlaşmaları imzalanmışdır. Kipr müstəqilliyini elan

etdikdən sonra BMT-nin üzvü olur. 1963-cü ildə "Akritas Planı"na əsaslanan Qanlı Milad hadisələri baş verdi. 25 dekabrda Türk qırıcılarının Kipr adasının üzərindən uçuşlar həyata keçirməsi xəbərdarlıq xarakteri daşıyırdı. Bu hadisələrdən sonra İngiltərə, Yunanıstan və Makarios Kipr adasında sülh üçün İngilis generalının rəhbərliyi ilə bir güc təşkilini qəbul etdilər. Türklərin xəbərdarlıq xarakterli uçuşlarının nəticəsində adada atəşkəs elan olundu. Türkiyə də öz növbəsində asayişi təmin etmək üçün öz hərbi təyyarələrini və gəmilərini Kipr adasına yola saldı. Gedişatlar Türkiyənin Kiprdəki hadisələrə hərbi müdaxilələr etməsini labüd etdi. Kiprə Türkiyənin hər hansı müdaxiləsi zamanı Sovetlər müdaxilə edə biləcəyini, bununla yanaşı NATO-nun Türkiyəyə yardım göstərməyəcəyini qeyd edirdi. Bu məktuba da öz növbəsində İsmət İnönünün də cavabı çox sərt verilmişdir. 1968-ci ildən 1974-cü ilin ortalarına kimi danışıqlarda Kiprdəki türk tərəfinin məqsədi yunanlarla birlikdə yaşadıqları coğrafiyada "yerli muxtariyyət" əldə etmək olmuşdur. Ancaq yunan tərəfi bunu bu formada qəbul etmirdi. 1980-ci ildən bəri BMT Təhlükəsizlik Şurası həll üçün "iki icmalı, iki zonalı federasiya" hədəfinə çevrildi. 1974 – cü ildə Kipr sülh hərəkatı gerçəkləşmişdir. Bundan sonra isə 1974-1983-cü ilə kimi isə Kipr türk federal dövləti adlanmışdır. 1983- cü ildən bəri Şimali Kipr Türk Respublikası adlanmaqdadır (4).

2004-cü ildə Kipr problemi tarixində ilk dəfə olaraq "iki dövlətli, iki hissəli" federal dövlətin təminatını nəzərdə tutan həll planı hazırlanmışdır. Kiprli rumlar isə bunu referendumla rədd etdilər, Şimali Kipr Türk Cümhuriyyətinin xalqı isə öz növbəsində qəbul etmişdilər.1974-cü ildən bu yana Kiprdə 2 fərqli dil, din, mədəniyyət və digər məsələlər cəhətdən bir-birindən tamamilə fərqli olan 2 xalq, 2 dövlət, 2 fərqli iradə olmuşdur. 2004-cü il aprelin 24-də Annan planı ilə əlaqədar 2 ayrı dövlətdə referendumların keçirilməsi və 2 xalqın iradəsinin ayrı-ayrılıqda təminatı sübut olaraq göstərilə bilər. Şərqi Aralıq dənizi hövzəsinə ümumi nəzər saldıqda, görürük ki, 1954-1960 -cı illər və həmçinin, 1963-1974-cü illər nə qədər "qaynar bölgə" olsa da, 1974-cü ildən bəri müəyyən qədər sakitliyin olduğunu deyə bilərik. Kipr mübahisəsində aktorların çox olması, bununla yanaşı, həmin aktorların hər birinin öz maraqlarına uyğun olaraq məsələnin yekunlaşmasını üstün tutmaları bu problemin həllinin tapılmamasına gətirib çıxarır. Hər bir aktorun da məsələdə fərqli fikir və mövqeləri var və problemin həllini hər aktor fərqli şəkildə yekunlaşdırmağı üstün bilir.

Kipr probleminin ortaya çıxmasından bəri həlli üçün ən uyğun variant elə adada 2 ayrı dövlətin var olmasıdır. Və bununla da hər iki dövlət arasında dostluq və əməkdaşlıq, tərəfdaşlığın qurulması adada asayişin qorunması və təhlükəsizliyin təmin olunması baxımından əsas məsələlərdəndir .

**Türkiyə və Yunanıstanın bir-birinə qarşı münasibətlərində "dənizlər məsələsi"**

Hazırda yaşadığımız ilin yaz aylarından etibarən NATO-nun iki "müttəfiq" dövləti arasında dərin fikir ayrılıqları və gərginliklər yaşanır. Gərginliyin səbəbləri müxtəlif istiqamətlərdəndir. Siyasi və geostratejik səbəblər içərisində tarixi aspektləri geniş olan "dənizlər məsələsi" önəmli yer tutur.

Bəs, bu problemlərin kökü hardan gəlir? 21-ci əsrin ilk illərindən Türkiyə, Yunanıstan və Cənubi Kipr arasında Şərqi Aralıq dənizində daha çox pay əldə etmək uğrunda mübarizə başladı. Bu istiqamətdə xüsusilə bir tərəfdə Türkiyə, digər tərəfdə isə Yunanıstan və Cənubi Kipr Rum Hakimiyyəti öz tezislərini irəli sürdülər, bu isə son illərdə məsələnin daha da aktuallaşmasına səbəb oldu. Məsələnin digər tərəfində həmçinin Şimali Kipr Türk Respublikası və onun da öz mənafeyini güdməsi, bundan başqa Avropa Birliyi və Qərbin anti-Türkiyə addımları da vardır. İki əsas hüquqi termin var: İlki kontinental şelf ( geoloji olaraq qurunun dəniz dibindəki uzantısı və burdakı təbii ehtiyatlar sahil dövlətə məxsusdur.) və ikincisi, ekskluziv iqtisadi zona (kontinental şelfin altında və hava məkanında olan sərvətlərin səlahiyyətinin aid olması) anlayışıdır (5). Bəs nə var bu şelf ərazisində və paylaşıla bilməyən nədir? Sualın cavabı sadəcə ərazi, ya da siyasi əlaqə deyil, məsələnin dərinliyinə getdikcə onun Liviyadakı münaqişədən Suriyadakı vəziyyətə qədər bu ərazidə olan hər cür məsələ ilə bağlı olduğunu görə bilərik. Belə ki, aparılan araşdırmalara əsasən sadəcə şelfin kiçik hissəsi olan Levant körfəzində belə 1.6 milyard barel neft və 3.4 trilyon kub metr qaz ehtiyatları vardır (6). Enerjinin önəmli bir silah olduğu bir gündə bu tip ehtiyatların ətrafdakı "iştahları" necə qabardacağını söyləmək, fikrimizcə, yersizdir.

Bu səlahiyyətlərin bölüşdürülməsində 2003-cü ildən bəri Şərqi Aralıq dənizi dövlətləri öz aralarında anlaşmalar imzalayırdılar, fəqət məsələnin gərginləşməsinin əsas vasitəsi 2019 Türkiyə - Liviya və 2020 Yunanıstan – Misir anlaşmalarıdır. Bu iki anlaşma bir

– birinə ziddir. Anlaşmalar nəyə əsaslanır? Yunanıstan – Misir – Cənubi Kipr – İsrail Avropa Birliyinin dəstəyi ilə 2019-cu ildən bəri yuxarıda söylədiyimiz ehtiyatların qitəyə daşınması istiqamətində müqavilələr imzalayırlar. 2019-cu ildə Yunanıstanın Misirlə imzaladığı iqtisadi zona anlaşması bu istiqamətdə Türkiyənin qəbul etmədiyi ilk addımdır. Əsrin əvvəllərində Sevilya Universitetində hazırlanan bu xəritə Yunanıstanın dənizlərdəki adalarının iqtisadi zonasını Türkiyə əleyhinə olmaqla qabardır. ABŞ tərəfindən hüquqi olaraq dəstəklənməyən bu xəritə Türkiyənin Liviyada olan hüquqi Tripoli rəhbərliyi ilə yeni xəritə cızmasına səbəb oldu. Türkiyənin xəritəsi Misir – İsrail – Yunanıstan üçlüsünün enerji anlaşmalarının qarşısında maneə olaraq görülür (7).

2020-ci ilin dekabr ayından etibarən Avropa Birliyinin dəstəyi ilə gərginlikdə müəyyən qədər yumşalma başladı. Xüsusilə Almaniyanın diplomatiyaya önəm verən fikirləri Fransa və Yunanıstanın əksinə, Türkiyə lehinə addımlar atılmasına gətirib çıxartdı. Heç bir hüquqi qüvvəsi olmayan Sevilya planının üstündən xətt çəkən 2020 – 2021 danışıqları Türkiyənin istəyinə uyğun olaraq məsələnin bütün Şərqi Aralıq dənizi ölkələri arasında olacaq platforma ilə həllini tapması bəndini də ortaya çıxardı. Bu platforma hələ səhnədə deyil, amma ABŞ-ın da qatılması ilə Avropa Birliyi, Türkiyə və digər mövzuyla əlaqəli dövlətlərin iştirakı vasitəsilə gərginlik müəyyən qədər azaldı.

Fəqət, iki dövlət arasında sakitlik çox davam etmədi. Bu dəfə problemin əsas mərkəzi Türkiyə və Yunanıstanın sahillərini yuyan Egey dənizi idi. Düşünürük ki, Şərqi Aralıq dənizi məsələsinin Egey problemi ilə əlaqəsi var. “Tarixdə yüzlərcə münaqişə görən” Egey dənizində ada qrupları müxtəlif istiqamətlərdə geniş ərazini əhatə edir və hər bir qrupun özünəməxsus statusu var. Bu qruplardan biridə dənizin Cənub – Şərqində yerləşən “12 ada”lardır. Həmin bu “12 ada”lar keçdiyimiz əsrin əvvəllərində Osmanlı ilə İtaliya arasında baş verən 1911- 1912 müharibəsi ilə gündəmə gəlmişdir. İmzalanan müqavilə ilə Liviyanı tərk edəcək Osmanlı bunun qarşılığında İtaliyanın işğal etdiyi 12 adanı geri qaytara biləcəkdi, lakin ilk dünya müharibəsində məğlub olmuş Osmanlı ərazinin yenə İtalyan işğalında qalmasına razı olmaq məcburiyyətində qaldı (Armaoğlu,1983:625). Üstündən 30 il keçdikdən sonra, 1947-ci ildə Parisdə həmin adalar məğlub olmuş İtaliyadan alındı və Yunanıstana verildi. Fəqət, üstündən illər keçməsinə baxmayaraq, məsələ tam həllini tapmamış, xüsusilə son zamanlar adaların Yunanıstan tərəfindən silahlandırılması iki tərəfarası münasibətləri pik həddə gətirib çıxarmışdır (Armaoğlu,1983:404).

Bəs, 2022-ci ildə olanlar nədən ibarətdir? Problem içində olduğumuz ilin aprel ayının son günlərində Yunanıstan Hava Qüvvələrinin ən azı 30 dəfə Türkiyə hava məkanını pozması ilə başladı. Əlbəttə, bunun qarşılığında Türkiyə Hərbi Hava Qüvvələri yunan döyüş təyyarələrinə cavab verdi. Aradan müəyyən müddət keçdikdən sonra avqust ayının sonlarında Yunanıstan bu dəfə Krit adasında silahlanmaya başladı və bu dövlətə məxsus S-300 müdafiə sisteminin Türkiyənin F-16 təyyarələrini hədəf altına alması gərginliyin yüksəlməsinə gətirib çıxardı.

Sadəcə Türkiyə və Yunanıstan deyil, məsələnin gərginləşməsində Qərbin iki nəhəng fiquru - ABŞ və Fransanın da xüsusi yeri vardır. 2020-ci ildən ABŞ rəhbəri olan Co Baydenin Türkiyə ilə əlaqələri çox yüksək şəxsdir desək, doğru olmaz. Hakimiyyətə gəldiyi ilk günlərdən Türkiyə ilə sıxıntılar yaşayan ABŞ rəhbərinin Yunanıstan lehinə Egey və Aralıq dənizində addımlar atması, əlbəttə, mövzunun dərinləşməsinə səbəb olur. ABŞ – Türkiyə əlaqələri son illərdir bildiyimiz kimi heç də yüksələn qrafikdə deyil. Rusiya – Türkiyə əlaqələrinin genişlənməsi və digər tərəfdən, Suriya, İraqda davam edən terrora qarşı Türkiyənin həmlələri iki tərəf arası gərginliyin əsas səbəbləri arasındadır.ABŞ rəhbərliyinin yunan dəstəyi bunlarla əlaqədar ola bilər. Digər tərəf Fransa isə ABŞ-la eyni düşüncə istiqamətindədir. Bəs necə? Ümumiyyətlə baxsaq, görərik ki, Fransa və Türkiyə son illərdə hər zaman əks mövqelərdə dayanıblar. Suriyada PKK və digər terror birləşmələrinin, Liviyada Xəlifə Hafter və İkinci Qarabağ müharibəsində Ermənistan – bunlar Fransanın açıq dəstək verdiyi tərəflərdir. Bunların əsas səbəbi Fransanın Türkiyəni özünə böyük bir rəqib olaraq görməsindədir. Aralıq dənizi, Şimali Afrika və Balkanlarda olan təsir mexanizmini itirmək istəməyən Fransa hər yolla Türkiyənin başını qatmağa çalışır. Bu onun həm də NATO ilə bağlı arzularının reallaşmasına gətirib çıxaracaq yoldur.

Biz bilirik ki, Avropada iki əsas mövqe var. Almaniya və ABŞ-ın Avropa dominantlığının tərəfdarları və onların rəqibi Fransa. Bu dövlət ABŞ-ın NATO üzərindən qitədə qurduğu sistemi zəiflətmək üçün yollar axtarır. Xüsusilə, Avropanın şərqinin qarışdığı bir zamanda ABŞ nə qədər NATO daxilində

gərginlik istəmirsə, Fransa onun tam əksinə, bu gərginliyin genişlənməsinin tərəfdarıdır.

Məsələnin həmçinin daxili sferası da var. Növbəti il Yunanıstanda seçkilər keçiriləcək və yunan Baş nazirin vəzifədə qalma ehtimalı yüksək görünmür. Ölkədə yaşanan iqtisadi problemlər, sosial gərginliyin artması və bu kimi hallar bu ehtimalı azaldır. Yunan baş nazirinin NATO-dakı "müttəfiqi" ilə olan bu hadisələrdən öz reputasiyasını artırmaq üçün istifadəsi gözlənilməz deyil. Baş nazirin Amerika konqresində səsləndirdiyi pafoslu çıxışı da buna isbat ola bilər (10).

Bəs, dənizlər məsələsinin gələcəyi necə ola bilər? Şərqi Aralıq dənizi problemində həll yolunun tapılması, əlbəttə, ortaq diplomatik addımların atılması və yuxarıda qeyd etdiyimiz platforma vasitəsilə məsələni ən azından pik gərginlik həddindən uzaqlaşdırmaq yolu ilə mümkündür. Özəlliklə, son 2 ildə dəyişən vəziyyət buna gətirib çıxara bilər. İsrail Türkiyə əlaqələrinin yaxşılaşması, Misir və Türkiyə arası gərginliyin aşağı düşməsi gələcəkdə enerji və kontinental ərazinin hüquqi və ədalətli şəkildə bölünməsinə gətirib çıxaracaq ilk addımlardır. Egeydə mövcud durum indi ağır ab-havadadır. Mediada yayılan iki dövlət arası "potensial müharibə yazıları" reallıqda olacağa bənzəmir. Məsələ diplomatik danışıqlarda davam edəcək, amma müharibə ehtimalı həqiqətdən uzaqdır. Xüsusilə də Ukrayna münaqişəsi ilə əlaqədar NATO hərbi blokunun iki üzvünün öz aralarında gərginlik yaşaması ABŞ və onun Avropadaki ortaqları üçün xoşagələn deyil.

**İki dövlət arasında münasibətlərin kəskinləşməsində qərb amili**

Türkiyə coğrafi əhəmiyyətinə görə daim böyük dövlətlərin maraq obyektinə çevrilmişdi.Məhz buna görədir ki, türk-yunan münasibətlərinə tarixən baxdıqda üçüncü dövlətlərin və xüsusilədə qərbin buradakı rolunu aydın görə bilərik. Hər iki dövlət də üçüncü dövlətlərdən gələn təzyiq və dəstəyi nəzərə alaraq müəyyən xarici siyasəti həyata keçirmişlər. Türk-yunan münasibətləri tarixən bəzi vaxtlar kəskinləşsə də bəzən də sabit şəkildə davam etmişdir.

XIX əsrin əvvəllərində Napoleon müharibəsinin bitməsi ilə Avropada yeni sistem və yeni nizam formalaşdı. 20-ci illərin sonunda yunan azadlıq hərəkatı başladı. İngiltərə, Fransa və Rusiya isə yaranmış vəziyyətdən öz maraqları istiqamətində təsir etməyə çalışmışdılar. Birinci Dünya müharibəsinə qədər Avropada siyasi vəziyyət dəyişirdi. Əsasən XIX əsrin sonlarına yaxın Almaniya-Avstriya-Macarıstan blokuna qarşı Fransa-Rusiya və İngiltərənin sonradan qoşulduğu Antanta bloku formalaşmışdı. Birinci Dünya müharibəsində iştirak etmiş Osmanlı məğlub olaraq Mudros müqaviləsini imzalamağa məcbur oldu. Müqavilədə Osmanlı torpaqlarının Qərb dövlətləri arasında necə bölüşdürüldüyü qeyd olunurdu. Bu isə Egey dənizi adaları və Qərbi Anadoluya qarşı işğalçılıq planlarını həyata keçirməyə çalışan Yunanıstan üçün əla bir fürsət idi.1919-cu ildə həyata keçirilən Paris sülh konfransında Yunanıstanın təmsilçilik hüququ var idi. Həmin konfransda Yunanstanın baş naziri tarixi faktorları qeyd edərək Ege dənizi,Anadolu və hətta, İstanbulun Yunanıstana verilməsi barədə iddiası var idi. Lakin türklər Qurtuluş hərəkatında işğalçılara dirəniş göstərərək onları məğlub etmişdi və nəhayət, 1920-ci ildə Sevr və 1923-cü il Lozanna müqaviləsi ilə Yunanıstan və qərbin Türkiyəyə qarşı olan işğalçılıq planları puç oldu (Yiğitoğlu,2020:10).

Lozanna müqaviləsindən sonra 1923-1939-cu illər iki Dünya müharibəsiarası dönəmdə türk-yunan münasibətlərində müəyyən düzəlmələr oldu. Həmin dönəmdə iki dövlət arasında 1930-cu ildə "Dostluq tərəfsizlik müqaviləsi" imzalandı. Dostluq münasibətlərinin güclənməyində əsas amil kimi İtaliyanı götürə bilərik. Həmin dövrdə Mussolininin hakimiyyətə gəlməsi və onun Asiya və Afrikaya olan ərazi iddiaları bölgədə narahatçılıq yaratmışdı.Belə olduğu təqdirdə, Yunanıstan Türkiyəni əsas müttəfiqi kimi görürdü.

Bu zaman ərzində Türkiyə və Yunanıstan arasında imzalanan müqavilələrin əsas obyekti Egey dənizi adalarını silahlandırmamaq və qarşılıqlı dostluq əlaqələrinin qurulması idi.Lakin bütün bu müqavilələr iki dövlət arasında olan bütün problemləri həll edə bilməmişdi (Kayıran,2018:41).

İkinci Dünya müharibəsi ərəfəsində beynəlxalq vəziyyətdən qaynaqlanaraq Yunanıstan ilə Türkiyə arasında dostluq münasibətləri güclənmişdi.Almaniya Hitleri və Mussolinə qarşı Yunanıstan Bolqarıstanın ona hücum etməyəcəyinə dair təlimat almışdı və Türkiyə də bu məsələdə öz dəstəyini göstərmişdi. Müharibədə bəzi ölkələr neytral qalan Türkiyəyə müxtəlif zamanlarda Lozanna müqaviləsi ilə Yunanıstana verilmiş on iki ada ilə bağlı bir neçə dəfə təklif gəlmişdir.Lakin Türkiyə tərəfi bu təklifi rədd etmişdir (Uzun,2018:41).

İkinci Dünya müharibəsinin bitməsi və "soyuq müharibə"nin başlaması ilə Türkiyə və Yunanıstan ortaq Sovet təhdidinə qarşı qərb blokuna yaxınlaşmağa başlamışdılar.1949-cu ildə NATO-nun yaranmasından sonra ABŞ Türkiyə və Yunanıstana Qərb Birliyinə qoşulmadıqları müddətcə SSRİ-nin asan hədəfinə çevriləcəyini bildirdi. Üstəlik Yunanıstan da Qərbin ön cəbhəsində təkbaşına qalmaq istəmirdi. Nəticədə, Türkiyə və Yunanıstanın NATO-ya girişi 1952-ci ildə təsdiqləndi.

Lakin sonrakı illərdə NATO ölkələri belə Türkiyə və Yunanıstan arasındakı problemi həll edə bilmədilər. Kipr və sonra Ege dənizi ilə bağlı problemlərin yaranması ilə münasibətlər kəskinləşmişdi.1954-cü ildə Yunanıstanın "Xalqların öz müqəddəratlarını həll edə bilməsi" prinsipi ilə məsələni BMT-nin gündəminə daşımasını Yunanıstan-Türkiyə dostluq münasibətlərinin qırılma nöqtəsi olaraq qiymətləndirə bilərik (Sevinç,2017:194).

Kipr uzun müddət İngiltərə tərəfindən zəbt olduqdan sonra 50-ci illərdə Yunanıstan Kiprin ona ilhaq edilməsi məsələsini ortaya gətirdi(Enosis).Belə olan zamanda da Yunanıstan bu məsələdə üçüncü ölkələrin dəstəyini almağa cəhd göstərirdi və 1951-ci ildə Kiprin ona ilhaq edilməsi ilə bağlı məsələdə Yunanıstan rəsmi olaraq İngiltərəyə müraciət etdi. İngiltərədən müsbət cavab ala bilməyən Yunanıstan bu məsələni 1954-cü ildə BMT-yə gətirdi.Nəticədə 1959 -cu ildə Türkiyə və Yunanıstan arasında Zürix və 1960-cı ildə London müqaviləsi ilə idarəçiliyində həm yunan, həm də türklərin yer aldığı müstəqil Kipr dövlətinin yaradılması haqqında qərar qəbul edildi.

ABŞ və İngiltərə üçün əsas məsələ münaqişənin həll olunması idi. Çünki ABŞ üçün əsas məsələ SSRİ-yə qarşı mübarizədə müttəfiqlərini itirməmək idi. Ona görə də bitərəf yanaşdı. İngiltərə isə orada müstəmləkə rejiminə son qoysa da hərbi bazaları fəaliyyət göstərirdi. Qarşıdurma olmadığı müddətcə İngiltərə üçün heç bir problem yox idi. Bununla da İngiltərə Yaxın Şərqdə baş verən hadisələrə müdaxilə edə bilirdi. Hətta ABŞ və İngiltərənin də mövqeyi adanın bölüşdürülməsindənsə müstəqil dövlətin yaradılması fikrini dəstəkləyirdi. Onlar üçün əsas məsələ qarşıdurmanı həll etmək deyil, maraqları idi.

ABŞ-da Reyqan prezident seçildikdən sonra ABŞ-ın Kipr məsələsinə olan mövqeyi dəyişdi.1983-cü ildə Şimali Kipr Cümhuriyyəti yaradıldıqdan sonra ABŞ müsəlman ölkələrinə Şimali Kipr Cümhuriyyətini tanımalarına dair xəbərdarlıq etmişdi. (Turan,2016:40)

90-cı illərdə artıq "soyuq müharibə"nin bitməsi ilə yeni dünya sistemi meydana gəlir və ABŞ üçün regionda SSRİ amili qalmadığı üçün Kipr məsələsinə münasibəti dəyişir. ABŞ-ın əsas fikri türk və yunanlardan ibarət bir federasiyanın yaradılması idi və məsələyə müdaxilə etməklə daha çox Türkiyəni sıxışdırırdı. Nəticə etibarı ilə Türkiyə-Yunanıstan və Türkiyə-ABŞ münasibətləri pisləşdi.

Eyni zamanda, beynəlxalq arenaya aktor kimi Avropa İttifaqının gəlməsi ilə vəziyyət dəyişir.Avropa ittifaqının Kiprin təşkilata üzv olması fikrini qəbul etməsi ilə türklərdə böyük gərginlik yaranmış olur. Əslində Aİ-nin məqsədi Kiprin üzvlüyə qəbul olunması ilə daxildə türk-yunan qarşıdurmasını azaltmaq idi. Lakin belə olmadı (Süleymanov,2018:56).

Hazırda baxdıqda, əsas məsələ Egey dənizində Yunanıstanın adaları silahlandırmasıdır ki, bu da Türkiyə ilə münasibətlərin kəskinləşməsinə yol açdı.Çünki həmin adalar Paris müqaviləsinə görə silahlandırılmamaq şərti ilə Yunanıstana verilmişdi. Üçüncü ölkələrin isə bu məsələyə münasibəti aydındır. ABŞ Yunanıstanı silahla təchiz edərək Yunanıstanı qarşıdurmaya daha çox təhrik etməyə çalışır. Hətta Avropada Yunanıstanı ən çox silahla təchiz edən digər dövlət kimi Fransanın da adını çəkə bilərik. Fransanın əsas məqsədi Yunanıstanla birgə dənizlərdə mümkün potensial neft-qaz yataqlarından istifadə etməkdir.

## Nəticə

Türkiyə və Yunanıstan Egey dənizi sahillərində yerləşən bir-birinə həm quru, həm də dəniz vasitəsilə qonşu olan və həmçinin, ötən əsrin 50-ci illərindən bəri eyni hərbi təşkilata üzv olan iki dövlətdir. Yuxarıdakı yazıları ümumiləşdirdiyimizdə analiz edə bilirik ki, 19-cu əsrin əvvəllərində Avropada yayılmış müxtəlif düşüncələr ilə yunan millətçiliyi pik həddə çatmış, onlar Osmanlı dövlətindən müstəqillik almışlar və məhz bu hadisələrdən sonra bəzi qeyri – hüquqi addımları ilə öz istəklərini irəli atmışlar. Yəni, əslində məsələnin kökü daha qədimdə olsa da, bütün problemlərin ortaya çıxmasında Yunanıstanın müstəqillik əldə etməsi böyük rol oynamışdır. 19-cu əsr boyunca bu istəklərini gerçəkləşdirmək üçün Qərbin dəstəyi ilə Osmanlı əleyhinə çıxış etmiş, Türkiyə Cümhuriyyəti yarandıqdan sonra isə onunla qarşılıqlı əlaqə qurmaq yerinə, onlara qarşı addımlar atmağa davam etmişdir. Bütün 20-ci əsr, əl-

bəttə, pis münasibətlər ilə davam etməmişdir. 19-cu əsrdən fərqli olaraq XX əsrdə əlaqələr dalğalı davam etmişdir. İkinci Dünya müharibəsi və Koreya savaşı zamanı eyni tərəfdə çıxış edən iki dövlətin bu yaxşı əlaqələri 60-cı illərin Kipr gərginliyi sonrası ortadan qalxmışdır. Kipr gərginliyi problemləri həll etmək baxımından əsas statusu özündə saxlayır. Bu gərginlik bəs deyilmiş kimi yaşadığımız əsrdə iki tərəf arasında yeni məsələlər yarandı ki, bu problemlər də tarixi faktorları özündə saxlayır, amma əsas partlayış nöqtəsi 21-ci əsrdə oldu. Əlbəttə, problemlərin həll olunması mümkündür, tərəflərin "silah yerinə diplomatiyanı seçməsi", qarşılıqlı dialoqa üstünlük verilməsi, hər iki tərəfin bir-birinin düşüncələrini dinləməsi və ortaq qərarların alınması bu həlli gələcəkdə mümkün edə biləcəkdir. Amma hazırda yaşadığımız dövrdə hər iki tərəf müxtəlif cür addım atır. Türkiyə beynəlxalq hüquq və onun prinsiplərinə uyğun şəkildə, qarşı tərəfin istəkləri ilə ortaq fikir yaradılması vasitəsilə hüquqi addımlar atsa da, qarşı tərəf Qərbin dəstəyi və silah köməyi ilə bunun tam əksini yerinə yetirir. Türkiyə isə ,əlbəttə, Yunanıstanın ata biləcəyi provokativ addımlara qarşı hər zaman tədbirli və ehtiyatlı davranır. Yuxarıda sadaladığımız Kipr məsələsi, Egey və Şərqi Aralıq dənizi gərginlikləri iki dövlət arasında yeganə problemlər deyil, başqa məsələlərdə arxa planda davam edir, lakin iki tərəfarası əlaqələrdə məhz bu üç mövzu əsas rol oynayır. Türkiyə və Yunanıstan arası təməlli dostluq və barışın olması üçün sadəcə siyasi və diplomatik addımlar kifayət etmir, iki millətin bir-birinə olan davranışı və münasibəti də burada rol oynayır. Tərəflərin əsaslı dostluğu sadəcə iki xalqın inkişafına təməl olmayacaq, həm də regionun sabitləşməsi, iqtisadi olaraq çoxtərəfli inkişafın yaranmasına və nəticədə ən önəmlisi dünyada diplomatiyaya olan güvənin daha da artmasına səbəb olacaqdır. Tarixdə və yaşadığımız günlərdə dəfələrcə gərginlik olsa da, gələcəyin dostluq və ortaqlıq çərçivəsində olması mümkündür və zəruridir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1) Prof. Dr. Eroğlu, H. (Kasım 2002). Kuzey Kıbrıs Türk Cumhuriyyetini Yaratan Tarihi Süreç və Son Gelişmeler. İstanbul: Atatürk Araşdırma Merkezi Dergisi ,Sayı 54, cilt XVIII. 739-743s.*

*2) Çalik Orhun, F.(2020). Osmanlıdan günümüze, dün, bugün, yarın. Ankara: Gazi Kitabevi, 686 s.*

*3) Prof. Dr. Köse, O. (2017).Tarihte Kıbrıs (ilk çağlardan 1960 a kadar) II cilt.Istanbul:Akdeniz Karpaz Universitesi, 909 s.(ümumi 1328səhifə)*

*4) Akademik Bakış,Cilt 1, Sayı 1,Kış 2007 (səh 58 -70)*

*5) United Nations Convention on the Law of the Sea – 4.Part Article 76 \ 5. Part Article 55*

*6) https://www.iemed.org/publication/naturalgas-resources-in-the-eastern-mediterranean-challenges-and-opportunities/*

*7) https://www.middleeasteye.net/news/israel-egypt-eu-gas-export-deal-signed*

*8) Armaoğlu, F.(1983). 19. YÜZYIL SİYASİ TARİHİ. İstanbul: İş Bankası Kültür Yayınları, 796 s.*

*9) Armaoğlu, F.(1983). 20. YÜZYIL SİYASİ TARİHİ. İstanbul: İş Bankası Kültür Yayınları, 752 s.*

*10) https://www.hurriyetdailynews.com/greek-leader-tells-congress-democracy-is-tested-by-russia-173862*

*11) M.Yiğitoğlu.Tarihsel bir perspektivden türk-yunan ilişkileri üzerinden üçüncü aktörlerin etkisi.İstabul-2020,10 səh(29 səh)*

*12) Yrd Doç.Dr. Kayıran, M. və Yrd. Doç.Dr. Yahya, M.( 2018).Türk-yunan ilişkileri(1878-1952).Eskişehir:41 s. (65 səh)*

*13) Uzun, H.( 2004).1919-1950 yıllar arasında Türkiye-Yunanistan ilişkileri.Kırşehir:45 s. (50 səh)*

*14) Sevinç, D.( 2017).Türk-Yunan ilişkileri çerçevesinde Kıbrıs sorununda yeni bir aşama(1954-60). Ankara:171 s.*

*15) Turan, C.( 2016).Türk-yunan ilişkileri ve Ege sorunları.Edirne:40 s.*

*16) Süleymanov, G.C.( 2018) "Soyuq müharibədən sonra Kipr məsələsi" mövzusunda magistr dissertasiyası. Bakı:56 səh.*


## XÜLASƏ


Türkiyə və Yunanıstan əlaqələri hər iki dövlətin tarixlərindən irəli gələn məsələlərlə əlaqəli olaraq hər zaman çalxantılı olmuşdur. İki dövlət müəyyən zaman çərçivəsində eyni tərəfdə çıxış etmiş və bir-birlərini dəstəkləmişdir. Lakin keçdiyimiz əsrin sonu və indiki müasir dövrdə tərəflərin gərginliklərinin müəyyən məsələlər ilə əlaqədar hər zaman yüksəldiyini müşahidə edirik. Hər iki dövlət bir hərbi ittifaqda "müttəfiqdirlər". 1949-cu ildə əsası qoyulan NATO Alyansına hər iki ölkə 1952-ci ildə qəbul olmuş və bu tarixdən etibarən Kipr məsələsinin ən gərgin dövrünə qədər iki ölkə arasında normal əlaqələr mövcud olmuşdur. Kipr adası ilə bağlı gərginlik iki

ölkənin yollarının ayrılmasına və nəticədə münasibətlərin ən pis həddə gəlib çıxmasına səbəb olmuşdur. İndiyə qədər hələ də tam həllini tapmayan bu məsələ Türkiyə və Yunanıstan arasında olduğumuz əsrə qədər əsas problem kimi görünürdü. Lakin sonrakı tarixlərdə, xüsusilə, enerji və karbohidrogen ehtiyatlarının artıq mühüm ehtiyac olduğu anlarda Kipr sadəcə bəhanə olmağa başlamış və dövlətlər arasında Egey "adaları", Aralıq dənizinin Şərq istiqamətində isə enerji və mövqe əldə etmək uğrunda rəqabət başlamışdır. Və beləliklə, bu iki ölkə arasında problemlərin sayı artmış və bunların heç birində indiyə qədər tam həll yolunu tapmaq mümkün olmamışdır. Türkiyə və Yunanıstan bu məsələlərin yeganə tərəfləri deyil, əlbəttə. Hər iki müttəfiqini itirmək istəməyən ABŞ, Fransanın təkidləri ilə Yunanıstan lehinə, Almaniyanın addımları ilə isə Türkiyə lehinə addımlar atan Avropa Birliyi və məsələ ilə müəyyən qədər əlaqələri olan Aralıq dənizi sahili və bəzi Yaxın Şərq dövlətləri, həmçinin, bu problemlərdə ya bilavasitə, ya da dolayısı yolla tərəf olmağı bacarırlar. Məhz bu kimi hallar yaşadığımız dövrdə hələ də həllinin tapmayan gərginliklərin artmasına, bəzən hətta dalana dirənməsinə səbəb olur. Məqalədə daha çox iki ölkə arası əlaqələrdə əsas gərginlik mövzusu olan üç məsələyə yer verilmişdir – a)Türkiyə-Yunanıstan əlaqələrinin kəskinləşməsində Qərb amili; b) Egey və Şərqi Aralıq dənizində mövcud problemlər; c) Tarixi aspektləri geniş olan Kipr məsələsi. Bu məqalə məhz bu 3 əsas məsələni özündə ehtiva edir.

**Açar sözlər:** *Türkiyə, Yunanıstan, Kipr məsələsi, Egey dənizi, Şərqi Aralıq dənizi, Qərb amili*

**Vugar Rafail Ahmadov**
**Altay Jamil Musayev**
**Alekbar Sahin Sadikhli**

**Two opponents in the same alliance**

**SUMMARY**

Relations between Turkey and Greece have always been tumultuous due to issues stemming from the history of both states. The two states acted on the same side and supported each other within a certain period of time. However, at the end of the last century and in the present modern era, we observe that the tensions between the parties are always rising due to certain issues. Both countries are "allies" in a military alliance. Both countries joined the NATO Alliance, which was founded in 1949, in 1952, and from this date until the most tense period of the Cyprus issue, there were normal relations between the two countries. The tension over the island of Cyprus has led to the parting of ways between the two countries and as a result the relations have reached the worst level. This issue, which has not yet been fully resolved, seemed to be the main problem between Turkey and Greece until the present century. However, in later history, especially when energy and hydrocarbon resources were already an important factor, Cyprus became just an excuse, and the competition between the states for obtaining energy and position in the Aegean "islands" and in the Eastern direction of the Mediterranean Sea began. And thus, the number of problems between these two countries has increased and none of them have been able to find a complete solution so far. Of course, Turkey and Greece are not the only parties to these issues. The United States, which does not want to lose both of its allies, the European Union, which takes steps in favor of Greece under the insistence of France, and in favor of Turkey under the steps of Germany, and the Mediterranean coast and some Middle Eastern states, which have some relations with the issue, are also directly or indirectly involved in these problems. they can take sides. It is situations like these that lead to an increase in tensions that have not yet been resolved in our time, and sometimes even lead to deadlocks. In the article, the three issues that are the main tension in the relations between the two countries are included - a) The Western factor in the aggravation of Turkey-Greece relations b) Current problems in the Aegean and Eastern Mediterranean Seas c) The issue of Cyprus, which has wide historical aspects. This article covers exactly these 3 main issues.

**Keywords:** *Turkey, Greece, Cyprus issue, Aegean Sea, Eastern Mediterranean, Western factor.*

327; 930.22

# İSRAİL-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ: TARİXİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

**DİLARƏ ELYAZOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: dilarelyazova@gmail.com*

**KAMRAN NƏCƏFOV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: Nadjafov1@bk.ru*

Azərbaycan və İsrail arasında qarşılıqlı dostluq və əməkdaşlıq əlaqələri yalnız iqtisadi-strateji faydaya deyil, həm də ənənəvi tarixi, mədəni köklərə əsaslanır. Azərbaycan dünya yəhudi elitasının diqqət mərkəzinə 1810-cu ildən düşməyə başlayıb. Həmin dövrdə aşkenazilər ilk dəfə olaraq Bakıda məskunlaşmağa başlayıblar. 1832-ci ildə isə yəhudilərin Bakıda ilk ibadət evləri inşa olunub.

İsrail və Azərbaycan arasındakı münasibətlər Azərbaycan müstəqil olduqdan sonra intensivləşmişdir. İsrail Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdəndir. 25 dekabr 1991-ci il tarixində İsrail Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanımışdır. İki ölkə arasındakı diplomatik münasibətlər 7 aprel 1992-ci il tarixində qurulmuşdur. Azərbaycan Respublikası ilə İsrail dövləti arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında 13 sənəd imzalanmışdır. [5] Dünyanın inkişaf etmiş, modern ölkələrindən olan İsrail ilə hərbi, təhsil, səhiyyə, kənd təsərrüfatı sahələrində sıx əməkdaşlıq etmək təbii ki, Azərbaycan xarici siyasətinin uğurundan, eyni zamanda ölkələr arasında etibarlı tərəfdaş olmasından irəli gəlir. İsrail 44 günlük Vətən müharibəsində Azərbaycana dəstək verdi və bu dəstək bizim qələbəmizdə böyük rol oynadı. Həmçinin 2016-cı ildə baş verən "Aprel döyüşlərində" də İsrail rəsmiləri Azərbaycanın haqlı mövqeyini dəstəkləyiblər. 2016-cı ildə İsrailin müdafiə naziri Aviqdor Liberman bunu "tamamilə haqlı" adlandırıb. [9] Bundan başqa, Liberman Ermənistanı 2016-cı ilin aprelində münaqişənin təhrik edilməsinə görə məsuliyyət daşıdığını vurğulayıb. Ermənistan dövləti isə davamlı olaraq İsraili Azərbaycana dəstək verdiyi üçün qınayır və hətta, 2020-ci ildə İkinci Qarabağ müharibəsində Azərbaycana dəstək verdiyi üçün İsraildəki səfirini geri çağırıb. İsrailin qondarma "erməni soyqrımını" tanımaması, hətta İsrail xarici işlər naziri olduğu zaman Şimon Perezin bunu "mənasız" adlandırması və "Holokost"la eyniləşdirməyin düzgün olmadığını qeyd etməsi erməniləri "qıcıq" edən digər səbəblərdəndir.

İsrailin beynəlxalq arenada bizi daim dəstəkləməsi Ermənistanın müharibəni "din" münaqişəsi kimi xarakterizə etmək xülyalarını da puç etdi. Dinin Qarabağ müharibəsində heç bir rol oynamadığını biz eyni zamanda bəzi müsəlman ölkələrin ermənilərin məscidləri viran qoyduqları halda səs çıxarmamalarını qeyd edə bilərik.

Özəlliklə son dövrlərdə iki ölkə arasındakı əməkdaşlıq ən yüksək səviyyədə davam etdirilir. Belə ki, Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə İsraildə səfirliyimizin açılması diplomatik münasibətlər baxımından hər iki ölkə üçün sevindirici haldır [14]. Bu əlaqələrin əsas kökləri məhz yəhudi və Azərbaycan xalqının birgəyaşayışına əsaslanır. İsrailin baş naziri Benyamin Netanyahu da öz çıxışlarında, Azərbaycana səfəri zamanı da bunu qeyd etmiş və İsrailin Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət olmaqdan qürur duyduğunu ifadə etmişdir [7]. Təbii ki, Azərbaycan və İsrail arasındakı münasibətlər heç bir dövlətə qarşı yönəlməyib və sadəcə inkişaf və sülhə xidmət edir. Azərbaycan Prezidentinin sərəncamı ilə eyni zamanda Fələstində də (Ramallah şəhərində) Təmsilçilik Ofisi təsis edilir. Azərbaycan Qafqazda və dünyada sülhün əsas təminatçılarından biridir.

İsrail Azərbaycanın iqtisadi sahədə ən yaxın tərəfdaşlarından biridir. İsrail Azərbaycan neftinin ən iri alıcılarından biridir. 2019-cu ilin yanvar-sentyabr aylarının yekunları üzrə hesabatda Azərbaycanın neft ixrac etdiyi ölkələr siyahısında İsrail ikinci yerdə qərarlaşıb. O, neftə olan tələbatının mühüm hissəsini Azərbaycan nefti hesabına ödəyir. Son illərdə kənd təsərrüfatı sahəsində bəzi razılaşmalar oldu və Azərbaycan bu sahədə İsrailin təcrübəsindən yararlanacaq. Hərbi sahədə də İsrail Azərbaycanın ən mühüm tərəfdaşlarının başında gəlir. İsrailin təhlükəsizlik və hərbi əməkdaşlığı Azərbaycanın

hərbi potensialının qurulmasında və Azərbaycanda yerli müdafiə sənayesinin yaradılmasında mühüm rol oynayıb [11]. İsrail silah ixracında Azərbaycan ilk yerlərdən birini tutur [13]. İkinci Qarabağ müharibəsi zamanı da İsrail silahlarının qələbəmizdə mühüm rolu oldu. Əlbəttə İsrail kimi Orta Şərqdə və dünyada əsas söz sahibi olan bir dövlətlə tərəfdaş olmaq, əməkdaşlıq etmək bölgədə və dünyada təhlükəsizlik baxımından mühümdür. İsrailin xarici işlər naziri Aviqdor Liberman 2012-ci ilin aprelində Bakıya səfəri zamanı demişdi: “Azərbaycan İsrail üçün Fransadan daha vacibdir”. Bu cümlə hər iki dövlət arasında olan sıx dostluq münasibətlərindən xəbər verir.

Azərbaycan İsrail kimi dövlətlə dost olmaqdan məmnunluq duyur və digər dost ölkələrin də bu dövlətlə əlaqələrinin bərpasında mentorluq edir. Bunun əyani sübutunu son zamanlarda qardaş ölkə Türkiyə və İsrailin münasibətlərinin normallaşmasını qeyd edə bilərik ki, iki ölkə illərdən sonra diplomatik əlaqələri bərba etdilər və artıq sıx-sıx səfərlər təşkil olunur. İlham Əliyev “Orta Dəhliz boyunca: geopolitika, təhlükəsizlik və iqtisadiyyat” mövzusunda keçirilən beynəlxalq konfransda “Biz öz səylərimiz, təşəbbüslərimiz, bəyanatlarımız və siyasətimizlə buna töhfə veririk. Bu səbəbdən düşünürəm ki, bugünkü dünyada ənənəvi müttəfiqliklər genişləndirilə bilər. Məsələn, biz artıq Türkiyə-Azərbaycan əməkdaşlıq formatını müzakirə etdik. Türkiyə-Azərbaycan əməkdaşlıq formatının üstünlüklərindən biri odur ki, biz birgə fəaliyyət qurmuşuq. Məsələn, Azərbaycanın daha yaxşı əlaqələrinin və ya Türkiyənin daha yaxşı əlaqələrinin olduğu ölkələr də əlavə potensial yaradır. Bilirsiniz ki, Azərbaycan Türkiyə və İsrail arasında münasibətlərin normallaşmasında rol oynayıb. Biz, həmçinin Türkiyə ilə bəzi ərəb ölkələri arasında münasibətlərin normallaşmasında rol oynamışıq. Biz bunu borcumuzun bir hissəsi hesab edirik. Çünki əgər belə əlaqələrimiz varsa, biz dostlarımızın öz aralarında dost olmağını istəyirik” [1]. Açıqlamasını vermişdi ki, bu da Azərbaycanın hər iki dövlətin yenidən əməkdaşlıq qurmasında önəmli pay sahibi olduğunun göstəricisidir.

Azərbaycanda 2500 ildən artıqdır ki, yəhudi icması yaşayır.Yəhudilər üçün Azərbaycan tarix boyu ən güvənilir yerlərin başında gəlmişdir. Antisemitizmin geniş yayıldığı bir dövrdə belə, Azərbaycan xalqı yəhudilərə qucaq açmış, onların rahat, təhlükəsiz yaşamasında köməklik göstərmişlər [3]. Azərbaycanda üç yəhudi icması — dağ yəhudiləri, aşkenazi yəhudiləri və Gürcüstan yəhudiləri icmaları mövcuddur. Bütövlükdə ölkədə yəhudilərin sayı 16.000-dir. Bunlardan 11.000-i dağ yəhudiləridir ki, təxminən 6.000-i Bakıda, 4.000-ni Qubada, min nəfəri isə başqa şəhərlərdə yaşayır. Əşkinazi yəhudilər 4,3 min nəfərdir. Onların əksəriyyəti Bakıda və Sumqayıtda yaşayır [2]. Gürcüstan yəhudiləri təxminən 700 nəfərdir. Qubadakı Qırmızı qəsəbə bunun əyani sübutdur. Qırmızı qəsəbə unikal tarixi və mədəniyyəti ilə seçilir. Qırmızı kirəmitli damları ilə tanınan bu kənd dünyada mövcud olan sonuncu yəhudi yaşayış məntəqəsi olan ştetllərdən biridir. 18-ci əsrin ortalarında salınmış bu kənd Quba xanlığının himayəsi altında olub. Əvvəllər "Yəhudi Qəsəbəsi" adlanan sözügedən yaşayış məntəqəsi hətta bir vaxtlar "Qafqazın Yerusəlimi" kimi də məşhurlaşmışdı [6]. Əsrlər boyu onlar bütün çətinliklərə sinə gərərək öz mədəniyyət və ənənələrini, o cümlədən nadir cuhuri dilini qoruyub saxlamışlar. Daim mehriban münasibətlərdə olan yəhudi və azərbaycanlılar dünyaya tolerantlığın nə demək olduğunu aşılayır. Azərbaycanda yaşayan yəhudilər və digər xalqlar hər zaman buranı öz vətənləri hesab ediblər. Təsadüfi deyildir ki, Qarabağ müharibəsində şəhid olan ilk qəhrəmanlar sırasında yəhudi əsilli Milli Qəhrəmanımız Albert Aqarunovun adı xüsusi çəkilir. O, ermənilərin xeyli canlı qüvvəsini, zirehli texnikasını məhv edib. Jurnalistin “Yəhudiləri Azərbaycan torpağını qorumağa nə vadar edir?” sualına o belə cavab vermişdir: “Mən bu torpağın övladıyam, burada doğulmuşam, burada yaşayıram, daha heç nə məcbur eləmir”. Bu cavab, əslində, Azərbaycanda yaşayan yəhudilərin torpağımıza, millətimizə bağlılığının bariz sübutudur. Azərbaycan ictimaiyyəti də Azərbaycan – İsrail münasibətlərini yüksək qiymətləndirir. Vətən müharibəsi zamanı evlərdə, maşınlarda, hər yerdə İsrail bayraqlarının asılması dövlətlər arasındakı dostluğun bariz nümunəsidir. Müharibədən sonra İsrail oftalmoloji cərrahlarından ibarət nümayəndə heyətlərinin yaralı Azərbaycan əsgərlərini müalicə etmək üçün səfərləri İsrailə qarşı müsbət ictimai rəyləri daha da gücləndirdi. Bir neçə prosedurda israilli həkimlər İsrail orqan donorlarından göz köçürdülər və yaralı Azərbaycan əsgərinin görmə qabiliyyətini bərpa etdilər, bu da ictimaiyyətin geniş rəğbətini qazandı.

Azərbaycan dünyada tolerantlığın mərkəzi hesab oluna bilər. Belə ki, dünya tarixində düşmən olaraq adlandırılan xalqlar belə Azərbaycanda firavanlıq

içində bir arada yaşamış, ailə həyatı qurmuşlar.

Hər il yəhudi xalqının yeni ili – "Roş ha-Şana" bayramı münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti ölkəmizdəki yəhudi icmasına təbrik ünvanlayır. Burada Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti xüsusi qeyd edilməlidir. Belə ki, Bakıda yaşayan yəhudi uşaqlar üçün "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində Heydər Əliyev Fondu və "Or-Avner" Beynəlxalq Fondu tərəfindən "Xabad-Or-Avner" Təhsil Mərkəzi inşa olunmuşdur. 2007-ci il mayın 31-də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iştirakı ilə həmin mərkəzin təməlqoyma mərasimi keçirilmişdir. Təhsil Mərkəzinin tikintisi 2010-cu ildə başa çatmışdır. 2010-cu il oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, eləcə də MDB Yəhudi İcmaları Federasiyasının və "Or-Avner" Beynəlxalq Fondunun prezidenti Lev Levayev Təhsil Mərkəzinin açılışında iştirak etmişlər.

Azərbaycanda yəhudilərin iyirmiyə yaxın ictimai-mədəni və xeyriyyə təşkilatı fəaliyyət göstərir. Respublika səviyyəsində "Yəhudi Evi", "Azərbaycan-İsrail" Cəmiyyəti, Azərbaycan Yəhudi Qadınlar Assosiasiyası, "Yəhudi Mədəniyyət Mərkəzi", "Soxnut" Beynəlxalq Yəhudi Təşkilatının Azərbaycan bölməsi və digərləri fəaliyyət göstərir. 2003-cü ildən Bakıda özəl yəhudi məktəbi fəaliyyət göstərir, Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin tədris proqramına ivrit dilinin tədrisi daxil edilib. Azərbaycanın İsrailə və yerli yəhudi icmalarına qarşı olan dost münasibəti, onun Vaşinqtondakı nüfuzunu önəmli dərəcədə artırıb. Belə ki, hazırda yəhudi lobbisi dünyanın ən güclü lobbisi hesab olunur və təbii ki, onların Azərbaycanı dəstəkləməsi ölkəmizin beynəlxalq arenada nüfuzunu daha da artırır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. https://president.az/az/articles
2. *https://en.wikipedia.org/wiki/Azerbaijan%E2%80%93Israel_relations*
3. *https://encyclopedia.ushmm.org/content/tr/article/antisemitism*
4. *https://aircenter.az/en/single/azerbaijan-and-israel-friendship-of-values-754*
5. *https://www.mfa.gov.az/az/category/asiya-ve-okeaniya/israil*
6. *https://azerbaijan.travel/qirmizi-qesebe-de-yehudi-irsi-ile-tanisliq*
7. *https://report.az/en/foreign-politics/netanyahu-azerbaijan-and-israel-have-a-great-relationship/*
8. *https://www.jstor.org/stable/pdf/resrep04730.4.pdf*
9. *https://caspiannews.com/news-detail/avigdor-liberman-considers-azerbaijan-as-israels-reliable-partner-and-voices-support-for-its-territorial-integrity-2020-10-5-35/*
10. *https://www.fdd.org/wp-content/uploads/2021/12/The-Karabakh-Gambit_IsraelRole-1.pdf*
11. *"Israeli-made weapons played an exceptional role in Azerbaijan's victory in Second Karabakh War—MFA," Azernews, April 5, 2021. Accessed at: https://www.azernews.az/karabakh/177678.html*
12. *https://eadaily.com/en/news/2017/12/19/azerbaijan-will-not-spoil-relations-with-israel-over-jerusalem-opinion*
13. *https://www.middleeastmonitor.com/20221201-why-are-relations-between-azerbaijan-and-israel-developing-now/*
14. *https://www.neglobal.eu/azerbaijans-opening-of-an-embassy-in-israel-is-a-major-tectonic-on-the-geopolitical-map/*

## XÜLASƏ

Məqalədə İsrail və Azərbaycan arasındakı münasibətlərin yaranması və inkişafi prosesindən bəhs edilir. Eyni zamanda Azərbaycanın tarix boyu yəhudilər üçün ən güvənilir yerlərdən biri olması vurğulanır.

Azərbaycan-İsrail əlaqələri yüksələn xətlə davam edir. Dövlətlərlə bərabər xalqlar da getdikcə daha da bağlarını genişləndirirlər. Şübhəsiz, strateji baxımından da bu iki dövlətin əməkdaşlığının əhəmiyyəti vurğulanmalıdır. Tarixi kökləri olan bu əlaqələrin daha da möhkəmlənəcəyi istisna deyil. Özəlliklə həbi sahədə əməkdaşlığın əhəmiyyəti qeyd olunmalı faktlardandır. Azərbaycan İsrailin də təcrübəsindən yararlanaraq hərb sahəsində daha da inkişaf edir. Heç şübhəsiz, müasir dövrdə dövlətlərin hərb sahəsinə ayırdığı maliyyə vəsaitini gördükdə bunun nə qədər önəmli olduğunu anlaya bilərik. Azərbaycan da eyni zamanda İsrailin ən böyük neft idxalçısıdır. Özəlliklə Rusiya-Ukrayna müharibəsindən sonra neftə olan tələbatı nəzərə alaraq günümüzdə neft ixracı və idxalı sahəsində əməkdaşlıq mühümdür. Nəticə olaraq hər iki dövlətin bir-biri ilə əməkdaşlığı önəmli perspektivlər vəd edir. Gələcəkdə dövlət və

xalqlar səviyyəsində bir-birilə daha da sıx dostluq əlaqələri olan Azərbaycan və İsraili görəcəyik.

**Açar sözlər:** *Azərbaycan, İsrail, Qarabağ, əməkdaşlıq, inkişaf, neft, hərbi, yəhudi, dostluq, təhlükəsizlik, müharibə.*

**SUMMARY**

The article talks about the process of establishment and development of relations between Israel and Azerbaijan. At the same time, it is emphasized that Azerbaijan is one of the most reliable places for Jews throughout history.

Azerbaijan-Israel relations continue on an upward trend. Along with the states, peoples are expanding their ties more and more. Undoubtedly, the importance of the cooperation of these two states should be emphasized from a strategic point of view. It is not excluded that these relations with historical roots will be further strengthened. The importance of cooperation, especially in the pill field, is one of the facts that should be noted. Azerbaijan is developing further in the military field, taking advantage of Israel's experience. Assuredly, in modern times, we can understand how important it is when we see the financial resources allocated by the states to the military. Azerbaijan is also Israel's largest oil importer. Cooperation in the field of oil export and import is important nowadays, especially considering the demand for oil after the Russian-Ukrainian war. As a result, cooperation between both countries promises important prospects. In the future, we will see Azerbaijan and Israel having even closer friendly relations with each other at the state and people level.

**Keywords:** *Azerbaijan, Israel, Karabakh, cooperation, development, oil, military, Jewish, friendship, security, war.*

**РЕЗЮМЕ**

В статье рассказывается о процессе установления и развития отношений между Израилем и Азербайджаном. При этом подчеркивается, что Азербайджан является одним из самых надежных мест для евреев на протяжении всей истории.

Азербайджано-израильские отношения продолжают развиваться по восходящей линии. Наряду с государствами все больше расширяют свои связи народы. Несомненно, следует подчеркнуть важность сотрудничества этих двух государств со стратегической точки зрения. Не исключено, что эти связи с историческими корнями будут и дальше укрепляться. Важность сотрудничества, особенно в военной области, является одним из фактов, которые следует отметить. Азербайджан и дальше развивается в военной сфере, используя опыт Израиля. Несомненно, в наше время мы можем понять, насколько это важно, когда мы видим финансовые ресурсы, выделяемые государствами на вооруженные силы. Азербайджан также является крупнейшим импортером нефти Израиля. Сотрудничество в сфере экспорта и импорта нефти актуально в настоящее время, особенно учитывая спрос на нефть после российско-украинской войны. В результате сотрудничество между обеими странами сулит большие перспективы. В будущем мы увидим, что Азербайджан и Израиль будут иметь еще более тесные дружеские отношения друг с другом на государственном и народном уровне.

**Ключевые слова:** *Азербайджан, Израиль, Карабах, сотрудничество, развитие, нефть, военные, евреи, дружба, безопасность, война.*

# Tarix

**UOT 94"19/..."**

# İRAN İSLAM İNQİLABINDAN ƏVVƏL VƏ SONRAKI DÖVRDƏ İRANDA QADIN HAQLARININ TƏCƏSSÜMÜ

**GÜLARƏ ORUCOVA**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: gulare.orucova2001@gmail.com*

**AYNUR ADNALI**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: aynur.adna1918@gmail.com*

**NİHAD YƏHYALI**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*
*E-mail: nihadyahyali1@gmail.com*

Müasir dövrdə bəşəriyyətin qarşısında duran problemlərdən biri də gender ayrı-seçkiliyidir. Təəssüf ki, bu bərabərsizlik bəzi dövlətlərdə daha kəskin şəkildə özünü büruzə verir. İslam inqilabından sonra qapalı qutu kimi tanınan İranda qadınların hüquq və azadlıqları problemi diqqətçəkən mövzulardan biri olaraq qalır. Mövcud rejimdə qadınlar var olmaq, öz hüquqlarının sərhədlərini genişləndirmək üçün hələ də mübarizə aparır. İranda qadın haqlarının nə dərəcədə istismar olunduğunu üzə çıxarmaq üçün bu məsələyə çox geniş prizmadan, bir çox amilləri nəzərə alaraq yanaşmaq lazımdır.

İranda bir çox fərqli etnik qruplar mövcuddur ki, bu da siyasi vəziyyətin mürəkkəbləşməsinə təsir göstərir. Bu qədər fərqli etnik şüura malik olan insanı bir arada saxlayan amil şiəlik anlayışı olmuşdur. İran hələ də şiəlik adı altında yeridilən fars millətçiliyi ilə idarə olunur. İranda minillər ərzində mövcud olan monarxiya quruluşu 1979-cu ildə inqilabın baş verməsindən sonra respublika ilə əvəz olunmuşdur. Burada dövlət səviyyəsində bütün önəmli qərarlar dini lider tərəfindən müəyyən edilir. 1989-cu ildə Xomeyninin vəfatından sonra Əli Xamneyi dini lider seçilmişdir. Qeyd edilməlidir ki, İranda qadınlar bu mövqeyə yüksələ bilməzlər. Buna səbəb kimi İslam dinində qadınlara dini lider olmağa icazə verilməməsi göstərilir. Yəni İranda qadınlar şərtlər dəyişmədiyi təqdirdə heç zaman qərar qəbulu prosesində iştirak edə bilməyəcəklər [12].

Dünya İqtisadi Forumunun 2021-ci il üzrə Qlobal Gender Fərqi hesabatında İranın 156 ölkə arasında 150-ci yerdə qərarlaşması gender ayrı-seçkiliyinin bu ölkədə nə qədər dərin olduğunu göstərir. Burada əks olunan bir sıra göstəricilərə əsasən İran qadınların kişilərlə bərabər imkanlara malik olması, təhsilə çıxış imkanları, siyasi həyatda iştirak və s. aşağı sıralarda yer tutur [16].

"Qadağa" əksər insanların sevmədiyi bir kəlmədir. Təəssüf ki, bu, iranlı qadınların həyatlarında eşitməyə alışdığı sözlərdən birinə çevrilmişdir. Belə ki, İranda qadınların fəaliyyəti qadağalar, məhdudiyyətlərlə müəyyən edilir. Ölkədə idarəçiliyin dəyişməsinə müvafiq olaraq qadınların azadlığı, öz müqəddəratını təyin-etmə hüququ, onlara qarşı tətbiq edilən məhdudiyyətlər də dəyişmişdir. "Əlli beş yaşlı qadın bazardan evinə qayıdır. Əlləri ərzaqla dolu olduğu üçün bir az geriyə doğru sürüşən çadrasını saxlaya bilmir. Bir tutam saçı göründüyündən həbs edilən qadın "cinayətinə" görə 80 şallaq cəzası alır"[2]. Buna bənzər hadisələr müasir İranda olduqca tez baş verir. İranda qadın olmaqla başqa bir dövlətdə qadın olmaq eyni məna ifadə etmir. Burdakı qadınlar üçün "azadlıq" əldə edilməsi mümkün olmayan bir məfhumdur. İranda qadınlar üçün, demək olar ki, hər şey məcburi xarakter daşıyır. Hicabı taxmaq da, onu çıxarmaq da [4].

Əgər ən qədim dövrlərə - Əhəməni imperiyasının tarixinə nəzər salsaq, bu zaman qadınların əksər hallarda kişilərlə bərabər hüquqlara malik olduğunu görərik. Bu dövrdə qadınlar kişilərlə bərabər maaş ala, təkbaşına səyahət edə, torpaq sahibi ola bilərdi. Herodot əsərlərində fars qadınlarının kişilərlə birlikdə dövlət idarəçiliyində iştirak etdiyini söyləmişdir. Artıq bundan sonrakı dövrdə qadınların hüquqları get-gedə azaldılmağa başlayırdı. Sasanilərin süqutundan sonra qadınlar yalnız ər və ya atalarının icazəsi ilə səyahət edə bilərdilər [13].

Qacar sülaləsinin hakimiyyəti dövründə qadınlar

məhdud hüquqlu şəxs kimi qəbul edilirdi. İranda bu gün də geniş yayılmış hal olan çoxarvadlılıq və şiə müvəqqəti nikahı müsbət qarşılanmırdı. 1925-ci ildə Pəhləvilər sülaləsinin hakimiyyətə gəlməsi ilə iranlı qadınların statusunda müsbət istiqamətdə dəyişikliklər baş verdi. Rza şah hakimiyyətə gəldikdə modernləşmə siyasəti həyata keçirməyə başladı. Biz, həmçinin, bunu Qərbləşmə siyasəti də adlandıra bilərik. Onun bu fəaliyyətinə 1936-cı ildəki Türkiyə səfəri və Atatürklə görüşü böyük təsir göstərmişdi. O, Türkiyədən qayıtdıqdan sonra burada baş verən qərbləşmədən ilhamlandığını bildirirdi [3]. Bu siyasət mədəni sahələrə də bir sıra yeniliklər gətirdi. Artıq qadınların dini geyim və hicab əvəzinə avropasayağı tərzdə geyinməsi nəzərdə tutulurdu. Rza şahın həyata keçirdiyi islahatlara bunları aid etmək olar: mədəni qanunda evlilik üçün müəyyən edilən yaş senzi, qadınların təhsil hüququnun təmin edilməsi, qadınların çalışmasına izn verilməsi, hicabın ləğvi və s.

Rza şahın hakimiyyəti illərində evlilik yaşı qadınlar üçün 15, kişilər üçün isə 18-ə qaldırılmışdı. Mədəni qanunda edilən dəyişikliklər Muta nikah adlanan müvəqqəti evliliyi də çətinləşdirirdi. Burda əsas məqsəd azyaşlı qızların pul qarşılığında yaşlı kişilərlə evlənməsinin qarşısını müəyyən qədər almaq idi. Artıq 1935-ci ildən etibarən daha çox qadın Tehran universitetinə qəbul edildi. İranlı qadınların hicab taxmağa məcbur edildiyi dövrlə yanaşı, onu çıxarmaq üçün də güc tətbiq edildiyi dövr olmuşdur. Belə ki, Rza şah tərəfindən 1936-cı ildə verilən “Kəşf-e hicab” fərmanına əsasən qadınların ictimai yerlərdə, küçədə və s. yerlərdə örtünməsi qadağan edilmişdi [9]. 30-cu illərin ortalarında 6,5 milyon qadından yalnız 4 mini çadrasız gəzirdi [1]. Əslində çadranın ləğvi müasirləşmə yolunda atılan bir addım kimi görünsə də, onun məcburi xarakter daşıması bir çox iranlı qadın tərəfindən müsbət qarşılanmadı. Küçələrdə çadraları zorla çıxaran polisin olması ucbatından ənənəvi, keçmiş görüşlərə malik olan bir çox qadın özünü evə qapatdı. Fikrimcə, zor tətbiqetmə əvəzinə örtünmənin önəm daşımadığı təhsil müəssisələrində və ya müxtəlif proqramlar vasitəsilə insanlara çatdırılsa idi, bu qərar daha asanlıqla qəbul edilə bilərdi [15]. Yəni Rza şah hər nə qədər qərbli kimi görünməyə çalışsa da, buna nail ola bilmədi. Çünki o, qərbli qadın obrazını zor tətbiqi ilə formalaşdırmağa çalışırdı.

Mövcud vəziyyəti olduğu kimi qəbul edən qadınlarla yanaşı onu dəyişməyə çalışan fərdlər də mövcud idi. Bu qrupa aid olan qadınlar 1952-ci ildə 100000 imza toplayaraq məclisdən onlara səsvermə hüququnun verilməsini tələb etmişdi [6]. İranda yüzillər ərzində bütün hakim qüvvələr öz hökmranlıqlarını, iradə və güclərini qadınlar üzərində verdikləri qərarlarla sübut etməyə çalışıblar. Həmin dövrdə də din adamları İslamın gücünü göstərmək üçün qadınları örtünməyə təşviq edir, onların seçmək haqqının, səsvermə hüququnun olmadığını bildirirdilər. 1963-cü ildə qadınlar “referendum” nəticəsində səsvermə haqqı əldə etdi. Lakin İranda referendum hökumətin öz məqsədinə çatması uğrunda daim nəzarət edə bildiyi bir siyasi “oyun” olaraq görülürdü.

Qadın haqları istiqamətində göstərilən saray dəstəyi əslində şahın islahatçı siyasətinə uyğun zəmin formalaşdırmaq, onun fəaliyyətinin xalqın tələbi olduğu təsəvvürü yaratmaq məqsədi daşıyırdı. 1967-ci ildə Məhəmməd Rza şahın dövründə açılan Ailə Mərkəzləri qadınların sağlamlıq və təhsili ilə bağlı müxtəlif proqramlar həyata keçirirdi. Qəbul edilən “Ailənin mühafizəsi” qanunu ilə “çoxarvadlılıq” və “boşanma” məsələlərində bir sıra dəyişikliklər baş verdi. Artıq kişilərin səbəb göstərmədən boşana bilmə haqqı məhdudlaşdırılmış, qadınlara boşana bilmələri üçün daha geniş haqlar verilmişdi. Qərara 1975-ci ildə edilən əlavəyə görə, kişi ikinci qadınla evlənə bilmək üçün ilk arvadının razılığını almalı idi. Qadın buna razı olmadığı təqdirdə boşanmaq üçün müraciət edə bilərdi. “Ailə mühafizəsi”-nin gətirdiyi ən əsas yeniliklərdən biri də qadınlar üçün evlilik yaşının 18, kişilər üçün isə 20-yə çıxarılması olmuşdur. Bu qanun qadınlara bəzi sahələrdə cüzi haqlar versə də, çox önəmli mövzularda qadınlara qarşı tətbiq edilən ayrı-seçkiliyi yox saymışdır. Məsələn, kişi arvadı xəyanət etdiyi təqdirdə onu öldürərsə, ona heç bir cəza verilmirdi.

İnqilabdan əvvəlki dövrdə təhsil və məşğulluq imkanları yalnız şəhər və yüksək zümrəli qadınlar üçün təkmilləşdi. Qəbul edilən qərarlar tam olaraq praktiki şəkildə reallaşmırdı. İslahatların cəmiyyətin bütün təbəqələrini əhatə etməməsi, neftdən əldə edilən gəlirin xalq arasında bərabər bölünməməsi, mövcud iqtisadi çətinliklər 1979-cu il İslam inqilabı üçün zəmin formalaşdırdı. Bu səbəblərə görə qadınlar da Pəhləvi rejiminə qarşı etirazlarda iştirak etmişlər. İran tarixində “Qara cümə” olaraq keçən 1978-ci il 8 sentyabr inqilabında əsgərlər tərəfindən öldürülən 4000-ə yaxın şəxsin içində qadınların sayının çox olması onların da lazım gəldiyi təqdirdə müba-

rizədə iştirak edə biləcəyini göstərirdi. İnqilabda iştirak edən bütün qadınların əsas özəlliyi çadra geyinmələri idi. Çadra şahın gizli kəşfiyyat orqanı olan SAVAK tərəfindən tanınmamaq üçün vasitə olmaqla yanaşı, Pəhləvi rejimində çadra qadağan edildiyindən qadınlar bunu Xomeyniyə olan rəğbət və dəstəyin ən yaxşı ifadəsi kimi də istifadə edirdi. Təbii ki, ənənəvi İslam görüşlərinə malik olan qadınlar üçün örtünmək adi bir davranış olsa da, liberal və ya sosialist yönümlü qadınlar da müxalifətin nümayəndəsi kimi çıxışlar zamanı çadradan istifadə edərək birliklərini nümayiş etdirirdilər. Buna başqa heç bir məna yükləməyən həmin qadınlar, 1979-cu ildə qurulacaq İran İslam dövlətində örtünmənin məcburi olacağını heç gözləmirdilər.

Xomeyninin hakimiyyətə gəlməsi ilə qadınlar Rza şahın dövründə əldə etdikləri bütün haqları itirməyə başladılar. Qadınlarla kişilər idman, sənət, təhsil və s. sahələrdə ayrılmağa başladılar. 1979-cu ildən etibarən ibtidai təhsildə də hər cinsin nümayəndələri ayrı otaqlarda, hətta ayrı binalarda təhsil aldı. Universitetlər inqilabdan sonrakı 3 il ərzində fəaliyyət göstərməmişdir. Həmçinin qarşı cinsdən olan müəllimlərin qadın tələbələrə dərs deməsi də qadağan edilmişdi. Xomeyni artıq bir bəyanatda dövlət müəssisələrində çalışan qadınların örtünməsinin zəruri olduğunu bildirmişdi. 1980-ci ildə qəbul edilən qərar da bunu rəsmiləşdirdi. Məcburi örtünməyə etiraz edən qadınlar hələ ilkin vaxtlarda tənqid atəşinə tutularaq “şahın tərəfdarı”, “fahişə” kimi qələmə verilir, işdən atılırdılar. Qadınlar analıq öhdəliklərinə əngəl olmayacaq sahələrdə çalışa bilərdilər, amma yenə də çalışma sadəcə zərurət olduğu təqdirdə müsbət qarşılanırdı. Konstitusiyanın 28-ci maddəsində də əks olunan “Hər kəs İslam dininə zidd olmadığı təqdirdə istədiyi məşğuliyyəti seçmək hüququna malikdir” fikri bu məsələyə hüquqi zəmin verirdi. İran bu günün özündə də kəskin ziddiyyətlərin mövcud olduğu bir dövlətdir. Bir tərəfdən, qadınların çalışması və təhsilinə məhdudiyyətlər tətbiq edilsə də, təhsil, tibb və s. sahələrdə qadınlara yalnız öz cinslərindən olan şəxslər xidmət göstərə biləcəyi üçün bu sahələrdə mütəxəssislərin mövcudluğuna da ehtiyac duyulurdu. İslami idarəçilik siyasi sahələrdə fəaliyyət göstərən qadınları işdən uzaqlaşdırmışdı. Onlardan biri kimi 1968-ci ildə İranın ilk qadın təhsil naziri seçilən Fərruxru Parsanı qeyd edə bilərik. Qadın hakimlərin işdən çıxarılması, işləyən qadınların vaxtından əvvəl təqaüdə çıxmasını təşviq edən qanunlar qəbul edildi.

İran İslam Respublikasının konstitusiyasının 21-ci maddəsində hökumətin qadınların hüquqlarını təmin etmək üçün bəzi vəzifələri olduğu bildirilirdi. Həmin vəzifələrə hamiləlik və uşağın tərbiyəsi dönəmində anaların müdafiə edilməsi, ailələri qorumaq üçün məhkəmələrin yaradılması, qanuni qəyyum olmadığı təqdirdə uşaqların mənafeyini qorumaq üçün analara qəyyumluq verilməsi və s. kimi məsələlər daxildir [10]. Yəni qadına sadəcə “ana” statusuna görə önəm verilirdi və burada əsas məqsəd ailələrin qorunmasından ibarət idi. 1967-ci ildə qəbul edilən “Ailənin mühafizəsi” haqqında qanun da artıq inqilabdan sonra ləğv edilmişdi. Bununla artıq kişilərin ilk arvadının icazəsi olmadan evlənə bilməməsi şərti aradan qaldırılmışdı. Qadınlar boşanmış olsalar da “evli” sayılacaq və başqası ilə evləndikləri təqdirdə bu zina qəbul ediləcəkdi. Qızlar üçün evlənmə yaşı yenidən 18-dən 13-ə endirilmişdi.

Xomeynidən sonra hakimiyyətdə olan Rəfsəncani və Məhəmməd Xatəminin prezidentliyi dövründə nisbi yumşalmalar müşahidə edilirdi. Onlar ölkənin yenidən qurulması, beynəlxalq təcriddən xilas siyasəti yürüdürdü. Rəfsəncaninin fəaliyyəti zamanı qadınların sosial həyatda iştirakını təmin etmək üçün “Qadınların sosial-mədəni şurası” yaradılmışdı. Örtünmə ilə bağlı tələblər müəyyən dərəcədə yumşaldılmışdı. Təbii ki, bu hal mühafizəkar istiqamət tərəfindən kəskin təzyiqlərin yaranmasına səbəb olmuşdu. Həm Rəfsəncani, həm də Xatəminin prezidentliyi dövründə qadınların təhsilə cəlb edilməsi istiqamətində artım müşahidə edildi. Emadeddin Baghi 2002-2003-cü illərdə ilk dəfə olaraq universitetə daxil olan qadınların sayının kişiləri keçdiyini iddia edirdi[7]. Rəfsəncaninin əsas xidmətlərindən biri də İslami Azad universitetinin yaradılması idi, bu da qadınlara bir sıra təhsil imkanlarının verilməsi demək idi. Hər iki prezidentin fəaliyyəti dövründə dövlət vəzifələrində çalışan qadınların sayı artmışdır. 2000-ci ildə İslam İnqilabından sonra İranda ilk dəfə 8 Mart Beynəlxalq Qadınlar Günü qeyd edildi [14].

Əhmədinecatın 2005-2013-cü illərdəki fəaliyyəti dövründə “İslam prinsipi” adıyla qadınlara qarşı təzyiq göstərilmiş, ictimai yerlərdə, universitetlərdə, ticarət mərkəzlərində polislər vasitəsilə qadınlar üzərində qorxu cəmiyyəti yaradılmış, onlar yenidən ictimai həyatdan təcrid olunmuşdur. Xatəminin prezidentliyi dövründə qadınlara təhsil sahəsində yaradılan imkanlar Əhmədinecatın dövründə məhv

edildi. Artıq müxtəlif yollarla qadınların universitetlərdə iştirakına maneələr yaradılırdı, onların 77 təhsil sahəsinə daxil olması qadağan edilmişdi [5]. Ruhaninin seçki təbliğatında qadın hüquqlarından bəhs etməsi qadınlar tərəfindən müsbət qarşılansa da, o seçildikdən sonra bu yöndə heç bir dəyişiklik baş vermədi. Keçən il hakimiyyətə gələn ultra mühafizəkar İbrahim Rəisinin dövründə, yəni 2022-ci il 15 avqust tarixində İranda hicab və iffət qanunu qüvvəyə minmişdir ki, bu da qadınların geyimindəki məhdudiyyətlərlə bağlı yeni siyahı ortaya çıxarmışdır [11].

Bu gün İranda vəziyyət Məhsa Əmininin ölümündən sonra getdikcə mürəkkəbləşməkdə davam edir. 2022-ci ilin sentyabrın 13-də əxlaq polisi tərəfindən hicabını düzgün taxmadığı üçün həbs edilən Əmini 3 gün nəzarətdə saxlandıqdan sonra vəfat etmişdir. Onun ölümü ilə bütün İran xalqı İranın əksər şəhərlərində etiraz çıxışlarına başladılar. Məlumata görə, çıxışlarda iştirak edən qadınlar saçlarını kəsib, hicablarını yandıraraq öz etirazlarını bildirirlər. Artıq dünyanın əksər ölkələrindəki qadınlar da iranlı qadınların "azadlıq mübarizələrinə" dəstək olduqlarını bildirmək üçün saçlarını kəsərək sosial şəbəkələrdə paylaşım edirlər. Məsələn, Türkiyənin HDP İstanbul millət vəkili Oya Ersoy da Türkiyə Böyük Millət Məclisində keçirilən mətbuat konfransında çıxışı zamanı zorakılıq nəticəsində həyatını itirən bütün qadınların yanında olduğunu bildirib saçlarını kəsərək öz həmrəyliyini nümayiş etdirib. Sentyabrın 16-dan etibarən başlayan çıxışlarda həyatını itirənlərin sayı artıq 342-yə çatıb, həmçinin 5 nəfər haqqında da edam hökmü verilmişdir [8]. Beynəlxalq təşkilatlar Əminin ölümü ilə İran hökumətini vətəndaşların hüquqlarına hörmət etməyə çağırsa da, İran hökumətinin mövqeyi hələ də dəyişməz olaraq qalır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abrahamian E. "A history of modern Iran". Cambridge University Press, 2008, 84 p.*

*2. Alison E. "Women in Iran: Obstacles to human rights and possible solutions". Journal of gender& the law, 1996, 57 p.*

*3. Burki S. "The politics of state intervention: Gender politics in Pakistan, Afghanistan and Iran". 2013, 170-180 p.*

*4. Cahangirova N. "Qadın kimi qadın". Ədəbiyyat qəzeti, 2017.*

*5. Goli R. "The politics of gender segregation and women's access to higher education in the Islamic Republic of Iran". 2015, 469-486 p.*

*6. Guity N, "Women and revolution in Iran", 1983,69 p.*

*7. https://dergipark.org.tr/en/download/article-file/2006500*

*8. https://tr.euronews.com/2022/11/17/iran-insan-haklari-kurumu-mahsa-amini-gosterilerinde-olenlerin-sayisi-342ye-yukseldi*

*9. https://wikiz.com/wiki/Kashf-e_hijab#cite_note-Hoodfar-1*

*10. https://www.constituteproject.org/constitution/Iran_1989.pdf*

*11. https://www.europarl.europa.eu/RegData/etudes/ATAG/2022/733671/EPRS_ATA(2022)733671_EN.pdf*

*12. Kahraman L. "İranlı kadınların toplumsal ve siyasal profili". Sosyoloji araştırmaları dergisi, 2014.*

*13. Parsa F. "Women's status in Iranian politics and governance: Past, present and future". Manara magazine, 2022.*

*14. Radmard S. "Kadınlar, yükseköğretim ve iş gücü piyasası: İran örneği". Mehmet Akif Ersoy Üniversitesi SBE Dergisi, 2013. 82-92 s.*

*15. Üşür S. "Din, siyaset ve kadın", 1991, 185-188 s.*

*16. WEF_GGGR_2021.pdf (weforum.org)*

**XÜLASƏ**

Göründüyü kimi, illər keçdikcə qadınlara qarşı tətbiq edilən ayrı-seçkilik və məhdudiyyətlər daha da kəskinləşir. İslam sistemindən və ya siyasi rejimdən doğan problemlər qadınların azadlığını məhdudlaşdırır. "Əxlaq polisi" adlandırılan gözətçi tərəfindən daima izlənən qadınlar hər zaman hökumət tərəfindən aşılanan qorxunu öz üzərlərində hiss edirlər. Xüsusilə 1979-cu ildən bəri həyata keçirilən mühafizəkar siyasətin qadınların cəmiyyətdə ikinci dərəcəli vətəndaş hesab edilməsinin əsas səbəbi olduğu görünür. Bu gün qadınlar əslində malik olmalı olduqları, lakin onlara verilməyən hüquqları əldə etmək uğrunda mübarizəni davam etdirirlər. Bu çıxışların sosial, iqtisadi və siyasi arenada qadınlara qarşı tətbiq edilən ayrı-seçkiliyin aradan qaldırılmasına nə dərəcədə töhfə verəcəyini isə zaman göstərəcək.

**Açar sözlər:** *İran, İslam, qadınlar, inqilab, çadra, hüquq.*

## РЕЗЮМЕ

Как видите, с годами дискриминация и ограничения в отношении женщин становятся все более жесткими. Проблемы, связанные с исламской системой или политическим режимом, ограничивают свободу женщин. Под постоянным контролем так называемой «полиции нравов» женщины чувствуют постоянный страх, нагнетаемый правительством. Особенно с 1979 года консервативная политика кажется основной причиной того, что женщины считаются гражданами второго сорта в обществе. Сегодня женщины продолжают бороться за права, которые им должны быть, но не даны. Время покажет, насколько эти выступления будут способствовать ликвидации дискриминации в отношении женщин в социальной, экономической и политической сферах.


**Ключевые слова:** *Иран, ислам, женщины, революция, чадра, закон.*


## SUMMARY

As you can see, over the years, the discrimination and restrictions against women are becoming more severe. Problems arising from the İslamic system or political regime limit women's freedom. Constantly monitored by the so-called "morality police", the women feel the constant fear instilled by the government. Especially since 1979, conservative policies seem to be the main reason why women are considered second-class citizens in society. Today, women continue to fight for the rights they should have but are not given. Time will tell to what extent these speeches will contribute to the elimination of discrimination against women in the social, economic and political arena.


**Keywords:** *Iran, Islam, women, revolution, veil.*

UOT 94(479.24)

# XVIII ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ ŞƏKİ ŞƏHƏRİNDƏ METALİŞLƏMƏ SƏNƏTİ

**NURANƏ MAZANOVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (baş laborant), Azərbaycan Universiteti "İctimai elmlər" kafedrasının doktorantı*

*E-mail: n.mazanova@mail.ru*

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində Şəkidə inkişaf etmiş sənət sahələrindən biri də metalişləmə sənəti idi. Şimali Azərbaycanın digər xanlıqlarında olduğu kimi, Şəki xanlığında da metal yüksək qiymətləndirilirdi. Qonşu ölkələrlə metal ticarəti mühüm sahələrdən biri hesab olunurdu. Osmanlı dövlətindən gətirilən polad "Osmanlı poladı", yaxud "Dəməşq poladı" adı ilə şöhrət qazanmışdır. Cənubi Qafqazda dəmir, polad və qurğuşun baha qiymətə satılırdı. Metala yüksək ehtiyacın olması, hətta metal qırıntıları ilə qiymətli malları almaq olurdu.

Azərbaycan ərazisində tarixən zəngin dəmir və mis yataqlarının olması burada metal əşyalarının istehsalı üçün müəyyən əlverişli şərait yaradırdı. Dövrün mütəxəssislərinin gəldiyi qənaətə görə, Şimali Azərbaycan ərazisində qədim dövrlərdən dəmir və mis mədənlərinin Pəmbək dağ silsiləsinin şərq hissəsində, xüsusilə Dzeğam və Şəmkir vadilərində, Daşkəsən dairəsində, habelə Tərtər vadisində olduğu göstərilir.

XVIII əsrin sonlarında olduğu kimi XIX əsrin birinci yarısında da Şəkidə dəmirçilik metal emalının aparıcı sahəsi olaraq qalırdı. Şəki şəhərində dəmirçilərin böyük dəstəsi çalışırdı. Dəmirçilərin böyük əksəriyyəti kənd təsərrüfatı alətlərinin istehsalı üzrə ixtisaslaşmışdı. Məişət əşyaları və sənətkarlar üçün əmək alətləri düzəldən dəmirçilər də var idi. Yerli dəmirdən əsasən at nalı, nal üçün mismarı, dəhnə (yüyənin atın ağzına taxılan dəmir hissəsi) və yəhər ləvazimatı, sadə kənd təsərrüfatı alətləri və s. düzəldilirdi [5, c. 45]. Artıq XIX əsrin əvvəllərində Şəkidə nalbəndlik müstəqil sənət sahəsinə çevrilməyə başlamışdı. Şəhərin özündə 23 nəfər nalbəndliklə məşğul olurdu [16, 119]. XIX əsrin 90-cı illərində Şəkidə fəaliyyət göstərən 9 nalbənd karxanasının hər birində 1 usta, 2 usta köməkçisi və 1 şagird işləyirdi [11, c. 95].

XIX əsrin ikinci yarısından etibarən Şəkinin kustar metal məmulatı dükanlarının xammalla təchizatında Bakı şəhəri mühüm rol oynamağa başlamışdı. Kapitalist Bakısına metal idxalının güclənməsində burada neft sənayesinin inkişafı ilə əlaqədar mexaniki təmir emalatxanalarının sayının artması və onların bir çoxunun tezliklə böyüyüb iri təmir müəssisələrinə çevrilməsinin mühüm rolu olmuşdur. Bakı sərmayədarlarının köməyi ilə Şəkinin dəmir ustaları kifayət qədər xam və işlənmiş (köhnə) metal ehtiyatı ilə təmin olunurdular. 1848-ci ilin məlumatına görə, hər il Bakıdan Şəkiyə 6 min pud dəmir gətirilirdi [5, c. 46]. Yelizavetpoldan dəmirin 1 pudunu 1 rubl – 1 rubl 40 qəpiyə almaq olurdu [6, c. 322].

Dəmirçilərin illik gəliri 100-150 rubla çatırdı. Şəki şəhər dəmirçiləri əsasən çubuq və zolaqlı dəmirdən istifadə edirdilər. Dəmirçilərə bir ildə 20 205 rublluq 5 220 pud dəmir və 1 500 rublluq 300 pud polad lazım gəlirdi [11, c. 94].

Dəmirçiliklə məşğul olan sənətkarlar bir sıra sahələrə bölünürdülər. Bunlardan biri də tənəkəçilik olmuşdur. Zindan üzərində qol gücünə dəmir, çuqun, mis, qalay və digər əlvan metalları "yoğuraraq" müxtəlif formalara salan sənətkar tənəkəçi adlanırdı. Tənəkəçiliklə XIX əsrin 70-ci illərinədək məlumatlar çox kasaddır. 1878-ci ilin məlumatına görə, Şəkidə tənəkəçilik sənəti ilə 4 nəfər məşğul olmuşdur.

Dəmirçiliyin digər sahələrindən biri də dəmir boru hazılamaq sənəti idi. Bu işlə Şəki şəhərində 1848-ci ildə 1 nəfərin məşğul olduğu qeydə alınmışdır.

Dəmir məmulatına tələbat böyük olduğundan dəmirçilik sənəti təkcə Şəki şəhərində deyil, ucqar kəndlərdə də yayılmışdı. Zaman keçdikcə dəmirçiliklə məşğul olanların sayında azalma baş verirdi. Əgər XIX əsrin 70-ci illərində yerli dəmirçilər tərəfindən çoxlu sayda taxta mismarı istehsal olunurdusa, artıq 80-ci illərin sonlarında Şəki şəhərində heç bir dəmirçi karxanasında bir dənə olsun taxta mismarı hazırlanmırdı. 1886-cı ildə Şəki şəhərində bir ayda 100 ədəd dəryaz istehsal edilirdisə, 3-4 ildən sonra bu rəqəm 8-ə düşmüşdü və s. [11, c. 100]. Lakin bununla belə, dəmirçiliklə məşğul olanlar kifayət qədər olmuşdur. 1897-ci ilin məlumatına görə, bütövlükdə dəmirçiliklə məşğul olanların ümumi sayı şəhərdə 202 nəfər olmuşdur. Kəndlərdə isə bu rəqəm 238-ə çatırdı [23, c. 117].

XVIII əsrin sonlarında Şəki xanlarının xanlığın müstəqilliyini qorumaq üçün fasiləsiz apardığı müharibələr və tez-tez baş verən xarici hücumlar xan-

lıqda hərbi dəstələrin saxlanmasını və bu dəstələrin silahlandırılması zərurətini yaradırdı. Müharibə vaxtı 10-12 min adamı silahlandırmaq lazım gəlirdi [2, c. 441]. Digər tərəfdən, aramsız müharibələr və qarətlər əhalini daim silahlı olmağa məcbur edirdi. Əhali əkinə, səpinə və biçinə gedəndə belə özləri ilə silah gəzdirməli olurdu [1, v. 48]. Əhalini silahlandıran belə şərait müxtəlif növ silahlar istehsal edən karxanaların yaranmasına gətirib çıxarırdı.

Silahqayırmada əsas sahə odlu silah istehsalı idi. Bu tipli silahların istehsalı başlıca olaraq xanlıqların mərkəzlərində cəmlənmişdi. 1810-cu ilin əvvəllərinə aid edilən sənəddə Şəkidə silahqayırma emalatxanalarının fəaliyyətdə olduğu göstərilir [22, c. 38].

Silahqayırma sənətində başlıca məsələlərdən biri yüksək keyfiyyətli poladın əldə edilməsi və ondan istifadə üsulunun mənimsənilməsi idi. Silahın keyfiyyəti hər şeydən öncə, onun hazırlandığı xammaldan asılı olduğundan istər soyuq, istərsə də odlu silah istehsalçıları bu cəhətə xüsusi diqqət yetirirdilər. Ona görə də silahqayırma sənətində xammal tədarükü zamanı çox vaxt xam dəmirə nisbətən işlənib sıradan çıxmış köhnə metal məmulatı qırıntılarına daha çox üstünlük verilirdi. Xüsusilə istifadə nəticəsində korlanıb sıradan çıxmış "nalpara" adlanan köhnə nal parçaları silah ustalarının ən etibarlı xammal növü sayılırdı. Lakin yerli dəmir istehsalı çətin, həm də baha başa gəldiyindən və məhdud səciyyə daşıdığından Azərbaycanın, o cümlədən Şəkinin silah emalatxanalarında idxal yolu ilə əldə olunan əcnəbi xammala daim ehtiyac hiss olunurdu [14, s. 29]. Silah ustaları silahların hazırlanmasında daha çox Dəməşq poladına üstünlük verirdilər.

Yelizavetpol quberniyasında odlu silah istehsalı məhdud səciyyə daşımasına baxmayaraq, Cəbrayıl və Şəkidə daha geniş yayılmışdı. Uzun lüləyə malik olan yerli tüfənglər möhkəmliyi, sərrast atəşi və gülləsinin uzaq məsafəyə süzməsi ilə fərqlənirdi. Qafqaz uğrunda gedən müharibələr (1817-1864) zamanı yerli tüfənglər məhz bu cəhətdən rus qoşunlarının silahlandığı süngülü tüfənglərdən üstün idi.

Odlu silah istehsalı emalatxanalarında qundaq hazırlayan, lülə hazırlayan və habelə lüləyə naxış vuranlar çalışırdı. Silahlar şərq üslubunda hazırlanırdı. Qızıl və gümüşü naxışları ilə bəzədilən silahlar üzərinə "Quran"dan ayələr həkk olunur və hazırladığı ustanın adı yazılırdı. "Bir sıra şəhərlərin silah ustaları arasında Şəki sənətkarları da öz işləri ilə fəxr edə bilərdi". Silah gilizləri dəmirdən hazırlanırdı. Gilizlər barıtla doldurulduqdan sonra zoğal ağacından düzəldilən tıxacla tıxanırdı.

Şəkidə silah istehsalı XIX əsrin 70-ci illərində də davam edirdi. Rusiya-Osmanlı müharibəsi başa çatdıqdan sonra silah istehsalı azalmağa başladı. Əgər 1885-ci ildə Şəki şəhərində rəsmi məlumata görə, 11 nəfər tüfəng qayıran var idisə, 1886-cı ildə bütövlükdə onların sayı 2 nəfərədək azalmışdı. Şəkinin Xaçmaz kəndində də tüfəng istehsal olunurdu [9].

Odlu silah istehsalına dair mövcud statistik materiallar XIX əsrin ikinci yarısında Şimali Azərbaycanda, o cümlədən Şəkidə tüfəngsazlıq sənətinin tənəzzülə uğradığını göstərir. Bu cəhət, yəni odlu silah istehsalının azalması faktı XIX əsr müəlliflərinin də diqqətindən yayınmamışdır. Həmin dövrdə Şimali Azərbaycanda, o cümlədən Şəkidə odlu silah istehsalının tənəzzülə uğramasının əsas səbəbləri Tula və Belçikadan daha ucuz başa gələn silahların idxalı [6, c. 328] və Qafqaz müharibəsindən sonra burada odlu silah istehsalının qadağan edilməsi idi.

1893-cü ildə Cənubi Qafqaz diyarının baş mülki rəisi S.A. Şeremetyevin əhalinin tərksilah edilməsi haqqındakı xüsusi sərəncamından sonra hakimiyyət orqanları tərəfindən əhalinin silahlarını kütləvi surətdə müsadirə edilməsinə başlanılmışdı. 1894-1895-ci illər ərzində təkcə Yelizavetpol quberniyasının əhalisindən 53 min ədəd tüfəng müsadirə olunmuşdu. Hakimiyyət orqanları kustar yolla odlu silah hazırlanmasının qarşısını almaq üçün də ciddi tədbirlərə başlamışdı [17, s. 118].

Şəkidə soyuq silah hazırlanması sənəti də inkişaf etmişdi. Şəkinin kəndlərində də bu silah istehsalı ilə məşğul olanlar var idi. Bu sahədə Qutqaşen kəndi daha qabağa getmişdi. 1850-ci ilin məlumatına görə, bu kənddə Bala oğlan adını almış qız bıçaq, tüfəng çaxmağı, tüfəng açarı və digər əşyalar hazırlayırdı [20].

1852-ci ildə Moskvada keçirilən Ümumrusiya kənd təsərrüfatı və əl işləri istehsalı sərgisində azərbaycanlıların da əl işləri nümayiş etdirilmişdi. Həmin sərgidə nümayiş etdirilən əl işləri içərisində qutqaşenli Usta Rəhim Cəfər oğlunun hazırladığı xəncərlər fəxri fərmana layiq görülmüşdü. Bu kənddə XIX əsrin 80-ci illərində həmçinin Şəki şəhər sakinlərinin sifarişi əsasında dəmir süngülü xüsusi bıçaqlar hazırlanırdı. Belə bıçaqların qiyməti keyfiyyətindən asılı olaraq 1 rubldan 1 rubl 20 qəpiyədək idi.

Metal emalının mühüm sahələrindən biri də misgərlik olmuşdur. Xammal mənbələrinin yaxınlığı və əlverişliliyi, misdən hazırlanmış qablara olan tələbat Şimali Azərbaycanın digər şəhərlərində olduğu kimi Şəki şəhərində də misgərliyin inkişafı üçün lazımi şərait yaradırdı. Qafqazın özündə çıxarılan metallar,

məsələn, mis, daha ucuz başa gəldiyinə görə məişətdə istifadə olunan qablar əsasən misdən hazırlanırdı. Cənubi Qafqazda 1770-ci ildən Allahverdi və Şamlıq mis mədənləri fəaliyyət göstərirdi ki, burada 10-15 pud mis əldə edilirdi. Bu mədənlərdə 1803-1831-ci illərdə 99 290 pud mis əldə edilmişdi. Mədənlərin Tiflisdə və Yelizavetpolda satış məntəqələri fəaliyyət göstərirdi. Xalis mis 7-9 gümüş rubla satılırdı.

1810-cu ilin əvvəllərinə aid edilən sənəddə Şəkidə gümüş və mis qabların hazırlandığı haqqında məlumat verilir [22, c. 38]. 1846-cı ildə Şəkidə 2 misgər və onun 4 işçisi çalışırdı. Misgərlik məmulatları bir dükanda satılırdı. Misgərlərin illik qazancı 2 000 rubl idi [18]. 1849-cu ildə isə Şəki şəhərində 7 qalayçı və misgər emalatxanasının fəaliyyət göstərdiyi haqqında məlumat verilir [8, s. 72].

Qeyd olunmalıdır ki, Şimali Azərbaycanda mis əsasən Gədəbəy mis mədənlərində çıxarılırdı [19, 16-cı cədvəl]. XX əsrin əvvəllərində Yelizavetpol quberniyasında 8 mis əridən zavod fəaliyyət göstərirdi. Əridilən misin az bir qismi yerli kustarlara satılırdı, qalan hissəsi Rusiyaya göndərilirdi. Misin bir pudunun qiyməti 14-17 rubl idi. [12, c. 56].

XIX əsrin 80-ci illərində Şəkinin Xaçmaz kəndində mis qazan və digər mis qabların hazırlandığı haqqında məlumat verilir. İstehsal olunan misin 1 funtu 40-50 qəpiyə, külçə halında olan misin 1 funtunu 25-30 qəpiyə almaq olurdu. Yelizavetpol quberniyası üzrə mis qabların hazırlanmasında 1 000 puddan çox mis tələb olunurdu [9]. Qabların istehsalında istifadə olunan mis əsasən Tiflis və Yelizavetpol zavodlarından misi bazara çıxaran xüsusi adamlardan alınırdı [9].

XVIII əsrin sonu – XIX əsrin əvvəllərində zərgərlik Azərbaycanda, o cümlədən Şəkidə qədim tarixə malik olan sənət sahələrindən biri olmuşdur. Xanlıqlar dövründə hökm sürən iqtisadi tənəzzül və bunun nəticəsi kimi əhalinin həyat səviyyəsinin aşağı düşməsi zərgərlik sənətinə də təsirsiz ötüşmədi. Qızıl və gümüşə daim ehtiyacı olan Şəki xanları xaricə satışa çıxarılan ipəyin qızıl və gümüş pula satılması haqqında göstəriş verirdilər.

Zərgərlik məmulatları yerli əhalinin varlı zümrənin məişətində mühüm yer tutmaqda davam edirdi. Fransız səyyahı Jan Junior Şəki şəhərində zərgərliyin inkişaf etdiyini və şəhərdə gümüşdən zərgərlik məmulatı ilə yanaşı, müxtəlif qabların hazırlandığını yazırdı. Şəki şəhərinin kameral təsvirindən aydın olur ki, həmin dövrdə burada 46 nəfər sənətkar gümüş və qızılın emalı ilə məşğul olurdu.

1896-cı ildə Nijni-Novqorodda keçirilən sənətkarlıq və bədii yaradıcılıq nümunələrinin sərgiləndiyi Ümumrusiya sərgisində Şəki şəhər sakini Mehdi Əyyubovun qızıl və gümüşdən hazırladığı məmulat yüksək qiymətləndirilmişdi. 1900-cü ildə Parisdə keçirilən beynəlxalq sərgidə Şəkidən zərif işlənmiş qızıl şamdan nümayiş etdirilmişdi. Şəki zərbxanalarında Kərim xan Zəndin dövründə kəsilməyə başlanan gümüş pulların üzərində Kərim xan Zəndin adı həkk olunmuşdu.

Ənənəvi zərgərlik sənətində zərgər kürəsi, körük, məngənə, zindan, çəkic, kəlbətin, həddə, simkeş, zərrədin, zərrəbin, qələm, biz, sümbə, bıçaq, matqab, buta, hövnə, yeyə, maqqaş, məhək daşı və s. kimi müxtəlif növ əmək alətlərindən istifadə edilmişdir [14, s. 29].

1819-cu il iyulun 31-də Şəki xanlığının ləğv olunmasına baxmayaraq Şəkidə İsmayıl xanın pulları hələ də dövriyyədə qalmaqda davam edirdi. Şəki xanları tərəfindən icarəyə verilən zərbxanalarda ikigrivenlik gümüş və 10 qəpiklik mis pullar kəsilirdi [21, c. 719].

Beləliklə, XVIII əsrin sonu və XIX əsrdə Şəki şəhərində metalişləmə sənəti yüksək səviyyədə inkişaf etmişdir. Lakin XIX əsrin sonu – XX əsrin əvvəllərində bu sənətin bir sıra sahələri tənəzzül etməyə başlamışdır. Bu da bir sıra kənd təsərrüfatı alətlərinin kənd təsərrüfatı maşınları və zavodlarda istehsal olunmuş, habelə daha ucuz başa gələn kənd təsərrüfatı alətləri ilə əvəzlənməsi ilə bağlı olmuşdur. Şəki şəhərində yalnız zərgərlik sənəti öz inkişafını yüksək səviyyədə davam etdirirdi.

**Açar sözlər:** *metalişləmə sənətkarlığı, dəmirçilik, silahqayırma, misgərlik, zərgərlik, metal pullar.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Биберштейн М. Описание провинции расположенных на левой берегу Каспийского моря между реками Терек и Кура (перевод с французского С.Б. Ашурбейли) //АМЕА ТИЕА, f.1, siy.1, iş 466.*

*2. Броневский С. Новейшие географические и исторические известие о Кавказе. Часть 2. – Москва: Типография С. Селивановского. – 1823. – 465 с.*

*3. Хатисов К. Кустарные промысли Закавказского края // Отчеты и исследования по кустарной промышленности в России. Т. 2. – СПб.: Типография В. Киршбаума. – 1894. – с. 259-370*

*4. İsmayılov M. Şəki. Tarixi oçerk. – Bakı: Azərbaycan Dövlət nəşriyyatı. – 1982. – 151 s.*

*5. Кустарная промышленность за Кавказом //*

*“Qafqaz” qəzeti, 23 noyabr 1882-ci il.*

*6. Географическо-статистический словарь Российской империи. Т. 3. – СПб.: Типография В. Безобразова. – 1867. – 743 с.*

*7. Горные заводы и промысла на Кавказе // Кавказский календарь на 1903 год. – Тифлис: Типография А.В. Кутателадзе. – 1902. Отдел 3. – с. 51-57,*

*8. Məmmədova İ.R. Şəki yaşayış evlərinin interyeri (XVIII əsri sonu – XX əsrin başlanğıcı). – Bakı: Elm. – 2008. – 155 s.*

*9. Mustafayev A.N. Şəki sənətkarlar diyarıdır. – Bakı: Elm. – 1987. – s. 182*

*10. Niftəliyev R.Y. XIX əsrin ikinci yarısında Şimali Azərbaycan kəndlilərinin azadlıq hərəkatı. – Bakı: ADPU nəşriyyatı. – 2006. – 138 s.*

*11. Нуха // “Qafqaz” qəzeti, 15 iyun 1846-cı il.*

*12. Обзор Елисаветпольской губернии за 1908 г. – Тифлис: Типо-литография и переплетная т-ва Либерман и К°. – 1909. – 59 с.*

*13. О промышленности в Шемахинской губернии: Земледельческой, мануфактурной и торговой // “Qafqaz” qəzeti, 15 mart 1850-ci il.*

*14. Отношение д.т.с. Гурева к ген. Ермолову, от 24-го мая 1816 года // Акты, собранные Кавказской археографической комиссией. Том 6, часть 1. – Тифлис: Типография главного управления наместника Кавказского. – 1874. Док. 1074. – с. 718-723*

*15. Отношение ген. Тормасова к д.т.с. Гуреву, от 2-го августа 1810 года, №94 // Акты, собранные Кавказской археографической комиссией. Том 3. – Тифлис: Типография главного управления наместника Кавказского. Док. 37. – с. 37-43*

*16. Первая всеобщая перепись населения Российской империи, 1897 г. Т. 63. Елисаветпольская губерния. – СПб.: Типография т-вщ «Народная польза». – 183 с.*

*17. Пиралов А.С. Краткий обзор кустарных промыслов Кавказа. – Тифлис: – 1903. – 50 с.*

*18. Пиралов А.С. Краткий обзор кустарных промыслов Кавказа. – СПб.: Типо-лиография «Якор». – 1913. – 127 с.*

*19. Раджабли А. Нумизматика Азербайджана. – Баку: Элм ве Хаят. – 1997. – 232 с.*

*20. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. – Баку: Издательство АН Азербайджанской ССР. – 1964. – 501 с.*

*21. Евецкий О. Статистическое описание Закавказского края. В двух частьях. – СПб.: Печатано в типографии штаба отделного корпуса внутренней стражи. – 1835. – 308 с.*

*22. Вейденбаум Е. Заметки об употребление камня и металлов у Кавказских народов // Известия Кавказского отдела императорского русского географического общества. Т. 4. – Тифлис: Типография главного управления Кавказского наместника. – 1876. – с. 263-264*

*23. Выставка золотых и серебренных вещей // “Kaspi” qəzeti, 23 yanvar 1900-cü il.*

## ОБ ИСКУССТВЕ МЕТАЛЛООБРАБОТКИ В ШЕКИ В КОНЦЕ XVIII - НАЧАЛЕ XX

**Мазанова Нурана Н.**

**РЕЗЮМЕ**

В статье рассматривается искусство металлообработки в Шеки в конце XVIII - начале XX вв. В Шеки металлообработка специализировалась в кузнечном, оружейном, медном, ювелирном и монетном деле. Высокий уровень развития кузнечного, оружейного, медного, ювелирного и монетного дела сделал Шеки также центром искусства металлообработки. Специализация металлообработки в различных сферах была обусловлена требованиями рассматриваемого периода.

**Ключевые слова:** *искусство металлообработки, кузнечное дело, вооружение, медь, украшения, монеты.*

## LATE XVIII CENTURY - EARLY XX CENTURY ABOUT METALWORKING ART IN SHAKI

**Mazanova Nurana N.**

**SUMMARY**

Annotation: The article considers the art of metalworking in Shaki in the late 18th and early 20th centuries. Metalworking in Shaki specialized in blacksmithing, armaments, coppersmithing, jewelry and coinage. The high level of development of blacksmithing, armaments, coppersmithing, jewelry and coinage made Shaki also a center of metalworking art. The specialization of metalworking in various fields was resulted becuase of the consumption requirements at that period.

**Keywords:** *metallurgy, blacksmithing, armaments, coppersmithing, jewelry, coins.*

UOT 94

# ПРИМЕНЕНИЕ ТЕОРИИ МОДЕРНИЗАЦИИ В МИРОВОЙ ИСТОРИИ

**МИНА АЛИЕВА**
*Докторант Института Истории Национальной Академии Наук Азербайджана (НАНА)*

*E-mail: mina_aliyeva@mail.ru*

## ВВЕДЕНИЕ

Термин «модернизация», который используется для обозначения процесса изменения, первоначально произошел от латинского слова «модернус». Позже термин «модерн» (современный) стал употребляться из английского языка в другие языки и «…использовался для различения авторских текстов эпохи и прошлого». Такие понятия, как «модернизм», «модернистский», «современность», возникшие из XVII века, означают «…принадлежность современности, а не старости» [1, с.89]. Этот процесс, начавшийся в Западной Европе, включает в себя изменения в политической, экономической и культурной сферах, которые впоследствии распространились на весь мир. В линии, протянувшейся от христианской Европы к эпохе Возрождения, Реформации, Просвещения и Промышленной революции, она отличалась от Древней Греции и выявляла периодические отличия. Теория модернизации, основанная на развитии на Западе, описывает западный мир как современный и развитый, а незападный мир как традиционный и отсталый или слаборазвитый.

Модернизация – это институциональная инфраструктура социальной современности, выражающая «…индустриализацию, формирование рыночных систем, научную революцию, технический прогресс и национально-государственное развитие» [1,с.78]. Понятие «национальное государство», составляющее общую тему европейской истории XIX века, занимает место в позиции, способной отразить параметры модернизации.

В период с конца 15 века по 19 век в деятельности национально-государственной модели проявляются подъем и завоевание государств Франции, Англии, Испании, а затем Пруссии, Швеции и России. Основная ось «теории мировой системы» в творчестве Валлерстайна сосредоточена на гегемонии Европы над остальным миром после 16 века.

## ОСНОВНОЙ ТЕКСТ

Макс Вебер охарактеризовал параметры, объединяющие сложные черты и элементы модернизационного процесса, как «процесс «рационализации» на Западе», который кладет конец засилью религиозно-традиционных взглядов как в экономике, так и в государственном аппарате. Научные и технические изобретения нового революционного процесса составили центральную часть мировой политики и экономики XIX века. Как выразился Робин Джордж Коллингвуд, «Модернизация — это эпоха, когда человеческая жизнь превращается в научную, историческую и философскую мысль». [2, с.67]

С формированием индустриального общества ориентация на индивидуальный путь превратилась в депрессивную установку на грани культурного разрыва. Действительно, как определил Энтони Гидденс, «…три основных фактора, которые последовательно влияли на социальные изменения: физическая структура (климатические и географические условия), политическая организация (политический порядок и географические условия) и культурные факторы (религия, системы коммуникации и люди). )» были основными факторами, ускорившими распространение новых разработок [3, с.65].

В анализах Маркса и Вебера о характере модернизации кажется очевидным, что различия между двумя цивилизациями были детерминированы, и это также способствовало анализу общей структуры колонизированных стран. При рассмотрении с противоположной точки зрения «однородность», «единообразие», отношения к прошлому и подходы к проектированию будущего составляют матрицу модернизации. «Модернизация в свете западного мировоззрения» отражает западные убеждения, исторический опыт и оценочные суждения [4, с.56].

Видно, что Просвещение обладает качеством, которое может составить важную основу для феномена модернизации с теми перспективами фи-

лософского мышления, которые оно воплощает и развивает в себе. Просвещение — это концептуальная форма периода, выражающая усилия интеллектуалов, представителей западных мыслительных движений, реализовать свои будущие цели в рамках рациональных рамок, оторванных от традиционного понимания. Отождествление «просвещения» как термина в литературе по социальным наукам с понятиями «рациональности и прогресса» является одним из немногих общепризнанных моментов. Слово «Просвещение», употреблявшееся в 18 веке, перешло во все языки Европы как образ «света». Англичане называли это понятие «Просвещение», немцы «Aufklarung», французы «Lumieres», итальянцы «Illuminisimo» и испанцы «Illustrados». Все эти слова выражают процесс, проливающий свет на идеи, институты и практики, которые до того времени оставались в темноте [5, с.45].

Факты (государство, политико-экономический строй, политические учреждения и т. д.) и идеи (идеалы), определяющие в общем течении гегелевской философской системы, стали теоретическим произведением в русле прогрессивного понимания истории. Как говорит Кассирер, «нет ни одной крупной политической системы, которая смогла бы противостоять его влиянию. Все наши современные политические идеологии проявились в силе, долговечности и постоянстве принципов, впервые представленных и защищенных в гегелевской философии права и истории.

Грамши в своей работе «Тюремные тетради» (1929), в которой он излагал свои мысли, в некотором роде отражающие гегельянство, положил в основу своей философии «праксиса» концепцию гегемонии, которую Маркс развивал против экономического детерминизма. Концепция «гегемонии» в историческом материализме Маркса приобрела новое измерение и значение благодаря работе Грамши. Этимологически понятие «гегемония», происходящее от греческого слова «гегемон» и означающее «вождь», «указывает на то, что господствующий или господствующий класс в обществе проявляет свою власть как естественную и законную, а также как замену классовых интересов общечеловеческими». В словаре Грамши понятие «гегемония» определяется как «согласие, лидерство и влияние, а не альтернатива господству или противодействие ему» с точки зрения его размера и содержания [6, с.67].

В период, соответствующий концу XVIII и началу XIX века, который Фуко называет порогом политического модерна, преобладает тенденция к эксплуатации рабочей силы, необходимой капитализму. Непосредственное участие человеческого тела, являющегося источником труда, в производственной силе и ее построении путем превращения ее в объект экономико-политического вмешательства основаны на гегемонистской основе. Кроме того, с этим процессом ясно, что на Западе возник совершенно новый тип власти, называемый «дисциплинарной властью» .

Быстрое изменение социальной и экономической сфер в результате модернизации, с одной стороны, повышает продуктивность и эффективность индивидов, с другой стороны, дает возможность контролировать их поведение. Политическая формула, характеризующая новую эру, новый тип правления, — это модель «Паноптикума» Джереми Бентама».

Цивилизация XIX века, находящаяся в рамках основных параметров модернизации (капитализм, индустриализм и национальное государство) и развивающаяся по-своему, включает в себя смену направления глобализации. Как указывает Полани, это изменение строится на четырех столпах: «Первый — это установление системы баланса сил в мире. Как утверждает Фуко, этот период состоит из структур, организованных системой, целью которой является преобразование всего. Все политические, экономические и культурные проблемы, существующие с XVII века, состоят в конфликте между субъективностью и всеобщностью [7, с.45].

Развитие, происходящее во взаимодействии друг с другом на историческом и интеллектуальном пути, которым следуют разные общества, по одному из общих мнений, классифицируется по образцу локальных характеристик, оставляя западноцентричные модернизационные дискурсы. По этой причине Гёле, оторвавший понятие модернизации от его западоцентристских корней и поместивший его в рамки иной истории и географии, представляет новое расширение, взяв понятие «незападная модернизация», включающее понятия такие как локальная модернизация, множественная современность и альтернативная современность в качестве ос-

новы. С XIX века можно оценивать феномен «модернизации», интегрированный в институциональные рамки с детерминантой отношений эксплуатации и господства, в основном как гегемонию сильного [8, с.45].

Переосмысление Востока в мировой истории также открывает новые перспективы. Согласно Макнилу, между 1500-1700 годами экономика восточных обществ была вынуждена измениться благодаря систематической и организованной работе европейских торговцев с целью получения прибыли. Западные державы, которые были систематически организованы, особенно в Китае и исламских странах, отражали свою финансовую и технологически развитую мощь в культурном измерении.

Период модернизации 1760-1875 годов связан с индустриализацией как важной фазой империализма. «С середины 1800-х годов Европа взяла под свой контроль 55% земной суши и фактически включила в себя 35% площади поверхности. Европоцентризм, получивший новый импульс в процессе модернизации, подпитывает приемы гегемонии вмешательством знания. Европоцентризм, который обычно воспринимается как позитивистский, технологически ориентированный и склонный к рационализму, отождествляется со знаниями и производственными стандартами всеобщей модернизации. Модернизационный мотив, который существует под гегемонистским зонтиком знания и власти, больше фокусируется на культурных формах.

Историческое распространение современного понятия «национальное государство» по всему миру и его детерминация национальными границами включает в себя диалектику, основанную на политических критериях Взаимодействие в политическом контексте существует таким образом, что включает в себя нацию, народ и государство. В некотором смысле, хотя современность носит глобальный характер, она теоретически ставит систему национального государства на националистическую основу.

Феномен модернизации, который включает в себя работу, которую могут продолжить интеллектуалы и начертить генеральные линии нового общественного порядка, привел к возникновению идеологических проблем в жизни незападных обществ. Этот процесс, начатый в западноцентричном понимании, основан на трех фундаментальных истинах, которые одновременно дополняют друг друга [8, с.87].

Дискуссия о модернизации оценивается как основное направление «воссоздания человека» и «перекатегоризации общества» по классовому признаку. Это одно из основных предположений, что оно проявляется как продукт поэтапной склонности к парадигме. Освоение этих ресурсов колониальным оборудованием можно объяснить началом индустриализации. Кроме того, новый жизненный порядок и идея индивидуальности, определявшие структуру собственной внутренней динамики Запада, начиная с XVII века, возникли с описанием новой «европейской» идентичности к XIX веку.

Элементы, формирующие идеологическую картину в незападных обществах, вычерчиваются внутри всей этой парадигмы. Если посмотреть на рассматриваемый процесс под другим углом, то отчетливо видно, что Фуко начал поиск понятий модернизации, «человеческого успеха и счастья», которые легко определить в рамках понятия «знание и власть», уравнение в импульсе управления. При таком подходе бесспорные и некритические титулы европоцентристской традиции в значительной степени были уничтожены. Можно сказать, что конфликт, вызванный этим анализом, выражается в форме дискриминации «Восток-Запад» .

## РЕЗУЛЬТАТ

Модернизацию можно определить, основываясь на процессе гомогенизации и определенных действиях по институционализации, которые сформируют основную динамику современного государства, капиталистической экономики и индустриализма. Исходя из этих параметров, видно, что он нацелен на порядок, в котором разрабатываются зависящие от процесса проекты «гармонии и единообразия». Есть попытка получить превосходство над новым порядком по критериям и правовому пониманию, которые возникли рационально с применением основных параметров модернизации (капитализм, индустриализм и национальное государство). Полезно кратко подчеркнуть, что феномен современного общества, развивавшегося в эпоху Просвещения, формировался в рамках «всеобщего единообразия».

Пытливый анализ Грамши по выявлению такого нового типа «рациональности» и его эффектов выводит как теоретические, так и институциональные дискуссии о модернизации на более примечательный уровень.

**ЛИТЕРАТУРА:**


1. *Бауман, Зигмунт. Современность и неоднозначность, 2003, 350 с.*
2. *Бест, Стивен-Келлнер, Дуглас. Постмодернистская теория, 2011, 240 с.*
3. *Коллингвуд, Робин Г. Исторический дизайн, 1990, 310 с.*
4. *Дьяконов Игорь. Траектории истории, 2004, 267 с.*
5. *Эйзенштадт, Шмуэль Н. Модернизационный бунт и перемены, 2007, 410 с.*
6. *Гидденс, Энтони. Последствия современности, 2016, 340 с.*
7. *Харви, Дэвид. Состояние постмодерна, 2010, 290 с.*
8. *Иггерс, Георг Г. От научной объективности к постмодернизму: в двадцатом веке. Историография, 2011, 310 с.*


**РЕЗЮМЕ**


Модернизация включает в себя ряд изменений и подвергает решению политические, экономические и культурные проблемы, возникающие в результате ее воздействия на социальную структуру, в рамках рациональной парадигмы. Характерные черты модернизационного процесса тесно связаны с изменением характера как экономического и социального, так и традиционного государственного устройства. В западной истории идея экономических и социальных изменений обретает определенную революционную окраску. В статье рассматривается развитие и становление теории модернизации в мировой истории, в анализ включены мнения различных ученых в этой области.



**Ключевые слова:** *модернизация, модернизационный процесс, рационализация, технический прогресс, современна трансформация.*


## APPLICATION OF MODERNIZATION THEORY IN WORLD HISTORY

**SUMMARY**


Modernization includes a number of changes and exposes the solution of political, economic and cultural problems arising from its impact on the social structure, within the framework of a rational paradigm. The characteristic features of the modernization process are closely related to the change in the nature of both the economic and social, and the traditional state structure. In Western history, the idea of economic and social change takes on a certain revolutionary connotation. The article examines the development and formation of the theory of modernization in world history, the opinions of various scientists in this field are included in the analysis.



**Keywords:** *modernization, modernization process, rationalization, technical progress, modern transformation*


## MODERNLƏŞMƏ NƏZƏRİYYƏSİNİN DÜNYA TARİXİNDƏ TƏTBİQİ

**XÜLASƏ**


Modernləşmə bir sıra dəyişiklikləri özündə ehtiva edir və onun ictimai quruluşa təsirindən irəli gələn siyasi, iqtisadi və mədəni problemlərin rasional paradiqma çərçivəsində həllini əhatə edir. Modernləşmə prosesinin xarakterik xüsusiyyətləri həm iqtisadi, həm sosial, həm də ənənəvi dövlət quruluşunun xarakterinin dəyişməsi ilə sıx bağlıdır. Qərb tarixində iqtisadi və sosial dəyişiklik ideyası müəyyən inqilabi məna kəsb edir. Məqalədə modernləşmə nəzəriyyəsinin dünya tarixində inkişafına, formalaşmasına nəzər salınır, bu sahədə müxtəlif alimlərin fikirləri təhlilə cəlb edilir.



**Açar sözlər:** *modernləşdirmə, modernləşdirmə prosesi, səmərələşdirmə, texniki tərəqqi, müasir transformasiya*

UOT: 336.7:336.71:336.77

# AZƏRBAYCANDA REAL İQTİSADİYYAT SAHƏLƏRİNİN KREDİTLƏŞDİRİLMƏSİNİN AKTUAL ASPEKTLƏRİ

**GƏRAY ƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin doktorantı*
*E-mail: gerayaliyev1907@gmail.com*

Azərbaycanda real iqtisadiyyat sahələrinin kreditləşdirilməsi və bununla bağlı işlək mexamizmlərin olması, zəruri tədbirlərin görülməsi son illərdə kifayət qədər müzakirə olunan məsələlərdəndir. Belə ki, mövcud şəraitdə bank-kredit müəssisələri əsas etibarilə istehlak sahələrinin kreditləşdirilməsinə daha çox meyillidirlər [1]. Bu isə ucuz və tez başa gələn gəlirlər dalınca qaçmağın bir istiqamətidir və bazar iqtisadiyyatı şəraitində hər bir müəssisənin gəlirlə işləməsi üçün tədbirlər görməsi anlaşılandır. Lakin ölkəmizdə bank-kredit müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində bank qanunvericiliyinin gücləndirilməsi və bununla bağlı əlavə tədbirlərin görülməsi istiqamətində davamlı işlər görülmüşdür. Bank qanunvericiliyi təkmilləşdirilmiş, yenı mükəmməl bank qanunvericiliyi bazası formalaşdırılmış və müvafiq qanun qəbul olunmuşdur [2; 3]. Bundan əlavə, Mərkəzi Bankın strukturu daha da təkmilləşdirilmiş və dünya təcrübəsinə uyğunlaşdırılmışdır. Mərkəzi Bankın strukturu gücləndirilmiş və nəticədə ölkədə bank-kredit sisteminin daha işlək olması, kreditləşdirilmənin şəffaflaşdırılması, bununla bağlı fəaliyyət göstərən bankların imkanlarının artırılması, Mərkəzi Bank tərəfindən banklara verilən kredit resurslarının faiz dərəcələri dəhlizinin cəlbediciliyi tədbirlərini qeyd etmək olar.

Digər tərəfdən, dövlət başçısı tərəfindən bankların fəaliyyətinin sağlamlaşdırılması istiqamətində önəmli addımlar atılmışdır. Belə ki, problemli kreditlərin restrukturizasiyası və onların müəyyən məbləğinin silinməsi də bankların fəaliyyətinin canlandırılmasına, bank sisteminin işləkliyinə, daha səmərəli fəaliyyət göstərməsinə və ümumilikdə, bank-kredit müəssisələrinin rentabellik göstəricilərinin yaxşılaşdırılmasına imkan vermişdır [4]. Eyni zamanda, problemli kreditlərin silinməsi sahəsində bankların fəaliyyətinin canlandırılması və əhalinin müəssisələrin, hüquqi şəxslərin daha da intensivləşdirilməsi imkanları yaradılmışdır.

Azərbaycanda real iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi və son illərdə milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi baxımından, perspektivli iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi, investisya-innovasiya layihələrinin gerçəkləşdirilməsi kifayət qədər mürəkkəb mexanizmlərin işlənməsini və tətbiqini şərtləndirir [5]. Bu sırada əsas məsələlərdən biri davamlı və sabit, həm də səmərəli maliyyə-kredit mexanizmlərinin olması və bununla bağlı bank xidmətlərinin hazırlanaraq real iqtisadiyyat subyektlərinə tətbiq olunmasıdır. Təəssüf ki, bu sahədə problemlər mövcuddur və bunlar demək olar ki, əksər hallarda nəzərdə tutulan işlərin görülməsinə, layihələrin reallaşdırılmasına, müəssisələrin inkişaf etdirilməsinə və qarşıda duran strateji inkişaf hədəflərinə çatılmasına maneçilik edir [6]. Xüsusilə acınacaqlı vəziyyət real iqtisadiyyat sahələrində innovasiyaların işlənməsinin tətbiqi və innovasiya məhsullarının alınması ilə bağlıdır. Demək olar ki, Azərbaycanda əksər müəssisələrdə innovasiyayönlü fəaliyyət yoxdur. Bunun səbəblərini isə bir sıra hallarda digər amillərlə izah olunsa da, əsas məsələ müəssisələrin, məhz real iqtisadiyyat subyektlərinin özlərinin innovasiyaların işlənməsi, tətbiqi və texnologiyaların transferi ilə bağlı vəsaitlərinin olmaması ilə izah edilir.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanda müəssisələrin real iqtisadiyyat subyektlərinin innovativ inkişafını ləngidən başlıca səbəblərdən biri məhz bank müəssisələrinin təklif etdiyi kredit faizlərinin dərəcələrinin yüksək olmasıdır. Kreditləşmə mexanizminin mürəkkəbliyi, tələb olunan zəmanətlərin və girov predmetlərinin kifayət qədər çətin olması, eyni zamanda kredit şərtlərinin ağırlığı əksər hallarda real iqtisadiyyat subyektlərinin qarşısında duran vəzifələrin yerinə yetirilməsini ləngidir.

Digər tərəfdən, ortalama kredit faizi dərəcələrinin region ölkələri və dünya təcrübəsinə nisbətdə yüksək olması, Azərbaycan banklarının rəqabət qabiliyyətinin aşağı olmasının göstəriciləri kimi də baxıla bilər. Təəssüf ki, mövcud bank müəssisələri real iqtisadiyyatın inkişaf etdirilməsilə bağlı uzun-

müddətli dövrü əhatə edən problemləri və onunla bağlı obyektiv reallıqları, real iqtisadiyyat subyektlərilə müzakirələrdən yayınırlar və əsas etibarilə əvvəldə qeyd etdiyimiz kimi, istehlak resurslarını istehlak kreditlərinə yönəltməkdə daha çox maraqlıdırlar. Bütün bunların nəticəsində Azərbaycanda bir çox real iqtisadiyyat sahələrinin inkişafı ləngiyir. Məsələn, ölkəmizdə kifayət qədər xammal resurslarının olmasına baxmayaraq tekstil sənayesinin inkişafı ləngiyir və bu sahədə özəlləşməyə verilmiş müəssisələrin sağlamlaşdırılması, regionlarda mövcud olan tekstil xammallarından səmərəli istifadə etməklə yüksək texnologiyalar əsaslı yeni tekstil müəssisələrinin yaradılması, kiçik və orta toxuculuq müəssisələrinin istismara verilməsi məsələlərinə maraq azdır. Çünki bu sahədə fəaliyyət göstərmək istəyən real iqtisadiyyat subyektlərinin özlərinin vəsaiti çatışmır. Banklardan alınan kreditlərin faiz dərəcələrinin yüksək olması isə həmin işləri qeyri-səmərəli edir. Hesab edirik ki, ölkəmizdə fəaliyyət göstərən bank müəssisələrinin, real iqtisadiyyat sahələrinin kreditləşdirilməsi üçün müəyyən mənada unixikasiya olunmuş, yəni yaxın meyarlara və prinsiplərə uyğun şəkildə kredit paketlərinin formalaşdırılması platforması yaradılmalıdır.

Bəllidir ki, Azərbaycanda dövlətin bank siyasətinin əsasını Mərkəzi Bank formalaşdırır. Mərkəzi Bank Azərbaycanda bank siyasətinin reallaşdırılmasına məsuliyyət daşıyır və eyni zamanda bank müəssisələrinə kredit resurslarını verir. Ancaq Mərkəzi Bankdan verilən kredit resurslarının nisbətən aşağı olmasına baxmayaraq, digər bank-kredit müəssisələri real iqtisadiyyat subyektlərinə kredit resursları verərkən, kredit dəhlizlərinin faiz dərəcələrinin kifayət qədər yüksək olmasına səy göstərirlər [7]. Hesab edirik ki, bunlar yolverilməzdir və bununla bağlı da müəyyən tənzimləmə olmalıdır. Eyni zamanda, Mərkəzi Bank və ölkədə fəaliyyət göstərən banklarla bu məsələlərin dərindən araşdırılması, müzakirə olunması, müvafiq təlimatların hazırlanması və faiz dərəcələri üzrə minimum, maksimum dəhlizlərin formalaşdırılmasına ehtiyac vardır.

Ümumilikdə hesab edirəm ki, ölkəmizdə real iqtisadiyyat sahələrinin kreditləşdirilməsi üzrə ümumi bir meyarların, prinsiplərin formalaşdırılması və banklar üçün tövsiyə edilməsi, lazım gəldikdə isə Mərkəzi Bank tərəfindən bir təlimat kimi banklara göndərilməsi təmin edilməlidir. Biz əlbəttə inzibati amiranə sistemə qayıtmaq fikrində deyilik. Amma bütün dünyada olan obyektiv reallıqlardan, bank kreditlərinin faiz dərəcələri üzrə real situasiyadan yanaşdıqda, bu məsələnin müzakirə predmeti olduğu fikrində qalırıq və hesab edirik ki, Azərbaycanda da bu məsələlər bazar iqtisadiyyatı reallıqları ilə və hazırki dövrdə pandemiya postulatları, drayverləri kontekstində kredit resurslarına olan kəskin tələbatın nəzərə alınması məsələləri baxılmalı və həll olunmalıdır.

Hesab edirik ki, Azərbaycanda bankların real iqtisadiyyat sahələrinə kredit resurslarının yönəldilməsində Azərbaycan reallıqları, ölkəmizin sosial-iqtisadi inkişaf ənənələri, əhalinin məşğulluq təminatı və yaşayış səviyyəsi, son illərdə formalaşmış makroiqtisadi göstəricilər mütləq şəkildə nəzərə alınmalıdır. Bununla bağlı olaraq real iqtisadiyyat sahələrinin inkişafının intensivləşdirilməsinə xidmət edən kredit paketi formalaşdırılmalı və onların faiz dərəcələri, Mərkəzi Bankın banklara verdiyi kredit resurslarının maya dəyəri üzərinə bankların real xərcləri və minimum gəlirləri nəzərə alınmaqla müəyyənləşdirilməli və bununla real iqtisadiyyat sahələrinin daha səmərəli kreditləşdirilməsi mexanizmləri işlənməlidir. Banklar əhalidən, digər mənbələrdən, yəni müxtəlif alternativ mənbələrdən maliyyə resurslarının cəlb edilməsi, yığım proseslərinin cəlbediciliyinin artırılması tədbirləri görməli və daha çox vəsaitlər formalaşdıraraq onların real iqtisadiyyat sektorlarına kredit şəklində yönəldilməsində maraqlı olmalıdır [8; 9; 10]. Əlbəttə, burada risklər başa düşüləndir. Banklar real riskləri, situasiyanı nəzərə almaqla hərəkət etmək istəyirlər. Amma unutmaq lazım deyil ki, risklərin qarşılanması və sığorta mexanizmlərinin işləkliyinin təmin edilməsi, bu da maliyyə bazarlarının inkişafı ilə əlaqəli olan bir məsələdir. Bununla əlaqədər olaraq ölkəmizdə ümumilikdə maliyyə bazarlarının inkişaf etdirilməsi, maliyyə bazarının mühüm seqmenti olan bank kreditlərinin, bank fəaliyyətinin müasir dövrün tələblərinə uyğun səviyyəsinə qaldırılması tədbirlərinə ciddi ehtiyac vardır [11].

Fikrimizcə, yaxın illərdə ölkənin real iqtisadiyyat sahələrinin kreditləşdirilməsində dönüş yaratmağın vaxtı çatmışdır. Bunu həm də işğaldan azad olunmuş ərazilərin inkişaf prioritetləri və hədəfləri tələb edir. İşğaldan azad olunmuş ərazilərdə dirçəldilmə və reablitasiya işlərinin görülməsində dövlət tərəfindən məqsədli şəkildə büdcə vəsaitləri ayrılsa da, hesab edirik ki, ərazilərin minalardan təmizlən-

məsindən sonra alternativ maliyyə mənbələrinə və postkonflikt ərazilərdə fəaliyyət göstərmək istəyən özəl subyektlərin müraciətlərinin reallaşacağı şəkildə maliyyə resurslarına, kredit resurslarına ehtiyacın əhəmiyyətli şəkildə artacağını düşünürük. Buna görə də Azərbaycan bankları uzun illər ərzində deqradasiyaya uğramış, viran qoyulmuş torpaqlarımızın, işğaldan sonrakı dövrdə azad olunmuş torpaqlarımızın dirçəldilməsi, bu regionlarda sosial-iqtisadi inkişafın bərpa edilməsi və real iqtisadiyyat sahələrinin yaradılması, məcburi köçkünlərin məşğulluq problemlərinin həllinə imkan verən real iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi proseslərində fəal iştirak etməli və özlərinin bununla bağlı müvafiq kredit xidmətləri paketini formalaşdırmalıdır. Digər tərəfdən, ümumilikdə ölkədə regionların inkişafında, maliyyə resurslarının, alternativ kredit resurslarının çatışmaması problemini də qeyd edə bilərik [12]. Əlbəttə, banklar tərəfindən təklif olunan və demək olarki bürokratik amillərlə əhatə olunan kredit xidmətlərinin şərtlərinin yenilənməsi, dövrün tələblərinə uyğunlaşdırılması və eyni zamanda ölkəmizin, regionların qarşısında duran strateji hədəflərin reallaşdırılması baxımından əlçatan kredit resursları paketinin formalaşdırılması, bank müəssisələrinin qarşısında duran strateji vəzifələr kimi qiymətləndirilməli və nəzərə alınmalıdır.

Digər tərəfdən, real iqtisadiyyat sahələrinin inkişafı ölkənin maliyyə-kredit resurslarının formalaşdırılmasında və daha intensiv olaraq yığım proseslərinin təşkilində önəmli rol oynayır. İstehlak kreditlərindən tədricən meyilliyin real layihələrin, iqtisadiyyat sahələrinin kreditləşdirilməsinə yönəlməsinin təmin edilməsi üçün şübhəsiz uzun illər lazımdır. Amma bununla belə, fikrimizcə son illərdə iqtisadiyyata kredit qoyuluşunun həcminin artması və digər tərəfdən, iqtisadiyyata qoyulan kreditlərin strukturunda real iqtisadiyyat sahələrinin təşkili və inkişaf etdirilməsi ilə bağlı məsələlər ön plana çıxmaqdadır. Artıq biznes kreditləri daha cəlbedici olmuş və biznes kreditlərinin faiz dərəcələri əvvəlki illərə nisbətən azalmışdır. Bunun nəticəsində kiçik və orta müəssisələrin maliyyə resurslarına, kredit resurslarına əlçatanlığı təmin edilmiş, kredit resurslarından istifadə üçün imkanlar genişləndirilmişdir. Bundan əlavə, real iqtisadiyyat sahələrinin investisiya və kredit resurslarına olan tələbatının balanslaşdırılması istiqamətində atılan addımlar artıq bəhrəsini verməkdədir. Həm mərkəzi şəhərlərdə, həm də regionlarda bir çox innovasiya, investisiya xarakterli layihələrin reallaşdırılmasında banklar iştirak etməkdədir [13].

Şübhəsiz, bütün bunlar olduqca vacibdir. Belə ki ölkəmizdə son illərdə milli iqtisadiyyatın neftdən asılılığının azaldılması, neft-qaz sektoru ilə yanaşı qeyri neft-qaz sektoru sahələrinin inkişaf etdirilməsi, bu sahələrdə mövcud olan resurslardan bəhrələnməklə daha dayanıqlı iqtisadiyyat sahələrinin sektorlarının formalaşdırılması vacibdir. Bu ölkəmizin iqtisadi inkişaf modelinin və yaxın perspektivdə onun təkmilləşdirilməsi ilə bağlı hədəflərin əsasını təşkil edir. Eyni zamanda, 2030-cu ilədək olan milli prioritetlərdə milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, yüksək texnologiyalar əsaslı iqtisadiyyat sahələrinin yaradılması, qeyri-neft sektorunun prioritetliyinin daha da gücləndirilməsi, "yaşıl iqtisadiyyat"ın təşkili və eyni zamanda yüksək, ağıllı texnologiyalar əsasında layihələrin reallaşdırılması, alternativ enerji mənbələri üzrə olan layihələrin reallaşdırılması və s. bu kimi prioritet vəzifələr ölkəmizdə bank-kredit müəssisələrinin rolunun artırılmasını şərtləndirir [14].

## YEKUN

Bütün bunlar nəzərə alınmaqla hesab edirik ki, yaxın perspektivdə bir sıra məsələlər daha çox diqqət çəkəcəkdir:

- Ölkə iqtisadiyyatının strukturunda perspektivli sahələrin imkanlarından səmərəli istifadə edilməsində səmərəli istifadə mexanizminin olması mütləq şərtlərdən biridir;
- Maliyyə-kredit əlçatanlığının təmin olunmasında bank müəssisələrinin rolu mühüm əhəmiyyət kəsb edir;
- Bank-kredit müəssisələrinin, real iqtisadiyyat sahələrinin kreditləşdirilməsinə marağın artırılması üçün dövlət dəstəyi mexanizmlərinin işlənməsinə və tətbiqinə ehtiyac vardır;
- Bankları real iqtisadiyyatla bağlı baxışlarının və fəaliyyət strategiyalarının dövrün tələblərinə uyğunlaşdırılması vacibdir;
- Bankların fəaliyyətində dünya təcrübəsindən irəli gələn əsas məqamlardan biri kimi real iqtisadiyyat və müəssisələrlə əlaqələrin şaxələndirilməsi prioritetlik təşkil etməlidir;
- Mərkəzi Bank ölkə bankları ilə birlikdə, Azərbaycan iqtisadiyyatının inkişaf hədəfləri nəzərə alınmaqla real iqtisadiyyat sahələrinin kreditləş-

dirilməsi istiqamətində yeni kredit siyasətinin formalaşdırılmasına dair tədbirlər görməli, dövlət siyasətində bu məsələlərin nəzərə alınmasını təmin etməlidir;

- Bank müəssisələrinin real iqtisadiyyat sahələrinə kredit resurslarının daha fəal verilməsi üçün onların gəlirlilik səviyyəsinin qorunması nəzərə alınmaqla mərkəzi bank tərəfindən kredit resurslarının ayrılması məsələləri daha sistemli və kompleks şəkildə baxılmalıdır;

- Ölkə iqtisadiyyatının diversifikasiyalaşdırılmasında real iqtisadiyyat sahələrinin kreditləşdirilməsində sıçrayışa nail olmaqla ölkədə şəffaflığın, maliyyə hesabatlarının təqdim olunmasının dürüstlüyünün və bununla əlaqədar olaraq vergi qanunvericiliyinin, bank qanunvericiliyinin qorunması istiqamətində daha ciddi tədbirlər görülməli, korrupsiyaya qarşı aparılan işlər sistemli xarakter daşımalıdır;

- İqtisadiyyatın müxtəlif sahələrində olan perspektiv imkanlara bankların marağını artırmaq və kreditləşdirmənin intensivləşdirilməsi üçün inhisarçılıq hallarının qarşısı alınmalı, inhisarçılıq meyilləri aradan qaldırılmalı və iqtisadiyyatın müxtəlif sahələrində hesabatların aparılması təmin edilməlidir;

- Ölkə iqtisadiyyatında bank müəssisələrinin rolunun gücləndirilməsi məqsədilə bankların sənaye müəssisələri, potensial investorlarla qarşılıqlı fəaliyyətinin əlaqələrinin, müştərək müəssisələrinin yaradılmasında bankların iştirakı bu istiqamətdə bank kreditləri paketinin formalaşdırılması üçün əlavə tədbirlərin görülməsinə ehtiyac vardır və s.

**Açar sözlər:** *Azərbaycan, real iqtisadiyyat, kredit xidmətləri, kreditləşmə, kreditləşmənin aktual aspektləri, kreditləşmədə bank müəssisələrinin rolunun gücləndirilməsi perspektivləri.*

## ƏDƏBİYYAT SIYAHISI:

*1. Əliyev, V.Ə. Maliyyə-bank mexanizmlərinin səmərəliliyinin artırılmasnda sistem əhəmiyyətli bankların strateji əhəmiyyəti // – Bakı: Audit – 2019. № 3, Cild 25, – s. 49-58.*

*2. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu // Bakı şəhəri, 16 yanvar 2004-cü il, № 590 – IIQ.*

*3. Bankların likvidliyinin idarə olunması haqqında Qaydalar (15 aprel 2010-cu il tarixli dəyişikliklərlə) // – Bakı: – 2009. AR Ədliyyə Nazirliyi, qeydiyyat №3484, 01.12.2009-cu il və AR Mərkəzi Bankının İdarə Heyəti. Pr.№ 3.*

*4. Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı: – 28 fevral 2019-cu il.*

*5. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı / Ş.T.Əliyev. – Sumqayıt: SDU-nun redaksiya və nəşr işləri şöbəsi, – 2018. – 376 s.*

*6. Əliyev, Ş.T. Azərbaycanda maliyyə sabitliyinin təmin edilməsi problemləri və maliyyə-kredit sisteminin inkişafının müasir aspektləri // Audit, – 2017. № 03, – s. 26-40.*

*7. Əhmədov, B. İqtisadiyyatın kredit yükü: "qızıl orta" axtarışında. [Elektron resurs] / Bakı: – 2016. – 11 s*

*8. Лаврушин, О.И., Ветрова Т.Н. Эффективность банковской деятельности: методология, критерии, показатели, процедуры / О.И.Лаврушин, Т.Н. Ветрова // Банковское дело, – 2015. №5, – с. 38-42.*

*9. Алиев, В.А. Важность системно значимых банков в стабилизации рынка финансовых услуг в условиях роста глобальных воздействий / Science and innovation. Steyr, Austria. 30.05.2019. – p.73-76.*

*10. Вострухина, Т.Ю. Факторы и условия, влияющие на развитие банковских услуг в регионах // Российское предпринимательство. – 2011, Том 12. № 9. – с. 130-135.*

*11. Ataşov, B.X. Maliyyə nəzəriyyəsi / B.X. Ataşov, N.A.Novruzov, E.Ə.İbrahimov – Bakı: Kooperasiya nəşriyyatı, – 2014. – 648 s.*

*12. Əliyev, A.İ. Sahibkarlığın və regionların iqtisadi inkişafında bankların korporativ idarəedilməsinin təkmilləşdirilməsi: / İ.ü.f.d. dissertasiyasının avtoreferatı) / – Gəncə, 2012. – 24 s*

*13. İbrahimov, E.Y. Maliyyə və bank sisteminin regional iqtisadi inkişafın təminatında rolu (Naxçıvan MR timsalında): / İ.ü.f.d. dis-nın avtoreferatı) / – Naxçıvan, 2017. – 28 s.*

*14. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.*

**РЕЗЮМЕ**

**Актуальные аспекты кредитования сферы реальной экономики в Азербайджане**

В статье исследованы актуальные аспекты кредитования сферы реальной экономики в Азербайджане. С этой целью раскрыта сущность проблем развития реального сектора и роль кредитования в этих вопросах. Обоснована необходимость усиления роли банковских предприятий в эффективной организации кредитования реальной экономики в стране. Рассмотрены наиболее продуктивные механизмы и инструменты по организации и развитию банковско-кредитных услуг для кредитования отдельных секторов реальной экономики в Азербайджане. Отмечена роль кредитных ресурсов в реализации инвестиционно-инновационных проектов и стратегических целей, стоящих перед предприятиями. Рассмотрены перспективы создания более продуктивных механизмов и инфраструктуры по обеспечению доступности кредитных ресурсов субъектам реальной экономики страны. Подготовлен ряд рекомендаций и предложений по решению актуальных проблем кредитования сферы реальной экономики Азербайджана в ближайшей перспективе в условиях глобальных экономических и финансовых потрясений в мире.

**Ключевые слова:** *Азербайджан, реальная экономика, кредитные услуги, кредитование, актуальные аспекты кредитования, перспективы усиления роли банковских предприятий в кредитовании.*

**SUMMARY**

**Current aspects of crediting of real economy in Azerbaijan**

The article investigates the current aspects of crediting of real economy in Azerbaijan. The essence of the problems of the development of the real sector and the role of crediting in these matters are considered for this purpose. The need to strengthen the role of banking enterprises in the effective organization of crediting to the real economy in the country is justified. The most productive mechanisms and tools for the organization and development of banking and credit services for crediting to certain sectors of the real economy in Azerbaijan are given. The role of credit resources in the implementation of investment and innovative projects and strategic goals facing enterprises is noted. The prospects for creating more productive mechanisms and infrastructure to ensure the availability of credit resources to the subjects of the country's real economy are considered too. A number of recommendations and proposals to solve the urgent problems of crediting to the real economy of Azerbaijan in the near future in the context of global economic and financial shocks in the world are given.

**Key words:** *Azerbaijan, real economy, credit services, crediting, current aspects of crediting, prospects for strengthening the role of banking enterprises in crediting.*

UOT: 332: 338.012

# MÜASİR DÖVRDƏ QARABAĞIN SOSİAL-İQTİSADİ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

**ZÜMRÜD NƏSİBOVA**
*Azərbaycan Kooperasiya Universitetinin dissertantı*
*E-mail: nasibova.zumrud22@gmail.com*

Qarabağın dirçəldilməsində mühüm addım onun təhlükəsiz zonaya çevrilməsidir. Odur ki, bu istiqamətdə dövlət tərəfindən tədbirlər görülməli və gücləndirilməlidir. Belə olduqda, həmin iqtisadi rayonu turizm üçün də əlverişli zonaya çevirmək mümkün olacaq və investisiya cəlbediciliyi artacaqdır. Qarabağda turizmin inkişafını müəyyənləşdirən amil məhz regionda təhlükəsizliyin təmin edilməsidir. Əhalinin geri qayıtması və infrastrukturların yaradılması da əhəmiyyətlidir [1, s.44]. Vətən Müharibəsindən sonrakı yenidənqurma ölkəmizin ümumi inkişaf strategiyasının tərkib hissəsi kimi Qarabağın reinteqrasiyası və dəyər zəncirinə qoşulması yolu ilə reallaşdırılmalıdır. Qarabağda beynəlxalq ekspertlərin cəlb edilməsi ilə su, torpaq, meşə ehtiyatları, əmlak və mədəni sərvətlər, faydalı qazıntılar və ən vacibi isə mülki şəxslərə dəyən ziyan hesablanır və iddialar qaldırılır. Qarabağın inkişafı ilə bağlı strategiya müxtəlif səviyyələrdə qısa, orta və uzunmüddətli fəaliyyətləri əhatə edir. Strategiyanın reallaşdırılması məqsədilə idarəetmənin təşkili və dövlət siyasətinin makroiqtisadi, sosial, fiskal, monetar və digər alətlərindən istifadə etmək çox vacibdir. Bunlarla bərabər, Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin bərpa edilməsi üçün 2,2 mlrd. manat vəsait ayrılmışdır [2]. Eyni həcmdə vəsait 2022-ci ildə də ayrılmış və bunların nəticəsində postkonflikt ərazilərdə geniş miqyaslı quruculuq-bərpa işləri həyata keçirilmişdir [3]. Digər tərəfdən, ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü aparılmış və işğaldan azad olunmuş ərazilərdə 2 yeni iqtisadi rayon – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır [4].

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdəki sosial-iqtisadi inkişaf potensialı kifayət qədər yüksəkdir. Burada əlbəttə, aqrar sahənin müxtəlif seqmentlərinin inkişaf etdirilməsi yüksək rəqabət qabiliyyətli emal müəssisələrinin yaradılmasına imkan verəcəkdir. Belə emal müəssisələri müxtəlif növ ərzaq məhsullarının istehsalı ilə bərabər, həm yeni iş yerlərinin yaradılmasına, infrasturukturun formalaşdırılmasına, qəsəbə və kəndlərin inkişafına, əhalinin gəlirlərinin artmasına imkan verəcəkdir. Digər tərəfdən isə, qeyri-neft ixracının strukturunun genişləndirilməsinə və çeşidinim yeni məhsullar hesabına zənginləşdirilməsinə, əsas etibarı ilə yeni brendlərin - Qarabağ brendlərinin formalaşdırılmasına imkan verəcəkdir. Eyni zamanda, bu regionların digər iqtisadiyyat sahələrinin inkişaf etdirilməsi üzrə güclü resursları vardır.

Hesab edirik ki, Qarabağda ipəkçiliyin inkişafı və sənaye istiqamətli emal müəssisələrinin yaradılması üçün böyük imkanlar vardır. Bunlardan istifadə olunması ölkəmizdə tekstil sənayesinin inkişafına, onun ayrı-ayrı istiqamətləri üzrə fəaliyyətin gücləndirilməsinə və burada mümkün olan xammal resurslarından, o cümlədən barama, pambıqçılığın inkişafı, yun tədarükü və s. bu istiqamətlərdə əlavə iş yerlərinin və emal-tədarük müəssisələrinin yaradılmasına ciddi təkan verə bilər. Digər tərəfdən, Ağdam və Füzuli şəhərlərində, eyni zamanda Zəngilanda və Cəbrayılda bir çox sənaye müəssisələrinin, ilk növbədə, emal sənayesi müəssisələrinin yaradılması perspektivləri kifayət qədər yüksəkdir. Sovetlər Birliyi dövründə də burada xeyli sayda müəssisələr var idi. Amma indi yeni texnologiyalar, ilk növbədə, ağıllı texnologiyalar əsasında inkişafın genişləndirilməsi, burada müvafiq şəraitin yaradılması mümkündür və bunun əsasında daha rəqabət qabiliyyətli müəssisələr şəbəkəsinin formalaşdırılması imkanları vardır. Ağdamda yaradılan Sənaye Parkında rezidentlərin artıq qeydiyyatına başlanılmış və yaxın perspektivdə fikrimizcə, bu istiqamətdə daha önəmli addımlar atılacaqdır.

Cəbrayıl rayonunda yaradılan "Araz Vadisi İqtisadi Zona"sının böyük əhəmiyyəti vardır. Regiona investisiyaların cəlb olunması, xüsusilə xarici investisiyaların cəlb edilməsində, potensial investorların regiona gəlməsində, yüksək texnologiyaların inkişaf etdirilməsində, müasir texnologiyaların, o cümlədən " Ağıllı texnologiya"ların transferində bu iqtisadi zonanın böyük rolu olacaqdır. İqtisadi zonada tətbiq ediləcək güzəştlər və dövlət dəstəyi mexanizmləri kifayət qədər cəlbedicidir və bu amillər regionda müxtəlif sənaye sahələrinin emal sənayesi sahələrinin inkişafına ciddi təkan verəcəkdir. Hesab edirik ki, regionun texnoloji inkişafında innovasiyaların işlənməsi və tətbiqində burada əsaslı zəmin yaradılacaqdır.

Qarabağın mərkəzi olan Şuşa şəhərinin inkişaf etdirilməsi, xidmət sahələrinin geniş seqmentdə təmsil

olunması və şübhəsiz, nəqliyyat sektorunun - ictimai nəqliyyatın inkişafının təmin olunması, şəhər təsərrüfatı sahələrinin, ilk növbədə, xidmət sahələrinin inkişaf etdirilməsi və eyni zamanda, ictimai iaşə və otel kompleksləri istiqamətində fəaliyyətə daha çox önəm verilməsi diqqət çəkir. Şuşada intellektual resurslar əsasında bilik iqtisadiyyatı və rəqəmsal texnologiyalar hesabına fəaliyyət sahələrinin formalaşdırılması daha çox cəlbedici və şəhərin hazırkı vəziyyətinə uyğun ola bilər. Belə ki, Şuşa şəhərinin dövlət tərəfindən qorunmasını nəzərə alaraq, şəhərin sosial-iqtisadi inkişafının modelləşdirilməsində bu məsələlərin ciddi şəkildə dəyərləndirilməsi vacibdir, amma eyni zamanda hesab edirik ki, şəhərin sosial-iqtisadi inkişafının təmin edilməsində, şəhər əhalisinin təminat-təchizat problemlərinin həllində şəhərətrafı infrastrukturun yaradılması və şəhərə yaxın olan Şuşa rayonu kəndlərinin potensialından daha səmərəli istifadə edilməsi məsələləri də ciddi nəzarətdə saxlanılmalıdır. Fikrimizcə, burada yüngül sənaye sahələrinin müxtəlif seqmentlərinin, o cümlədən rəqabətqabiliyyətli yüksək keyfiyyətə malik ərzaq məhsulları istehsal edən yeyinti məhsulları müəssisələrinin yaradılması səmərə verə bilərdi. Eyni zamanda, yüngül sənaye sahələrində Qarabağ üçün kifayət qədər xarakterik olan qədim xalçaçılıq sənətinin bütün seqmentlərinin inkişaf etdirilməsi, xalçaçılıq muzeyinin yaradılması və xalçaçılıq istiqamətində o cümlədən tekstilin müxtəlif seqmentləri üzrə emal müəssisələrinin, milli brendlərin formalaşdırılması istiqamətində fəaliyyətin genişləndirilməsi daha çox səmərə verə bilərdi. İstehsal olunacaq məhsulların brendləşdirilməsində yerli, əsas etibarilə Qarabağ, Şuşa toponimlərindən istifadə edilməsi, həm də Şuşanın, Qarabağın dünya səviyyəsində təbliğində, təşviqində və daha çox diqqət mərkəzində olmasında, bütün dünya Azərbaycanlılarının Şuşa ilə bağlı olan rəmzlərə, dəyərlərə, milli sərvətlərə daha çox diqqət yetirməsində əlavə imkanlar formalaşdırıla bilər.

Qarabağın davamlı və dinamik inkişafı baxımından iqtisadi fəaliyyət sahələrinin modelləşdirilməsi və sahibkarlığın inkişafı dövlət siyasətinin tərkib hissəsidir. Məsələn, Sahibkarlığın İnkişafı Fondunun vəsaitlərinin Qarabağın səmərəli inkişafı üçün xərclənməsinin prioritet istiqamətləri müəyyənləşdirilmiş, bu sahələrə maraqlı və potensial investorların cəlb edilməsinin zəruriliyi əsaslandırılmışdır. Yaxın gələcəkdə Qarabağ iqtisadi rayonunda yüksək texnologiyalı sahələrin və sahibkarlığın inkişafı məqsədilə daha səmərəli mexanizmlərin hazırlanması təmin ediləcəkdir. Bunlara məhsuldar və çevik texnologiyalara əsaslanan istehsal və emal sahələrinin yaradılması, yaradıcı və səmərəli xidmət göstərən müəssisələrin fəaliyyətinin təşkili daxildir. Bütün bunlar Qarabağda inkişaf üçün dinamik və məhsuldar şərait yaradacaqdır [5].

Hazırda Qarabağ iqtisadi rayonuna daxil olan rayonlarda, o cümlədən, Ağdamda, Füzulidə, Şuşada, Tərtərdə və digər rayonlarda böyük quruculuq işləri gedir. Ağdam rayonu Sovetlər birliyi dövründə Qarabağın əsas mərkəzlərindən biri olmuşdur. Ağdam şəhərinin kifayət dərəcədə inkişaf etmiş infrastrukturu var idi. Hazırda işğal dövründə tamamilə dağıdılmış və viran olmuş Ağdamda infrastruktur şəbəkəsinin bərpa işləri aparılır. Bundan əlavə, Ağdamda kənd təsərrüfatına yararlı olan torpaqların məhsuldarlığına və keyfiyyətinə görə xüsusi çəkisi ölkəmizin digər rayonları ilə müqayisədə yüksəkdir. Ərazinin əlverişli torpaq-iqlim xüsusiyyətləri kənd təsərrüfatının əsas sahələrinin, o cümlədən heyvandarlığın və əkinçiliyin yüksək və səmərəli şəkildə inkişafına imkan verir. Torpaqlarının təqribən 92 %-i əkinə yararlıdır. Bu, rayonun böyük kənd təsərrüfatı potensialından xəbər verir. Qeyd olunan potensial komponentlərə və ənənəvi fəaliyyət sahələrinə əsaslanaraq, Ağdamın güclü və perspektivli iqtisadi potensiala malik olduğu qənaətinə gəlmək olar [6, s.153]. Əminliklə demək olar ki, Ağdam rayonu tezliklə Azərbaycan iqtisadiyyatına özünün xüsusi töhfəsini verə biləcəkdir. Bunlarla bərabər, Ağdamda iqtisadiyyatın digər sahələrinin, xüsusilə də tikinti materialları və turizm sənayesinin inkişafı üçün də güclü imkanlar mövcuddur. Bu rayonda sənaye və kənd təsərrüfatını inkişaf etdirməklə, investorlar üçün cəlbedici bir əraziyə çevirmək mümkün olacaqdır [7, s.90]. Yaxın perspektivdə Füzuli şəhərində də reallaşdırılacaq infrastruktur layihələri, o cümlədən nəqliyyat-logistika layihələri ərazinin inkişafının əhəmiyyətli dərəcədə sürətlənməsinə, kənd və qəsəbələrin abadlaşmasına səbəb olacaqdır. Bu təsir təkcə Füzuli şəhərinə deyil, Qarabağın və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli dərəcədə özünü göstərəcəkdir. Beləliklə, region güclü iqtisadi resurslara, o cümlədən bir sıra ənənəvi və yeni iqtisadi sahələrin intensiv inkişafına imkan verən potensiala malikdir. Füzuli rayonunda kənd təsərrüfatının ənənəvi sahələrinin, o cümlədən, əkinçilik, üzümçülük, heyvandarlıq, bitkiçilik və digər sahələrin inkişaf etdirilməsi baxımından böyük potensial mövcuddur. Bir sıra sənaye sahələrinin də, xüsusilə tikinti və emal sənayesinin inkişafı üçün də Füzulidə kifayət qədər potensial vardır [7, s.91].

Qeyd edək ki, Qarabağda mədənçıxarma, metallurgiya, yeyinti, emal, turizm sənayeləri, meyvəçilik, tərəvəzçilik, pambıqçılıq, quşçuluq, heyvandarlıq, arıçılıq, taxılçılıq, üzümçülük, əczaçılıq, tikinti materiallarının istehsalı kimi sahələrə qoyulan investisiyalar qeyri-neft ixracının artması və idxalın əvəzlənməsinin

səmərəli təşkili, dəyər zəncirlərinə qoşulması baxımından əhəmiyyətlidir. İşğaldan azad olunmuş ərazilərdə aparılan dirçəldilmə işləri iqtisadi təhlükəsizlik, o cümlədən ərzaq təhlükəsizliyinin təminatı baxımından da mühüm rol oynayacaqdır. Sənaye parkları və zonaları, aqro və texnologiyalar parkları və digər investisiya təşviqi mexanizmləri də daxil olmaqla, bu sahələrə investisiyaların təşviqi üçün müxtəlif mexanizmlərdən istifadə edilə bilər. Ümumilikdə, Qarabağın resursları, strateji aktivləri, səmərəliliyi və investorların marağını cəlb edə biləcək bazarları vardır [8, s.70]. Hazırda Qarabağın bərpası, onun gələcək inkişafını təmin edə biləcək zəruri istehsal sahələrinin və infrastrukturların yaradılması, həmin ərazidən məcburi köçkün düşmüş əhalinin geri qaytarılması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir.

Müasir dövrdə Qarabağ bölgəsi böyük tikinti meydançasını xatırladır. Bir tərəfdən yeni infrastruktur layihələrinin reallaşdırılması üçün etibarlı əsaslar yaradılır, digər tərəfdən isə beynəlxalq standartlar əsasında hazırlanmış səmərəli layihələr həyata keçirilir. Qarabağ iqtisadiyyatının dövlət-özəl əməkdaşlığı əsasında 6 əsas istiqamət üzrə inkişaf edəcəyi gözlənilir: 1) Mədən sənayesi; 2) Yüngül və qida sənayesi; 3) Kənd təsərrüfatı sahəsi; 4) "Yaşıl Enerji"; 5) Nəqliyyat və anbar logistikası və 6) Turizm [9, s.24]. Fikrimizcə, bu istiqamətlərin hər biri üzrə özəl sektor subyektlərinin iqtisadi fəallığının artırılması və səmərəli şəkildə Qarabağın iqtisadiyyat quruculugunda iştirak etmələri təmin oluna bilər.

## YEKUN

Beləliklə, yaxın perspektivdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sosial-iqtisadi inkişafın modelləşdirilməsi məsələləri daha çox aktual olaraq qalacaqdır. Bununla əlaqədar olaraq bir sıra təklifləri ümumiləşdirmək istərdik:

- Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hər birinin inkişaf prioritetləri üzrə daha aydın və bütün fəaliyyət istiqamətlərini özündə əks etdirən məqsədli bərpa planlarının işlənilməsi və tətbiq edilməsini məqsədəuyğun sayırıq;
- Qarabağ iqtisadi rayonunun özünəməxsus inkişaf xüsusiyyətləri nəzərə alınmaqla, burada tekstil və turizm sahələrinin inkişafına daha çox önəm verilməsini, eyni zamanda kənd təsərrüfatı sahələri üzrə yüksək texnologiyalar əsaslı müəssislərin yaradılmasını vacib sayırıq;
- Şərqi Zəngəzur iqtisadi rayonunda emal təyinatlı müəssisələrin yaradılmasına üstünlük verilməsini vacib hesab edirik və bununla bağlı, xüsusilə Zəngilan və Cəbrayıl rayonlarında analoji müəssisələrin yaradılması daha məqsədəuyğundur;
- Laçın və Kəlbəcər rayonlarında iri heyvandarlıq komplekslərinin və eyni zamanda bununla bağlı mövcud infrastrukturun yaradılması tədbirləri görülməli və hesab edirik ki, yüksək keyfiyyətli heyvandarlıq məhsullarının istehsalı üçün regionda müasir texnologiyalar əsaslı iri emal kompleksinin tikilməsi təmin olunmalıdır;
- Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında sosial-iqtisadi inkişafın sürətləndirilməsində maliyyə-sığorta mexanizmlərinin gecikdirilmədən həll edilməsi və regionda bununla bağlı müvafiq infrastrukturun və xidmətlər paketinin formalaşdırılması vacibdir və s.

**Açar sözlər:** *Qarabağ, Qarabağ iqtisadi rayonu, sosial-iqtisadi inkişaf, Şuşa, Ağdam, Füzuli, Qarabağın inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Adıgözəlova, Ş. Ağdamda turizmin yenidən təşkili. “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” I Beynəlxalq elmi-praktik konfrans"ın materialları Ağdam-Bakı – 16-17 sentyabr 2021-ci il, s.41-45. https://qdf.gov.az/media/kitablar/agdamda-inkishaf-impulslari/Kitabin-tam-versiyasi.pdf.*

*2. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 dekabr 2020-ci il. Bakı şəhəri, 29 dekabr 2020-ci il, №233-VIQ.*

*3. Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 iyun 2022-ci il, №562-VIQD.*

*4. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.*

*5. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri. “Geostrategiya” jurnalı, Bakı, sentyabr, 2021, №4. S.67-72.*

*6. Əliyev, Ş.T. Ağdamda yeni iqtisadiyyat quruculuğunun strateji aspektləri və prioritetləri. “Qarabağda yeni iqtisadiyyat quruculuğu: Ağdamdan inkişaf impulsları” I Beynəlxalq elmi-praktik konfrans"ın materialları Ağdam-Bakı – 16-17 sentyabr 2021-ci il, s.151-156. https://qdf.gov.az/media/kitablar/agdamda-inkishaf-impulslari/Kitabin-tam-versiyasi.pdf.*

*7. Əliyev, Ş.T. Ağdam və Füzuli rayonlarında post-konflikt ərazilərinin intensiv inkişafının Qarabağın dirçəldilməsində strateji əhəmiyyəti. “Geostrategiya”*

*jurnalı, Bakı, sentyabr, 2022, №4(70). S.89-93.*

8. *Гасымлы, В.А. Карабах и Восточный Зангезур будут новым драйвером экономического роста в Азербайджане / В. Гасымлы // Интерактивная наука. – 2022. – № 3(68). – С. 69-70.*

9. *Алиев, Т.Н. Восстановление экономики Карабаха и Восточного Зангезура на основе коцепций устойчивого и инклюзивного развития. The scientific heritage, № 82 (2022), с.19-33.*

**РЕЗЮМЕ**

**Социально-экономические особенности развития Карабахского экономического района в современном периоде**

В статье исследованы особенности социально-экономического развития Карабахского экономического района в современных условиях. Дана краткая характеристика каждого административно центра, административной единицы, входящих в Карабахский экономический район. Оценены и анализированы природные и экономические ресурсы развития Карабахского экономического района. Рассмотрены особенности социально-экономического развития Карабаха в советском периоде и после восстановления независимости. Раскрыта социально-экономическая и политическая значимость ускорения развития Карабаха после возвращения к власти Азербайджана общенационального лидера Гейдара Алиева. Рассмотрены и приняты комплексные меры со стороны Президента Азербайджана Ильхама Алиева по восстановлению и возрождению Карабаха после освобождения земель от армянской оккупации. Исследованы существующие проблемы и приоритеты социально-экономического развития Карабахского экономического района в нынешнем периоде. Отдельно рассмотрена возможность формирования структуры экономики города Шуша с учётом развития экономики через сферы культуры, туризма и сектор услуг. Рассмотрен потенциал города Агдам, который строится заново, кроме того, охарактеризованы процессы развития промышленной и социальной инфраструктуры города. Особо подчеркнута роль Физулинского международного аэропорта, который имеет стратегическое значение и выступает в качестве воздушных ворот Карабаха. Рассмотрен реальный потенциал Физулинского и Агдамского района по развитию ряда отраслей, в том числе, в аграрной сфере – в виноделии, хлопководстве, шелководстве, животноводстве и пр. Также рассмотрены потенциалы Бардинского, Агджабединского и Тертерского района, которые ныне входят в состав Карабахского экономического района. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам.

**Ключевые слова:** *Карабах, Карабахский экономический район, социально-экономическое развитие, Шуша, Агдам, Физули, перспективы развития Карабаха.*

**SUMMARY**

**SOCIO-ECONOMIC FEATURES OF THE DEVELOPMENT OF THE KARABAKH ECONOMIC REGION IN THE MODERN PERIOD**

The article examined the features of the socio-economic development of the Karabakh economic region in modern conditions. A brief description of each administrative center, administrative unit included in the Karabakh economic region is given. Natural and economic resources for the development of the Karabakh economic region were analyzed. The features of the socio-economic development of Karabakh in the Soviet period and after the restoration of independence were considered. The socio-economic and political significance of the acceleration of the development of Karabakh after the return to power of Azerbaijan of the national leader Heydar Aliyev is revealed. Comprehensive measures taken by Azerbaijani President Ilham Aliyev to restore and revive Karabakh after the liberation of lands from armenian occupation were considered. The existing problems and priorities of the socio-economic development of the Karabakh economic region in the current period are investigated too. The possibility of forming the structure of the economy of the city of Shusha, taking into account the development of the economy through the spheres of culture, tourism and the service sector, is separately considered. The potential of the city of Agdam, which is being rebuilt, is considered, in addition, the processes of development of the industrial and social infrastructure of the city are described. The role of the Fizuli International Airport, which has strategic importance, is emphasized. The real potential of the Fizuli and Agdam regions for the development of a number of industries in general, including in the agricultural sector - in winemaking, cotton growing, sericulture, animal husbandry, etc., is considered. The potentials of the Barda, Agjabedi and Terter regions, which are now part of the Karabakh economic region, are also considered. Recommendations and proposals are made on the issues under consideration.

**Keywords:** *Karabakh, Karabakh economic region, socio-economic development, Shusha, Agdam, Fuzuli, prospects of Karabakh development.*

Jel:O14; O31: UOT:338.12;338.49

Orcid kodu: 0000-0003-0956-4681

# ELMİ-TEXNİKİ İNNOVASİYA DÖVRÜNDƏ MEYDANA GƏLƏN TƏHLÜKƏLƏRİN VƏ ÇATIŞMAZLIQLARIN TƏHLİLİ

**NÜSRƏT İBRAHİMOV**
*AMEA, İqtisadiyyat İnstitutu, doktorant*

*E-mail: ibrahimov.nusret9623@mail.ru*

## Giriş

Texnoloji innovasiya genişləndikcə iqtisadiyyatın müxtəlif sahələri üçün daha çox risklər meydana gəlir. Təbii ki, bu dövrdə iqtisadi böhranın baş verməsi vətəndaş cəmiyyəti üçün qaçınılmazdır. Son sənaye inqilabının nəticəsi olaraq bir çox məşğulluq sahələrinin robotlaşmanın qurbanı olması iqtisadiyyatın əsas ünsürlərindən biri olan tələbin həcmini azaltmışdır.

Əmək bazarına əmtəə və xidmətlər istehlak məqsədilə daxil olur. Lakin, bildiyimiz kimi, "tələb" anlayışı əmtəə və xidmətləri almaq arzu və imkanı kimi xarakterizə olunur. Əmtəə və xidmətə olan tələb həm fiziki şəxslər, həm müəssisələr, həm də dövlət tərəfindən yaranır. Fiziki şəxslərin və dövlətin istehlakı son tələb sayılır. İEÖ-də fiziki şəxslərin istehlak xərcləri ÜDM-nin təxminən 50-60%-ni təşkil edir. Hər bir ölkədə fiziki şəxslərin alıcılıq qabiliyyətinə təsir edən əsas amil məşğulluq sektoru sayılır. Müəssisələrdə isə bu vəziyyət öz məhsul və ya xidmətlərinin istehsalı üçün aralıq məhsullarına olan tələbdən irəli gəlir. Lakin nəzərə almaq lazımdır ki, müəssisə və fabriklərin istehsal etdiyi son məhsula tələb olmazsa, həmin müəssisə iflasa məruz qalar. Nəticədə bazarda ümumi alıcılıq qabiliyyəti də aşağı düşər. Həmçinin, şirkətlər öz aralarında aralıq məhsullarının alqı-satqısı ilə (B2B) də məşğul olurlar. Bu zəncirvari mexanizmin sonunda isə istehlakçı fiziki şəxs və ya dövlət olur.

Bazarda robotlaşdırılmış texniki avadanlıqların (İoT texnologiyası) [8] istehsal etdiyi məhsul və xidmətlərə istehlak azaldıqda, həmin avadanlıqlar şirkətin zərərinə işlədiyi üçün fəaliyyəti dayandırılacaq. Məsələn: Maşın sənayesində avtomatlaşdırılmış texnologiyaların istehsal etdiyi avtomobillərin alıcısı yoxdursa, daha çox istehsala ehtiyac qalmır. Şirkətlər səmərəli fəaliyyət və daha aşağı xərclər üçün əmək qüvvəsini robotlarla əvəzləyərkən, iqtisadiyyatın dayanıqlığını necə təmin etmək kimi yeni öhdəlik yaranır.

İqtisadiyyatın bütün sahələrində çoxlu sayda istehlakçılar mövcuddur. Zəngin sərvətə malik olan təbəqə belə istehlak məhsulundan çox sayda almağa ehtiyac görmür. Bazarda alıcılıq qabiliyyətinin istehlakçılar arasında necə bölüşdürülməsi iqtisadiyyatın prioritet məsələlərindən biri sayılır. Dünya sərvətinin cəmi kiçik bir azlığın əlində olması bazardakı istehlak məhsullarının satışında qlobal çağırışlar yaradır.

## Rəqəmsallaşmanın yaratdığı bərabərsizlik və istehlakçı xərcləri

Elmi-texniki inqilabın cəmiyyətdə yaratdığı bərabərsizliyi daim diqqət mərkəzində saxlamaq lazımdır. Bugünki gündə rəqəmsal infrastrukturun dünya üzrə bölgüsünə baxdıqda fərqli meyarlarla üzləşirik. Belə ki, rəqəmsal iqtisadiyyatın bölgüsünə dünya mənzərəsindən nəzər saldıqda ABŞ-da 35%, Çində 13%, Yaponiyada 8% və Avropa İttifaqı (Aİ) ölkələrində 25% olduğunu vurğulamaq olar. Digər kiçik pay isə Asiya, Cənubi Amerika Afrika ölkələrinə düşür. Eyni zamandan, rəqəmsallaşan nəhəng korporativ şirkətlərin əksəriyyəti bu İEÖ-lərin payına düşür. Bunlara Alibaba. Amazon, Facebook, Google, Microsoft, WeChat və s. böyük şirkətlər aiddir [1].

Xüsusilə də, internetin ixtirasından sonra yaranmış bu vəziyyət 4-cü Sənaye İnqilabı dövründə daha da artmışdır. Belə ki, sənayenin güclü inkişaf etdiyi ABŞ timsalında məsələyə nəzər yetirdikdə 1992-ci ildə ölkənin ən varlı 5%-ni təşkil edən təbəqənin ümumi əhali xərclərdəki payının 30%-ni təşkil etdiyini vurğulamaq olar. 2012-ci ilə qədər bu nisbət 40%-ə qədər yüksəlmişdir. Rəqəmsallaşmanın təsiri ilə 20 illik aralıqda ən aşağı gəlirə malik əhalinin 80%-ində xərclər 50%-dən 35%-ə qədər düşmüşdür [3]. Yeni texnoloji inqilabın formalaşdığı ərəfədə gəlirlərlə xərclər arasında pozulmuş müvazinət nəticəsində iqtisadiyyat mühərriki əhalinin az hissəsi olan zənginlərin əlində cəmləşmişdir.

Qərb iqtisadçıları B. Sinamon və S. Fazzari meydana gələn gəlir bərabərsizliyi şəraitində əhali xərclərinin artması paradoksunu təhlil etmişlər. Tədqiqat zamanı müəyyən olunmuşdur ki, əhali xərclərindəki artım dinamikasının mövcudluğu aşağı təbəqənin 95%-nin borcları hesabına reallaşıb. Bu temp XX əsrin 90-cı illərində XXI əsrin 10-cu illərinə qədər 80%-dən 160%-ə qədər yüksəlmişdir. Borc statistikasındakı artıma səbəb daşınmaz əmlakın və mənzil kreditlərinin əldə edilməsi olmuşdur [9.s.10]. Beləliklə, maliyyənin hərəkətində yaranmış pozuntu "Böyük Tənəzzül"-ün baş verməsi ilə nəticələnmişdir. Bu zaman əhalinin istehlak xərcləri İkinci Dünya mü-

haribəsindən sonra ilk dəfə 3,5%-ə qədər azalmışdır [4].

Əvvəlki böhranlardan fərqli olaraq sənaye sahəsindəki inkişaf iqtisadiyyatın böhrandan əvvəlki vəziyyətə gəlməsi üçün cəmi 3 il müddət çəkmişdir. Təhlil zamanı "Böyük Tənəzzül" böhranından əvvəl və sonra əhali gəlirləri arasında ciddi fərqlər yaranmışdır. Rəqəmsal iqtisadiyyatın inkişafı nəticəsində qütbləşmənin formalaşdığını aydın şəkildə görmək mümkündür. Yəni yuxarı gəlir qrupuna aid edilən təbəqə xərclərini tənzimləyə bilsə də, aşağı gəlirli təbəqədə xərc amili kəskin şəkildə azalmışdır.

**İqtisadçıların yanaşması**

Rəqəmsal iqtisadiyyatın genişlənməyə başladığı XXI əsrin əvvəllərində baş vermiş iqtisadi böhran istehsal olunmuş məhsul və xidmətlərə olan tələbi formalaşdırmaq üçün əhalinin müəyyən gəlir səviyyəsinə malik olmamasına baxmayaraq, əhali gəlirlərində yaranmış qeyri-bərabərsizliyin iqtisadi inkişafa mənfi təsirinin olmadığını vurğulamaq olar. Lakin, Nobel mükafatı laureatı olan, neokeynes iqtisadi cərəyanının tərəfdarı ABŞ iqtisadçısı Jozef Stiqlits gəlir bərabərsizliyinin iqtisadi inkişafa mane olduğunu bildirmişdir [5]. Tədqiqatçı, gəlirlərdəki qeyri-bərabərliyin iqtisadiyyatın bərpasına mane olduğunu, tarix boyunca əhali xərclərinin iqtisadi artımı dirçəltməyi olduğunu bildirmişdir.

Növbəti illərdə rəqəmsallaşma iqtisadiyyatın demək olar ki, bütün sahələrinin strateji bazasını təşkil edəcəkdir. Beynəlxalq Biznes Maşınları Korporasiyasının (İBM) araşdırması zamanı [6] müəssisə və təşkilatların 60%-nin informasiya texnologiyalarının müasirləşmiş vəziyyətinə uyğunlaşmadığı məlum olmuşdur.

Rəqəmsal iqtisadiyyatın mənfi tərəflərindən biri də iqlim dəyişikliyi yaratmasıdır. Texnologiya istiqamətli firmaların bir qismi fəaliyyətini tənzimləyə bilsə də, onlar ətraf mühitə külli miqdarda ziyan vuran müəssisələr sırasındadır.

Dövlət və özəl müəssisələr yalnız inkişaf üçün deyil, həm də müasir dövrdə fəaliyyət növlərini sabit saxlamaq üçün rəqəmsal transformasiyaya investisiya ayırırlar. Rəqəmsal bacarıqlardan istifadə edərək investisiyaların düzgün bölgüsü nəticəsində pandemiya zamanı orta və kiçik sahibkarlıq subyektləri böhran vəziyyətindən çıxmağa nail olmuşdur. Bununla yanaşı, həm dövlət, həm də özəl sektorlarda işçi qüvvəsi rəqəmsal sferaya uyğunlaşmaq üçün davranış və düşüncə tərzini dəyişməli olurlar.

Rəqəmsallaşmanın iqtisadiyyat qarşısında yaratdığı təhlükələrin qısa icmalı aşağıdakılardan ibarətdir:

-Ənənəvi sistemlərin mövcudluğu;

-Müəssisələrin rəqəmsal sahədə nailiyyətlər əldə etmək üçün risklərdən çəkinməsi;

- Dövlət və özəl təşkilatların texnoloji yeniliklər üçün lazımi büdcənin ayırmaması;
- Rəqəmsal platformada boşluqların mövcudluğu;
- Texnoloji infrastruktur üçün şəraitin zəifliyi;
- Kibertəhlükəsizlik tədbirlərində risklərin artması.

Rəqəmsallaşmanın müəssisə və təşkilatlar qarşısında yaratdığı çağırışları daha dərindən təhlil edək:

*Ənənəvi sistemlərin mövcudluğu*

Təşkilat strukturu nə qədər rəqəmsal yeniliyə məruz qalsa da, ənənəvi sistemdən tam şəkildə kənarlaşmaq mümkün olmamışdır. Bunun əsas səbəbi isə həmin müəssisələrin klassik fəaliyyət strukturlarına qoyduqları yatırımlarla bağlıdır ki, hələ də onların müsbət effektləri çox olmasa da, mövcuddur.

Eyni zamanda, ənənəvi proqramlardan və avadanlıqlardan istifadə rəqəmsal sektorun inkişafında duran maneələrdən sayılır. Belə ki, ənənəvi texnologiyaların zəifliyi və çevik olmaması innovasiya qarşısında problemlər yaradır.

*Müəssisələrin rəqəmsal sahədə nailiyyətlər əldə etmək üçün risklərdən çəkinməsi*

Rəqəmsal yenilikliyə həssas olan biznes mədəniyyəti rəqəmsal inkişaf üçün maneələr törədir. Biznes sahələrinin əksəriyyətində demək olar ki, rəqəmsallaşmaya qarşı riskli yanaşmalar mövcuddur. Təşkilatın istənilən statusunda qərarlaşmış işçi qüvvəsinin yeni texnologiyalara uyğunlaşmasında çətinliklər yaranır. Bu isə müəssisələrin özgüvənini zəiflədərək riskli addımlar atmasını məhdudlaşdırır.

*Dövlət və özəl təşkilatların texnoloji yeniliklər üçün lazımi büdcənin ayırmaması*

Rəqəmsal texnologiyalara lazımi diqqətin ayrılmaması müəssisələrin fəaliyyətində, xüsusilə də, pandemiya zamanı empirik cəhətdən özünü göstərmişdir. Rəqəmsallaşmaya ayrılan maliyyə vəsaitinin kifayət qədər olmaması həmin müəssisələrin fəaliyyətində bir müddət durğunluq yaratmışdır. Lakin əsas məsələ ondan ibarətdir ki, müasir dövrün tələblərinə uyğun olaraq rəqəmsal sferaya daha çox investisiya qoyulması tələb olunur.

Bundan əlavə, texnologiyalara ayrılan maddi vəsaitin əməliyyat xərcləri olması haqqında dezinformasiya da mövcuddur. Müəssisə və təşkilatlar rəqəmsal platformanın onlar üçün nə dərəcədə səmərəli olacağını proqnozlaşdıra bilmədikləri üçün həmin sahəyə kifayət qədər yatırım

etmirlər. Nəticə olaraq gələcək fəaliyyətin intensivliyi sual altında qalır.

*Rəqəmsal platformada boşluqların mövcudluğu*

Təşkilat daxilində rəqəmsallaşma prosesi baş verdiyi zaman orada rəqəmsal bacarıqlara malik kadrların olması tələb olunur. Əsasən də, texnoloji bacarıqlara malik işçilərə ehtiyac yaranır. Bunun nəticəsidir ki, məşğulluq sferasında struktur və texnoloji işsizlik yaranır.

Rəqəmsal bacarıqlara malik mütəxəssis azlığı təşkilatları maneələrlə üzləşdirir. Rəqəmsal platforma üçün data analitikası, bulud texnologiyalarından istifadə, əşyaların texnologiyası, kibertəhlükəsizlik tədbirlərinin görülməsi transformasiya qarşısında duran prioritet məsələlərdən sayılır.

*Texnoloji infrastruktur üçün şəraitin zəifliyi*

Müəssisələrdə ixtisaslı kadrlarla yanaşı, rəqəmsal resursların çatışmazlığı da qeydə alınır. Süni intellekt texnologiyası üçün rəqəmsal infrastrukturun olmaması kimi problemlər hələ də mövcuddur. Bu problemlərin nəticəsi olaraq adekvat resursların düzgün zamanda yerləşdirilməsində müəssisələr çətinliklərlə üzləşir.

*Kibertəhlükəsizlik tədbirlərində risklərin artması*

Müasir dünyada rəqəmsallaşmanın dünya ölkələri üzrə geniş yayılması kibertəhlükəsizlik tədbirlərinin də davamlı təmin edilməsini tələb edir. Bir çox təşkilatlar, biznes fəaliyyət növləri internet üzərindən edilən kiberhücumlar nəticəsində iflas olmuşlar. Bunun üçün də təşkilatlar rəqəmsal infrastrukturu formalaşdırmaqla yanaşı, təhlükəsizlik tədbirlərinə də məsuliyyətlə yanaşmalıdırlar. Son dövrlərdə gücləndirilmiş kibertəhlükəsizlik alətləri nəticəsində kiberhücumların sayı azalmışdır [2] (Qrafik. 1):

**Qrafik. 1. Rəqəmsal dövrdə Kiberhücumlar nəticəsində əldə edilmiş məlumat sayı**




*Qrafik statista.com rəsmi səhifəsinin məlumatları əsasında hazırlanmışdır.*

Analitiklərin araşdırmasına əsasən rəqəmsallaşmanın əsas trendlərindən olan kibertəhlükəsizlik platformasının 2026-cı ilə qədər 300 milyard dollara çatacağı gözlənilir [7]. Statistikaya nəzərən, qlobal şəkildə hər 14 saniyədə bir kiberhücum baş verir. Bunun da əsas səbəbi kiçik və orta sahibkarlıq subyektlərinin kibertəhlükəsizlik üçün orta hesabla 500 dollardan az sərmayə qoymalarıdır.

**Son nəticə**

Təhlildən də göründüyü kimi, rəqəmsallaşmanın inkişafının müsbət tərəfləri ilə yanaşı riskli prosesləri də çoxdur. Rəqəmsallaşma böyüdükcə bu sahədə yarana biləcək təhlükələrin də həcmi çoxalır. Kibertəhlükəsizliyin təmin olunması rəqəmsallaşmanın inkişaf etdiyi bütün fəaliyyət növlərində əsas prioritet məsələlərdən sayılır. Bunun üçün də savadlı kadrların fəaliyyətə cəlb olunması, rəqəmsal bilik və bacarıqların inkişafını təmin etmək lazımdır. Bugünki gündə bu sahədə həm dövlətlərin, həm də özəl şirkətlərin öhdəlikləri artmaqda davam edir.

Dünya ölkələrinin əksəriyyətində rəqəmsal infrastrukturun inkişafına baxmayaraq, bir çox çatışmazlıqları da vardır. Çatışmazlıqların əsas səbəbi özəl müəssisələrin yetəri qədər rəqəmsal sahəyə yatırım etməməsindən qaynaqlanır. Çünki riskli yanaşmalar hər zaman müsbət nəticələr vermir. Müəssisələrdə yaranmış çatışmazlıqların aradan qaldırılması üçün həmin sahəyə data analitikləri cəlb olunur. Bu vasitə ilə şirkətin mövcud potensialı müəyyən edilərək rəqəmsallaşmaya və onun alətlərinə olan yanaşmaları formalaşdırılır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1) Dünya İqtisadi Forumu. 23 sentyabr, 2020. Rəqəmsallaşmanın qaranlıq tərəfi və onun həll yolları*

*2) Statista.com rəsmi səhifəsinin məlumatı. Bax: https://www.statista.com/statistics/1307426/number-of-data-breaches-worldwide/*

*3) N.D. Şvartz, 2 fevral 2014 - The middle class is steadily eroding*

*4) M.D. Nardi, E. Frenç, D. Benson, 2011. – Consumption and the Great Recession. Milli İqtisadi Tədqiqatlar Bürosu*

*5) Bax: http://opinionator.blogs.nytimes.com/2013/01/19/inequality-is-holding-back-the-recovery*

*6) Bax: https://newsroom.ibm.com/2021-01-04-IBM-Study-Majority-of-Surveyed-Companies-are-Not-Prepared-for-IT-Needs-of-the-Future-Say-U-S-and-U-K-Tech-Leaders*

*7) Pramod Pavar, 15 sentyabr, 2022. Key Cybersecurity Statistics*

*8) Gillis, Alexander, 17 avqust 2021. "Əşyaların interneti (IoT) nədir?", İOT Gündəliyi.*

*9) Daniel Gros and Cinzia Alcidi, 2010. The impact of the financial crisis on the real economy*

*10) Bax: https://www.itgovernance.co.uk/what-is-cybersecurity*

## XÜLASƏ

Tədqiqatın əsas məqsədi dünya ölkələrində Sənaye İnqilabının baş verməsi ilə yaranan rəqəmsallaşma zamanı çatışmazlıqların və meydana gələn təhlükələrin təsirlərini müəyyən etməkdən ibarətdir. Tədqiqat işində müqayisəli təhlil, sistemləşdirmə və analiz metodlarından istifadə olunmuşdur. Tədqiqat zamanı elmi-texniki tərəqqinin çatışmazlıqları və onun iqtisadiyyata təsiri nəticəsində meydana gələn mənfi aspektlər kompleks şəkildə araşdırılmışdır. Həmçinin tədqiqat işində rəqəmsallaşmanın təhlükəsizlik tədbirləri üzrə son dövrdəki statistik göstəriciləri qeyd olunmuşdur. Tədqiqat nəticəsində texniki innovasiyanın yaratdığı təhlükələrin spesifik xüsusiyyətləri təhlil edilərək qiymətləndirilmişdir. Tədqiqatın məhdudiyyətləri daha geniş praktik informasiya tələb etməsidir. Tədqiqatın praktiki əhəmiyyəti rəqəmsal platformada yaranan təhlükələrin təhlili və bu prosesə uyğunlaşmanın yaradılmasıdır.

**Açar sözlər:** *rəqəmsallaşma, robot texnologiyası, bərabərsizlik, kibertəhlükəsizlik, risklər.*

## РЕЗЮМЕ

Основной целью исследования является определение последствий недостатков и возникающих угроз при цифровизации, вызванных промышленной революцией в странах мира. В работе использовались методы сравнительного анализа, систематизации и анализа. В ходе исследования всесторонне исследованы негативные стороны, вытекающие из недостатков научно-технического прогресса и его влияние на экономику. Также в исследовательской работе были упомянуты последние статистические показатели мер безопасности цифровизации, в результате исследования были проанализированы и оценены особенности угроз, вызванных техническими инновациями. Ограничения исследования заключаются в том, что оно требует больше практической информации. Практическая значимость исследования заключается в анализе угроз, возникающих на цифровой платформе, и создании приспособлений к этому процессу.

**Ключевые слова:** *цифровизация, робототехника, неравенство, кибербезопасность, риски.*

## ABSTRACT

The main purpose of the study is to determine the effects of the shortcomings and emerging threats during digitalization caused by the Industrial Revolution in the countries of the world. Comparative analysis, systematization and analysis methods were used in the research work. During the research, the negative aspects resulting from the shortcomings of the scientific and technical progress and its impact on the economy were comprehensively investigated. Also, the recent statistical indicators of security measures of digitization were mentioned in the research work. As a result of the research, the specific features of the threats caused by technical innovation were analyzed and evaluated. The limitations of the study are that it requires more practical information. The practical significance of the study is the analysis of the threats that arise on the digital platform and the creation of adaptation to this process.

**Keywords:** *digitization, robotics, inequality, cyber security, risks.*

UOT 331

# AZƏRBAYCANDA İNSAN KAPİTALININ İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİNİN MAKROİQTİSADİ TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

**NƏRMİN İSAYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) doktorantı*
*E-mail: mustafazadanarmin@gmail.com*

## Giriş

İnsan kapitalı, insanın öyrənmə, işləmə müddətində əldə etdiyi bilik və bacarıqları təmsil edir və hansısa kapital növü kimi toplama qabiliyyətinə malikdir. Bir qayda olaraq fiziki kapitalın yığılması, 1-5 il davam edirsə, insan kapitalının toplanması prosesi - 12-20 ildir. İnsan kapitalının formalaşması insanın özündən, işəgötürəndən və bütövlükdə cəmiyyətdən ilkin xərcləri tələb edir.

Dövlət və bələdiyyə işçilərinin sosial və peşə qrupunun insan kapitalını formalaşdırmağın əsas yolu ali təhsil müəssisələrində təhsil almaqdır, çünki peşəkar sosiallaşmanın əsas sosial institutu olan universitetlərdir.

Prezident İlham Əliyevə görə insan amili, ölkə vətəndaşlarının sosial-iqtisadi rifahının yaxşılaşdırılması və ölkənin yüksək inkişaf etmiş ölkələrə daxil olması çoxtərəfli islahatların əsas hədəfləridir. Bu baxımdan, ölkə Prezidenti dəfələrlə qeyd etmişdir ki, Azərbaycan hökumətinin yürütdüyü siyasətin əsas məqsədi neft hasilatını artırmaq, "qara qızıl"ı insan kapitalına çevirməkdir: Biz öz neftimizi, "qara qızılımızı" insan kapitalı, fəal siyasətimiz və enerji strategiyamız nəticəsində siyasi və iqtisadi islahatlar sahəsində son üç ildə iqtisadi böyüməni 96%-ə çatdırmağı bacardıq. Bu dövr ərzində iqtisadi islahatlar siyasəti və enerji strategiyası sayəsində dünyanın ən sürətli böyüyən iqtisadiyyatı olduq" [9].

Dünya Bankının "Dəyişən Millətlər Sərvəti" hesabatına görə, insan kapitalı qlobal sərvətin 64%, yüksək gəlirli ölkələrdə 70% və aşağı gəlirli ölkələrdə 41% -ni, Azərbaycanın sərvətinin isə yalnız 14% -ni təşkil edir, bu da aşağı gəlirli ölkələrə nisbətən üç dəfə azdır [5,s.100].

## Analiz

Azərbaycanda davamlı iqtisadi inkişafa mane olan problemləri müəyyənləşdirmək üçün insan kapitalının sərvət formalaşmasında az payının səbəblərini müəyyənləşdirmək və insan kapitalının formalaşmasına təsir göstərən sahələrdə mövcud vəziyyəti qiymətləndirmək vacibdir.

Azərbaycanda sərvət formalaşmasının 54%-i təbii ehtiyatlar, 23.6%-i fiziki kapital, 14%-i insan kapitalı, 8,4%-i xalis xarici aktivlərdir. İnsan kapitalının sərvət formalaşmasında payına görə, hesabatda yer alan ölkələrin ən aşağı göstəricilərindən birinə sahib olsa da, təbii sərvətlərin ümumi sərvətdəki payına görə dünyada 16-cı yerdədir. Hesabat dövründə (2010-2014) təbii ehtiyatlardan gələn gəlirlər ümumi dövlət gəlirlərinin təxminən 80% -ni təşkil etmişdir [9].

İnsan kapitalı insanların həyatları boyu topladığı bilik, bacarıq və sağlamlıqdan ibarətdir və cəmiyyətin məhsuldar üzvləri kimi potensialının reallaşmasını təmin edir. Bəslənmə, səhiyyə, keyfiyyətli təhsil, iş yerləri və bacarıqlara yatırımlar daha əhatəli cəmiyyətlər qurmaq üçün vacib olan insan kapitalının inkişafına kömək edir.[4] Bu tədqiqat Azərbaycanda insan kapitalının vəziyyətini və hökumətin insan kapitalını üç istiqamətdə inkişaf etdirmək səylərini qiymətləndirir: təhsil, səhiyyə və sosial müdafiə və əmək. Qiymətləndirmə insan kapitalının formalaşmasını təşviq edən və maneə törədən amilləri müəyyənləşdirir.

**Təhsil:** Araşdırmalar Azərbaycanda təhsil keyfiyyətinin və aktuallığının gözləniləndən daha aşağı olması, təhsil bərabərsizliyinin aşkar edildiyini vurğulayır. 2016-cı ildə aparılan PIRLS tədqiqatının nəticələrinə görə, Azərbaycanda bütün Avropa və Orta Asiya (ECA) ölkələrinin yüksək və aşağı bal toplayan tələbələri arasında ən böyük fərq var. Araşdırmaya görə, imkanlı ailədən olan şagirdlər, 700 ballıq şkala ilə yoxsul ailələrin şagirdlərindən 96 baldan daha da yüksək nəticə göstəriblər [5]. (Bu fərq üç tədris ilində qiymətləndirilir). Şəhərdə təhsil alan tələbələrin balları kənd yerlərində oxuyanlardan 48 bal daha yüksək idi. Diqqəti çəkən bir məqam da odur ki, Azərbaycan məktəbəqədər və ali təhsilə cəlb olunan qonşu ölkələr arasında ən aşağı göstəricilərdən biridir. Statistika Komitəsinin verdiyi məlumata görə, Azərbaycanda 15 yaşdan yuxarı ali təhsilli vətəndaşların sayı hər 1000 nəfərə 126 nəfərdir.

**Cədvəl 1. Əhalinin təhsil səviyyəsinin dinamikası (hər 1000 nəfərə)**

| | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|
| Ali və orta təhsili olan 15 yaşdan yuxarı əhali | 971 | 971 | 972 | 972 |
| Ali | 126 | 126 | 127 | 127 |
| Orta ixtisas | 85 | 85 | 85 | 85 |
| Ümumi orta | 130 | 130 | 130 | 130 |

*Mənbə: Statistika komitəsi*

Bu, regional, eyni zamanda dünya ortalamasından təqribən iki dəfə azdır. Hökumət tərəfindən hazırlanmış "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" adlı sənəddə də bildirilir ki, ali təhsil müəssisələri məzunlarının tərkibi iqtisadiyyatın ehtiyaclarını ödəmir və özəl sektorda ixtisaslı işçi qüvvəsi çatışmır.

Bakı şəhəri ilə bölgələr arasında məktəbəqədər təhsilə cəlb olunma boşluğu daha kəskindir. Bakıda 6 yaşınadək ümumi 200.000 uşağın 46.000-i və ya təxminən 23% -i məktəbəqədər təhsilə cəlb olunur, digər bölgələrdə 6 yaşınadək ümumi 720.000 uşaqdan 73.000-i və ya təxminən 10% -i məktəbəqədər təhsilə cəlb olunurlar. Buna görə bölgələrdə məktəbəqədər təhsilin əhatə səviyyəsi paytaxt Bakı ilə müqayisədə iki dəfədən çox aşağıdır [9].

**Şəkil 1. Təhsil səviyyəsinə görə təhsilə xalis cəlb olunma səviyyələri**




*Mənbə: Dünya Bankının inkişaf indikatorları*

Azərbaycanın İnsan İnkişafı İndeksindəki təhsil baxımından digər bir zəifliyi bir çox digər ölkələrdə tədqiqat və innovasiyanı stimullaşdıran ali təhsil müəssisələri ilə iqtisadiyyat arasında güclü əlaqələrin olmamasıdır. Azərbaycanın ali təhsil müəssisələrinin sahibkarlığı və biznesin inkişafını stimullaşdırmaq üçün potensialları çox azdır. Bu araşdırmaya görə, bu vəziyyətin səbəblərindən biri də Azərbaycanın tədqiqat və inkişafa eyni əhali sayına görə digər ölkələrdən daha az vəsait xərcləməsidir. Azərbaycan ÜDM-nin yalnız 0,2 faizini tədqiqat və inkişafa xərcləyir. Digər tərəfdən, məhdud rəqabətli maliyyələşdirmə imkanları sektorun inkişafına mane olan amillərdəndir.

**Səhiyyə:** Araşdırmada Azərbaycanda səhiyyə xərclərinin 78,6%-nin əhali tərəfindən cibindən ödənildiyi müəyyən edilmişdir. Lakin Dünya Səhiyyə Təşkilatı (ÜST) bu rəqəmin 20% ilə məhdudlaşdırılmasını tövsiyə edir. Səhiyyə sistemində effektiv idarəetmə sisteminin qurulması və xəstəliklərin erkən aşkarlanması üçün şərait yaradılması yalnız səhiyyə nəticələrinin yaxşılaşdırılmasına deyil, həm də dövlət xərclərinin azaldılmasına mühüm töhfə verə bilər [6,89-10].

**Şəkil 2. Ümumi səhiyyə xərcləmələrində əhalinin öz vəsaitlərinin payı (%)**




*Mənbə: ÜST Qlobal Səhiyyə Xərclərinin Məlumat Bazası, 2019.*

Təhsildə olduğu kimi, sağlamlıq göstəricilərində gəlir səviyyəsindən asılı olaraq fərqlər var. Ən varlı ailələrin 20% -i arasında uşaqların yalnız 16% -i inkişafdan qalmışdı, lakin ən yoxsul 20% -i arasında bu rəqəm 33% -dir.

Gəlir səviyyəsi ilə yanaşı, Bakı ilə bölgələr arasında tibbi xidmətlərin keyfiyyətində ciddi fərqlər mövcuddur. Hər 10.000 nəfərə düşən ixtisaslı həkimlərin sayı Bakıda 92 olsa da, bölgələrdə bu rəqəm 20-dən az və ya paytaxtdan beş qat daha azdır (bir neçə şəhər və Qazax və Bərdə bölgələri xaricində) [9].

**Sosial müdafiə və əmək:** Tədqiqat Azərbaycandakı sosial müdafiə və əməyi qiymətləndirərək qeyd edir: "2000-ci illərin əvvəllərindən etibarən Azərbaycan yüksək iqtisadi artım templəri, artan məşğulluq və pensiya köçürmələri nəticəsində yoxsulluğun

azaldılması istiqamətində əlamətdar addımlar atdı. Bununla birlikdə, sosial müdafiə və əmək sahəsində siyasət məsələləri Azərbaycanın böyümə potensialını məhdudlaşdırır.

İnsan kapitalının (İK) inkişafına təsir potensialı olan sahələrdə uğur əldə etmək üçün konkret sahələrdə müxtəlif siyasət və təşviq mexanizmləri və təkliflər təklif edilə bilər. Lakin Azərbaycanda insan kapitalının durumu ilə bağlı aparılan araşdırmaların nəticəsi göstərir ki, problemlərin çoxu fərqli sosial qruplar və bölgələr arasındakı ciddi sosial-iqtisadi bərabərsizliklərdən qaynaqlanır [1, s.45].

Azərbaycanda insan kapitalına təsir göstərən sahələrdə irəliləyiş üçün atılmalı olan ən vacib addımlar iqtisadi və sair, kiçik, orta sahibkarlıq üçün sərbəst idxal-ixrac əməliyyatlarının dəstəklənməsi, sərbəst fəaliyyət və maliyyə imkanlarının genişləndirilməsi və mütərəqqi vergi sistemi, inzibati müdaxilələrin azaldılması, həmçinin kölgə iqtisadiyyatının leqallaşdırılması, ümumiyyətlə iqtisadi azadlıqların artırılması və rəqabətə davamlı iqtisadi mühitin yaradılması kimi institusional tədbirlərdir. Hər kəsin ticarətlə məşğul olmasına imkan verməklə kiçik bir imtiyazlı qrupun inhisarından qaçmaq, eyni zamanda işçilərin rəqabət şəraitində ədalətli əmək haqqı almasına şərait yaratmaq mümkündür.

## Nəticə

İnsan kapitalının formalaşması bir şəxsin ən yüksək potensialına çatdığı və təhsil, iş axtarışı, məşğulluq, bacarıqların formalaşması və şəxsiyyət inkişafı kimi mövcud proseslərin inteqrasiyasına və optimallaşdırılmasına çalışdığı davamlı davam edən bir prosesdir. Bu proses rahat yaşayış şəraitinin yaradılması yolu ilə baş verir: gəlir artımı, yaxşı yollar, abadlaşdırılmış həyətlər, müasir tibbi və təhsil xidmətləri və mədəni mühit. Bu da öz növbəsində səhiyyə, təhsil, mədəniyyət və peşə təhsili sahəsindəki dövlət siyasətindən istifadə etməklə əldə edilir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Althusser.L. (2014). İdeoloji ve Devletin İdeolojik Aygıtları, Çevirenler Mahmut Özışık, Yusuf Alp, İstanbul: İletişim Yayınları.*

*2. Baptiste.I.(2011). Education Lone Wolves: Pedagogical Implications of Human Capital Theory, Adult Education Quarterly, Vol. 51, No. 3, ss.184-201.*

*3. Bowles, S and Gintis, H.( 2015). The Problem with Human Capital Theory – A Marxian Critique, The American Economic Review, Vol. 65, No.2, ss.74-82.*

*4. Carnoy, M. (2017). The Economics of Education, Then and Now, Economics of Education – Research and Studies, George Psacharopoulos (ed), Pergamon, ss.1-7.*

*5. Carnoy, M.(2015). Education and Poupulation Quality, International Encyclopedia of Economics of Education, Secon Edition, Martin Carnoy (ed), Pergamon, ss.125-129.*

*6. Ercan.F. (2018). Eğitim ve Kapitalizm: Neo - Liberal Eğitim Ekonomisinin Eleştirisi, Ankara: Bilim Yayıncılık.*

*7. Johanson U, "A human resources perspective on intellectual capital", in Marr, B. (Ed.), Perspectives on Intellectual Capital: Multidisciplinary Insights into Management, Measurement and Reporting, Chapter 7, Butterworth Heinemann, Oxford, 2005, pp. 96-105. *

*8. Телешова И.Г. Образование и человеческое развитие. В кн. «Человеческое развитие: новое измерение социально- экономического прогресса». Под общ. ред. проф. В.П. Колесова. М: Права человека, 2018*

*9. https://elibrary.worldbank.org/doi/10.1596/978-1-4648-1328-3_ch3*

## XÜLASƏ

Effektiv insan kapitalı idarəetmə sistemi hər bir müəssisənin iş uğurunun əsas amillərindən biridir. İnsan kapitalı hər bir insanın çox vacib hissəsidir. Hazırda dövlətin ən vacib vəzifələrindən biri insan kapitalının inkişafıdır, çünki bu gün qlobal dünya tendensiyaları getdikcə daha çox qurulur. İnsan kapitalının inkişafı vacibdir və yenilikçi bir iqtisadiyyatın, bilik iqtisadiyyatının, qlobal informasiya sistemlərinin, yeni texnologiyaların və yeni iş formalarının inkişafı üçün bir şərtdir. Hazırda Azərbaycanda və dünyada müasir iqtisadiyyatın ən vacib sosial-mədəni amili olan insan kapitalının formalaşmasına, gücləndirilməsinə, inkişafına xüsusi diqqətlə yanaşılır. Bu gün Azərbaycan reytinqdə 78-ci yerdədir. Bu mənada ölkəmizdə aparılan sosial-iqtisadi islahatlar Azərbaycan vətəndaşının hər birinin rifah halının yaxşılaşdırılmasına yönləndirilmişdir. İnsan kapitalı və onun səmərəli istifadəsi ölkəmizin inkişafının vacib artımı və əhalinin rifahının bu əsasda təmin edilməsidir. Davamlı inkişaf strategiyası hazırlanarkən, insan kapitalının inkişaf hədəflərinə ziyan vuraraq iqtisadi inkişafa vurğu edilir və nəticədə hər iki ərazinin və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafına mənfi təsir göstərir.

**Açar sözlər:** *insan kapitalı, iqtisadiyyat, qlobal, dövlət*

**Isayeva Narmin Vugar**
**Doctoral student of Azerbaijan State Oil and Industry University (ASOIU).**

## Macroeconomic analysis and evaluation of the current state of human capital development in Azerbaijan

### SUMMARY

An effective human capital management system is one of the main factors of business success of every enterprise. Human capital is a very important part of every person. Currently, one of the most important tasks of the state is the development of human capital, because today global world trends are increasingly established. The development of human capital is important and a condition for the development of an innovative economy, knowledge economy, global information systems, new technologies and new forms of work. Currently, in Azerbaijan and in the world, special attention is paid to the formation, strengthening and development of human capital, which is the most important socio-cultural factor of the modern economy. Today, Azerbaijan ranks 78th in the ranking. In this sense, the socio-economic reforms carried out in our country are aimed at improving the well-being of every citizen of Azerbaijan. Human capital and its efficient use is an important growth of our country's development and ensuring the population's well-being on this basis. While developing a sustainable development strategy, economic development is emphasized to the detriment of human capital development goals, and as a result, it has a negative impact on the socio-economic development of both areas and the country as a whole.

**Keywords:** *human capital, economy, global, state*

**Исайева Нармин Вугар**
**Докторант Азербайджанского Государственного Университета Нефти и Промышленности (АГНУ).**

## Макроэкономический анализ и оценка текущего состояния развития человеческого капитала в Азербайджане

### РЕЗЮМЕ

Эффективная система управления человеческим капиталом является одним из основных факторов делового успеха каждого предприятия. Человеческий капитал является очень важной частью каждого человека. В настоящее время одной из важнейших задач государства является развитие человеческого капитала, потому что сегодня все больше устанавливаются глобальные мировые тенденции. Развитие человеческого капитала является важным и условием развития инновационной экономики, экономики знаний, глобальных информационных систем, новых технологий и новых форм труда. В настоящее время в Азербайджане и в мире особое внимание уделяется формированию, укреплению и развитию человеческого капитала, который является важнейшим социокультурным фактором современной экономики. Сегодня Азербайджан занимает 78-е место в рейтинге. В этом смысле проводимые в нашей стране социально-экономические реформы направлены на повышение благосостояния каждого гражданина Азербайджана. Человеческий капитал и его эффективное использование является важным фактором роста развития нашей страны и обеспечения на этой основе благосостояния населения. При разработке стратегии устойчивого развития делается упор на экономическое развитие в ущерб целям развития человеческого капитала, в результате чего оно оказывает негативное влияние на социально-экономическое развитие как территорий, так и страны в целом.

**Ключевые слова:** *человеческий капитал, экономика, мир, государство.*

UOT 336; 336.11

# PREREQUISITES, MODERN STUDIES AND BASIC CONCEPTS FOR THE EMERGENCE OF FINANCIAL ENGINEERING

**SAIDA MEMMEDLI**
*BSU-master*
*E-mail: saidamemmedli9@gmail.com*
*ORCID: 0000-0001-8425-0274*

**SARAH SADIGOVA**
*UNEC-bakalavr*
*E-mail: sarasadiqova02@mail.ru*
*ORCID: 0000-0003-2456-3871*

**AYGUN GULIYEVA**
*Ataturk University-bakalavr*
*E-mail: aygungv@mail.ru*
*ORCID: 0000-0002-7678-4521*

**What is Financial Engineering?**

Financial engineering, as the name suggests, is a combination of two critically ancient concepts of finance and engineering that uses mathematical techniques, financial theories, engineering tools and advanced programming techniques to solve critical and complex financial problems such as generating inconsistent cash flows, restructuring illiquid assets, to liquids, creating excellent hedging on derivatives, etc.[3]

**Financial Engineering Example**

Financial products, statistics, programming, etc. to come up with innovative yet structured products. It includes many fields such as One such example is securitization.

Securitization is the process of replacing an illiquid asset or group of such assets and transforming them into new structured products that may be attractive to investors and therefore more liquid than the assets from which they originated. A typical example is Mortgage-backed securities (MBS). Typical real estate projects here that stood vacant and avoided by investors were restructured and sold as MBS. After these individual units were packed into a pool (MBS), they became liquid and became the darling of investors in the early 2000s.

**Financial Engineering [2]**




**How is Financial Engineering used?**

Needs Determination: The first and most important step is to conduct a primary analysis and hypothesize that there is a need and demand in the market.

MVP Creation: Based on the research (both primary and secondary) done in step 1, a minimum viable product is created based on key demands. This product will be further developed based on the feedback received.

Complex Model Design Workshop: A workshop is held to brainstorm from feedback and suggestions from users, designers, and developers, and a detailed discussion is held to include complexities and design a new scope for the product.

Product Quality Assurance: Instilled complexities need to be tested, making sure that the core of the product is much more useful and robust.

Perfect Product: The product created in this way can be called a perfect product as it transforms from the MVP to the final product.

Pricing: Now, if the sales team caters to a niche market, they must figure out the pricing of the product based on many factors, such as market need, disruptive ability.

Marketing: The success of any product depends on how the product is marketed as end users must be informed about its capabilities and usefulness. This becomes more important if the product appeals to a niche market.

Product Launch : How the product is launched and which distribution channels are used to implement the go-to-market strategy is one of the final but most important steps.[4]

**Types of Financial Engineering**
**#1 - Repacking Structured Products**

It uses mathematical techniques such as stochastics, simulations and analytics to design and implement new approaches to finding solutions to problems in finance. In the procedure of finding new solutions, new strategies can also be developed for the benefit of the company to maximize corporate profits.

An interesting fact dating back to 1973 is that two financial engineers, Fischer Black and Myron Scholes, developed an option pricing model popularly known as the Black Scholes model. To this day, it is one of the best models around the world, and traders use it to price their option premiums and plan their hedging strategies, entry and exit strategies, and calculate implied volatility. In fact, the availability of some simple yet useful ones has made options trading so easy that there has been an unprecedented increase in options trading volumes for both financial and commodity products.[2]

**Advantages**

With the help of techniques involving mathematical modeling and computer engineering, investment analysis, debt structuring, investment options, trading strategies, financial models, etc. It can test, analyze, find new approaches and tools for

It involves high risk due to the uncertainty associated with any future date events such as contracts or investments. In such cases, it helps to reduce risk in investments or contracts involving the offering of future services or commodity futures with techniques for calculating future returns.

This concept is to analyze the value of each balance sheet and profit and loss account item for the future benefit of the business. This can help companies clean up negative products and focus more on profitable products. These activities also result in better tax assessments for firms.

**Disadvantages**

#1 - Speculation

It has also led to various speculative applications in the market. This is also given different perspectives and perspectives on the markets.

#2 - New Products Without Understanding the Risks to the 2008 Crisis

Credit default swaps were developed to insure against defaults on bond payments, to speculate estimated losses, if any. These newly designed complex products have become very popular with front-end traders and investment bankers as they provide a technique for generating consistent cash flows with minimal leverage. Marketing and distribution was such that due diligence was lacking and many of the dangers of high correlation, large leverage, lack of collateral, and conversion of scrap bonds to higher grade bonds were completely ignored.

This has led to increased speculative trading as traders are able to generate a steady income based on premiums and great leverage. Everyone was happy as investors were making good returns, traders were getting smashing paychecks, and investment firms were growing exponentially, leading to a bubble in 2008 that plunged the global economy into the greatest recession of all time. What a sad ending to a good start.

The issues of maximizing the market value of the company remain relevant for many years. Each owner is directly interested in the greater profitability and market attractiveness of his company, and, accordingly, in the greater value of his own assets and the value of the company itself, therefore, an increasing number of not only financial institutions, but also Russian corporations use financial engineering tools.

Financial engineering is a technology for creating new financial instruments and procedures that are used in managing the financial activities of enterprises (corporations) to redistribute cash resources, risks, liquidity, income, as well as reduce the cost of capital raised, in accordance with the financial needs of enterprises (corporations) and their owners, in a changing macro - and microeconomic situation. Recall that “the price of capital is quantitatively expressed in the company's current relative annual costs of servicing its debt to owners and investors. The relative level of the total amount of expenses for the use of sources of financing of the company's activities characterizes the indicator - the weighted average cost of capital (WACC), and shows the price of capital advanced in the activities of the company. This indicator should be less than the return on assets calculated from operating profit (EBIT)” [1, p. 32].

In addition, “financial engineering aims to use financial instruments to carry out transactions such

as acquisitions, or to increase the market value of a firm that has stable operating performance, that is, through financial, and not strategic or operational activities" [2, p. 158]. The theoretical foundations of financial engineering are currently at the initial stage of their development. Understanding the subject, method, objects and subjects of financial engineering requires the development of new conceptual foundations and an in-depth study of each element of the theory.

Engineering tools used in the field of financial management can be represented by groups: financial calculations and financial balances; methods of analysis, expert assessments, optimization of financial indicators; system of financial decisions and models of financial policy. There are three reasons for gaps in the financial and economic turnover that allow the construction of financial instruments and financial schemes in the Russian Federation: lack of special institutional mechanisms (procedures) for controlling or closing financial transactions; features of the financial legislation in force in Russia; arrangement of existing economic and financial structures, potentially containing gaps.

Thus, financial engineering can be aimed at using market imperfections to make a profit, which makes it relevant to use its tools in the company's activities. At the same time, each group of engineering tools can be formed in firms, taking into account the specifics of their activities and scope. Financial engineering can be aimed at using market imperfections to make a profit, which makes it relevant to use its tools in the company's activities. At the same time, each group of engineering tools can be formed in firms, taking into account the specifics of their activities and scope. financial engineering can be aimed at using market imperfections to make a profit, which makes it relevant to use its tools in the company's activities. At the same time, each group of engineering tools can be formed in firms, taking into account the specifics of their activities and scope.

## Conclusion

This can help individuals evaluate and analyze the overall risk and returns of their portfolios. With the help of this analysis, strategies can be formulated to reduce the overall risk to the minimum possible. It can also be used in various fields such as corporate finance, derivatives pricing, financial regulation, portfolio management, risk management, options valuation.[1]

## REFERENCE:

*1. Money management of enterprises / ed. A. Yu. Kazak, O. B. Veretennikova. Yekaterinburg: AMB, 2016.*

*2. Vyatkin V. N., Hampton D. D., Kazak A. Yu. Making financial decisions in business management: concepts, tasks, situations. M.; Yekaterinburg: Java, 2020.*

*3. Bobyleva A. Z. Financial management technologies. M. : INFRA-M, 2017.*

*4. Marshall A. Fundamentals of economic science: per. from English. M. : Eksmo, 2018.*

*5. Body Sound, Merton R. Finance: per. from English. M. : Williams, 2020.*

*6. Lee Ch. F., Finnerty J. I. Corporate finance: theory, methods and practice: Per. from English. M. : INFRA-M, 2020.*

*1. This work was supported by the Science Development Foundation under the President of the Republic of Azerbaijan.*
*Grand № EİF-GAT-6-2021-2(39)-13/03/1-M=03*

**Prerequisites, modern studies and basic concepts for the emergence of financial engineering**

## SUMMARY

The article deals with the essence of financial engineering. The construction of financial engineering is based on the basic provisions of finance. This makes it possible to apply a scientific approach to the transformation of the functional positions of finance in the fundamental provisions of financial engineering. Financial engineering is a set of economic relations that have a monetary characteristic, providing functional actions in the adoption, implementation and optimization of financial and organizational decisions in the course of reforming, current functioning and development of an enterprise based on innovative elements.

**Key words:** *principled positions; financial engineering; essence; finance; scientific approach; transformation.*

**Maliyyə mühəndisliyinin yaranması üçün ilkin şərtlər, müasir tədqiqatlar və əsas anlayışlar**

**XÜLASƏ**

Məqalədə maliyyə mühəndisliyinin mahiyyətindən bəhs edilir. Maliyyə mühəndisliyinin qurulması maliyyənin əsas müddəalarına əsaslanır. Bu, maliyyə mühəndisliyinin fundamental müddəalarında maliyyənin funksional mövqelərinin transformasiyasına elmi yanaşma tətbiq etməyə imkan verir. Maliyyə mühəndisliyi, innovativ elementlərə əsaslanan müəssisənin islahatı, cari fəaliyyəti və inkişafı zamanı maliyyə və təşkilati qərarların qəbulu, həyata keçirilməsi və optimallaşdırılmasında funksional hərəkətləri təmin edən pul xarakteristikasına malik iqtisadi münasibətlərin məcmusudur.

**Açar sözlər:** *prinsipial mövqelər; maliyyə mühəndisliyi; mahiyyət; maliyyə; elmi yanaşma; transformasiya.*

**Предпосылки, современные исследования и основные концепции возникновения финансового инжиниринга**

В статье рассматривается сущность финансового инжиниринга. Построение финансового инжиниринга основывается на базовых положениях финансов. Это дает возможность применить научный подход трансформации функциональных позиций финансов в принципиальных положениях финансового инжиниринга. Финансовый инжиниринг - это совокупность экономических отношений, имеющих денежную характеристику, обеспечивающих функциональные действия при принятии, внедрении и оптимизации финансово-организационных решений в ходе реформирования, текущего функционирования и развития предприятия на базе инновационных элементов.

**Ключевые слова:** *принципиальные позиции; финансовый инжиниринг; построение; финансы; научный подход; трансформация.*

UOT 338.45

# YENİ SƏNAYELƏŞMƏNİN SOSİAL-İQTİSADİ VƏ SİYASİ PERSPEKTİVLƏRİ: BEYNƏLXALQ TƏCRÜBƏ

**NURANƏ BAYRAMOVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, magistrant*

*Email:bva.nur@inbox.ru*

## Giriş

1781-ci ili kütləvi ilkin sənayeləşmənin başlanğıcı hesab etmək olar, o zaman R.Arkrayt İngiltərədə dünyada ilk iplik fabrikinin tikintisinə başladı: zavodda su təkərləri maşınların ötürücülərini fırladırdı, işçilər arasında əmək müfəssəl şəkildə bölünürdü. İlkin sənayeləşmə prosesi 1970-ci illərdə inkişaf etmiş ölkələrdə neftin (sonra isə digər xammal növlərinin) qiymətlərinin kəskin artması onların istehlakının artırılmasını səmərəsiz etdiyi, doğum səviyyəsinin aşağı düşməsi isə işçi qüvvəsinin artırılmasının mümkünsüzlüyü ilə başa çatmışdır. İnkişaf etməkdə olan ölkələrdə ilkin sənayeləşmə bu günə qədər davam edir.

Maşın istehsalının inkişafı dörd texnoloji inqilabı əhatə edir. Buxar mühərriki, buxar lokomotivi və buxar gəmisi İngiltərənin və daha sonra bütün Avropanın tekstil sənayesini və nəqliyyatını dəyişdirdi, kömürün daşla əvəzlənməsi yeni metallurgiya yaratdı.

## Əsas hissə

XIX əsrdə ABŞ və Almaniyada yaradılan elektrik və benzin-dizel mühərrikləri istənilən bölgədə sənaye istehsalını təşkil etməyə imkan verdi. Üçüncü, konveyer inqilabı XX əsrin əvvəllərində ABŞ-da avtomobillərin və digər avadanlıqların kütləvi istehsalına səbəb oldu. İnternetin, mobil rabitənin və telekommunikasiyanın yayılması XX-ci əsrin sonunda maşın istehsalını qlobal hala gətirdi və Yer kürəsinin bütün əhalisini sənayeləşməyə cəlb etdi [3,s.47-49].

Avropada adambaşına düşən ÜDM səkkiz əsr ərzində eyni səviyyədə qalmış (1990-cı ilə qədər təxminən 1000 dollar), sənaye-bazar iqtisadiyyatına keçiddən sonra isə 8 dəfə, 2017-ci ilə qədər isə təxminən 26 dəfə artmışdır. Asiyada isə adambaşına düşən ÜDM 10 dəfə artıb [5,s.164].

Xarici tədqiqatçılar yeni sənayeləşməni kütləvi istehsal dövrünün başa çatması ilə əlaqələndirirlər. Hindistanda bu, iqtisadi rejimin demokratikləşməsi ilə, Çində isə təhsil, infrastruktur, sosial şəbəkələr, torpaq mülkiyyəti və maliyyə sahəsində köklü islahatlarla müşayiət olunur [10,s.192].

ABŞ-da neoliberal siyasətlər sənaye, ayaqqabı, geyim və məişət texnikası sahəsində iş yerlərinin sayını 19 milyondan 12 milyona endirmişdir. Ümumi məşğulluq tibb, restoran, mehmanxana, dövlət qulluğu hesabına 122 milyondan 149 milyon nəfərə yüksəlmişdir. Sənayesizləşmə mənfi ticarət balansına, dövlət borcunun kəskin artmasına (2,7 trilyon dollardan 16,5 trilyon dollara) və sosial bərabərsizliyə səbəb oldu [1,s.129–143].

ABŞ-da yeni sənayeləşmə elmə, təhsilə, robotlaşdırmaya artan sərmayə, şist qazı və neft hasilatı üçün dövlət subsidiyaları, yaşıl enerji və biznesləri texnologiyalar və avadanlıqları yeniləməyə məcbur edən ciddi ekoloji qaydaların tətbiqinə əsaslanır. Bu, artıq karbohidrogen idxalının azalmasına, neft kimyasının və digər enerjitutumlu sənaye sahələrinin inkişafına, elmtutumlu texnikanın, hərbi və məişət texnikasının ixracının artmasına səbəb olub.

Yaponiyada 1950-1970-ci illərdəki" iqtisadi möcüzə " maliyyə liberallaşması, maliyyə institutlarının iqtisadiyyatın əsas bağlantısına çevrilməsi nəticəsində 25 illik durğunluq ilə əvəz olundu. Burada yeni sənayeləşmə iqtisadiyyatın pul qazanma səviyyəsinin iki dəfə artmasına, inflyasiyaya (ildə 0-dan 2% - ə qədər), milli valyutanın ucuzlaşmasına və dövlət xərclərinin artmasına əsaslanır.

Çində yeni sənayeləşmə xammalın ilkin emalı və standart məhsulların ixracından avadanlıq, aviasiya və avtomobil avadanlığının, yeni materialların istehsalına keçidə və əsasən daxili bazar üçün bərpa olunan enerji mənbələrindən istifadəyə əsaslanır. ÜDM-in 40%-ə qədəri infrastrukturun və yeni sənaye sahələrinin inkişafı hesabına istehsal olunur. Çin firmaları günəş texnologiyası üzrə dünya bazarının 80%-ni ələ keçirib, ABŞ və Yaponiyaya maşın, tibbi və ölçü avadanlıqları, kimyəvi maddələrin tədarükündə Almaniyanı geridə qoyub.

Oksford Universitetinin tədqiqatçılarının fikrincə, yeni sənayeləşmənin qlobal çağırışları şirkətlərarası dəyər zəncirlərinə keçid, Çinin dünyanın digər ölkələri ilə rəqabəti, dövlət və bazar tənzimlənməsi

arasında münasibətlərdə dəyişikliklər, eləcə də iqlim dəyişikliyi ilə bağlıdır [7,s.16].

Yeni sənayeləşmənin siyasi və iqtisadi əsasları. İndiyədək iqtisadi elmdə və iqtisadi siyasətdə üstünlük təşkil edən neoklassik liberal nəzəriyyə yeni sənayeləşmənin zəruriliyini inkar edir. «Strategiya-2020» proqramının liberal layihəsi 1989-cu ildə C.Vilyamson tərəfindən tərtib edilmiş Vaşinqton Konsensusunun on prinsipinə əsaslanır və əsas diqqət milli iqtisadiyyatın deyil, qlobal maliyyə biznesinin maraqlarına yönəlib. Sxem 1 Vaşinqton Konsensusunun prinsiplərini təsvir edir.

**Sxem 1. "Vaşinqton Konsensusunun" 10 prinsipi**




*Mənbə: Schwartz H., 2020: 347 p.*

1. Dövlət müəssisələrinin özəlləşdirilməsi. Bazar iqtisadiyyatının əsas hissəsini özəl firmalar təşkil etməlidir. İqtisadiyyatın özəlləşdirilməsi zəruridir, lakin özəl kommersiya və dövlət şirkətlərinin yaradılması və inkişafının təşviqi, dövlət əmlakının ictimai maraqlara uyğun olaraq firmaların səmərəli inkişafını təmin etmək qabiliyyətini sübut etməmiş şəxslərə satılmaması deməkdir.

2. İqtisadiyyatın tənzimlənməsinin dayandırılması. The Price of Offshore-a görə, 32 trilyon dollara qədər (ABŞ və Yaponiyanın ümumi ÜDM-i) ofşor bankçılıq və investisiya hesablarında (daşınmaz əmlak, yaxtalar və s. istisna olmaqla) gizlədilir. İqtisadiyyatın kütləvi şəkildə ofşorlaşması və TMK-ların vergidən yayınması inkişaf etmiş ölkələri mövqelərini dəyişməyə məcbur edib. 2013-cü ildə 8 aparıcı ölkə maliyyə axınlarının qlobal tənzimlənməsi və bank sirrindən praktik imtina ilə bağlı anti-liberal qərar qəbul etdi. İqtisadiyyatın tənzimlənməsi yalnız dünya bazarında rəqabət qabiliyyəti artdıqca həyata keçirilməlidir [4,s.56].

3. Büdcə profisitinin təmin edilməsi. Liberallar böhrandan çıxış yolunu hələ də büdcə kəsirinin aradan qaldırılmasında və dövlət borcunun azaldılmasında görürlər. Böhran və tənəzzül dövründə məhdud orta büdcə kəsiri və dövlət borcunun idarə olunan artımı iqtisadiyyatın inkişafını stimullaşdırmağa və işsizliyi azaltmağa kömək edir.

4. Dövlət xərclərinin azaldılması. İnkişaf etmiş ölkələrin ÜDM-də büdcə xərclərinin xüsusi çəkisi: ABŞ - 42,7%, Yaponiya - 39,5%, İtaliya və Böyük Britaniya - 50%, Almaniya - 45%, Fransa - 52,7%, İsveçdə 53% təşkil edir. Səmərəsiz dövlət xərclərini azaltmaq lazımdır. Əsas odur ki, artım və ya azalma yox, dövlət xərclərinin strukturunda köklü dəyişiklik, infrastruktura, elmə, təhsilə, səhiyyəyə investisiyaların artırılmasıdır [8,s. 445–450].

5. Vergitutma bazasının genişləndirilməsi. PWC-nin məlumatına görə, Aİ-də ümumi vergi yükü 42,6%, dünya üzrə orta göstərici 44,7% təşkil edir. Korporasiyalar əqli mülkiyyətin rəsmi köçürülməsi, ofşorlar, aşağı vergi ölkələrində saxta törəmə şirkətlər yaratmaqla vergilərdən çəkinirlər.

6. İnflyasiyanın aradan qaldırılması. Müasir statistika inflyasiya ilə iqtisadi artım arasında əlaqəni təsdiq etmir. Yaponiyada inflyasiya və faiz dərəcələri sıfıra yaxındır, lakin iqtisadiyyat 25 ildir ki, durğunluq yaşayır. İnflyasiyanın 10%-dən çox olduğu Türkiyə geridə qalmış aqrar ölkədən orta inkişaf etmiş sənaye ölkəsinə çevrilib. Aİ-də inflyasiya cəmi 1-1,5% təşkil edir, lakin bu, tənəzzülü aradan qaldıra bilmədi.

7. Sərbəst üzən məzənnə. Liberalların iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması üçün əsas hesab etdikləri bu göstəricinin aşağı salınması xammal və hərbi texnika ixracatçıları üçün sərfəli olsa da, müasir texnologiya və avadanlıqların idxalı xərclərini artırır, modernləşməni əngəlləyir.

8. Xarici ticarətin liberallaşdırılması. Bu, ilk növbədə, dünya bazarında liderlik edən inkişaf etmiş ölkələr üçün sərfəlidir. Lakin xarici ticarətin tam liberallaşdırılmasına yalnız dünya bazarında güclü mövqe qazandıqdan sonra yol verilir.

9.Birbaşa xarici investisiya axını azadlığı. Bu axın yalnız ölkə maksimum və sürətli qazanc üçün nəzərdə tutulmuş spekulyativ investisiyalar deyil, qabaqcıl texnologiyalar aldıqda məqsədəuyğundur.

10. Mülkiyyət hüquqlarının təminatları. Dövlət xərcləri, gəlirin əldə edilməsinə mütənasib olaraq, şəxsi biznes üçün əlçatmaz və ya maraqlı olmayan məqsədlərə xərclənməlidir. Dövlət icarə haqqının bölüşdürülməsini, maliyyə və borc bazarını, ictimai

məhsul istehsalını, məhsuldarlığın və əməkhaqqının nisbətini, iqtisadiyyatın prioritet sahələrinin rəqabət qabiliyyətini tənzimləməlidir.

Yeni sənayeləşmə təkcə fərqli iqtisadi sistem deyil, həm də Y.Şumpeterin irsinə əsaslanan təkamül nəzəriyyəsinin göstərdiyi kimi, xüsusi bir mədəniyyət növü formalaşdırır [2,s.145–152].

Sənaye iqtisadiyyatı dövründə inkişaf etmiş ölkələrdə üstünlük təşkil edən xristian mədəniyyəti, xüsusən də Protestant variantı çalışqanlıq, dürüstlük, qənaətcillik və sosial ədalətin tərbiyəsinə töhfə verdi.

İcarə-borc iqtisadiyyatı şəraitində bu artım ləngidi və ya dayandı. Mədəniyyət böhranı özünü ailənin dağılmasında, sosial dəyərlərin inkarında, sosial apatiyada, alkoqolizm və narkomaniyanın böyüməsində göstərdi. İnternet, idrak funksiyalarını texnikaya ötürərək bir çox insanın yaradıcılıq fəaliyyətini azaldıb.

Bütün bunlar bank faizlərini və maliyyə spekulyasiyalarını, alkoqolizm və narkomaniyanı, həddindən artıq sosial təbəqələşməni, milli ixtilafı, ticarətdə aldatma, ailənin məhv edilməsini və s. rədd edən radikal islamın mövqeyini gücləndirir.

Yeni sənayeləşmənin texnoloji və sosial-iqtisadi şərtləri. Yeni sənayeləşməni mümkün və zəruri edən texnoloji dəyişikliklər altıncı texnoloji rejimin formalaşması ilə bağlıdır.

McKinsey Qlobal İnstitutunun proqnozuna görə, 2025-ci ilə qədər iqtisadiyyat 33 trilyon dollara qədər bazarı olan 12 irəliləyiş texnologiya ilə müəyyən ediləcək. 2,5 milyard insanın istifadə edəcəyi mobil internet teletibb yaradacaq; internetə qoşulmuş smartfon xəstəliklərin uzaqdan monitorinqini və diaqnostikasını təmin edəcək. Zehni əməyin kompüterləşdirilməsi idarəçilərin, müdirlərin, katiblərin, tərcüməçilərin sayını 60-70% azaldacaq.

Bulud texnologiyaları (qlobal kompüter şəbəkələri və verilənlər bazaları), robototexnika, genomika, o cümlədən fərdi DNT-yə görə yaradılan genetik cəhətdən dəyişdirilmiş məhsulların və insan orqanlarının istehsalı, günəş və külək enerjisi, sürücüsüz nəqliyyat da daxil olmaqla yeni enerji sürətlə inkişaf edəcəkdir.

Sıçrayış texnologiyaları arasında üçölçülü sənaye stereolitoqrafiyası fərqlənir ki, bu da yeni istehsal vasitələrini - evdə işləyən fərdi istehsalçılar üçün əlçatan olan 3D printerləri yaradır. Kompüter modelləşdirməsi (rəqəmsal təsvirlər) metaldan, plastikdən, parçadan, ağacdan, additiv texnologiyasına əsaslanan kompozitlərdən məmulatları iş parçasından çevirməklə, yəni tullantısız istehsal etməyə imkan verir [6,s.96–103].

**Nəticə**

Yeni sənayeləşmə dörd son dərəcə kəskin sosial problemi həll etmək üçün nəzərdə tutulub. Bunlardan birincisi-əhalinin qocalması və əmək qabiliyyətli insanların sayının azalması əmək məhsuldarlığının artması, insan kapitalının inkişafı və müasir xaotik dünyada yeni ekologiyası əsasında həll edilə bilər.

İkinci sosial problem, xüsusilə Fransa, İtaliya (11-12%), Cənubi Afrika (23%), İspaniyada (27%) işsizliyin yolverilməz artmasıdır. Dünyada xroniki durğun işsizlik artmaqdadır.

Üçüncü sosial problem orta təbəqənin sayının azalması və gəlirlərinin azalmasıdır. 2007-2019-cu illərdə orta təbəqədən olan mühasiblərin, kassirlərin, kompüter operatorlarının, katiblərin sayı 2 milyon nəfər azalıb. Universitet məzunlarının yarıdan çoxu öz ixtisası üzrə daimi iş tapa bilməyib.

Dördüncüsü, Transparency International təşkilatının araşdırmasına görə, 174 ölkədə korrupsiya artmaqdadır. 36 ölkədə polis, 20 ölkədə ədliyyə sistemi, 54 ölkədə isə siyasi partiyalar ən çox korrupsiyaya uğrayanların sırasındadır.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Климов В. (2018), "Актуальные проблемы экономической политики США" // Вопросы экономики. — С. 129–143*

*2. Маевский В. (2017), "Й. Шумпетер и экономическая теория" // Вопросы экономики. — С.145–152).*

*3. Макаров В., Агеев А., Зеленский В., Логинов Е., (2018), "Системные основы решения управленческих задач взаимодействия фундаментальной и прикладной науки с производственным сектором как основной фактор новой индустриализации России" // Экономические стратегии, с.47-49*

*4. Baer J., Nasund A. (2019), "The new revolution". Hoboken, N.J., p.56*

*5. Beitman V. (2019), "Markets and Growth in Early Modern Europe", L., p.164*

*6. "Creating an organic growth machine" // Harvard Business Review. (2016), vol.90, No 5 — p. 96–103*

*7. A. Szizmai, W. Nande, L. Alcorts (eds.) (2019), "Path way to industrialization in the 21 century: new challenges and emerging paradigms". Oxford, 327 p.*

*8. Richter K., Pishchulov G., I.Dobos, B. Gobsch, N.Pachomova (2020), "Channel coordination in a HMUS-tyer supply chain with profit sharing contract". Proceedings of the International conference on Operation Research. Zurich, Switzerland, Springer— 445–450 p.*

*9. Schwartz H. (2020), "States versus markets: the emergence of a global economy". N.Y.— 347 p.*

*10. "The new Chinese economy: dynamic transitions into the future" (2017), N.Y.— 192 p.*

## XÜLASƏ

Yeni sənayeləşmənin həyata keçirilməsinin əsas üsulu kütləvi innovativ sahibkarlıqdır. Əmək obyektinin formasının mexaniki emalı onun tərkibini və quruluşunu dəyişən fiziki-kimyəvi və biotexnologiyalarla əvəz olunur. Bu, kiçik və orta biznesə nəhəng iyerarxik korporasiyaları, kiçik və orta ölçülü şəhərlərə isə həddən artıq dolu meqapolisləri sıxışdırmağa imkan verir. Məqalədə yeni sənayeləşmə prosesi, onun sosial, siyasi-iqtisadi perspektivləri araşdırılaraq təhlilə cəlb edilir. Beynəlxalq təcrübə və onun aspektləri tədqiqat predmetinə çevrilir.

**Açar sözlər:** *yeni sənayeləşmə, sosial-iqtisadi, siyasi, beynəlxalq təcrübə, inkişaf*

## SOCIO-ECONOMIC AND POLITICAL PERSPECTIVES OF THE NEW INDUSTRIALIZATION: INTERNATIONAL EXPERIENCE

## ABSTRACT

The main method of implementing the new industrialization is mass innovative entrepreneurship. Mechanical processing of the form of the object of work is replaced by physico-chemical and biotechnologies that change its composition and structure. This allows small and medium-sized businesses to displace huge hierarchical corporations, and small and medium-sized cities to displace overcrowded megacities. In the article, the new industrialization process, its social, political and economic perspectives are investigated and analyzed. International experience and its aspects become the subject of research.

**Keywords:** *new industrialization, socio-economic, political, international experience, development*

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ И ПОЛИТИЧЕСКИЕ ПЕРСПЕКТИВЫ НОВОЙ ИНДУСТРИАЛИЗАЦИИ: МЕЖДУНАРОДНЫЙ ОПЫТ

## РЕЗЮМЕ

Основным методом осуществления новой индустриализации является массовое инновационное предпринимательство. Механическая обработка формы предмета труда заменяется физико-химическими и биотехнологиями, изменяющими его состав и структуру. Это позволяет малому и среднему бизнесу вытеснять огромные иерархические корпорации, а малым и средним городам вытеснять перенаселенные мегаполисы. В статье исследуются и анализируются процесс новой индустриализации, его социальные, политические и экономические перспективы. Международный опыт и его аспекты становятся предметом исследования.

**Ключевые слова:** *новая индустриализация, социально-экономический, политический, международный опыт, развитие.*

UOT 336.71, 336.77

# KREDİT BAZARLARINDA BANK RİSKLƏRİNİN YARANMA SƏBƏBLƏRİ VƏ HƏLLİ YOLLARI

**HÜSEYN EYVAZLI**
*Azərbaycan Dövlət İqtisadiyyat Universiteti, doktorant*

*E-mail: huseyneyvazli999@mail.ru*

Hər bir ölkədə, eləcə də hər bir bankda kredit münasibətlərini tənzimləyən kredit sistemi mövcuddur. Lakin ayrı-ayrı ölkələrdə tamamilə eyni modeldən istifadə etmək də mümkün deyil. Eyni zamanda əməliyyatların həcminə, bankların daxili qaydalarına və tələblərinə görə eyni şərtlərlə müştərilərin kredit qabiliyyətini təhlil etmək, qiymətləndirmək mümkün deyil. Borcalanın kredit qabiliyyətinin təhlili və qiymətləndirilməsi böyük bacarıq tələb edir. Ona görə də hər bir bankda borcalanın kredit qabiliyyətini rasional qiymətləndirə bilən analitik kompleksin olması yaxşıdır.

Bütün dünyada, eləcə də Azərbaycanda banklar qarşıya qoyulan məqsədləri yerinə yetirməli və real iqtisadi sektorun kredit resurslarına olan kredit ehtiyacını təmin etməlidir. Eyni zamanda, maliyyə sisteminə nəzarət zəifləməməli, bankların problemli kreditlərdən təmizlənməsi və kapitallaşdırılması məsələləri ilə yaxından məşğul olması lazımdır. Fərdi sahibkarlara, ayrı-ayrı müəssisələrə ayrılan kreditlərin birbaşa dövlətin iqtisadiyyatının inkişafına da müsbət mənada təsir edəcəyini nəzərə alsaq, o zaman banklar qarşısında qoyulan öhdəliklərin zərurəti tam aydın şəkildə öz mahiyyətini göstərəcəkdir.

Hazırda bütün dünya ölkələrinin bank sektorunda "risk" deyilən bir anlayış mövcuddur. Bu anlayışın mahiyyəti təbii ki, tərəflərdən birinin, daha doğrusu, borcalanın bank qaydalarını pozması ilə aydınlaşır. Bu da bank sistemində xüsusi qaydaların tətbiq olunmasını, tələblərin sərtləşdirilməsini ön plana çəkir [7,s.67].

Bank sisteminin inkişaf etdirilməsi üçün risklərin idarə edilməsində xüsusi səmərəli sistemin yaradılması labüd məsələlərdən birinə çevrilmişdir. Bunun üçün əsas rəhbərliyin də iradəsi və düzgün idarəsi mütləq şərtdir.

Ümumi riski azaltmaq üçün bəzi faktorları nəzərə almaq lazımdır:

• kreditlərin perspektivli sektorlara ayrılması;

• bankın qiymətli kağızlar portfelinin formalaşdırılmasını təkmilləşdirmək;

• müştərilərin məşğuliyyət payı;

• bankın iqtisadiyyatdakı dəyişikliklərə səbəb olan istənilən sektora kredit xidməti

• bank əməliyyatlarının nisbəti;

• bank büdcəsinin qeyri-ənənəvi, az öyrənilmiş sahələrə cəlb olunma səviyyəsinin azaldılması.

Banklarda ən vacib məsələlərdən birinə çevrilmiş kredit riskinin idarə edilməsi hazırda bu sahədə qlobal və həlli labüd olan mühüm faktorlardandır. Risklərin yaranmasına səbəb olan bəzi çatışmazlıqları aşağıdakı kimi sistemləşdirmək olar:

• kredit siyasəti haqqında yazılı sənədin olmaması və ya zəif hazırlanması;

• kredit portfelinin toplanmasına müəyyən məhdudiyyətlərin qoyulması;

• kredit obyektinin kifayət qədər təhlil edilməməsi;

• borcalanın səthi təhlili və imkanlarının araşdırılması:

• qoyulan zəmanətin həddən artıq qiymətləndirilməsi;

• müştəri ilə az və ya heç bir əlaqənin olmaması;

• sənədlərə kifayət qədər nəzarətin olmaması;

• maliyyə nağdlaşdırılmasından həddindən artıq istifadə;

• kredit sənədlərinin tam dəstinin olmaması və ya düzgün tərtib edilməməsi;

• kredit prosesinə effektiv nəzarət etməmək və vaxtında auditə təqdim etməmək və s.

Bildiyimiz kimi, kredit riski kreditorun kredit müqaviləsində müəyyən edilmiş müddətdə kreditin əsas məbləğini və ona hesablanmış faiz məbləğini geri ala bilməməsi ehtimalıdır.

Bu gün bank sistemi üçün ən aktual problemlərdən biri olan müştərinin kredit götürmə və onu geri ödəmə qabiliyyətini müəyyən etmək üçün effektiv üsul və üsulların tapılması məsələsi də tədqiqatı vacib məsələlərdən birinə çevirmişdir. Təbii ki, böhran vəziyyətində, müharibə, karantin, fövqəladə hal zamanı banklarda risklərin idarə edilməsində eyni metodlardan istifadə etmək mümkün deyil.

Azərbaycanda bu sahədə müəyyən irəliləyişlər olsa da, kommersiya bankları müəyyən məqamda

borcalanın kredit qabiliyyətinin təhlili metodunun seçilməsi problemi ilə üzləşirlər. Bu problemlərin meydana gəlməsinə səbəb, birincisi, kredit qabiliyyətini təhlil edən kredit mütəxəssislərinin təcrübəsinin olmamasıdırsa, ikincisi, borcalanlar haqqında məlumatların kifayət qədər olmamasıdır. Eyni zamanda Azərbaycanda fiziki şəxslərin və ya şirkətlərin kredit qabiliyyətinin müəyyən edilməsi üçün hazırlanmış metodiki göstərişlər də kifayət qədər deyil. Məhz buna görə də xarici dövlətlərin kredit qabiliyyətinə dair hazırladığı metodiki göstərişləri Azərbaycanda bank şərtlərinə uyğunlaşdırmaq lazımdır. Azərbaycan bankları isə bankın kredit riskinin idarə edilməsində çox vaxt öz təcrübələrinə arxalanırlar. Səbəbləri, üsulları və həll yollarını nəzərdən keçirir və təkmilləşdirməyə çalışırlar. Fikrimizcə, bazar iqtisadiyyatı, bir çox xarici standartların və qaydaların tətbiqi şəraitində daha çox milyonlarla vəsait xərcləmiş Avropa və ABŞ kimi ölkələrin tədqiqatlarına böyük əhəmiyyət verilməsi əslində işin xeyirinə ola bilər [5,s.88].

Müasir kredit bazarında və dünyada baş verən dəyişikliklərlə əlaqədar yerli və xarici alimlərin, iqtisadçıların əsərlərini nəzərə alaraq kredit qabiliyyətinə aşağıdakı tərifi vermək olar: “Kredit qabiliyyəti borcalanın bank qarşısında öhdəliklərinə görə yarana biləcək kredit risklərinin qarşısını almaq və aradan qaldırmaq qabiliyyətidir”. Borcalanın kredit qabiliyyəti, ödəmə qabiliyyətindən fərqli olaraq vaxtında və ya hər hansı bir gündə ödəmə qabiliyyətini nəzərə almır, yəni gələcəkdə borcunu ödəmək imkanı nəzərdə tutur.

Borcalanın keçmişdə ödəmə qabiliyyətinin olmaması dərəcəsi bankın müştərinin kredit qabiliyyətinin qiymətləndirilməsi zamanı istifadə etdiyi ən əsas göstəricilərdən biridir.

Beynəlxalq bank təcrübəsində kredit risklərinin idarə edilməsi prosesi maliyyə menecmentinin qarşısında duran əsas vəzifə hesab olunur. Risklərin idarə edilməsi riskləri azaltmaqla gəlirlərin həcminin artırılmasına və xərclərin həcminin azaldılmasına yönəlmiş qərarların qəbulu və həyata keçirilməsi üçün müəyyən tədbirlər kompleksidir. Bank kredit risklərinin düzgün idarə edilməsi, ilk növbədə, risklərin yaratdığı əlverişsiz nəticələrin azaldılmasına və ya qarşısının alınmasına yönəlmiş analitik, təşkilati və maliyyə tədbirlərinin məcmusudur. Risklərin keyfiyyətli şəkildə idarə edilməsi kommersiya bankının uzunmüddətli gələcək mənfəət əldə etmək imkanlarını artırır. Bildiyimiz kimi, bankın əməliyyatlarının əsas hissəsi kredit xidməti ilə bağlıdır.Ona görə də kredit riskinin idarə edilməsi bankın maliyyə vəziyyətinin təmin edilməsinin ən mühüm yoludur [6,s.56].

Bank risklərinin düzgün idarə edilməsi və keyfiyyətli nəticə alınması bir sıra ardıcıl tədbirlər planından ibarətdir:

• bank risklərinin proqnozlaşdırılmasını;

• onların miqyasının və təsirinin müəyyən edilməsini;

• onların qarşısının alınması və ya onlarla bağlı itkilərin azaldılması üçün tədbirlərin hazırlanmasını və həyata keçirilməsini birləşdirən bir prosesdir.

Beləliklə, kredit prosesi və onun həyata keçirilməsi ilə bağlı kredit riski, kommersiya banklarının kredit sistemi məqsədyönlü təsir obyektləridir. Adi bank praktikasında kredit əməliyyatlarını həyata keçirmək və kredit riskini idarə etmək üçün bir neçə üsul və yanaşmadan istifadə olunur [1, s.89].

Demək olar ki, kredit sistemi kredit münasibətlərinin təşkilində əsas həlqədir. Ümumiyyətlə, hesab edirik ki, kredit riskinin idarə edilməsinə iki prizmadan yanaşmaq lazımdır: faktiki borcalanın kredit riskinin idarə edilməsi və kredit riskinin idarə edilməsi baxımından kredit portfelinin riskini idarə etmək.

Məlumdur ki, kredit bankın əsas xidmətidir və gəlir gətirir, eyni zamanda bank üçün yüksək riskdir. Ancaq unutmaq lazım deyil ki, bankların kredit portfelində vaxtı keçmiş borclar günü-gündən artmaqdadır. Kommersiya banklarının kredit risklərinin idarə olunmasında təcrübənin az olması və ya heç olmaması, kredit portfelinin böyük hissəsinin dollar, transsərhəd kreditlərlə, qiymətlərlə doldurulması və s. bu kimi məsələlər kredit portfelində vaxtı keçmiş borcların artımını meydana gətirib.

İldən-ilə İİB kreditləri üzrə borc məbləğinin artması bir çox daxili və xarici amillərlə bağlıdır ki, bu gün əsas amillər dünya iqtisadiyyatının inkişafının daha da yavaşlaması, böyük iqtisadi güclərin tənəzzülü və dünya iqtisadiyyatının, maliyyə institutları, təkcə maliyyə deyil, həm də əmtəə bazarlarının qeyri-sabitliyidir.

Bir çox dünya ölkələrində olduğu kimi, əlverişsiz konyunktura Azərbaycanda iqtisadi artımın nisbətən ləngiməsi bank risklərinin artmasına və maliyyə balanslaşmasının kəsirinə gətirib çıxarır. Bu, ölkənin daxili resurslarına, eləcə də beynəlxalq ehtiyatlarına olan potensial yükü artırır [4,s.76].

Kredit sistemində risklərin idarə edilməsinin nəzəri və praktiki əhəmiyyəti təkcə İİB üçün deyil, həm də bank xidmətlərindən istifadə edənlər üçün böyük əhəmiyyət kəsb edir. Kredit sistemində risklərin həm İİB, həm də digər istifadəçilər üçün düzgün idarə olunması iki subyekt arasında etimadsızlığı aradan qaldırmağa, müflisləşmə, kredit defoltu kimi amillərin qarşısını almağa imkan verir. Kredit portfelinin təhlili onun keyfiyyətinin pisləşməsinə səbəb kimi qiymət dəyişikliyindən narahatlığı, müəssisələrin depressiyasını, sosial amillərini göstərir.

"Hazırda bank risklərinin qiymətləndirilməsi və idarə edilməsinə yeni yanaşma formalaşdırılır: aşağıdan – milli səviyyədə bankların risk-menecment prinsiplərinin unifikasiyası haqqında sazişləri formasında və yuxarıdan – Beynəlxalq Hesablaşmalar Bankı (BHB) yanında Bank nəzarəti üzrə Bazel Komitəsinin tövsiyələri nəzərə alınır" [5, s.41].

Faiz dərəcələrinin dəyişməsi də kredit riskinə səbəb olan amillərdən biridir. Eyni zamanda səhv hesablanmış faiz dərəcəsi də. Banklar xidmət göstərdikləri müddətdə bir çox hallarda faiz dərəcələrini sabitləşdirə bilmir, çünki ona bir çox daxili amillərlə yanaşı, xarici amillər də təsir edir. Yalnız xüsusi hallarda banklar, məsələn, kredit portfelini balanslaşdırmaqla maliyyələşdirmə siyasəti apara bilər.

**"Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları" tələbindən irəli gələrək istehlak kreditləri üzrə orta faiz dərəcələrinə dair məlumat**

| **İstehlak kreditinin növü** | **Sektorun orta faiz dərəcəsi (30.09.2022-ci il tarixinə)** | | |
|---|---|---|---|
| | **Milli valyutada** | **ABŞ dollarında** | **Digər xarici valyutalar** |
| Kredit kartı vasitəsilə verilən kreditlər | 26% | 8% | |
| Məişət avadanlıqlarının alınması ilə bağlı olan kreditlər | 22% | | |
| Yaşayış sahəsinin təmiri ilə bağlı olan kreditlər | 23% | | |
| Avtomobil kreditləri | 15% | | |
| Digər istehlak kreditləri | 20% | 4% | |

*Cədvəldəki göstəricilər stat.gov.az saytında öz əksini tapmışdır [9]*

Faiz dərəcəsinin səviyyəsi kreditlərin və investisiyaların səviyyəsindən, öz vəsaitlərinin və borc vəsaitlərinin nisbətindən, əmanətlərin həcminin və qiymətində dəyişikliklərdən, yenidən maliyyələşdirmənin dəyişməsindən, hesablanmasından və s. faizlərdən asılıdır. Çünki sərbəst faiz rejimi şəraitində belə pul-kredit təşkilatları faiz dərəcəsinin əlverişli səviyyədə saxlanmasına nəzarət etməli olurlar.İstənilən halda bank faiz riskinin bir hissəsini müştəriyə ötürə bilər. Lakin belə bir siyasətin məqsədəuyğunluğunu müəyyən edərkən iki nöqteyi-nəzər diqqətə alınmalıdır.

Birincisi, bu, Azərbaycan bazarında rəqabətin səviyyəsi ilə bağlıdır. Əgər müştəri bankı dəyişmək istəyirsə, o zaman kreditlər üzrə sabit faiz dərəcəsi faiz dərəcəsinin yüksəlməsini gözləyərkən, müddətli əmanətlər və əmanətlər üzrə isə faiz dərəcəsinin artması gözlənilən zaman müəyyən edilir.

İkincisi, faiz dərəcələrinin dəyişməsi riskinin daha çox hissəsini borcalana ötürməklə, bank onu ödəyə bilməyəcək və nəticədə külli miqdarda pul itirə bilər. Sənaye və ticarət müəssisələri ilə müqayisədə bank qurumlarının bu tip riskləri idarə etmək imkanları daha çoxdur [2, s.90].

Bu gün bir sıra sahələrdə xammal vətəni sayılan Azərbaycan öz istehsalına vəsaiti xarici sərmayələrdən alır, sabah isə bir neçə dəfə çox vəsait ödəməklə hazır məhsul almaq imkanımız olacaq. Belə olan halda biz kredit resurslarının əksəriyyətini fabriklərin açılmasına sərf etsək, ölkəmizin maliyyə imkanlarının zənginləşməsinə, ucuz resurs və ucuz məhsulun verilməsinə, sosial yolla məşğulluğun təmin olunmasına kömək etmiş olarıq və bu, şübhəsiz ki, əhalinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə də öz təsirini göstərəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Kazımlı X.H., Bayramov Q.S. və b. Qiymətin əmələ gəlməsi: Bakı: "Müəllim" nəşriyyatı, 2019.*

*2. Kazımlı X.H., Quliyev İ.Q. İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi: Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" 2011.*

*3. Kazımlı X.H., Məmmədov İ.N. Təsərrüfat risklərinin idarə edilməsi: Monoqrafiya. Bakı: "Xəzər Universitetinin Nəşriyyatı", 2019.*

*4. Məmmədli O.Q., Cavadov N.Ə., Cavadzadə X.N. Sosial-iqtisadi statistika: I hissə, Bakı: MBM, 2014.*

*5. Məmmədov İ.N. Banklarda risk menecmenti.*

*Bakı, "Füyuzat", 2021, 208 s.*

*6. Мамедов И.Н. Банковские риски при ипотечном кредитовании: J. Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, Humanitar Elmlər Seriyası. Bakı: "Odlar Yurdu" nəşriyyatı, 2012, № 33, s. 59-63.*

*7. Вальравен К.Д. Управление рисками в коммерческом банке: Учебное пособие. Вашингтон: Институт экономического развития Всемирного банка, 1997.*

*8. Васин С.М. Управление рисками на предприятии: Учебное пособие. М.: КНОРУС, 2010.*

*9. https://uploads.cbar.az/assets/4e2563bd4f34eef0217608310.pdf*

## XÜLASƏ

Qloballaşma dövründə bir sıra məsələlər, məsələn əhali sayında artım, pandemiya, müharibələr və s. kimi bir çox məsələlər bütün dünyada bank, maliyyə sistemində müxtəlif dəyişikliklərə gətirib çıxarmışdır. Xüsusən, bank risklərinin artması günün vacib məsələlərindən birinə çevrilmişdir. Azərbaycanda son dövrlərdə kredit risklərinin aradan qaldırılması üçün bir sıra tədbirlərin də həyata keçirilməsi, layihələrin işlənib-hazırlanması bu sahədə problemlərin aradan qaldırılmasına yönəlmişdir.

**Açar sözlər:** *kredit, risk, kredit qabiliyyəti, zəmanət, riskin idarə edilməsi, kredit portfelinin keyfiyyəti və s.*

## SUMMARY

In the era of globalization, a number of issues, such as population growth, pandemics, wars, etc. Many issues like this have led to various changes in the banking and financial system all over the world. In particular, the increase in bank risks has become one of the most important issues of the day. In recent years, the implementation of a number of measures to eliminate credit risks in Azerbaijan and the development of projects are aimed at eliminating problems in this field.

**Keywords:** *credit, risk, creditworthiness, guarantee, risk management, credit portfolio quality, etc.*

## РЕЗЮМЕ

В эпоху глобализации ряд вопросов, таких как рост населения, пандемии, войны и др. Многие подобные проблемы привели к различным изменениям в банковской и финансовой системе во всем мире. В частности, одним из важнейших вопросов дня стало увеличение банковских рисков. В последние годы реализация ряда мер по устранению кредитных рисков в Азербайджане и разработка проектов направлены на устранение проблем в этой сфере.

**Ключевые слова:** *кредит, риск, кредитоспособность, гарантия, управление рисками, качество кредитного портфеля и др.*

UOT 338.45

# AZƏRBAYCANDA DAVAMLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ MƏRKƏZİ BANKIN ROLU

**NURANƏ ƏHƏDOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın XV-XVIII əsrlər tarixi" şöbəsinin böyük laborantı*

*E-mail: nurana.ahadova85@mail.ru*

Bildiyimiz kimi, Azərbaycanda mövcud olan bankçılığın tarixi bir neçə mərhələyə ayrılır:

1. 1918-1920-ci illəri əhatə edən Azərbaycan Xalq Cümhuriyyəti dövrü;
2. 1920-1991-ci illəri əhatə edən sovetlər dövrü;
3. 1991-ci il müstəqilliyin əldə edilməsindən sonrakı və müasir dövr.

1918-ci il mayın 28-də müstəqilliyin əldə edilməsindən sonra ilk dövrlərdə Azərbaycanda Rusiya pulları işlədilmiş, 1919-cu ilin yanvar ayından sonra isə Bakı Xalq Komissarları Sovetinin qərarı ilə "Bakı bonları" ilə yanaşı Zaqafqaziya bonları da işlədilirdi. 1919-cu il sentyabr ayının 16-da Azərbaycan Respublikasının parlamenti Azərbaycan Dövlət Bankının Nizamnaməsini qəbul etmişdir. Bundan iki həftə sonra sentyabr ayının 30-da isə Azərbaycan Dövlət Bankının açılışı olmuşdur. Bu tarixi hadisədən sonra Mərkəzi Bank fəaliyyətə başlamışdır.

1920-ci il aprel ayının 28-də AXC-nin süqutundan sonra Sovet Sosialist Respublikasının qərarı ilə Maliyyə Komissarlığının 31 may tarixli əmri ilə Azərbaycan Dövlət Bankı Azərbaycan Xalq Bankı adlandırılmışdır. Azərbaycan İnqilab Komitəsinin 9 iyun tarixli qərarı ilə bütün banklar və kredit təşkilatları Xalq Bankının tərkibinə qatılmışdır.

1991-ci il müstəqilliyin əldə edilməsindən sonra isə müstəqil Azərbaycan Respublikasının 25 may tarixli Konstitusiya Qanununun "Bank sistemi və pul tədavülü" adlanan 14-cü maddəsində Azərbaycanda müstəqil bank sisteminin və milli pul vahidinin tədavülünün hüquqi əsasları təsbih edilmiş və bununla da Milli Bankın status və səlahiyyətləri müəyyən edilmişdir. Günümüzdə də öz fəaliyyətini davam etdirən Mərkəzi Bank, Azərbaycan Respublikasında davamlı inkişafın təmin edilməsində əsas rol oynamaqdadır [16].

Müasir dövrdə iqtisadi inkişafın yüksəlməsində Mərkəzi Bankın başlıca vəzifələrindən biri dövlətin inkişaf strategiyasına uyğun olaraq əsas rol oynamasından ibarətdir. Davamlı inkişafın təmin edilməsi iqtisadi göstəricilərin səviyyəsindən və zəruri parametrlərin reallaşmasından ibarətdir. Müasir dövrdə ölkədə iqtisadi inkişaf əsas amillərdən biri hesab olunur. Bu baxımdan, makroiqtisadi göstəricilərin davamlı olaraq inkişaf etdirilməsi istiqamətində əsaslı tədbirlərin vaxtlı-vaxtında yerinə yetirilməsi davamlı inkişafın da sürətlənməsinə şərait yaradacaqdır [11, s.9-18].

İqtisadiyyatın davamlı inkişafı ölkəni maddi və maliyyə resursları baxımından təmin etməklə yanaşı, mövcud və zəruri resursların da iqtisadiyyatın sektorları arasında bərabər şəkildə bölünməsində yaxından iştirak edir. Eyni zamanda vacib makroiqtisadi göstəricilərin davamlı şəkildə inkişafında yaxından iştirak edərək, gələcək üçün etibarlı baza yaradılmasına şərait yaradır. Qeyd etdiyimiz göstəricilərə sahib olmaq üçün ölkədə mütləq şəkildə sosial, iqtisadi və ekoloji istiqamətlərdə sabitlik təmin olunmalıdır ki, dinamik inkişaf da baş versin [11, s.7-18; 2, s.146].

İqtisadiyyatın davamlı şəkildə inkişaf etdirilməsində Mərkəzi Bank yaxından iştirak edir. İqtisadi inkişaf sahəsində Mərkəzi Bankın fəaliyyəti özünü qabarıq şəkildə göstərir. Bu sahədə qanunla nəzərdə tutulan, həyata keçirilən bir çox vəzifə və funksiyalar vardır ki, onlar davamlı inkişafda rol oynayan əsas amillərdən hesab olunurlar. Təbii ki, bunların da icrasında Mərkəzi Bank yaxından iştirak edir.

Azərbaycanda davamlı inkişafın aşağıdakı istiqamətləri aydın nəzərə çarpır:

1. Həyat şəraitinin yaxşılaşdırılması, yoxsulluğun azaldılması. 2. Aqrar sektorun inkişafı. 3. Demoqrafik inkişaf. 4. Sosial-iqtisadi inkişaf. 5. Mədəniyyət və turizmin inkişafı. 6. Məşğulluq. 7. Təhsil, elm və İnformasiya Kommunikasiya Texnologiyaları [12; 13, s.12-18].

Sənaye sahələrinin davamlı inkişafının təmin edilməsində müxtəlif iqtisadi mexanizmlərdən istifadə olunur ki, bunlardan biri də, təbii ki, klaster mexanizmləridir. İstehsalın qarşılıqlı tamamlama amilləri, innovasiyalar, əsas istehsal prosesləri, eyni zamanda əmtəə xidmətlərinin bağlı olduğu əlaqəli biznesin konsentrasiyası hər biri özlüyündə inkişaf etmiş bazar iqtisadiyyatında aparıcı amil sayılır. Bu

vəziyyət iqtisadi və regional sənaye siyasətinin inkişaf etdirilməsində və formalaşdırılmasında qeyd etdiyimiz yanaşmanı yeni sosial-iqtisadi bir mexanizm kimi inkişaf etdirərək qabağa çıxarır. İngilis sözü olan klaster mexanizmi eynicinsli elementlərin birləşməsi nəticəsində meydana gələn inkişaf mexanizmidir [14, s.163-165].

Qeyd etdiyimiz model keçən əsrin 60-70-ci illərindən etibarən tətbiq edilməyə başlamışdır. Tətbiq edildiyi ölkələrdə də müsbət nəticələrin ortaya çıxmasında və iqtisadiyyatın inkişaf etdirilməsində yaxından iştirak etmişdir. Klaster mexanizmi oxşar sektorlarda fəaliyyət göstərən və bir-birini tamamlaya bilən sahələrin müxtəlif bölgələrdə yerləşməsi nəticəsində meydana gələn və qarşılıqlı ticarət əlaqələrinə malik sahibkarlıq subyektlərindən ibarətdir. Bu mexanizmdə orta və kiçik subyektlər arasında qarşılıqlı əməkdaşlıqla yanaşı, rəqabətin də eyni anda təmin edilməsi əsas məsələlərdən hesab olunur. Bunun özü də fərqli sahibkarlar arasında rəqabətin baş verməsinə şərait yaradır. Belə bir sistemin tətbiq edilməsi nəticəsində sahibkarlıq xərcləri azalır, bunun əksinə olaraq isə marketinq imkanları inkişaf edərək genişlənir. Eyni zamanda məhsuldarlığın artması nəticəsində ixracatlar da artmaqda davam edir. Məhsuldarlığın artması və istehsal olunan məhsulların böyük bazarlara çıxarılması yeni şirkətlərin yaranmasına şərait yaradır ki, bunun özü də ölkədə davamlı iqtisadi inkişafı sürətləndirir. Bu inkişafda Mərkəzi Bankla yanaşı, digər bankların da rolu danılmazdır.

Hər bir ölkədə olduğu kimi, Azərbaycanda da davamlı iqtisadi inkişafın təmin edilməsi öndə gələn siyasi amillərdən hesab olunur. Məhz bu baxımdan davamlı inkişafla bağlı yaranan hər hansı bir problemin həlli üçün akademik tədqiqatlara və təhlillərə böyük ehtiyac duyulur. Bu problemin həlli istiqamətində həyata keçirilən yanaşmalar da öz müxtəlifliyi ilə seçilir. Bununla əlaqədar olaraq davamlı inkişafın təmin edilməsində aparıcı rola malik olan Mərkəzi Bankın özünün də tətbiq etdiyi fəaliyyət daim diqqət mərkəzində olmalıdır.

Aparılan təcrübələr və araşdırmalar sübut edir ki, ölkədə davamlı inkişafı şərtləndirən Mərkəzi Bank tərəfindən aşağıdakı əməliyyatlar ardıcıl olaraq həyata keçirilir:

1. Əsas amillərdən olan pul tədavül və dövriyyəsinin nizama salınması;

2. Milli pul vahidinin inkişaf etdirilərək möhkəmləndirilməsi;

3. Milli pul vahidinin dayanıqlığının qorunması və müdafiəsi;

4. Milli pul vahidinin kursunun təmin edilməsi (xarici valyutalar nisbətində);

5. Səmərəli şəkildə pul-kredit siyasətinin təmin edilməsi üçün bank sisteminin inkişaf etdirilməsi və s. [11, s.9-18; 3, s.78].

Qeyd etdiyimiz bu amillər davamlı iqtisadi inkişafın təmin edilməsinə və iqtisadi siyasətin reallaşmasına öz müsbət təsirini göstərməkdə davam edir. XXI əsrin əvvəllərində ölkədə neft gəlirlərinin artması, dünya üzrə ərzaq məhsullarının da bahalaşmasına gətirib çıxardı. Lakin buna baxmayaraq 2014-cü ilə qədər ölkədə məhsul bahalaşması ilə əlaqədar olaraq orta illik inflyasiya tək rəqəmli olaraq qalmaqda davam edirdi. Bu dövrdə Avropa İttifaqı dövlətlərindən fərqli olaraq, Mərkəzi Bankın həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycanda qiymətlər indeksi aşağı olmuşdur [11, s.9-18; 3, s.78].

Mərkəzi Bankın əsas vəzifələrindən biri ölkə üzrə pul sisteminə nəzarət etməsi baxımından məsuliyyət daşımasıdır. Geniş vəzifə öhdəliklərinə sahib olan Mərkəzi Bankın öhdəlikləri sırasında pul-kredit sisteminin tənzimlənməsi, ölkədə valyuta stabilliyinin qorunması və s. məsələlər yer almaqdadır. Valyuta emissiyasını da həyata keçirən Mərkəzi Bank, eyni zamanda kommersiya banklarına da nəzarət edir. Dövlət orqanlarından biri olaraq hesab olunan Mərkəzi Bankın, Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmiş və üzərinə adı yazılmış möhürü də vardır.

Mərkəzi Bankın əsas məqsədləri sırasında bunları qeyd edə bilərik:

1. Öz səlahiyyətləri sırasında qiymətlərin sabitliyinin təmin edilməsi;

2. Bank və ödəniş sistemlərinin sabitliyinin təmin edilməsi ilə yanaşı, inkişafının da təmin edilməsi;

3. Mənfəət götürmək isə Mərkəzi Bankın əsas məqsədləri sırasında yer almamaqdadır.

Mərkəzi Bankın funksiyaları dedikdə isə bunları xüsusi şəkildə qeyd etmək lazımdır:

1. Dövlətin valyuta siyasətini müəyyən etməklə yanaşı, onu həyata keçirir;

2. Ölkədə nağd pul dövriyyəsini təşkil edən Mərkəzi Bank eyni zamanda pul nişanlarının tədavülə buraxılmasına və tədavüldən çıxarılmasına da nəzarət edir;

3. Dövlətin milli pul vahidi olan manatın xarici

valyutalara nisbətdə rəsmi məzənnəsini müəyyən edərək onu elan edir;

4. Qanunvericilik əsasında valyuta nəzarətini həyata keçirir;

5. Nəzarətində olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını idarə edir;

6. Qanunvericiliyə uyğun olaraq hesabat tədiyə balansını tərtib edir və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında yaxından iştirak edir;

7. Ödəniş sistemlərinin fəaliyyətini təşkil edərək onları əlaqələndirir.

Mərkəzi Bankın təşkilat strukturuna İdarə Heyəti, mərkəzi aparat və ərazi idarələri daxildir. Mərkəzi Bank yeddi nəfərdən sədr, bankda daimi əsaslarla işləyən dörd üzv və iki kənar üzvdən ibarət olan İdarə Heyəti tərəfindən idarə olunur [15].

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, ölkədə inflyasiya artımının qarşısının alınması məqsədilə bir çox tədbirlər həyata keçirilmişdir. Bu tədbirlər nəticəsində inflyasiya səviyyəsi minimuma endirilmişdir. Son dövrlərdə baş verən devalvasiya nəticəsində baş verən bahalaşmanın qarşısının alınması məqsədilə, Mərkəzi Bankın gördüyü qabaqlayıcı tədbirlər nəticəsində indeks 4% səviyyəsində saxlanılmışdır. Bu tədbirlər sonrakı illərdə də (2016, 2017, 2018 və 2019-cu illər) həyata keçirilmişdir [11, 9-18; 9, s.88].

Davamlı inkişafın ölkə üzrə tənzimlənməsi üçün Mərkəzi Bankın mühüm göstəricilərindən birini də məzənnə siyasəti təşkil edir ki, bu siyasət nəticəsində Mərkəzi Bank milli valyuta olan manatla ABŞ dollarının ikitərəfli tənzimlənməsini həyata keçirir [1, s.27]. Mərkəzi Bankın həyata keçirdiyi bu tədbirlər nəticəsində milli valyuta olan manata inam möhkəmlənmiş, inflyasiya azalmış və bununla da ölkədə maliyyə baxımından sabitlik təmin edilmişdir.

Ölkədə davamlı inkişafın təmin edilməsində faiz siyasəti əsas amillərdən hesab olunur ki, bu siyasət də Mərkəzi Bankın səlahiyyətinə daxildir [4, s.127]. Bu siyasətə nəzarət edən Mərkəzi Bank, ölkə iqtisadiyyatının inkişafına güclü təsir edir [11, s.9-18; 7, s.317; 6, s.46]. Ölkədə davamlı inkişafın sürətlənməsində rol oynayan əsas amillərdən biri də ehtiyat normalarıdır. Ehtiyat normaları da Mərkəzi Bankın səlahiyyətləri daxilindədir [11, 9-18; 5, s.96]. Mərkəzi Bank tərəfindən təşkil edilən ehtiyat normalarının inkişaf səviyyəsi iqtisadi artım templəri ilə bərabərlik təşkil etməkdədir. Bunu ölkə üzrə aparılan təhlillər də sübut etməkdədir.

Nəticə olaraq deyə bilərik ki, ölkədə davamlı iqtisadi inkişafın təmin edilməsində Mərkəzi Bankın rolu danılmazdır. Məhz cənab Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət və Mərkəzi Bankın həyata keçirdiyi tədbirlər nəticəsində ölkə iqtisadiyyatı davamlı olaraq inkişaf etməkdədir. Arzu edirik ki, günü-gündən qüvvətlənən, inkişaf edən, Cənubi Qafqazın aparıcı dövlətlərinə çevrilən Azərbaycan gələcəkdə bundan da böyük nailiyyətlər əldə etsin.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir).*

*2. Багиров М. Общая характеристика банковской системы. Баку: 2006, 260 с.*

*3. Bağırov M. Banklar və bank əməliyyatları (Ali məktəblər üçün dərslik). Bakı: Nurlan, 2003, 512 s.*

*4. Масленников В. Факторы развития национальных банковских систем. СПб. Издательство СПБГУЭФ. 2012, 206 с.*

*5. Диченко М. Ликвидность коммерческого банка. СПб. Изд. СПБГУЭФ, 2016, 177с.*

*6. Ужкин Э. Новые финансовые инстументы рынка. М.: Журнал "Дебет-кредит", 2015, 112с.*

*7. Эдвин Д. Деньги, банковское дело и денежно-кредитная политика. /Пер.с анг.В.Лукашевира и др.под.общ.ред.В.Лукашевира, М.Ррцева, СПб, 2014, 496 стр.*

*8. Məmmədov N. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "Azərbaycan iqtisadiyyatının makromaliyyə sabitliyinin qiymətləndiril¬məsi" mövzusunda yazdığı dissertasiya işi. Bakı: 2018, 154 s.*

*9. Mirhadi İ. "Mərkəzi Bankın ölkə iqtisadiyyatının stabil inkişafında rolunun yüksəldilməsi yolları". 5301.01-"Daxili fiskal siyasət və dövlət maliyyəsi" ixtisasında iqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı: 2018, 148 s.*

*10. Azərbaycan Respublikası Mərkəzi Bankının illik hesabat məlumatları. Bakı: 2019.*

*11. Bağırov M. Azərbaycanda davamlı inkişafın təmin edilməsində Mərkəzi Bankın rolunun qiymətləndirilməsi. Naxçıvan, Elmi əsərlər – 2020 - № 3, s.9-18.*

*12. Niftəliyev N. Davamlı İnkişaf Strategiyası. "Səs" qəzeti. Bakı, 2010, 14 oktyabr.*

*13. Cəfərova E. Azərbaycanda davamlı inkişafa keçilməsinin konseptual əsasları, Mingəçevir-2015, s.12-18.*

*14. Hüseynova E. İqtisadiyyatın davamlı inkişafında sənaye klasterlərinin rolu, Mingəçevir-2015, s.163-165.*

*15. https://banco.az/az/news/merkezi-bank-ve-onun-diger-banklardan-ferqi.*

*16.https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Respublikas%C4%B1_M%C9%99rk%C9%99zi_Bank%C4%B1*

## XÜLASƏ

Məqalədə dünya ölkələrində, xüsusilə Azərbaycanda davamlı inkişafın səciyyəvi xüsusiyyətlərinin təsviri verilməklə yanaşı, onun mahiyyət və məzmunu haqqında məlumatlar açıqlanır. Eyni zamanda davamlı inkişafın əhəmiyyətindən də bəhs olunur. Azərbaycanda bir çox bankların fəaliyyət göstərməsinə baxmayaraq, bizim hədəfimiz əsasən Respublikanın əsas bankı olan Mərkəzi Bankın fəaliyyətini işıqlandırmaqdır. Çünki bu yolda Mərkəzi Bankın apardığı siyasətin rolu böyükdür. Mərkəzi Bank tərəfindən həyata keçirilən pul, məzənnə və faiz siyasəti iqtisadiyyata böyük təsir göstərir ki, biz də bu məsələni diqqət mərkəzində saxlamağa çalışmışıq. Bununla əlaqədar olaraq məqalədə hazırkı dövrdə istehlakçı qiymətlər indeksi ilə yanaşı, məhsullar üzrə qiymətlər indeksi və bu göstəricilərin Azərbaycanda davamlı inkişafa təsiri təhlil edilir.

**Açar sözlər:** *davamlı inkişaf, Mərkəzi Bank, istehlakın qiymətlər indeksi, məhsullar üzrə qiymət indeksi, məzənnə siyasəti, faiz siyasəti, ehtiyat normaları.*

## РЕЗЮМЕ

**Нурана Ахадова**
**Роль Центрального Банка в обеспечении устойчивого развития в Азербайджане**

Помимо описания характерных черт устойчивого развития в мире, особенно в стране, в статье раскрыта информация о его сущности и содержании. В то же время также обсуждается важность устойчивого развития. Несмотря на то, что в Азербайджане действует множество банков, наша цель в основном осветить деятельность Центрального банка, который является главным банком республики.

Потому что большую роль в этом играет политика Центробанка. Денежно-кредитная политика, курсовая и процентная политика, проводимая Центральным банком, оказывает большое влияние на экономику, и мы постарались сделать акцент на этом вопросе. В связи с этим в статье анализируется текущий индекс потребительских цен, а также индекс цен на продукты и влияние этих показателей на устойчивое развитие в Азербайджане.

**Ключевые слова:** *продолжительное развитие, Центральный Банк, индекс потребительских цен, индекс цен по товарам, курсовая политика, процентная политика, нормы резервов.*

## SUMMARY

**Nurana Ahadova**
**The role of the Central Bank in ensuring sustainable development in Azerbaijan**

In addition to describing the characteristic features of sustainable development in the world, especially in the country, the article discloses information about its essence and content. At the same time, the importance of sustainable development is also discussed. Despite the fact that many banks operate in Azerbaijan, our goal is mainly to highlight the activities of the Central bank, which is the main bank of the Republic.

Because the policy of the Central Bank plays a big role in this way. The monetary policy, exchange rate and interest rate policy implemented by the Central Bank have a great impact on the economy, and we have tried to focus on this issue. In this regard, the article analyzes the current consumer price index as well as the product price index and the impact of these indicators on sustainable development in Azerbaijan.

**Key words:** *continuous development, Central Bank, consumer price index, commodity price index, exchange rate policy, interest rate policy, reserve norms.*

UOT 338.45

# IMPACTS OF DIGITAL TRANSFORMATION ON INDUSTRIAL DEVELOPMENT

**PARVANA MAMMADOVA**
*Azerbaijan Technical University*
*PhD in economics, associate professor*
*E-mail: pervane.mammedova@aztu.edu.az*

**NARGIZKHANIM BAKHISHOVA**
*Azerbaijan Technical University*
*PhD student, head teacher*
*E-mail: nergizxanim.baxishova@aztu.edu.az*

It is well known that in recent decades, digital technology has emerged as one of the critical determinants of economic growth, national security and international competitiveness. The digital economy has a big influence on the trajectory of the world and the social welfare of ordinary citizens as well. It affects everything from resource allocation to the distribution and growth of revenues. But how can we measure the digital economy and its contribution to growth and relevant social indicators? Watanabe (2016), Brynjolfsson (2018), Nakamura (2018), Moulton (2018) and many other experts recognize the intricacy of accurately evaluation the digital economy characterized by rapidly changing products and services. The researchers estimate that "the digital economy is worth $11.5 trillion globally, equivalent to 15.5 percent of global GDP, and has grown two and a half times faster than global GDP over the past 15 years" [2]. The Bureau of Economic Analysis (IEA), in turn, attributes the hardships of measuring the digital economy to the lack of consensus on the types of activities included in the definition and the rapid pace of development of the core nature of digital technologies [3]. All this requires adaptation to the transition to a new economic system, to the development of human resources and human capital.

Research shows that theoretical and methodological approaches to the progress of human capital and the measurement of this level of development, as well as comparisons between countries, has become more relevant since the end of the last century. It should be noted, that the concepts of human resources and human capital have different characteristics. While human resources prioritize expenditures to increase human efficiency, the concept of human capital focuses on the value created by expenses. On the other hand, while human resources are managed as a function of the business, human capital encompasses all employees of an organization. While human resources generally focus on human efficiency, human capital often gives heed to developing of talents and training an individual.

The issue that organizations emphasize is the efficient use of resources to maximize efficiency and profitability. Therefore, a human individual is important for the organization in all respects and is a resource that should be used effectively. In many literatures about human resource management, people are the most significant factor in the success of any organization. Man is an intellectual, emotional, social, political being and embraces all forms of development (Rao, 1996). Managers and leaders of organization should focus more closely on developing initiatives than on improving the quality of product. Today, an organization's focus on competitive advantage and on its achieving will only be possible if it focuses on the development of human resources that are capable, adaptable to the workforce, and more important in the implementation of production (Porter və Jenkins, 1996). Although organizations have a very supportive work environment, there is an unequal distribution of job satisfaction outcomes and rewards below average performance levels in some organizations due to low levels of employee motivation and dissatisfaction.

Creating an atmosphere of job satisfaction and motivation in modern business environment is one of the most important tasks of any organization. Higher priorities such as occupational health, establishment of assessment centers, flexible remuneration system, reward plan, goal-based performance evaluation, organizational development and flexible work schedule have begun to be addressed (Hiltrop, 1996). In order to reduce the negative aspects in organization, some organizations take into account the expectations and needs of the staff dealing with the expectations and work options of employees on very complex and changing issues (Hiltrop, 1996).

Education In economic theory, investment in employee training is the most common measurement of

investment in terms of analyzing investment in human capital. The development of the necessary skills of employees is provided by two main elements: personnel training and education.

Personality training can be understood as the process of creating an individual's personality. Education is a form of development and formation of a person's identity. These two elements represent important components of human resource management activities. Human resource management seeks to effectively achieve goals within the company's strategies by influencing employees' behavior and skills. Human resource management seeks to effectively achieve the goals within the company's strategy by influencing the behavior and skills of employees. In this process, the creation of favorable condition, an organized non-formal training and high-quality corporate training system of are played the primary role for the implementation of individual education of employees [7]. In addition, the business system of education in a broader sense pay special attention to the formation of work skills and social characteristics that are important for building healthy personal relationships of employees [8].

This is the iterant period based on the goals of the corporate strategy as well as the principles of the corporate training policy. Then this period is based on the organization of education and other working conditions. It consists of four stages in the long-term effective training and development process, as shown in Figure 1

**Figure 1. Four stages of effective training and development in company (Source: [7]).**




To effectively evaluation of investments in human resource, it is necessary to carefully plan training and development activities of company. A common trouble is that there is usually required amount of budget for the education, training and other activities is not enough. Since there is no universal method for determining the optimal time for evaluation of effects in education, it is important for the manager to present a specific period of activity based on a personal expert assessment.

A number of factors influence on these benefits and therefore whether the effect often investigated is the result of educational activity or whether as a result of other changes within the company can cause problems in correct assessment. Investment in human capital is profitable (used efficiently), under the conditions that the total expected return (cash flow) is higher than the corresponding costs. In other words, it is profitable if the rate of return on investment (r) is higher than the interest rate (i) on the investment. The company then receives a return on investment; r> i provided that the investment in human capital is profitable until the return on investment (r) is equal to the interest rate (i). The internal return on investment (r) is limited as a result of the downward trend in additional income from training and development of the staff. However, it is not reliable to evaluate the effectiveness of a training activity solely on the basis of its expenditure.

In general, such a solution may be more costly than reducing the cost of ineffective education. If we summarize these factors mentioned above at the macro level, we can conclude that investments in the development of human capital should be reflected at the level of human development. In order to assess the level of human development and provide comparisons between countries, there is a system of indicators adopted by the United Nations Development Program, which is called the Human Development Index.

The Human Development Index is calculated based on the following formula.

**HDI =(LEI +EI +GDPI )/3**

Here,

**HDI** - Human Development Index

**LEI** - Life Expectancy Index

**EI** - Education Index

**GDPI** - is an Index of GDP per capita based on purchasing power parity.

All these factors may make it necessary to assess the level of influence of subgroups indicators of hu-

man development in the growth of industries. To be more precise, it can be noted the extent to which level of industrial development depends the on the main indicators of human development by the country. For this purpose, we evaluate the following dependence with the help of EViews7 software program.

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| C | 13.09897 | 0.791680 | 16.54580 | 0.0000 |
| LOG(GOMI) | 2.574638 | 7.444332 | 0.345852 | 0.7360 |
| LOG(TI) | 1.192730 | 3.738948 | 0.319001 | 0.7557 |
| LOG(UDMI) | 6.421838 | 2.798517 | 2.294729 | 0.0424 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.805261 | Mean dependent var | 9.951024 |
| Adjusted R-squared | 0.752151 | S.D. dependent var | 0.453939 |
| S.E. of regression | 0.225991 | Akaike info criterion | 0.086535 |
| Sum squared resid | 0.561791 | Schwarz criterion | 0.275348 |
| Log likelihood | 3.350989 | Hannan-Quinn criter. | 0.084523 |
| F-statistic | 15.16198 | Durbin-Watson stat | 1.262867 |
| Prob(F-statistic) | 0.000319 | | |

The solely case that can be considered negative for the model is when the DW-1.26 statistics fall into the uncertainty range. That is, it is impossible to comment on the presence or absence of autocorrelation between the residuals. However, in many cases, researchers consider the model to be adequate in condition when 1 > DW > 3. In general, the model can be considered applicable for analysis. The obtained results allows to notice that the increase in the value added in industry by 1 unit has a positive effect on the health of the population by 2.6 units, the level of education by 1.2 units and the welfare of the population by 6.2 units, or vice versa.

**LOG(VAI) = C(1) + C(2)*LOG(LEI) + C(3)*LOG(EI) + C(4)*LOG(GDPI)**

Here,

**VAI** - Value added in industry, million manat,

**LEI** - Life Expectancy Index

**EI** - Education Index

**GDPI** - is an Index of GDP per capita based on purchasing power parity.

As you can see, the indicators on the left sides and right sides of the variable are expressed in different sizes. Taking this factor into account, let us equate both parts of the equality by the logarithm.

**LOG(VAI) = 13.0989736494 + 2.57463779977*LOG(LEI) + 1.19272975806*LOG(EI) + 6.42183792165*LOG(GDPI)**

The results of the calculations can be considered successful. The fact that the specified regression coefficient (R2) is 0.80 indicates that the freely variables were chosen correctly and can explain the fluctuations in the dependent variable by 80 percent, which is considered a very high dependence.

It is positive for the model that the F-statistic, which indicates the reliability of the regression coefficient, is much larger than the Fkrit value. The fact that the standard errors from the coefficients are sufficiently small ensures that the statistic is greater than tkrit, which is a guarantee of the reliability of the coefficients. The fact that the standard errors are sufficiently small from the coefficients ensures that the t statistics are larger than tkrit, which is a guarantee of the reliability of the coefficients.

## REFERENCES:


1. *Slovak Business Agency, Malé a stredné podnikanie v číslach v roku 2015. [Internet], 2016, Available from: http://www.sbagency.sk/sites/default/files/msp_v_cislach_v_roku_2015_0.pdf.*
2. *Foreman-Peck J, Nicholls T, Peripherality and the impact of SME takeovers, In: Proceedings of Regional Studies Association Annual Conference, 2008, Praha.*
3. *Cutler T, Venturous Australia, building strength in innovation, Melbourne, Cutler & Company Pty Ltd, 2008.*
4. *Potkány M, Krajčírová L, Quantification of the volume of products to achieve the break-even point and desired profit in non-homogeneous production, Procedia Economics and Finance, 2015, 26, 194–201, DOI: 10.1016/S2212-5671(15)00811-4.*
5. *Johnson S, Winterton J, Management skills, skills tasks force, London, Department for Education and Employment, 1999.*
6. *Hitka M, Štípalová L, Comparing level of employee`s motivation in wood processing businesses with manufacturing companies in Slovak republic, Drvna Industria, 2011, 62, 185–192, DOI: 10.5552/drind.2011.1101.*
7. *Kucharčíková A, Vodák J, Efektivní vzdělávání zaměstnanců, 2nd ed., Praha, Grada Publishing, 2011, 240 p.*
8. *Koubek J, Řízení lidských zdrojů, 4th ed., Praha, Management Press, 2007, 399 p.*
9. *Barták J, Skryté bohatství firmy, 1st ed., Praha,*

*Alfa Publishing, 2006, 184 p.*
10. *Ližbetinová L, Hitka M, Selection of most suitable candidates for the talent pool in a furniture manufacturing company, Drvna Industria, 2016, 67, 333–340, DOI: 10.5552/drind.2016.1601.*
11. *Čaplánová A, Martincová M, Inflácia, nezamestnanosť a ľudský kapitál z makroekonomického pohľadu: teoretické a praktické problémy, 2014, 1st ed., Bratislava, Wolters Kluwer, 2014, 130 p.*
12. *Mazouch, P, et al, Lidský kapitál – meření, souvislosti, prognózy, 1st ed., Praha, C. H. Beck, 2011, 116 p.*
13. *Potkány M, Benková E. Company processes-the basic condition for outsourcing use. In: International Conference on Wood processing and furniture production in south east and central Europe: Innovation and competitiveness; 2008; 85-90 p.*
14. *14.Kameníček J, Lidský kapitál: úvod do ekonomie chování, 1st ed., Praha, Karolinum, 2003, 248 p.*
15. *Šimek M, Trh práce, Ostrava, Vysoká škola podnikania, 2015.*
16. *Mura L, Sleziak J, Innovation and entrepreneurship network, In Proceedings of the CERS Central European Conference in Regional Science, International Conference, 2014, pp. 643–651.*
17. *Košťan P, Šuleř O, Firemní strategie: plánovaní a realizace, 1st ed., Praha, Computer Press, 2002, 120 p.*
18. *Drábek J, et al, Rozvoj ľudských zdrojov II, 1st ed., Zvolen, Technická univerzita vo Zvolene, 2013, 265 p.*
19. *Hitka M, et al, Corporate culture as a tool for competitivenes improvement, In: Business Economics and Management Conference, 2015, pp. 27–34, DOI: 10.1016/S2212-5671(15)01597-X.*
20. *Pauko P, Piršelová D, Vzdelávanie, benefity a daňový pohľad na ne, Bratislava, Verlag Dashofer, 2010.*
21. *Drábek J, Polách J, Reálne a finančné investovanie firiem, 1st ed., Zvolen, Technická univerzita vo Zvolene, 2008, 271 p.*
22. *.Armstrong M, Řízení lidských zdrojů, Praha, Grada Publishing, 2002, 856 p.*
23. *Kocianová R, Personálne činnosti, Praha, Mowshe, 2007, 180 p.*
24. *.Milkovich T, Boundreau J, Human resource management, Wonder Book, 1991.*
25. *Kubátová J, Puchinger Z, Je riadenie ľudského kapitálu prínosné?, Ekonomické revue, 2005, 8, 26–42.*
26. *Fitz-enz J, Time new HR analytics, London, Nicholas Breley Publishing, 2009, 368 p.*
27. *.Dubcová G, Foltínová Ľ, Manažment v teórií a praxi, On-line odborný časopis o nových trendoch v manažmente, 2012, 8.*
28. *Závadský J, et al, Changes of employee motivation of Slovak enterprises due to global economic crisis. E+M, Ekonomie a management, 2015, 18, 57–66, DOI: 10.15240/tul/001/2015-1-005.*
29. *Kampf R, Ližbetinová L, The identification and development of talents in the environment of logistics companies, Nase more, 2015, 62, 139–142, DOI: 10.17818/NM/2015/SI9.*
30. *Šályová S, Táborecká-Petrovičová J, Nedelová G, Ďaďo J, Effect of marketing orientation on business performance: A study from Slovak foodstuff industry, Procedia Economics and Finance, 2015, 34, 622–629, DOI: 10.1016/S2212-5671(15)01677-9.*
31. *Čierna H, Sujová E, Ťavodová M, Application of the Kaizen philosophy – a road to a learner business, In: International Scientific Days 2016: The Agri-Food Value Chain: Challenges for Natural Resources Management and Society, 2016, pp. 237–245, DOI: 10.15414/isd2016.s4.01.*
32. *Grancay M, et al, Gravity model of trade of the Czech and Slovak Republics 1995–2012: How have determinants of trade changed, Politicka Ekonomie, 2015, 63, 759–777.*
33. *Nordström K, Ridderstrale J, Funky business, Praha, Grada Publishing, 2005.*
34. *Hitka M, Sirotiaková M, Impact of economic crisis on change of motivation of Ekoltech s. r. o. Fiľakovo employees, Drewno wood, 2011, 54, 119–126.*
35. *Kucharčíková A, Ďurišová M, Human capital efficiency in transport enterprise, In: Proceedings of the 18th International Conference on Transport Means, 2014, Kaunas. Lithunia, 2014, pp. 239–243.*
36. *Ližbetinová L, Weberová D, Consumer attitudes towards Brands in relation to price, In: Proceedings of the 27 IBIMA Conference, 2016, Italy; 2016.*

**XÜLASƏ**

Texnoloji tərəqqi tarix boyu həyatımızın hər bir sferasına müxtəlif yollarla təsir göstərmişdir. Biz yaşayış şəraitimizi, iş həyatımızı və bir-birimizlə qarşılıqlı əlaqələrimizi kökündən dəyişəcək texniki və texnoloji inqilabın astanasındayıq. Dördüncü Sənaye İnqilabı adlandırılan bu inkişaf fazası ictimai həyatımızın bütün sahələrini əhatə edir. Bu amil rəqəmsal transformasiya da adlanır. Bu tədqiqatın məqsədi rəqəmsal transformasiyanın iqtisadiyyata təsirini qiymətləndirmək və elektrotexnika industriyasında rəqəmsal transformasiyanın yaratdığı yeniliklərdən ümumi nəticələr çıxartmaq, bu sahədə insan kapitalına investisiya mənbələrini müəyyən etmək və bu investisiyaların iqtisadiyyata təsirini və məşğulluğun səmərəliliyinin artırılmasını qiymətləndirməkdir.



**Açar sözlər:** *Texnoloji irəliləyişlər, texnoloji inqilab, İnsan İnkişafı İndeksi, insan resurslarına investisiyalar, şəxsiyyət hazırlığı, insan resurslarının idarə edilməsi, insan resursları, rəqəmsal iqtisadiyyat.*



**SUMMARY**

Technological advances have changed every aspect of our life in different ways throughout history. We are on the threshold of a technological revolution that will radically change the way we live, work and relate to each other. This stage of development, denominated as the Fourth Industrial Revolution, affects all fields of our public life. This factor is called digital transformation as well. The purpose of this study is assessing the impact of digital transformation on the economy and generalization the innovations generated by digital transformation in the field of electrical engineering, determination sources of investment in human capital exactly in this sphere and evaluation the impact of these investments in order to increase employment efficiency.



**Key words:** *Technological advances, technological revolution, Human Development Index, investments in human resource, personality training, human resource management, human resources, digital economy.*



**РЕЗЮМЕ**

Технологические достижения изменили каждый аспект нашей жизни по-разному на протяжении всей истории. Мы стоим на пороге технологической революции, которая радикально изменит то, как мы живем, работаем и относимся друг к другу. Этот этап развития, названный Четвертой промышленной революцией, затрагивает все сферы нашей общественной жизни. Этот фактор также называют цифровой трансформацией. Целью данного исследования является оценка влияния цифровой трансформации на экономику и обобщение инноваций, порожденных цифровой трансформацией в области электротехники, определение источников инвестиций в человеческий капитал именно в этой сфере и оценка влияния этих инвестиций на повышение эффективности занятости.



**Ключевые слова:** *Технологический прогресс, технологическая революция, индекс человеческого развития, инвестиции в человеческий ресурс, обучение личности, управление человеческими ресурсами, человеческие ресурсы, цифровая экономика.*

UOT 338.48

# AZƏRBAYCANDA ATÇILIQ TURİZMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ (QARABAĞ İQTİSADİ ZONASININ TİMSALINDA)

**NİLGÜN ƏLİYEVA**
*Azərbaycan Turizm və Menecment Universiteti, magistrant*

*E-mail: nilgunliyeva@mail.ru*

## Giriş

Respublikamızın dilbər guşələrindən sayılan Qarabağ bölgəsi füsunkar təbiəti, möhtəşəm musiqisi, qədim tarixi abidələri, nəfis toxunmuş xalçaları, nadir cins atları ilə bütün dünyada tanınır. Nadir mədəni atlardan biri olan Qarabağ atları ölkəmizin milli sərvəti sayılır. Bu bölgənin at cinslərinin yaxşılaşdırılmasında, ad qazanmasında Qarabağ xan təsərrüfatlarının böyük rolu olub. Qarabağ zonası ilə yanaşı, Qazax, Quba və Azərbaycanın müxtəlif bölgələrində yetişdirilən atlar, əsasən, minik atlarıdır və dağlıq ərazilərdə yaşamağa uyğunlaşdırılmışdır. Hazırda dünyada mövcud olan 425-dən artıq at cinsindən ikisi - Qarabağ və Dilbaz atları burada yetişdirilir.

At xalqımızın milli sərvəti hesab olunmaqla yanaşı, xalq dastanlarımızda, şifahi xalq ədəbiyyatı nümunələrində, folklorumuzda rast gəlinən və dillər əzbəri olan Koroğlunun Qıratı, dahi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasındakı Şirinin çox sevdiyi "Gülgün" atı, Həcər xanımın xilaskarı "Bozat" xalqımızın azadlıq və ədalət uğrunda mübarizəsinin rəmzi obrazlarıdır.

Qədim zamanlardan Azərbaycanda atçılıqla məşğul olmuşlar. Tarixi qaynaqlardan əldə edilmiş məlumatlar da bunu sübut edir. Məsələn, Herodot yazır ki, Midiyada Nise adlanan bir vadidə şahanə atlar saxlanılır. Qədim Albaniyada da atçılıq yüksək səviyyədə inkişaf etmişdir. Albanlar əsasən orduda, təsərrüfat işlərində atdan istifadə etmişlər. Tapılan arxeoloji materiallar Azərbaycan ərazisində yaşayan insanların tunc dövrünün sonuncu mərhələsində atları yəhərlədiyini, onları özlərinə etibarlı dost hesab etdiklərini deməyə əsas verir. Burada tapılan yüyənlər təxminən eramızdan əvvəl 1-ci minilliyin əvvəllərinə aid edilir. Həmçinin, həmin dövrə aid digər tapıntılar - yəhərqaşı, tunc zınqırovlar, yəhəryanı onu sübut edir ki, Azərbaycanda atçılıqla qədim zamanlardan məşğul olmuşlar [2].

Ölkə başçısı İlham Əliyevin diqqət və qayğısı sayəsində inkişaf edən sahələrdən biri atçılıq turizmidir. Bu gün ölkəmizdə turizmin atçılıq növü öz inkişaf dövrünü yaşayır, desək, yanılmarıq. Turizmin bu növünü həm də meşə, aşırım və çay maneələri olan marşrutun keçilməsi üzrə idman növünə də aid etmək olar. Azərbaycan atçılıq turizminin inkişafı üçün əlverişli məkan hesab olunur. Hələ qədim zamanlarda insanların at və arabalarla getdiyi meşələrdə və dağlardakı çoxlu sayda cığır və yollar maraqlı marşrutlar seçməyə və at sürməkdən, habelə ətrafdakı gözəlliklər, görməli yerlər və tarixi abidələrdən zövq almağa imkan verir.

Vətənimiz qədim Şərqin ən böyük atçılıq mərkəzlərindən, həm də əhliləşdirmə ocaqlarından biri olub. Bütün dünyada şöhrət tapan Azərbaycan atlarına İranda, İraqda, Hindistanda, Misir və Suriyada böyük tələbat var idi. Rus alimi İ.İ.Kalugin Azərbaycan atlarının tarixinin eramızın I əsrinə gedib çıxdığı qənaətindədir. Qədim yunan tarixçisi Strabon Albaniya atlarının çox hündür olduğunu yazır. Makedoniyalı İsgəndər, İran hökmdarı Dara kimi sərkərdələr öz süvari qoşunlarını Qarabağ atları hesabına gücləndirmişlər [2]. Dözümlülük və sahibinə sədaqət, gözəl eksteryer,yaxşı balavermə qabiliyyəti, bədən ölçüləri, dağ minik atı olan Qarabağ atlarının əsas xüsusiyyətləri hesab edilir. Bu atlar əsasən qızılı-kürən rəngdə olur.

XVIII-XIX əsrlər Qarabağ atçılığının qızıl dövrü hesab edilir. Belə ki, bu dövrdə Qarabağ atları hətta bir çox beynəlxalq sərgilərdə iştirak edib, uğurlu nəticələr qazanıblar. Məsələn, Fransada 1867-ci ildə keçirilən sərgidə "Xan" ləqəbli Qarabağ atı yüksək mükafata, 1869-cu ildə Ümumrusiya at sərgisində "Meymun" ləqəbli at gümüş, "Toxmaq" isə bürünc medala layiq görülüb. Xan qızı Natəvanın "Əlyetməz"i attestat qazanıb. Qarabağ atlarının Rusiyanın, Avropanın bir sıra atlarının cins tərkibinin yaxşılaşdırılmasına da ciddi təsiri olub.

1992-1993-cü illərdə Ermənistanın işğalı Qarabağda turistlərlə bağlı bir çox biznesin bağlanmasına səbəb olub. Bu kimi obyektlərə atçılıq turizminin inkişafı ilə məşhur olan bir sıra obyektləri də aid etmək olar. Bunlara Şuşada 130 yerlik "Şəfa" adlı turist bazasını və Ağdamda 200 yerlik yeni tikilmiş "Şahbulaq" turist bazası daxildir. Bundan əlavə,

Xankəndi, Şuşa və Ağdamda səyahət və ekskursiya büroları fəaliyyətini dayandırdı. Nəhayət, Xankəndi turizm idman klubu da fəaliyyətini dayandırdı.

2013-cü ilin dekabr ayında UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin Bakı şəhərində keçirilən növbəti sessiyasında çövkən oyunu UNESCO-nun Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib. Qarabağ atlarından bəhs edən "Sarılar - Qarabağ atının izi ilə" adlı sənədli filmi çəkilib, atçılıq və onun tarixi üzrə ixtisaslaşmış fransız yazıçı Jan-Lui Quro "Qarabağ atları" adlı kitab yazıb. London şəhəri yaxınlığında Vindzor qəsrində İngiltərə Kraliçası II Yelizavetanın 90 illik yubileyi münasibətilə keçirilən at şousunda Qarabağ atlarının möhtəşəm çıxışı maraq doğurub [3].

XX əsrdə Ağdam atçılıq zavodunun yaradılması Qarabağ at cinsinin tarixində mühüm hadisələrdən biri olub. Zavod 1949-cu ilin sentyabr ayında Ağdam yaxınlığındakı Göytəpə adlanan əraziyə köçürülüb. Ağdam rayonu işğal edildikdən sonra isə Qarabağ Atçılıq Kompleksi Ağcabədi rayonunun Xamtorpaq ərazisində fəaliyyətini davam etdirib. Bütün çətinliklərə baxmayaraq, Qarabağ atlarını bu günədək qoruyub saxlamaq mümkün olub.

Son illər ərzində heyvandarlığın, bütövlükdə, aqrar bölmənin prioritet sahələrindən biri sayılan atçılığın elmi əsaslarla inkişafı və rəqabətədavamlılığının təmin edilməsi məqsədilə dövlət tərəfindən ciddi işlər görülüb. 2007-ci ildə qəbul edilmiş "Atçılıq haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi ilə bağlı olaraq atçılığın inkişafı üzrə Proqram təsdiqlənib. Adıçəkilən proqramın məqsədi mülkiyyət formasından asılı olmayaraq, atçılıq subyektlərində atların baş sayının, onların genetik potensialının, iş qabiliyyətinin artırılmasını, yetişdirilən atlardan təyinatı üzrə səmərəli şəkildə istifadə edilməsini, yeni mütərəqqi texnologiyaların tətbiqi nəticəsində atçılığın rəqabətədavamlı və gəlirli təsərrüfat sahəsi kimi formalaşmasını təmin etmək, eləcə də yerli genofondumuzun qiymətli nümunələri olan Qarabağ və Dilbaz atlarının qorunub saxlanılması, damazlıq şəbəkənin genişləndirilməsi və keyfiyyət göstəricilərinin artırılması ilə bu sahənin inkişafına nail olmaqdan ibarət idi [1].

Əminliklə söyləmək olar ki, proqramda nəzərdə tutulan kompleks tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycan milli atçılığının şöhrəti özünə qaytarıldı, əvəzolunmaz yerli genofondumuz olan Qarabağ və Dilbaz atlarının qorunması, gələcək nəslə çatdırılması kimi dövlət əhəmiyyətli məsələlərin həlli istiqamətində uğurlu addımlar atıldı.

Bundan əlavə, Prezident İlham Əliyev tərəfindən 2014-cü il noyabrın 19-da imzalanan "Azərbaycanda Qarabağ atı cinsinin inkişafına əlavə dəstək haqqında" və 2015-ci il avqustun 21-də "Heyvandarlığın maddi-texniki təchizatının yaxşılaşdırılması ilə bağlı tədbirlər haqqında" sərəncamları, eləcə də 2017-ci il 22 fevral tarixli sərəncamı ilə "Qarabağ Atçılıq Təsərrüfatı" MMC-nin yaradılması Qarabağ atı cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsi, bu sahədə seleksiya damazlıq işlərinin elmi əsaslarla aparılmasına şərait yaratdı [6].

Ümumilikdə, 35,5 hektar ərazini əhatə edən Kompleks mühafizə binası, dezinfeksiya hovuzu, inzibati bina, doğum şöbəsi, ayğırlar, madyan və gənc atlar üçün tövlə, qapalı və açıq manejlər, gəzinti sahəsi, çardaq, müayinə otağı, karantin binası, təsərrüfat və gübrə anbarları, qaçış zolağı, məşq və köməkçi qurğulardan ibarətdir. Burada atların daxili orqanlarının müayinəsi, boğazlığın ilkin təyini, sınıq və zədələnmələrin diaqnostikası, yarışlardan əvvəl və sonra, karantin dövründə müayinələrin aparılması, istifadə edilmiş laboratoriya avadanlığının sterilizasiyası, həmçinin seleksiya damazlıq işini aparmaq üçün yaxşı şərait yaradılıb [1].

Ümumiyyətlə, atçılıq turizmi və at belində səyahət insan sağlamlığı üçün faydalı məşğuliyyətdir. Bu səyahət zamanı bütün ləvazimatlar və ərzaqlar yəhərdən asılmış xüsusi çantalarda daşınır. Marşrutlar, əsasən təlim keçməmiş və at minməkdə təcrübəsi olmayan insanlar üçün hazırlanıb. Turist bazalarında xüsusi proqramlar əsasında ilkin hazırlıq keçiriləndən sonra turist ata baxmaq vərdişlərinə, onu idarəetmə, yəhərləmə və arabaya qoşmaq bacarığına yiyələnir.

Atçılıq turizmi dinamik istirahətin elitar növü hesab olunur. Bu zaman dərəli-təpəli ərazidə ekstremal atçapmalar, yaxud sadəcə olaraq dincəlmək və gözəl mənzərə seyr etmək mümkündür. Bir çox turist bir neçə gün üçün nəzərdə tutulan atçılıq turlarını seçir.

Ölkəmizdə 1996-cı ildə yaradılmış Atçılıq İdmanı Federasiyası adıçəkilən idmanın bütün növləri ilə məşğul olur. Federasiyanın tərkibinə ölkənin bütün atçılıq idman klubları daxildir. Yarışlar da məhz federasiya tərəfindən təşkil edilir [4].

Bundan əlavə, Azərbaycan Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Respublika Atçılıq

Turizm Mərkəzinin bir çox regionda filialları fəaliyyət göstərir. Filiallardan biri Şəki rayonunun Daşüz kəndində yerləşir. Burada ərəb çapağanı, ingilis qaçağanları, alman "trakenini"i, axaltekin (türkmən) və digər cinslər saxlanılır. Hər ilin dekabr və may aylarında mərkəzdə çövkən və digər atçılıq oyunları təşkil edilir. Turistlərə oyunun gedişini izləmək, həm də oyunda iştirak etmək imkanı yaradılır. Lakin bundan öncə onlar təcrübəli məşqçi tərəfindən təlimatlanmalıdırlar [6].

Mərkəz turistlər üçün Şəki rayonunun müxtəlif guşələrinə də 1-2 günlük səyahət marşrutları təşkil edir. Bu zaman onlar zəngin təbiətlə və çoxəsrlik tarixə malik bu möhtəşəm diyarın görməli yerləri ilə tanış ola bilərlər. Mərkəzin Ağdam rayonunda da yeni filialı istifadəyə verilib və gələcəkdə digər rayonlarda da bu tip mərkəzlərin açılması nəzərdə tutulur.

Mədəniyyət Nazirliyi ilə müxtəlif atçılıq təşkilatları və idarələri arasında əməkdaşlığın genişlənməsi, həmçinin atçılıq turizmi klublarının sayının ildən-ilə artması bu turizmin inkişafına müsbət təsir göstərir. Paytaxtın atçılıq idmanı klublarından "Horse Husbandry", "Gunay Equestrian Invest" və digərlərini göstərmək olar. Burada region üzrə bütün marşrutları yaxşı bilən və turistləri gözləyən sürprizləri əvvəldən görməyi bacaran yaxşı mütəxəssislər işləyirlər. Klublarda böyüklərə və uşaqlara at minməyi öyrədirlər.

Bu klublardan biri "Günay Atçılıq İnvest" Atçılıq Klubudur. Klubun peşəkar və həvəskar atçılıq idmanı, minik və fayton sürmələri üçün geniş ərazisi və müasir arenası var. Klubun təlimatçıları və məşqçiləri tərəfindən atların idarə olunması, yəhərdə inamlı və gözəl oturuş qaydaları öyrədilir. Klubun ev heyvanları arasında Qarabağ, Ərəb, Dilbaz, Axal-Təkə, ingilis atları var. Bu gün bu klub Azərbaycanda atçılıq idmanının (şoudan tullanma) inkişaf mərkəzidir [3].

"Elit At və Polo" Klubu isə həm yeni başlayanlar, həm də peşəkarlar üçün əlverişlidir. Burada atçılıq idmanı və sürmə üçün bütün imkanlar mövcuddur. Burada həmçinin ixtisaslaşmış mağaza da var və arzu edənlər atçılıq idmanı üçün axtardıqları hər şeyi buradan əldə edə bilərlər. Klub atların saxlanması, öyrədilməsi, ölkə daxilində və xaricə daşınmaları, atlar ölkə sərhədlərini keçərkən baytarlıq və gömrük sənədlərinin hazırlanması xidmətlərini də təklif edir. "Pony Club"da azyaşlılara at sürməyi öyrədirlər [3].

Məlumdur ki, at sürmək bir əyləncə olmaqla yanaşı, həm də sağlamlıq üçün faydalıdır. "İppoterapiya"- at minmək vasitəsilə reabilitasiya metodudur. Belə ki, müalicəvi at minmə xəstənin həm psixikasına, həm də fiziki durumuna müsbət təsir göstərir.

Azərbaycanda bir çox atçılıq turizmi klubları ippoterapiyanın metodlarından istifadə edirlər. Ən ağır xəstələrlə məşğələlər üçün atın bədən hərarətinin (atın bədənindəki temperatur insanda olduğundan 1-1,5 dərəcə yuxarıdır) müsbət təsirindən istifadə edilir. Bu cür xəstələr, bir qayda olaraq, ata yəhərsiz minirlər. Xəstələrə yaxşı təsir edən digər amil atın hərəkəti zamanı ritmik silkələnməsidir ki, bunun nəticəsində heyvanla sıx təmas əzələləri və kürəyi masaj edir. Daha çox zədə almış pasiyentlər adətən at belində müalicəvi gəzinti ilə müalicəyə başlayırlar. Bu qrupdan olan uşaqlara əvvəlcə atı idarə edən elementləri, daha sonra at belində gəzinti qaydaları öyrədilir.

Hemofiliya, anadangəlmə sümük kövrəkliyi, müxtəlif xəstəliklərin ağır və orta-ağır dövrü, bəzi xroniki iltihablı xəstəlikləri, böyrək xəstəlikləri, diabet, onurğanın bel əzələsi hissəsi və zədələri zamanı ippoterapiya və ya at belində gəzinti məsləhət görülmür [5].

Müşahidə olunub ki, 5-12 yaşlı uşaqlar üçün atla gəzintinin müalicəvi əhəmiyyəti daha çoxdur. Bundan əlavə, atla gəzinti uşağın hərtərəfli inkişafına, onun qoçaq, cəld, dözümlü, cəsarətli və hazırcavab olmasına yardım edir, ruh yüksəkliyini möhkəmləndirir. Nahaq yerə demirlər ki, at, ilk növbədə, ruhu sağaldır.

İldən-ilə respublikamızda atçılıq turizmi öz sərhədlərini genişləndirməkdədir. Çoxlu sayda müasir mərkəzlər, turizm bazaları tikilir, yeni maraqlı marşrutlar salınır. Vətəndaşlarımız daim çalışırlar ki, ölkəmiz atla gəzinti həvəskarları, xüsusilə də, turistlər üçün cəlbedici olsun, onlar hər il buraya gələrək, "dostları" ilə görüşsünlər, ən yaxşı yürüşlərini yada salsınlar, yeni marşrutları öyrənsinlər və Azərbaycanın füsunkar təbiətinə, onun tarixinə, mədəniyyətinə, adət-ənənələrinə bələd olsunlar.

Bir sözlə, kompleks şəkildə həyata keçirilən tədbirlər onu deməyə əsas verir ki, Qarabağ atlarının tarixi şöhrəti özünə qaytarılır, atçılıq turizmi özünün çiçəklənmə dövrünü yaşayır. Bütün bunlar nəticəsində isə atlarımız yenidən beynəlxalq yarış və sərgilərdə uğurla təmsil olunaraq xalqımızın qürur mənbəyinə çevrilir.

**Açar sözlər:** *Qarabağ atları, atçılıq turizmi, atçılıq klubları.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1.“Atçılığın inkişafı üzrə Proqram”ı*

*2.Zeynalov M.A., “Azərbaycanda atçılıq”, Bakı – 2006, s. 199.*

*3.https://news24.az/19181-azerbaycanda-atchiliqla-turizmi.html.*

*4.https://azertag.az/xeber/Azerbaycanda_atchiliq_turizmi-1140402.*

*5.https://www.medeniyyet.az/page/news/5616/Atciliq-turizminin-genis-inkisaf-imkanlari-var.html?lang=az.*

*6.https://news.milli.az/society/628920.html.*

## DEVELOPMENT PROSPECTS OF EQUESTRİAN TOURISM IN AZERBAIJAN (KARABAKH IN REPRESENTATION OF ECONOMIC ZONE)

The Karabakh region, which is considered one of the charming corners of our republic, is famous all over the world for its charming nature, great music, ancient historical monuments, exquisitely woven carpets, and rare breed horses. Karabakh horses, one of the rarest cultured horses, are considered the national treasure of our country. Karabakh's khan farms played a big role in improving the breed of the horses of this region and gaining names. In addition to the Karabakh zone, the horses bred in Gazakh, Guba and different regions of Azerbaijan are mainly riding horses and are adapted to live in mountainous areas. Two of the more than 425 horse breeds currently in the world - Karabakh and Dilbaz horses - are bred here. Today, the programs adopted for the development of horse breeding in our country and the measures implemented will stimulate the development of equestrian tourism.

**Key words:** *Karabakh horses, equestrian tourism, equestrian clubs.*

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ КОННОГО ТУРИЗМА В АЗЕРБАЙДЖАНЕ (КАРАБАХ В ПРЕДСТАВЛЕНИИ ЭКОНОМИЧЕСКОЙ ЗОНЫ)

Карабахская область, считающаяся одним из очаровательных уголков нашей республики, известна во всем мире своей очаровательной природой, великолепной музыкой, древними историческими памятниками, изысканно сотканными коврами, редкими породами лошадей. Карабахские лошади, одни из редких культурных лошадей, считаются национальным богатством нашей страны. Хозяйства Карабахского хана сыграли большую роль в улучшении конных пород этого региона и в обретении имени. Помимо карабахской зоны, лошади, разводимые в Газахе, Губе и различных районах Азербайджана, в основном являются верховыми и приспособлены к жизни в горных районах. Здесь разводят две из более чем 425 пород лошадей в мире – карабахскую и дильбазскую. На сегодняшний день принятые программы развития коневодства в нашей стране и реализуемые меры будут стимулировать развитие конного туризма.

**Ключевые слова:** *карабахские скакуны, конный туризм, конные клубы.*

UOT 332.122

# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİN İŞĞALA QƏDƏRKİ DÖVRDƏ SOSİAL İQTİSADİ VƏZİYYƏTİ

**ŞAHMAR ƏKBƏRLİ**
*Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant*
*E-mail: shahmarakberli@gmail.com*

## GİRİŞ

İşğaldan azad edilmiş ərazilər tarixi-mədəni əhəmiyyəti, öz füsunkar təbiəti ilə birlikdə, geniş iqtisadi potensiala, o cümlədən zəngin yerüstü və yeraltı sərvətlərə, turizm imkanlarına malik olmuşdur. Sözügedən ərazilər kənd təsərrüfatı məhsulları istehsalı potensialı ilə zəngin bölgələrdir. Tarixən istər xammal bazası, istərsə də, aqrar təyinatlı emal-edici sənaye istehsalı baxımından olduqca əlverişli şəraitə malik bölgələr olmuşdur. Tarixi və statistik məlumatlara diqqət yetirdikdə aydın şəkildə görünür ki, erməni talançılığı nəticəsində regionun sosial iqtisadi vəziyyəti kifayət qədər tənəzzül etmişdir (1). İşğaldan azad olunmuş torpaqlar çoxspektrli iqtisadi potensiala malik olmaqla, kənd təsərrüfatının, sənayenin və turizmin inkişafı üçün geniş imkanlara malik bir regiondur.

1950-ci ildən 1985-ci ilədək Dağlıq Qarabağ bölgəsinin sənaye istehsalı dayanıqlı və sabit inkişaf etmişdir. "DQMV Sovet hakimiyyəti illərində" məcmuəsinə əsasən, sənaye istehsalı 1968-ci ildə 1950-ci illə müqayisədə 3 dəfə inkişaf etmişdir. Qeyd olunan dövrdə yalnız 2 il, 1963-1965-ci illər ərzində sənaye istehsalında geriləmə müşahidə edilmişdir ki, bu da bölgənin ən iri müəssisələrindən birinin istehsal profilini dəyişməsi nəticəsində baş vermişdir (4).

Tarixi mənbələrdən də məlum olduğu kimi, işğaldan azad olunmuş ərazilər əsasən üzümçülük, pambıqçılıq, tütünçülük, baramaçılıq, bostançılıq və heyvandarlıq mərkəzi olmuşdur. İşğaldan əvvəlki zamanda üzüm, pambıq və taxıl istehsalına görə Ağdam və Füzuli rayonları fərqlənirdi. Qubadlı, Zəngilan və Cəbrayıl rayonları isə üzümçülükdə ixtisaslaşmışdı. Statistik məlumatlara əsasən 1960-1980-ci illər ərzində üzüm əkin sahələri 284,1 min hektar təşkil etmişdir. Lakin 1985-ci ildən etibarən Sovet İttifaqında alkoqolizmə qarşı mübarizənin başlaması nəticəsində regionda və ümumilikdə Azərbaycan Respublikasında üzümçülük sahəsi tənəzzülə başladı. Sovet İttifaqının yeritdiyi siyasət nəticəsində Azərbaycan Respublikasında 130 min hektardan çox üzüm bağları yararsız hala salınmışdır. Antialkoqolizm siyasətinin nəticəsi özünü 1988-ci ildə büruzə verdi. Belə ki, bu dövrdə 116 ilkin istehsal, 76 istehsal müəssisəsi bağlanmışdır. Bunun nəticəsində regionun irihəcmli müəssisələrində mütəmadi olaraq tətillər qeydə alınırdı. Beləliklə, şərab istehsalı azalması səbəbindən regionda sənaye istehsalının həcmi 1980-ci illə müqayisədə 1986-cı ildə 15% az olmuşdur. 1988-ci ilə nəzər saldıqda isə aydın olur ki, sənaye istehsalının həcmi 1988-ci ildə 1987-ci ilə nisbətdə 27%, 1980-ci ilə nisbətdə 35,3% və 1985-ci ilə nisbətdə isə 40% azalmışdır.

1970-1980-ci illərdə ümumi ölkə ərazisində istehsal olunan şərabın 12.8%-i regionun payına düşmüşdür. Region sənayesinin 55%-dən çoxunu şərab istehsalı təşkil etmişdir. Qeyd olunan dövrdə Azərbaycan Respublikasında üzümçülük geniş yayılmış və inkişaf etmişdir. Regionda şərabçılığın inkişafını bir neçə mərhələyə ayırmaq olar.

**Cədvəl 1. Regionda şərab istehsalı 1970-1980-ci illər**

| İllər | İstehsal həcmi | Müəssisə sayı |
|---|---|---|
| 1970 | 539 min dekalitr | 10 |
| 1975 | 1 milyon dekalitr | 15 |
| 1980 | 1,946 mln. dekalitr | - |

*Mənbə: https://story.karabakh.center/28 əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır, 2022*

Yuxarıdakı cədvəldən də aydın olduğu kimi, 10 il ərzində şərab istehsalı təxminən üç dəfə artaraq, 1980-ci ildə özünün pik həddinə - 1,946 mln dekalitrə çatmışdır. Bu dövr ərzində regionda ən böyük müəssisə "Qarabağ Şərab və Sovxozlar Tresti" idi. Onun istehsal həcmi ümumi regionun istehsalının təqribən 30%-ni təşkil edirdi. Trest yalnız şərab deyil, konyak kimi digər məhsulların da istehsalı ilə məşğul olurdu. 1980-ci ildə Sovet İttifaqının alkoqolizmə qarşı siyasəti konyak istehsalına elə də təsir etməmişdir, əksinə konyak istehsalı əvvəlki dövrlə müqayisədə 2.1 dəfə artmışdı. Sözügedən dövrdə regionun Azərbaycan Respublikasının ümumi istehsalındakı payı

7%-ə çatmışdır. Müqayisə üçün qeyd etmək lazımdır ki, 1970-ci ildə müvafiq göstərici 1.5% təşkil etməkdə idi. Regionun əsas sənaye istehsalını təsvir etmək üçün cədvəl 2-də əsas sənaye müəssisələrinin mənfəət/zərər statistikası verilmişdir.

**Cədvəl 2. Regionda fəaliyyət göstərən əsas müəssisələrin mənfəət/zərər göstəriciləri**

| Müəssisənin adı | 1966 | 1967 | 1968 |
|---|---|---|---|
| Qarabağ Şərab və Sovxozlar Tresti" (QŞST) | 2 922 | 3 672 | 3 258 |
| Elektrotexnika zavodu | 801 | 1 361 | 1 728 |
| Süd kombinatı | 287 | 262 | 549 |
| Qarabağ İpək Kombinatı | 337 | 112 | 330 |
| Mebel fabriki | 290 | 183 | 313 |
| Meşə təsərrüfatı | 191 | 143 | 161 |
| 16 saylı çörək zavodu | 228 | 182 | 141 |
| Tikiş fabriki | 103 | 130 | 133 |
| 9 saylı sənaye kombinatı | - | 50 | 88 |
| Məişət xidməti müəssisələri | 83 | 119 | 86 |
| Mətbəə | 36 | 36 | 58 |
| Yerli sənaye nazirliyi | 26 | 55 | 45 |
| AKC TİM | 21 | 16 | 18 |
| Tikinti materialları kombinatı | - | 9 | - |

*Mənbə: https://story.karabakh.center/28 əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır, 2022*

Regionun sənaye istehsalında ikinci sahə ipəkçilik təşkil edirdi. Region Azərbaycan Respublikasının ümumi ipək istehsalının 25%-ni təşkil edirdi. Lakin bölgədə baş verən münaqişələr nəticəsində ən çox tənəzzül yaşayan sahələrdən biri də ipəkçilik olmuşdur. Beləki, 1988-ci ildə regionun ümumi ölkə istehsalındakı payı 25%-dən 12%-ə düşmüşdü. Nəticədə, Azərbaycan Respublikasında ipəkçiliyin əsas mərkəzi Şəkidə cəmləşməyə başladı. Bu sahədə regionun ən iri müəssisəsi isə Qarabağ İpək Kombinatı idi, onun 1968-ci ildə illik dövriyyəsi 330 min rubl təşkil edirdi. Kombinat 1965-1970-ci illər ərzində 24,6 milyon rubl dəyərində məhsul istehsal etmişdir. 1981-1985-ci illərdə sözügedən göstərici 42,2 milyon rubl təşkil etmişdir. Sözügedən kombinat regiondakı istehsalın 36%-ni təşkil edirdi (6).

Regionun digər bir iri sənaye sahəsi isə ayaqqabı istehsalıdır. 1972-ci ilədək kustar üsulla ayaqqabı istehsalı həyata keçirilsə də 1980-ci ildən sonra regionda fabrik fəaliyyətə başlamış və ölkədə Bakıdan sonra ikinci ən böyük ayaqqabı istehsalı mərkəzinə çevrilmişdir. 1985-ci ildə regionda istehsal olunan ayaqqabıların sayı 4.5 milyon cüt təşkil edirdi ki, bu da ümumi ölkə üzrə ayaqqabı istehsalının 20%-i demək idi.

**Cədvəl 3. İşğaldan azad olunmuş ərazilərin işğala qədərki dövrdə mühüm əhəmiyyətli məhsulların istehsalında payı, 1988-ci ilədək**

| Məhsul | 1970 | | 1980 | | 1985 | | 1988 | |
|---|---|---|---|---|---|---|---|---|
| | Miqdar | Ölkə üzrə payı | Miqdar | Ölkə üzrə payı | Miqdar | Ölkə üzrə payı | Miqdar | Ölkə üzrə payı |
| DQMV-nin əhalisi, min nəfər | 150,3 | 2,9 % | 162,2 | 2,7 % | 175,0 | 2,6 % | 189,0 | 2,7 % |
| Üzüm şərabı, min dekalitr | 539,0 | 12,8 % | 1946,0 | 18,8 % | 1211,0 | 14,7 % | 135,0 | 2,4 % |
| İpək parçalar, min kvadratmetr | 9,8 | 38,1 % | 15,7 | 33,6 % | 16,5 | 34,6 % | 9,0 | 21,7 % |
| Ayaqqabı, min cüt | 8,4 | - | 4181,0 | 23,0 % | 4514,0 | 19,7 % | 2279,0 | 11,3 % |

*Mənbə: https://story.karabakh.center/28 əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır, 2022*

Qrafik 1-də Dağlıq Qarabağ bölgəsində sənaye istehsalının əsas inkişaf etmiş sahələrinin hər birinin 1970-1988-ci ilədək dövr ərzində ölkə üzrə həmin sənaye sahəsi üzrə payının trendi təsvir edilmişdir. Qrafikdən də aydın olduğu kimi, 1985-ci ilə qədər stabil və davamlı inkişaf müşahidə edilsə də, 1985-ci ildən sonrakı dövrdə regionda baş verən çaxnaşmalar və qarşıdurmalarla əlaqədar olaraq kəskin geriləmələr qeydə alınmışdır.

**Qrafik 1. İşğaldan azad olunmuş ərazilərin işğala qədərki dövrdə mühüm əhəmiyyətli məhsulların istehsalında payı trendi, 1988-ci ilədək**




*Mənbə: https://story.karabakh.center/28 əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır, 2022*

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin verdiyi məlumatlara əsasən, işğala qədərki dövrə qədər Azərbaycan Respublikasının ÜDM-in həcmində sözügedən regionun payı 24%, kartof istehsalında 46%, üzüm istehsalında 41%, süd istehsalında 34% və ət istehsalında 18% təşkil etmişdir (8).

Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan tərəfindən işğalına qədərki dövrə nəzər saldıqda aydın olur ki, 1980-ci illərdə kənd təsərrüfatında ciddi bir dəyişiklik müşahidə edilməmişdir. Bu zaman, kənd təsərrüfatı məhsullarının istehsalında deyil, kənd təsərrüfatı istehsalı müəssisələrinin strukturunda dəyişiklik müşahidə edilirdi (kolxozlar sovxozlarla əvəz edilirdi).

Cədvəl 4-də işğaldan azad olunmuş ərazilərin 1950-1988-ci ilədək kənd təsərrüfatı məhsullarının əkin ərazilərinin ümumi sahəsi müxtəlif kənd təsərrüfatı məhsulları üzrə bölgüsünə dair statistik məlumatlar verilmişdir (2).

**Cədvəl 4. İşğaldan azad olunmuş ərazilərin əkin təyinatlı torpaq sahələri, 1950-1980-ci illər.**

| Göstərici | 1950 | 1960 | 1970 | 1980 | 1985 | 1988 |
|---|---|---|---|---|---|---|
| Ümumi əkin sahəsi, min ha | 79,2 | 88,2 | 69,9 | 63,0 | 66,3 | 77,5 |
| Dənli bitkilər, min ha | 67,8 | 60,3 | 42,1 | 29,6 | 32,1 | 39,6 |
| Texniki bitkilər, min ha | 2,4 | 3,7 | 1,6 | 0,2 | 0,5 | 0,2 |
| Kartof və tərəvəz, min ha | 2,2 | 1,8 | 1,6 | 2,0 | 1,9 | 2,1 |
| Yem bitkiləri, min ha | 6,7 | 22,4 | 24,6 | 31,2 | 31,8 | 35,6 |

*Mənbə: https://story.karabakh.center/28 əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır, 2022*

Cədvəl 4-dən də göründüyü kimi, dənli bitkilərdə 42%, texniki bitkilərin əkin sahələrində 92%, kartof və tərəvəz bitkilərinin əkin sahələrində 5%-lik azalma müşahidə edilsə də, yem bitkilərinin əkin sahəsində 7 dəfə artım müşahidə edilmişdir. Qeyd olunan dövr ərzində region üzrə ümumi əkin sahəsində 2%-lik azalma müşahidə olunmuşdur.

Qrafik 2-də işğaldan azad olunmuş ərazilərdə əsas kənd təsərrüfatı məhsullarının istehsalı 1950-1988-ci illərdə təsvir edilmişdir. Qrafikdən də göründüyü kimi, demək olar ki, kənd təsərrüfatı məhsulları istehsalında davamlı və stabil artım müşahidə edilmişdir. Xüsusilə də, ət istehsalında 3, süd istehsalında 2, yumurta istehsalında isə sözügedən dövr ərzində 10 dəfə artım müşahidə edilmişdir. Qeyd etmək lazımdır ki, müharibəyə qədərki dövrdə kənd təsərrüfatı məhsullarının istehsalında işğaldan azad olunmuş ərazilərin payı 3% təşkil edirdi (2).

**Qrafik 2. İşğaldan azad olunmuş ərazilərdə istehsal olunmuş kənd təsərrüfatı məhsullarının statistikası, 1950-1988-ci illər ərzində**




*Mənbə: https://story.karabakh.center/28 əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır, 2022*

Regionun sosial-iqtisadi vəziyyətindən bəhs edərkən diqqət çəkən digər bir vacib məsələ isə regionun həm xarici ölkələrlə, həm də Azərbaycan Respublikasının digər bölgələri ilə ticarət əlaqələridir. Tarixi və statistik göstəricilərin təhlili nəticəsində belə bir nəticəyə gəlmək olarki, 1980-ci ildə yaranmış münaqişələr regionun ticarət əlaqələrinə də mənfi təsir göstərmişdir. Belə ki, dəmir yol daşımaları 1988-ci ildə planın cəmi 47%-ni icra edə bilmişdir. Sərnişin daşımalarında isə 46%-lik azalma müşahidə edilmişdir. Regionun ticarət əlaqələri qrafik 3-də detallı təsvir edilmişdir. Qrafikdən də aydın olduğu kimi, bölgənin əsas ticarət əlaqələri Rusiya Federasiyası 66% və Azərbaycan Respublikasının digər regionları ilə ilə 33% təşkil edir (7).

**Qrafik 3. İşğaldan azad olmuş ərazilərin 1988-ci ilədək müxtəlif bölgələrlə ixrac münasibətləri**




*Mənbə: https://story.karabakh.center/28 əldə edilən məlumatlara əsasən*

Cədvəl 5-də Dağlıq Qarabağ Muxtar Vilayətində 1970-1988-ci illər üzrə bir sıra sosial göstəricilər və həmin dövr üçün sözügedən göstəricilərin ümumi Azərbaycan Respublikası üçün statistikası verilmiş-

dir. Statistik göstəricilərin analizindən də məlum olduğu kimi, əhaliyə düşən ümumi sənaye məhsulunun orta istehsalı göstəricisindən başqa digər bütün göstəricilər üzrə region ümumi ölkə göstəricilərindən yüksəkdir ki, bu da həmin dövrdə regionda sosial həyatın inkişaf etdiyini əks etdirməkdədir (7).

**Cədvəl 4. İşğaldan azad olunmuş ərazilərin əkin təyinatlı torpaq sahələri, 1950-1980-ci illər.**

| Göstərici | Dağlıq Qarabağ üzrə orta göstərici | Azərbaycan Respublikası üçün orta göstərici |
|---|---|---|
| Əhaliyə düşən ümumi sənaye məhsulunun orta istehsalı | 1439 | 1874 |
| Adambaşına düşən məişət xidmətləri | 42.47 | 30.68 |
| Adambaşına düşən pullu xidmətlər | 124.68 | 120.32 |
| 10 min nəfərə düşən ticarət müəssisələrinin sayı | 39 | 28 |
| 10 min nəfərə düşən ictimai iaşə müəssisələrinin sayı | 18 | 16 |
| 10 min nəfərə düşən xəstəxana çarpayılarının sayı | 100.7 | 98 |
| Uşaqların uşaq bağçalarına və körpələr evi-uşaq bağçalarına cəlb edilməsi (faizlə) | 37% | 20% |
| Birinci növbəyə cəlb olunan məktəblilərin sayı (ümumi sayına faizlə) | 92% | 74% |
| 10 min nəfərə düşən kütləvi kitabxanaların sayı | 13 | 6 |
| 10 min nəfərə düşən klubların sayı | 15 | 5 |
| 10 min nəfərə düşən kinoteatrların sayı | 11 | 3 |
| Əhaliyə düşən mənzil fondu (kvadrat metrlə) | 14.6 | 11.6 |
| 100 nəfərə düşən telefonların sayı | 12 | 8 |

*Mənbə: https://story.karabakh.center/28 əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır, 2022*

**Açar sözlər:** *sənaye, kənd təsərrüfatı, sosial həyat, Dağlıq Qarabağ.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanın statistik göstəriciləri. Statistik məcmuə / 2022. Bakı: 2022, 748 s.*

*2. Azərbaycan SSR Xalq Təsərrüfatı 1988-ci ildə. İllik statistik hesabat. Bakı. 1990.*

*3. Dağlıq Qarabağda və onun ətrafında baş verən hadisələr. Qəzet səhifələrinə əsasən. Bakı. 1989.*

*4. Leyla Rəşid, "İşğaldan azad edilmiş rayonların iqtisadi potensialı və inkişaf perspektivləri", Xalq qəzeti - 2020-ci il 9 dekabr, s-9*

*5. Mirzoyan B.S. Dağlıq Qarabağ (Statistikaya dair düşüncələr). Ermənistan SSR Elmlər Akademiyasının İctimai elmlər bülleteni. 1988. №7, səh. 43-56*

*6. Qarabağ İpək Kombinatımn cari arxivi. Əmək şöbəsinin illik hesabatı, 1975.*

*7. R.C.İmanov, "Azərbaycanın ərazi bütövlüyünə qəsd-qondurma Dağlıq Qarabağ Muxtar Vilayəti", "Adiloğlu nəşriyyat", Bakı. 2005.*

*8. Səmədzadə Z. Dağlıq Qarabağ: naməlum həqiqətlər. Bakı. 1995.*

*9. "Yeni Qarabağnamə-Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında post-konflikt quruculuğu", Bakı, 2022, "AzPrint" nəşriyyatı, 217 səh. ISBN: 987-9952-8453-1-0.*

*10. Armenia-Azerbaijan Nagorno-Karabakh conflict Report https://armenia-azerbaijan-conflict.com/report*

*11. World Bank operation evaluation department.1998 "Post-Conflict Reconstruction.https://documents1.worldbank.org/curated/en/175771468198561613/pdf/multipage.pdf*

*12. https://story.karabakh.center/28*

*13. www.stat.gov.az*

## СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ ТЕРРИТОРИЙ, ОСВОБОЖДЕННЫХ ОТ ОККУПАЦИИ, В ПЕРИОД ДО ОККУПАЦИИ

Освобожденные от оккупации территории имеют историческое и культурное значение, очаровательную природу, широкий экономический потенциал, в том числе богатые наземные и подземные ресурсы, туристические возможности. Рассматриваемые территории являются регионами, богатыми сельскохозяйственным производственным потенциалом. Исторически сложились регионы с очень благоприятными условиями как по сырьевой базе, так и по производству продукции аграрной перерабатывающей промышленности. Если обратить внимание на исторические и статистические данные, то отчетливо видно, что в результате армянского грабежа социально-экономическое положение региона значительно ухудшилось. С 1950 по 1985 год промышленное производство Нагорно-Карабахской области стабильно и неуклонно развивалось, но после 1987-1988 годов в результате пережитых в регионе войн наблюдался резкий спад и регресс. Основной развитой отраслью области является пищевая отрасль, специализирующаяся на виноделии, шелководстве, производстве мяса и молока. Кроме того, регион имеет богатые подземные и поверхностные ресурсы и эффективную экосистему.

**Ключевые слова:** *промышленность, сельское хозяйство, общественная жизнь, Нагорный Карабах.*

**THE SOCIO-ECONOMIC CONDITION OF THE TERRITORIES FREED FROM THE OCCUPATION IN THE PERIOD BEFORE THE OCCUPATION**

The territories freed from occupation have historical and cultural significance, along with their fascinating nature, and have a wide economic potential, including rich surface and underground resources, and tourism opportunities. The areas in question are regions rich in agricultural production potential. Historically, there have been regions with very favorable conditions in terms of both the raw material base and the production of agrarian processing industry. If we pay attention to the historical and statistical data, it is clearly seen that as a result of the Armenian looting, the socio-economic situation of the region has deteriorated considerably. From 1950 to 1985, the industrial production of the Nagorno-Karabakh region developed steadily and steadily, but after 1987-1988, as a result of the wars experienced in the region, sharp decline and setbacks were observed. The main developed industry of the region is the food sector, specializing in winemaking, sericulture, meat and milk production. In addition, the region has rich underground and surface resources and an efficient ecosystem.

**Keywords:** *industry, agriculture, social life, Nagorno-Karabakh.*

UOT 339.187; 339.13; 339.146; 658.8

# AZƏRBAYCANDA MARKETİNQ FƏALİYYƏTİNİN İNKİŞAFINA DAİR

**SÜBHİ MƏHƏRRƏMLİ**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail:s.maharramli@xsq.az*

İdarəetmə nəzəriyyəsi və praktikasının inkişafındakı dünya tendensiyaları Azərbaycanda da marketinq sisteminin formalaşdırılması zərurətini yaratmışdır. Cəmiyyətin inkişaf tendensiyaları, zamanın xarici mühitin əlaqəsi ilə sıx bağlı olan Qərb marketinq təcrübəsi onların keçid dövrünün milli iqtisadiyyatında tətbiqi üçün bəzi maneələr yaratmış və marketinqin inkişafının yerli təcrübəsi Qərbin inkişaf etmiş ölkələri üçün qeyri-adi problemlərin yaranmasına səbəb olmuşdur. Bütün bu problemlər Azərbaycanda keçid iqtisadiyyatının problemləri nəzərə alınmaqla yalnız ölkəmizə xas olan yeni sistemin formalaşmasına zəmin yaradıb. Sənayeləşmiş ölkələrdə marketinq problemləri mühüm yer tutur və onların həllinə geniş yer verilir. Azərbaycanda bu problemlərin həllinə hərtərəfli baxılmır, yalnız marketinqin ayrı-ayrı aspektlərinin öyrənilməsi izlənilir.

Müəssisənin əsasını təşkil edən və səmərəli fəaliyyət göstərməsinə töhfə verən mühüm göstəricilərdən biri də marketinq problemlərinin həllidir. Marketinq sisteminin, demək olar ki, bütün fəaliyyət göstərən müəssisələrdə mövcud olmasına baxmayaraq, idarəetmənin təşkilində onun rolu, inkişaf səviyyəsi və həm də onun effektivliyi çox fərqli ola bilər. İri və orta sahibkarlığın marketinq fəaliyyəti xüsusi ayrılmış bölmələr və ya şöbələr tərəfindən idarə olunursa, kiçik biznesdə bunu bir şəxs, xüsusən də müəssisə rəhbəri həyata keçirir. Müxtəlif məqsədlər üçün məhsul və xidmətlərin yaradılması və satışı marketinq qarışığı vasitəsilə idarə olunur. İnkişaf etmiş iqtisadiyyatda marketinq sisteminin səmərəsiz işləməsi əhəmiyyətli gəlirlərin itirilməsinə gətirib çıxarır, həm də böyük itkilərə səbəb ola bilər. Rəqabət, xarici iqtisadi mühitin qeyri-sabit mövqeyi, bazar münasibətlərində dezinformasiya həm ümumi mühitin, həm də konkret bazarların daha dərin informasiya təhlilinə kömək edir [8,s. 18].

Azərbaycanın bir çox müəssisə və şirkətləri inkişafda xüsusilə uğurlu deyil. Bir çox müəssisələrdə, xüsusən də son 2 ildə kiçik artım templəri həm ölkə daxilində, həm də xaricdə (yerli şirkətlərin xaricdə təmsil olunduğu hallarda) hiss olunur. Məhsullarını ixrac edən Azərbaycan müəssisələri barmaqla sayılacaq qədərdir. Onlarda da satışın səmərəliliyi və investisiya keyfiyyəti kifayət qədər aşağıdır. Şirkətlərimizin və qonşu dövlətlərin şirkətlərinin yerli bazarlarda həyata keçirdikləri marketinq kampaniyalarının keyfiyyəti ilə məhsulların keyfiyyətinin müqayisəsi bir çox hallarda həm məhsulların keyfiyyətində, həm də satışın artırılmasına yönəlmiş marketinq kampaniyalarında əsas çatışmazlıqları aşkar edir. Ekspertlər hesab edirlər ki, müəssisənin effektivliyini ölçməyin ən doğru yolu, xərclər çıxıldıqdan sonra gəlir səviyyələrinin ölçülməsidir. Bununla belə, yüksək gəlirlər göstərən bəzi Azərbaycan şirkətləri və müəssisələri aşağıdakı səbəblərdən artıq mənfəət əldə edə biliblər:

1. Əsas rəqiblərin olmaması
2. İnzibati təzyiq yolu ilə satışları artırmaq üsullarından istifadə [1,s.44-45].

Müəssisələrin və şirkətlərin marketinq hərəkətlərinin səmərəsizliyi marketinq departamentlərinin aşağı səmərəliliyi, qısamüddətli investisiyaların gəlirlilik faizinin aşağı olması ilə izah olunur. Sual yaranır: marketinq hərəkətlərinin effektivliyini necə artırmaq olar? Əgər marketinq hərəkəti zamanı, istər yeni məhsulun, istər kampaniyanın, istərsə də aksiyanın buraxılması, marketinq hərəkətinin mərhələlərinin keyfiyyətsizliyi Azərbaycanın timsalında, çox vaxt marketinq tədqiqatlarının tam olmadığı halda, problem məhz marketinq tədqiqatının olmaması və ya aşağı effektivliyindədir. Marketinq tədqiqatını cari məlumatların toplanması və təhlili ilə qarışdırmaq olmaz. Marketinq tədqiqatının əsas xüsusiyyəti konkret marketinq probleminin həllinə diqqətin yönəldilməsidir.

Xaricdəki uğurlu müəssisələrdə aparılan tədqiqatların kəmiyyət və keyfiyyəti o qədər yüksəkdir ki, bununla əlaqədar olaraq əks problem - şirkətlərin qısamüddətli mənfəət axtarışında mürəkkəb bazar təhlili ilə məşğul olması adi haldır. Bu, şirkətlərin rəhbərliyini biznesin aparılmasına intuitiv yanaşmadan uzaqlaşmağa məcbur edir. Azərbaycanda 90% hallarda şirkət rəhbərliyi marketinq araşdırmalarının

lazım olmadığını düşünür. Marketinq hərəkətlərinin aparılması qərarı tədqiqat məlumatlarının təhlilinə əsaslanmır və marketinq layihələrinin effektivliyi ilə bağlı tədqiqatlar, ümumiyyətlə, aparılmır. Biznes liderləri öz intuisiyalarına həddən artıq güvənir və yalnız öz təcrübələrinə və müəyyən müddət ərzində onlara çatan sistemləşdirilməmiş məlumatlara güvənərək çoxlu büdcə marketinq vəsaitləri xərcləyirlər. Nəticə nədir?

1. İstədiyiniz qeyri-maddi effekti verməyən uğursuz imic kampaniyaları;

2. Yeni məhsulların aşağı satışı;

3. Əsasən maddi effektə yönəlmiş reklam kampaniyalarının aşağı göstəriciləri;

4. Marketinq addımından sonra brend qavrayışının, ümumiyyətlə, öyrənilməməsi və promosyon və kampaniyaların aparılması zamanı nəzərə alınmaması səbəbindən brend qavrayışının absurd modelləri;

5. Xidmətin aşağı səviyyəsi və nəticədə aşağı müştəri məmnuniyyəti [8, s.19].

Ən yaxşı halda, tədqiqat rəhbərləri marketoloqun tapşırıqlarının siyahısına müraciət edirlər. Yaxud Azərbaycanda necə deyərlər, "Marketinq menecerləri". Prinsipcə, "marketinq menecerlərinin" vəzifələrinə tez-tez birbaşa satışın daxil olduğu bazarda təəccüblənəcək heç nə yoxdur. Bəzi mütərəqqi şirkətlərə marketinq departamentinə belə tədqiqatların aparılmasında ixtisaslaşan işçilər daxildir ki, bu da onların marketinq tədqiqatları üçün ümumi xərclərini stolüstü təhlillər və tədqiqatlar aparmaqla azaldır, bu da müəssisəyə xeyli az xərc çəkir. Ancaq bu daha ucuz, daha yaxşı demək deyil. Bununla belə, əksər stolüstü tədqiqatların praktikliyi şübhə doğurur. Birincisi, məlumatların toplanması və təhlili üçün ən vacib şərtlərdən biri - obyektivlik - tamamilə yoxdur. Marketinq araşdırması aparan marketinq şöbəsinin özü çox vaxt nəticələrini öz məqsədlərinə və menecerlərin ambisiyalarına uyğunlaşdırır. Bununla belə, marketinq departamenti əhəmiyyətli və yüksək sərmayə qoyulmuş marketinq addımı (məsələn, yeni məhsulun buraxılması) üçün düzgün təşkil olunarsa, ən təsirli yol stolüstü tədqiqat və tədqiqatın cəlb edilməsi ilə birləşdirilməsidir. Marketinq tədqiqatı ilə müştəri şirkətlərə ötürülən məlumatların təhlili tədqiqat nəticəsində "məsləhət", "təkmilləşdirmə yolları" problemlərini ehtiva etməməli, toplanmış məlumatların emalının yalnız analitik hissəsini ehtiva etməlidir. Bu halda, əgər şirkət özü əldə edilmiş analitik nəticələrin effektiv işlənməsinin öhdəsindən gələ bilmirsə, marketinq addımının planlaşdırılması üçün ən yaxşı sxem aşağıdakı kimi olmalıdır: "Brend üzrə şirkət-Tədqiqat - Marketinq - Konsaltinq agentliyi - Müştərinin şirkətinin marketinq şöbəsi" [5,s.112-113 ].

Azərbaycanda marketinq tədqiqatları bazarında ilk şirkətlərin 90-cı illərin birinci yarısında meydana çıxması, ümumiyyətlə, qəbul edilir. Bu gün Azərbaycanda aparıcı tədqiqat şirkətləri əsasən biznesin "köhnələri"dir. Ancaq hətta bu sahədə liderlərin, Era, Siar, Business Insight və sair kimi şirkətlərin dövriyyəsini müqayisə edəndə və bərabərləşdirərkən onların Qazaxıstan, Gürcüstan, Rusiya və ya Türkiyə bazarlarının şirkətləri ilə müqayisə oluna bilməz dərəcədə olduğu aydın görünür.

Azərbaycanda bir çox şirkətlərdə marketinq tədqiqatlarının aparılmaması problemləri bu müəssisələrin idarə edilməsinin ümumi səmərəsizliyi və hər hansı məqsədə çatmaq üçün inkişaf istiqamətləri və planlarının dəqiq anlaşılmaması ilə bağlıdır. Bu "vitse" səmərəsiz idarəetmənin daha bir "beyin övladı"nın yaranmasına səbəb olur. Yuxarı rəhbərliyin marketinq addımlarına nəzarətin yoxluğu, əsas fəaliyyət göstəriciləri üçün aydın çərçivənin olmaması səbəbindən irəli gəlir. 2015-ci ilə qədər Azərbaycanda maliyyə sektorunda, istehsal və satış sektorunda, eləcə də digər xidmət sahələrində müəssisələrin əhəmiyyətli hissəsi ciddi gəlir əldə etmişdir. Xərclənən vəsaitlərin səmərəliliyi heç kəsi həqiqətən maraqlandırmırdı. Nəticədə xərclənmiş büdcəyə yuxarı rəhbərliyin nəzarəti minimal idi. İndi 2015-ci ildən əvvəlki dövrlə müqayisədə ölkədə iqtisadi vəziyyətin əlverişsiz olması səbəbindən müəssisələrin əhəmiyyətli bir hissəsində gəlirlərin azalması dövrü yaşanır, marketinq büdcələri cılızlaşıb və qənaət rejiminə və əsaslı nəzarətə ehtiyac var. Hər kəs bunu başa düşür, lakin bu vəziyyətdə hansı üsulları tətbiq edəcəyini az adam bilir. Bu halda, ağlabatan menecerlər və marketinq departamentlərinin rəhbərləri başa düşürlər ki, marketinq büdcəsi, ən azı, eyni həcmdə saxlanılmalıdır. Bazarın daralması o deməkdir ki, müəyyən marketinq alətlərinin təzyiqini artırmaq lazımdır. Bununla belə, indi ehtiyac duyulan dəqiq, marketinq hərəkəti ilə hədəflənən auditoriyanın dəqiq başa düşülməsi və ölçülməsi, daha sonra isə dərhal effektiv xərclərə səbəb olacaq əsas nəticə göstəricilərinin ölçülməsidir. Bu keçid mərhələsində şirkətlərə lazım olan ilk vasitə nədir? Aşağıdakı məqamlar bu sualın cavabının tapılmasına yönəldilmişdir.

1. Nə olursa-olsun, bu gün bazarda ümumi mövqeləşdirməni başa düşmək. Təəssüf ki, Azərbaycanda bir çox şirkət rəhbərləri müştərilərinin şirkətə münasibəti ilə bağlı illüziyalarla yaşayırlar. Azərbaycanlı müştərinin müəssisələrə bağlılığı aşağıdır. Bunda isə rəhbərlik günahkardır. Müəssisənin müştərilərinin və qeyri-müştərilərinin onu necə gördükləri və hazırda necə qəbul etdikləri ilə bağlı reallıqları başa düşmək üçün brendin qavranılması və qiymətləndirilməsi araşdırmasına ehtiyac var və büdcə imkan verirsə, bu araşdırmanı ixtisaslaşmış bazara həvalə etmək daha yaxşıdır. Əgər şirkətin miqyası böyük deyilsə, müştəri bazasının "əlaqələri" əsasında stolüstü təhlil aparmaq və rəqiblərin müştərilərindən minimal məlumat əldə etmək mümkündürsə, mütləqdir.

2. Ümumi inkişaf strategiyasına əsaslanan marketinq strategiyasının aydın qurulması. Bu mərhələ şirkətdəki vəziyyəti düzəltmək üçün ən vacib və çətin hesab edilir. İri şirkətlərə yenə də təcrübələri ilə bağlı ciddi, müsbət halları olan agentliklərdən kənar konsaltinq yardımına müraciət etmələri və birinci mərhələdə, mövcud vəziyyətin başa düşülməsi mərhələsində əldə edilmiş analitik məlumatlar üzərində işi onlara həvalə etmək tövsiyə olunur. Əgər şirkətin miqyası kiçikdirsə, bu mərhələ tamamilə müəssisənin marketoloqlarının çiyninə düşür. Burada planlaşdırılmış strategiyanın bazara münasibətdə adekvatlığını aydın başa düşmək və müqayisə etmək vacibdir, onun ümumi mənzərəsi bazarın transsendental məqsədlərinin qurulması deyil, masa üstü tədqiqatlar əsasında əldə edilmişdir.

3. Əsas marketinq addımları ilə hədəflənən bazarın, hədəf qrupunun və malların xüsusiyyətlərinin tədqiqinin aparılması. Aydın şəkildə başa düşülməlidir ki, sadə bir stolüstü araşdırma aparmaq və ya kənar şirkət cəlb etmək müəssisəni səmərəsiz promosyonlara, kampaniyalara, məhsullara, rebrendinq və digər marketinq addımlarına "boşa xərclənən" on minlərlə manata qənaət edəcək. Gələcəkdə rəqiblərin, qiymətlərin, məhsul siyasətinin, istehlakçı davranışının öyrənilməsinin və s. sistemli tədqiqatlarına ehtiyac vardır.

4. Xidmət sektorunda fəaliyyət göstərən şirkətlər üçün "Sirli Alıcı" kimi "keyfiyyətli" xarakterli araşdırmalar aparmaqla, habelə istehsal və xidmətlərlə məşğul olan şirkətlər üçün satış kanallarının və üsullarının effektivliyinin araşdırılması yolu ilə göstərilən xidmətlərin məcburi ölçülməsi vacibdir. Xidmətlərdən istifadə edərkən müştərinin nə ilə üzləşdiyini görmək xidmətin aspektlərini yaxşılaşdırmaq üçün açardır. Hətta kiçik şirkətlər də bu araşdırmaları həyata keçirə bilər. Birincisi, bu cür tədqiqatlar "kəmiyyət" marketinq tədqiqatından qat-qat az başa gəlir, ikincisi, marketinq şöbəsinin müəyyən çevikliyi ilə bu tədqiqatı özünüz edə bilərsiniz. Yadda saxlamaq lazımdır ki, "Sirli Alıcı" və ya obyektlərin və satış kanallarının monitorinqi bir dəfə həyata keçirilsə, istənilən effekti verməyəcək. Bu tip tədqiqatların 4 dalğada (ildə 4 dəfə) aparılması, xidmətin təkmilləşdirilməsi istiqamətində atılan addımların effektivliyinin aydın təsviri üçün zəruri olan minimum şərtdir.

5. Ümumi məcburi tədqiqatlar səbətinin sonuncu bəndi reklamın effektivliyi səviyyəsinin ölçülməsidir. Bu günə qədər performansın qiymətləndirilməsi ilə bağlı dəqiq bir anlayış yoxdur, ümumiyyətlə, reklam kampaniyalarının effektivliyini qiymətləndirmək üçün 10-a qədər üsul mövcuddur. Səmərəliliyin ölçülməsini ən azı kommunikativ effektivliyin ölçülməsi ehtiva edir. Reklamın səmərəliliyinin ölçülməsi kommunikativ effektivlikdən qat-qat çətin bir məqamdır [6,s.117].

Reklamın effektivliyinin ölçülməsi çox mürəkkəb və dərin bir prosesdir və geniş metodologiyaya malikdir və bu, ən yaxşı şəkildə peşəkar tədqiqat şirkətlərinə həvalə edilir. İnsanların işlədiyi və ya idarə etdiyi müəssisədəki vəziyyəti nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, marketinq tədqiqatları marketinq addımlarının səmərəliliyini artırmaq üçün ən yaxşı vasitədir. Bunun anlayışı gec-tez Azərbaycan şirkətlərinin rəhbərliyinə gəlib çıxacaqdır. Bu gün qəti şəkildə başa düşmək lazımdır ki, məhsulların reklamı və təşviqi üçün marketinq xərclərinin azaldılması çıxış yolu deyil. Çıxış yolu marketinq büdcələrinin konyunkturasını dəyişdirməkdir, burada xərclər marketinq tədqiqatları və sonrakı effektiv reklam xərcləri arasında balanslaşdırılmış şəkildə bölüşdürüləcəkdir [4].

Marketinq kompleksinin təkmilləşdirilməsi prosesində əhatə dairəsinin genişləndirilməsi əsas hərəkətverici amillərdən biridir. Təcrübənin göstərdiyi kimi, marketinq dəyişikliklərinə ehtiyacı olan əksər müəssisələr məlumatı yalnız platformaların birində yayırlar. Belə platformalardakı məlumatlar bir neçə ay ərzində dəyişir, bu da məlumatların paylanmasını gecikdirir. Ümumi marketinq sisteminin təkmilləşdirilməsi təkcə müəssisənin daxili vəziyyətinin

yaxşılaşdırılması ilə deyil, həm də xarici amillərlə sıx bağlıdır [10,s.58]. Məhz rəqabət, çox vaxt firmaların fəaliyyətinə güclü təsir göstərir, ya gələcək inkişaf üçün motivasiya edir, ya da digər firmanı ötüb çökdürür. Bütün kommersiya müəssisələri rəqiblərin təhlilini aparır, lakin təcrübə göstərir ki, əksər hallarda bu, təklif olunan məhsul və xidmətlərin adi keyfiyyət nəzarətindən və məsafədən ümumi təhlildən kənara çıxmır. Rəqabətli firmanın vəziyyətini daha dərindən başa düşmək üçün marketoloqlar istehlakçılarla sıx şəxsi əlaqələr qurmalı, onların rəqabətədavamlı məhsullar haqqında dəqiq nəyi bəyəndiklərini və satışları artırmaq üçün bu şirkətin nəyin çatışmadığını öyrənməlidirlər. Bu addım təkcə istehsalın çatışmazlıqlarını müəyyən etməyə kömək etməyəcək, həm də istehlakçılara psixoloji təsir göstərəcək, alıcıların diqqətini yüksək qiymətləndirəcək [ 9, s.132].

Marketinq sahəsində aparılan elmi araşdırmalar göstərir ki, əksər müştərilər onların fikrinə az diqqət yetirilməsindən narazı qalırlar. Marketinqin təkmilləşdirilməsi prosesində kompleks, müştərilərlə sıx əlaqə yaratmağa diqqət yetirən müəssisələr xüsusi məzmun yaradır, istehlakçıların rəylərini, onların təkliflərini nəzərə alan layihələr həyata keçirir, bununla da dəstək göstərirlər. Müştərilərlə sıx təmasların qurulması və onların bir-biri ilə əlaqəsi məhsulların əhatə dairəsini genişləndirməyə kömək edir.

Bildiyiniz kimi, SSRİ-nin dağılması ilə əlaqədar keçmiş respublikalar, o cümlədən Azərbaycan Respublikası öz milli iqtisadiyyatlarının sürətli inkişafı üçün səy göstərməyə başladılar və bu məqsədlə öz milli iqtisadi modelini formalaşdırmaq lazım gəldi. Axı bu ölkələr müstəqillik əldə etdikdən sonra qloballaşma şəraitində bazar münasibətlərinin çoxsaylı elementlərinə yiyələnməli və öz immunitetlərini inkişaf etdirməli, bununla da iqtisadiyyatın dayanıqlı sektorlarını yaratmalı və bütün ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmalı idilər.

Azərbaycan Respublikası təbii ehtiyatlarla zəngindir və hasilat sənayesində (xüsusilə neft və qaz), qeyri-neft sektorlarında, o cümlədən rəqabətqabiliyyətli sənayedə güclü potensiala malikdir [2 ]. Ölkə çoxlu mineral və xammal ehtiyatlarına malikdir. Azərbaycan ən çox 100 ildən artıqdır intensiv şəkildə hasil edilən neft və yanacaq-enerji ehtiyatları ilə məşhur idi. Müstəqillik əldə etdikdən sonra milli neft strategiyasının həyata keçirilməsinə başlanıldı, bu da ölkənin iqtisadi inkişafının sürətləndirilmiş modelinin hazırlanmasına, xüsusən də sənaye sahələrinin inkişafına güclü təkan verdi [3,s.78]. Son 10 ildə Azərbaycanda neft hasilatı təxminən 5 dəfə artmışdır. Qeyd edək ki, ölkədə karbohidrogenlərin təsdiq edilmiş ehtiyatları neft ekvivalentində 4 milyard ton təşkil edir. Son 5 ildə ölkə iqtisadiyyatı 2,6 dəfə, büdcə xərcləri isə 10 dəfədən çox artmışdır. Ölkədə sosial-iqtisadi problemlər uğurla həll edilir, 766 min iş yerinin yaradılması hesabına yoxsulluğun və işsizliyin səviyyəsi kəskin şəkildə azalmışdır. Azərbaycan enerji və nəqliyyat sahəsində bütün iri regional layihələrin təşəbbüskarı və fəal maliyyə donorudur. Ölkə iqtisadiyyatı sürətlə güclənir, iqtisadiyyatın real sektorlarının sənayeləşdirilməsi ən yüksək imkanlardan istifadə etməklə həyata keçirilir [7]. Dünyada baş verən maliyyə böhranına baxmayaraq, Beynəlxalq Valyuta Fondunun (BVF) proqnozlarına görə, 2009-cu ildə Azərbaycanda ÜDM-in artımı 2,5% səviyyəsində olmuşdur. Azərbaycanın inkişaf üçün böyük potensiala malik olduğunu vurğulamaq lazımdır. Lakin müasir şəraitdə Azərbaycanın yanacaq-energetika və xammal sektorları emal sənayesi sektorlarından daha rəqabətli hesab olunur. Əsasən sənaye sahələrindən ibarət olan emal sahələrinin rəqabət qabiliyyətinin olmamasının əsas səbəbi onların geridə qalması və modernləşdirilməsinin ləngiməsidir. Belə ki, bu sənayelərdə müasir texnologiyalardan, innovasiyalardan və innovativ marketinq konsepsiyalarından istifadə böyük ölçüdə yoxdur. Sənaye sahələrində (neft-kimya, qara metallurgiya, neft-qaz maşınqayırması, cihazqayırma və s.) innovasiyanın, müasir idarəetmə strukturlarının və innovativ marketinq bölmələrinin formalaşdırılmasının effektiv elementləri yoxdur. Dünyada baş verən maliyyə böhranı şəraitində və qlobal rəqabət mühitində Azərbaycan rəqabətqabiliyyətli ixracyönümlü və yüksəkgəlirli sənaye məhsullarının yaradılmasını sürətləndirməlidir ki, bu da ölkənin bütün iqtisadiyyatının şaxələndirilməsini sürətləndirmək, onun dünya ölkələri arasında rəqabət qabiliyyətini təmin etmək və iqtisadiyyatdan asılılığı azaltmaq siyasətinin reallaşdırılmasına gətirib çıxaracaqdır. Bu məqsədlə qlobal rəqabət şəraitində ölkə sənayesinin inkişafında innovasiya və marketinqin rolunun gücləndirilməsi ölkə iqtisadiyyatının inkişafının prioritet istiqamətlərindən biri hesab olunur.Vurğulamaq lazımdır ki, Azərbaycanda innovasiya fəaliyyəti, yalnız yeni vüsət almağa başlayıb, yəni bu proseslər ilkin mərhələdədir və təbii ki, Azərbaycanda marketinqin innovativ inkişafı hələ başlanğıc mərhələsin-

dədir, başqa sözlə, onun ayrı-ayrı elementlərindən danışmaq olar.

Əgər innovativ və marketinq birləşməsini vahid kompleksdə nəzərdən keçirsək, onda aparılan tədqiqatların nəticələrinə əsasən güman etmək olar ki, əgər ölkənin müəyyən sənaye sahələrində innovativ marketinqdən istifadə intensivləşərsə, yerli və marketinqin ümumi fəaliyyəti regional sənaye subyektləri stimullaşdırıla bilər, ayrı-ayrı iri müəssisələrin və iqtisadiyyat sahələrinin rəqabət qabiliyyəti yüksələr, proseslər intensivləşərdi. Azərbaycan brendlərinin dünya əmtəə bazarlarında, beynəlxalq məkanlarda iştirakı və s. Azərbaycan sənayesinin müxtəlif sahələrində innovativ marketinqin uğurlu tətbiqi şəraitində dünyada maliyyə böhranı və qlobal rəqabət mühitində zəruri qoruyucu immunitetin formalaşması ilə bu sahələrin sürətləndirilmiş və davamlı inkişafı proqnozlaşdırılır. Fakt budur ki, Azərbaycanda zəngin təbii sərvətlər və sənayeləşmənin inkişafı sayəsində təkcə neft və qaz hasil edilmir, eyni zamanda neft-kimya və kimya sənayesi, ağır sənaye, qara və əlvan metallurgiya, maşınqayırma, elektrotexnika, yüngül və yeyinti sənayesi, tikinti sənayesi inkişaf etdirilmişdir, nəqliyyat infrastrukturu və prioritet sahələrin uğurlu inkişafı üçün digər mühüm amillər mövcuddur və bununla da qeyri-neft sektorunun iqtisadiyyatda rolunu gücləndirməyə imkan verir. Lakin təəssüf ki, hazırda ölkənin sənaye sahələrinin potensialından kifayət qədər istifadə olunmur. Məsələn, kimya kompleksində güclü infrastruktur imkanları olduqda istehsal müəssisələrinin fəaliyyəti minimaldır və hazırda onların emal güclərinin cəmi 20-25%-i istifadə olunur. Kimya müəssisələrində və qara metallurgiya müəssisələrində əsas fondların yenilənməsi və istehsal güclərinin müasirləşdirilməsi təmin edilmir, neft-qaz və neft-kimya maşınqayırması müəssisələrinin mövcud güclərindən səmərəsiz istifadə olunur. Ümumiyyətlə, digər sənaye sahələrinin də tam təmirə və yenidənqurmaya ehtiyacı vardır. Bundan əlavə, ölkə sənayesinin bütün sahələrində müasir şəraitdə bu sektorların davamlı inkişafı üçün fundamental marketinq konsepsiyalarının işlənib hazırlanmasını sürətləndirməyə kömək edəcək innovativ marketinqdən istifadə etməklə idarəetmə strukturunun təkmilləşdirilməsi zəruridir. Marketinq konsepsiyalarının məharətlə təşkili sayəsində bir sıra Azərbaycan şirkətləri öz brendləri ilə dünya əmtəə bazarlarına inteqrasiya etməyə başladılar [11]. Bundan əlavə, Azərbaycanda Elmi İnnovasiyalar Mərkəzi fəaliyyət göstərir və 340-a yaxın elmi-tədqiqat və təkmilləşdirmə layihəsi qeydə alınıb [12]. Elmi İnnovasiyalar Mərkəzi texnologiyaları və innovativ potensialı təhlil edir, innovativ texnologiyalara olan tələbləri öyrənir, ölkə iqtisadiyyatının müxtəlif sahələrində, əsasən sənaye sahələrində innovativ marketinq proseslərinin gücləndirilməsi məqsədilə ekspert rəyləri və bir sıra digər tədbirlər təşkil edir. Ümumiyyətlə, milli innovasiya sistemi, innovasiya proseslərinin idarə edilməsi strukturu və innovativ marketinq konsepsiyaları formalaşır [13].

Suverenliyin bərqərar olduğu gündən Azərbaycan iqtisadiyyatı sistemli dəyişikliklərin çətin mərhələlərindən keçir ki, bu da milli iqtisadiyyatı keçid iqtisadiyyatı kimi müəyyən edir. Bu tip iqtisadiyyat iqtisadi fəaliyyətin şərtlərini, istiqamətlərini və strukturunu tamamilə dəyişir, subyektləri, müəssisə və şirkətləri idarə etməyin tamamilə yeni sistem və üsullarını formalaşdırır. Bu prosesdə əsas nəzarət elementi - marketinq ön plana çəkilir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Abbasov İ.M., Məmmədova Z.M., Quliyev E.N. Rəqabət və marketinq. Monoqrafiya. Bakı, 2012.*

*2. Əliyev S. Dünyada rəqabət mühitində Azərbaycan Respublikası sənayesinin inkişafında innovasiya və marketinqin rolu.İqtisadi tənzimləmə mexanizmi, PCS. 2009, № 3, V. 2264 sektor*

*3. Алиев Ш.Т. Влияние финансового кризиса мира на экономические процессы Азербайджанской Республики, «Финансы и кредит», № 8 (344)-февраль-2009, Москва, 2009,с. 78-82.*

*4.Забытые маркетинговые исследования, https://banco.az/ru/news/zabytye-marketingovye-issledovaniya*

*5. Конкурентноспособности экономики оценки и факторы роста в контексте интеграционных процессов. / Под общей редакцией З. Стаховяка, М. Зеленкевич, Минск,2016, 216 с*

*6. Ламбен, Ж. - Ж. Менеджмент, ориентированный на рынок / Ж. - Ж. Ламбен, Р. Чумпитас, И. Шулинг. – Санкт- Петербург, Питер, 2013*

*7. Материалы Министерства Экономического Развития Азербайджанской Республики. // http://www.economy.gov.az*

*8. Юсифов Д.Р. Вопросы роста конкурентоспособности экономики Азербайджанской Республики // Диссертация на соискание ученой степени кандидата экономических наук. Баку, 2010.*

*9. Baker Michael J. and Saren Michael, Marketing Theory A Student Text, London, SAGE Publications Ltd 2010*

*10. Douglas, Edna (1975) Economics of Marketing, New York: Harper & Ro*

*11. http://www.capital-ru.trend.az*

*12. http://www.innovbusiness.ru*

*13. http://www.azerizv.az*

## XÜLASƏ

SSRİ-nin dağılması ilə əlaqədar keçmiş respublikalar, o cümlədən Azərbaycan Respublikası öz milli iqtisadiyyatlarının sürətli inkişafı üçün səy göstərməyə başladılar və bu məqsədlə öz milli iqtisadi modelini formalaşdırmaq lazım gəldi. Axı bu ölkələr müstəqillik əldə etdikdən sonra qloballaşma şəraitində bazar münasibətlərinin çoxsaylı elementlərinə yiyələnməli və öz immunitetlərini inkişaf etdirməli, bununla da iqtisadiyyatın dayanıqlı sektorlarını yaratmalı və bütün ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini artırmalı idilər.

**Açar sözlər:** *Marketinq, müəssisə, xidmət sektoru, rəqabət, bazar təhlili.*

## О развитии маркетинговой деятельности в Азербайджане

## РЕЗЮМЕ

В связи с распадом СССР бывшие республики, в том числе и Азербайджанская Республика, стали прилагать усилия для быстрого развития своих национальных экономик, и для этого необходимо было сформировать собственную национальную экономическую модель. Ведь после обретения независимости этим странам предстояло освоить многие элементы рыночных отношений в условиях глобализации и выработать свой иммунитет, создав тем самым устойчивые отрасли экономики и повысив конкурентоспособность всей экономики страны.

**Ключевые слова:** *маркетинг, предприятие, сфера услуг, конкуренция, анализ рынка.*

## On the development of marketing activity in Azerbaijan

## SUMMARY

Due to the collapse of the USSR, the former republics, including the Republic of Azerbaijan, began to make efforts for the rapid development of their national economies, and for this purpose, it was necessary to form their own national economic model. After all, after gaining independence, these countries had to master many elements of market relations in the conditions of globalization and develop their immunity, thereby creating stable sectors of the economy and increasing the competitiveness of the entire country's economy.

**Keywords:** *Marketing, enterprise, service sector, competition, market analysis.*

UOT 657; 311.216; 336.717.6

# MATERİAL EHTİYATLARININ ANALİTİK UÇOTU VƏ UÇOTUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ

**TURAL ƏLƏKBƏROV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant*
*E-mail: turalalekberov282@gmail.com*

Müəssisəyə gətirilən hər bir material ehtiyatlarının, sənədlərdə qeyd edilən miqdarda, göstərilən keyfiyyətdə olub-olmaması üçün ciddi yoxlanılması hər bir müəssisə üçün vacib şərtdir, əhəmiyyətlidir. Material ehtiyatları müəssisəyə gətirildikdən sonra onların növləri müvafiq şöbənin əməkdaşı, əgər o, yoxdursa, digər bu işi icra edən əməkdaş tərəfindən anbara təhvil verilir. Qaimələri, gətirilən ehtiyatların hesablaşma sənədlərini qeydiyyata almaq, yoxlamaq və sair üçün öncə təchizat şöbəsinə, sonra mühasibatlığa verilir. Artıq anbara daxil edilən ehtiyatların növü, ehtiyatların miqdarı üçotu bu işi icra edən maddi-məsul şəxs tərəfindən anbarın uçotu kartoçkası aparılır. Ehtiyatların hər biri anbara xüsusi nömrələrlə və növləşdirilərək daxil edildiyindən hər biri üçün xüsusi nomenklatur ardıcıllıq ilə anbara yerləşdirilir. Müəssisədə material ehtiyatlarının qaimələri, mədaxil orderləri vasitəsi ilə əldə olunan məlumatlar uçot kartoçkasında qeyd edilir. Bu sənəddə eyni zamanda, həmin ehtiyyatların uyğun olaraq növü, nomenklatur nömrəsi, ölçüsü üzrə qalıq məlumatları çıxarılır. Bu informasiyalar əsasında anbarda məsul şəxs olan çalışan əməkdaş müəssisənin rəhbərinə, digər məsul şəxslərə müxtəlif mövqelər üzrə ehtiyatların vəziyyəti, istifadə olunmayan ehtiyatların qalıqları barədə məlumatları ötürür.

Müəyyən tarix aralıqlarında müəssisənin anbarında mühasib olaraq təyin edilən maddi-məsul şəxs anbarda sənədlərdə qeyd edilən ehtiyatların həqiqiliyini, keyfiyyətini, miqdarını, qeydlərin düzgünlüyünü yoxlayır. Material ehtiyatarının yoxlanılıb bitirilməsindən sonra yoxlama aparan şəxs tərəfindən imzalı sənəd ilə təsdiq edilir.

Anbarda anbardar olaraq təyin edilən maddi-məsul şəxs hər dəfə anbara daxil olan və xaric olan ehtiyatlara görə mədaxil və məxaric sənədlərini və ehtiyatlarla bağlı olan digər zəruri sənədləri (nəqliyyat qaiməsi və s.) mühasibat şöbəsinə verir. Ay başa çatdıqdan sonra isə anbarda olan qalıq ehtiyatlarının miqdarı, növləri, keyfiyyəti barədə məlumatları qalıq kitabında qeyd edir. Bununla belə, hər zaman qalıq sənədlərində qeyd edilən məlumatın düzgünlüyünü, düzgün hesablandığını yoxlamaq lazımdır. Ehtiyatların analitik uçotu təyin edilən maddi-məsul şəxslər tərəfindən pul ifadəsində balans hesablarında, müəyyən qruplara bölünərək ayrılıqda aparılır. Buna görə də mühasibatlığa daxil olan anbar sənədlərinin rəsmi qeyd edilməsi üçün onların düzgünlüyü yoxlanılır, ondan sonra siyahıya alınır. Sonunda mədaxil və məxaric üzrə sənədlərdə göstərilən məlumatlara əsasən ehtiyatlar, sintetik hesablar və onlara müvafiq olaraq uyğun gələn subhesablarda qeyd edilir. Hər ay sonunda isə bütün yığılan informasiyalardan anbarlarda ehtiyatların dövriyyəsini öyrənmək üçün istifadə olunur. Müəssisənin maddi ehtiyatlarını idarə etmək üçün ənənəvi mexanizmlər artan bazar tələblərinə cavab vermir [1,s.119]. Buna görə də ehtiyatların uçotunu Mühasibat Uçotunun Beynəlxalq Standartına uyğun, düzgün aparılması lazımdır. Mühasibat hesabatlarına obyektiv ehtiyac müəssisələrin operativ idarə edilməsinin, gələcək kapital qoyuluşları və maliyyə riskləri haqqında əsaslandırılmış qərarların qəbul edilməsinin tələblərindən irəli gəlir. Bu baxımdan, hesabatda müəssisənin fəaliyyətinin əsas tərəfləri dəqiq və real şəkildə açılmalıdır [7, s.17].

Ümumilikdə anbarda olan ehiyatların istər uçotunu aparmaq, istər hesabat çıxarmaq və s. məqsədlər üçün qısa zamanda müəyyən informasiyalar almaq çox çətindir və vaxt aparan işdir. Bu səbəbdən günümüzdə əl əməyindən istifadəni azaltmaq üçün müəyyən müasir kompüter proqramlarından istifadə olunur. Bu müasir texnologiyalar, müəssisələrdə istifadə olunan müxtəlif kompüter proqramlarının köməyi ilə həmçinin, eyni anda bir sıra məlumatları analiz və müqayisə etmək, qalıqlara baxmaq, gələcək üçün proqnozlar vermək olur. Əlavə olaraq artıq ehtiyatların idarə olunmasında, onların uçota alınmasında müasir texnologiyalardan istifadə informasiyaların bir bazada mərkəzləşdirilməsinə gətirib çıxarır. Bu da öz növbəsində işçilər tərəfindən yarana biləcək təhriflərin qarşısını alır, istənilən zaman çox qısa zamanda lazım olan informasiyalara əlçatanlılıq yaranır, eyni zamanda, eyni vaxt ərzində bir məlumata bir

neçə müəssisə əməkdaşı tərəfindən baxmaq olur. Bu da müəssisə işçiləri üzərində nəzarəti daha yaxşı təmin etmək, yol verilən qanunsuzluqlardan zamanında xəbər tutmaq, itkilərin qarşısının alınması üçün istifadə olunur. Bu səbəbdən, müəssisədə mühasiblərin, anbarda işləyən maddi-məsul şəxsin iş yerində müasir texnologiyalardan istifadə etməsi, lazım olan hesabatların daha yüksək səviyyədə hazırlanmasına gətirib çıxarır. Anbarda baş verən mədaxil-məxaric sənədləri kompüterdə proqram vasitəsi ilə bazaya köçürülür. Bu da öz növbəsində gələcəkdə bu məlumatların qısa zamanda müəyyən yaddaş qurğularına köçürülməsi və ya keçmiş uçot hadisələrinə qısa zamanda əlçatanlılığı təmin edir. Müasir texnologiyalardan istifadə ilə material ehtiyatlarının uçotu üzrə müəyyən ardıcıllıqlar var:

1) Mədaxil, məxaric orderləri, mal qaimələri, nəqliyyat qaimələrinin məsul şəxs tərəfindən qəbul olunması və proqramda qeydiyyatının aparılması;

2) Ehtiyatların uçotu baş verdikdən sonra bu sənədlərin sürətinin çıxarılaraq proqrama yüklənməsi;

3) Lazım olduqda kompüterdə olan ehtiyatlar haqqında məlumatların xüsusi yaddaş qurğularına köçürülərək tələb edilən şəxslərə təqdim edilməsi.

Müəssisədə ehtiyatların uçotunun qarşısında duran əsas şərtlərdən biri də anbar işlərinin təşkilinə xüsusi diqqətin verilməsidir. Material ehtiyatları anbarlarda onların keyfiyyətini itirməyəcək, zədələnməyəcək şəkildə saxlanmalıdır. Əlavə olaraq material ehtiyatları oxşarlıqlarına, xüsusi vəziyyətinə, ölçüsü, istehsal mənşə ölkəsi, istifadə olunma sahələrinə, istehlak dərəcəsinə görə özünəməxsus rəflərdə, anbarda ayrılmış xüsusi yerlərdə yerləşdirilməlidir. Hər hansısa qarışıqlığın qarşısını almaq məqsədi ilə material ehtiyatlarına xüsusi kod verilməlidir. Anbarlar əsasən istifadə olunan əraziyə yaxın olmalıdır ki, material ehtiyatlarının daşınması və quraşdırılmasına çəkilən xərclər minimuma endirilsin. Material ehtiyatlarının uçotunda səhvlərin qarşısının alınması üçün anbardan material ehtiyatlarının çıxarılması zamanı təchizat müdiri, baş mühasibin imzaladığı sənədə əsaslanaraq, çıxarılan ehtiyatın doğruluğunu mühafizə xidməti də yoxlamalıdır. Mühafizə həqiqətən həmin şəxslərin imzaladığı nümunələrin nüsxəsini özündə saxlamalıdır. Anbarlardan material buraxılışı limit-zabor kartları, tələbnamə, qaimə vasitəsi ilə icra oluna bilər.[8,s. 181]. Müəyyən vaxt intervalında əvvəlcədən təyin edilən material ehtiyatlarının istifadəsi zamanı nəzərə alınan miqdardan əlavə xərclər meydana çıxa bilər. Bu xərclər müxtəlif səbəblərdən meydana gələ bilər:

1) Material ehtiyatlarından düzgün istifadə olunmamasına görə itkiyə gedilməsi;

2) İstifadə olunan ehtiyatlarda zay məhsulların sayının nisbətdə çox olması və s.

Müəssisə rəhbərliyi də material ehtiyatlarından istifadə zamanı öz növbəsində artıq istifadə olunan ehtiyatların səbəbini araşdıraraq, baş verən nöqsanları, yanlışlıqların aradan qaldırılması üçün xüsusi addımlar atmalıdır.

Ehtiyatların uçotunun müasir texnologiyalar ilə yaxşılaşdırılması müəssisənin anbar işlərinin avtomatlaşdırılması ilə əlaqəlidir. Təchizatın təkmilləşdirilməsi müəssisənin anbardan normadan artıq ehtiyatlarının istifadəsini azaldır, ehtiyatların istifadə olunma sferasında istifadəsində zaman itkisini azaldaraq istər istehsal, istərsə də xidmət sferasında fəaliyyət göstərən müəssisənin işinin sürətlənməsinə gətirib çıxarır. Bu hər dəfə anbardan hər hansısa ehtiyat tələb olunduqda, onun boşaldılması, sayılması, cərgəyə yığılması işləri zaman edilən əməliyyatların azalmasına səbəb olur. Uçotun belə təşkilinin müxtəlif məqsədləri vardır:

1) Ehtiyatlar müəssisəyə gətirilərkən və ya müəssisədən çıxarılarkən, istifadə olunarkən, əməliyyatların uçotda növlərinə, miqdarına görə qeyd edərək, gələcək əməliyyatlarda vaxt itkilərinin qarşısını almaq;

2) Əgər müəssisə üçün tez zamanda sahib olduğu ehtiyatlar haqqında hesabat tələb olunarsa və ya ehtiyatların cəm dəyəri tələb olunarsa bunun uçot qeydiyyatlarına əsasən tez zamanda verilə bilməsi;

3) Müəssisənin ehtiyatları ilə edilən bütün əməliyyatların analitik uçotunu müəssisənin balans hesabatında sintetik uçotlarda yazılan əməliyyatlarla əlaqələndirmək;

Material ehtiyatlarının maya dəyəri uçotda yazıldıqdan sonra dəyişikliyə məruz qala bilməz.Buna baxmayaraq, müəssisənin ehtiyatlarını yenidən qiymətləndirmək olar. Bu, o zaman baş verə bilər ki, bütün il ərzində müəyyən ehtiyatların növlərinin qiymətində dəyişiklik olarsa, öz dəyərini və ya keyfiyyətini qismən, nəzərəçarpacaq qədər və ya tamamilə itirərsə, yenidən qiymətləndirmək mümkündür. Ehtiyatların qiymətinin yenidən dəyərləndirilməsi zamanı ehtiyatın qiymətində artım və ya azalma müşahidə oluna bilər. Əgər ehtiyatlar xarici valyuta ilə

alınırsa, bu zaman həmin ehtiyatın dəyəri həmin gün üçün Mərkəzi Bankın təyin etdiyi məzənnə ilə manata çevrilməlidir. Ehtiyatların maya dəyərində daxil edilən xərclər özləri iki yerə bölünür:

1. Dolayı xərclər
2. Müstəqil xərclər

Dolayı xərclər dedikdə, burada müəssisənin həmin ehtiyatları əldə etməsi, öz anbarına gətirilməsi zamanında çəkilən bütün xərclər, faiz xərcləri və .s aiddir.

Müstəqil xərclər dedikdə isə, burada müəssisənin aldığı ehtiyatların faktiki dəyəri aid edilir. Yəni müəssisə öz təsərrüfat fəaliyyəti üçün satın alınan ehtiyatların dəyəri aid edilir.

Ehtiyatların istifadə olunması üzrə qiymətləndirilməsi əsas 3 metod ilə aparılır:

1. FİFO metodu
2. LİFO metodu
3. AVCO metodu (orta maya dəyəri ilə)

FİFO metodu ilə qiymətləndirilərkən müəssisənin anbarına daxil olan birinci ehtiyat birinci olaraq çıxarılır. Yəni FİFA (First in, first out) metodu ilə qiymətləndirilərkən növbəlilik prinsipinə əsasən əvvəlcə birinci gələn ehtiyatlar birinci olaraq məxaric olunur. Aşağıdakı nümunə misalına baxaq:

**Ehtiyatların FİFA metodu ilə hesablanması**

| Göstəricilər | Miqdar | Qiymət. man | Məbləğ, man |
|---|---|---|---|
| Ehtiyatlar mədaxil olunub: | | | |
| Birinci mədaxil | 20 | 10 000 | 200 000 |
| İkinci mədaxil | 10 | 20 000 | 200 000 |
| Üçüncü mədaxil | 50 | 30 000 | 1 500 000 |
| Toplam ehtiyatlar | 80 | | 1 900 000 |
| Ehtiyatları istifadə olunub: | | | |
| Birinci məxaric | 20 | 10 000 | 200 000 |
| İkinci məxaric | 10 | 20 000 | 200 000 |
| Üçüncü məxaric | 40 | 30 000 | 1 200 000 |
| Toplam ehtiyatlar | 70 | | 1 600 000 |

LİFO (Last in, first out) metodu ilə hesablandıqda isə ən sonuncu gələn mədaxil birinci olaraq məxaric olunur. Misal üçün aşağıdakı cədvələ baxa bilərik:

**LİFO metodu ilə ehtiyatların qiymətləndirilməsi**

| Ehtiyatların mədaxil olunub | Miqdar | Qiymət, man | Məbləğ, man |
|---|---|---|---|
| Birinci mədaxil | 30 | 10 000 | 300 000 |
| İkinci mədaxil | 10 | 20 000 | 200 000 |
| Üçüncü mədaxil | 50 | 50 000 | 2 500 000 |
| Toplam | 90 | | 3 000 000 |
| Ehtiyatlar məxaric olunub | | | |
| Birinci partiya | 50 | 50 000 | 2 500 000 |
| İkinci partiya | 10 | 20 000 | 200 000 |
| Üçüncü partiya | 20 | 10 000 | 200 000 |
| Toplam | 80 | | 2 900 000 |

Misallardan da fərqlər görünür. FİFO metodundan əsasən balans hesabatını tərtib edərkən istifadə edilir. LİFO metodundan isə maliyyə nəticələrindən istifadə haqqında hesabat tərtib edən zaman istifadə etmək daha məqsədə uyğundur. Bu qiymətləndirmə üsullarından istifadə edərək, həmçinin, hesabat ilinin sonunda nə qədər ehtiyat qaldığı və dəyərinin nə olduğunu da müəyyən etmək olur. Bu gün FIFO (ilk gələn ilk çıxan) demək olar ki, bütün ölkələrdə geniş şəkildə qəbul edilsə də, LIFO (son gələn ilk çıxan) hələ də bir çox ölkələrdə istifadə olunur [8,s.353].

## Nəticə

Son dövrlərdə ölkəmizdə müəyyən istehsala təşviq proqramları aparılır. Bir müəssisənin istər istehsal, istərsə də xidmət sahəsində fəaliyyət göstərməyindən asılı olmayaraq, bir müəssisənin dayanıqlığı və uzunmüddətli fəaliyyət göstərməsi üçün ehtiyatlar baxımından qıtlıq çəkməməlidir. Ehtiyatların miqdarı müəssisənin gələcək fəaliyyəti haqqında da fikir yaradır. Bunun özünəxas müsbət və mənfi tərəfləri vardır. Eyni zamanda ehtiyatlar müəssisənin müstəqil fəaliyyətini göstərən əsas obyektlərdən olduğu üçün uçot sənədlərində düzgün qeyd edilməsi, sənədlərlə, faktiki olan ehtiyatların düzgünlüyü müəssisənin müstəqilliyi baxımından da vacibdir. Bu baxımdan, material ehtiyatları müəssisənin bütün fəaliyyət istiqamətlərində muhasibat uçotunda düzgün şəkildə qeyd edilməlidir. Bunlar isə uçot sahəsinin təkmilləşdirilməsi işi ilə məşğul olan şəxslərin bilavasitə öhdəliyindədir. Belə ki, uçotu düzgün aparmaq gələcəkdə uçot sənədlərindəki göstəricilərə əsasən vergi orqanına hesabatların verilməsi prosesini də asanlaşdırır və bu uçot siyasətinin başlıca məqsədlərindən biri olmalıdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. *Əliyeva.A.Q. Müəssisənin maliyyə potensialının qiymətləndirilməsi metodikaları. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri jurnalı №2, B., 2016, 229 s.*
2. *Abbasov Q., S.M.Səbzəliyev və b. Mühasibat (maliyyə) uçotu. B., 2003, 450 s.*
3. *Hacıyev R.Ş.Təftiş və nəzarət. B., 2000, 290 s.*
4. *Rzayev Q. Beynəlxalq mühasibat uçotu standartları və maliyyə hesabatı. B., 2004, 300 s.*
5. *Rzayev Q. Beynəlxalq mühasibat uçotu və audit. B., 2000, 320 s.*
6. *Səbzəliyev S., Hacıyev R. Auditin əsasları. B., 2003, 290 s.*
7. *Səbzəliyev S. Mühasibat (maliyyə) hesabatı. B., 2003, 290 s.*
8. *Rzayev.Q Mühasibat uçotu və audit. B.,2006, 393 s*
Qədim dövrlərdən Azərbaycanda baramaçılıq daim inkişaf etmiş və diqqət mərkəzində olmuşdur. İpəkçilik Azərbaycanın inkişaf etmiş toxuculuq sahələrindən sayılır və ölkəmizə dünya şöhrəti gətirən fəaliyyət sahələrindən biri olmuşdur, həm də ənənəvi məşğulluq baxımından strateji əhəmiyyət kəsb edir. Buna görə də hesab edirik ki, baramaçılığın inkişafında və bunun əsasında ipəkçiliyin inkişaf etdirilməsi, ipək parçalardan müxtəlif brend məhsulların istehsalı, o cümlədən işğaldan azad olmuş ərazilərin toponimlərinin dünya səviyyəsində təşviqinin təmin edilməsi, təbliğatının aparılması baxımından, milli brendlərin, milli brend geyimlərinin istehsalı mümkün ola bilər. Dəri və dəri məmulatlarının tədarükü üçün də ölkəmizdə resurslar vardır və heyvandarlığın inkişafını biz sadəcə xatırlatmadıq. Bu istiqamətdə bir-biri ilə sıx bağlı olan sənaye sahələrinin – yeyinti və yüngül sənaye sahələrinin və kənd təsərrüfatı, bütövlükdə aqrar sahənin qarşılıqlı inteqrativ fəaliyyət prinsiplərindən səmərəli istifadə olunması mümkündür. Ölkəmizdə dəri və dəri məmulatlarının emal şəbəkəsinin təşkil olunması həm məhsuldar qüvvələrin yerləşdirilməsində regionların təbii resurslarından səmərəli istifadə olunmasında, əhalinin məşğulluq səviyyəsinin artırılmasında və eyni zamanda, sənaye imkanlarının regional səviyyədə yüksəldilməsində və sənaye sahələrinin inkişaf etdirilməsində önəmli rol oynaya bilər [6].

Ənənəvi sənaye mərkəzlərimiz olan Bakı, Sumqayıt və Gəncədə isə son illərdə bir-birinin ardınca yeni istehsal gücləri istismara verilmiş və müxtəlif istiqamətlər üzrə innovasiyayönlü müəssisələr fəaliyyətə başlamışdır [7]. Ancaq hesab edirik ki, bunlar sırf yeni innovasiyaların işlənməsi, mənimsənilməsi əsasında aparılmayıb. Məlum texnologiyalar əsasında və transferlər sayəsində iri müəssisələrin ərsəyə gəlməsi şübhəsiz bu gün Azərbaycanda ağır sənaye sahəsinin infrastrukturunun gücləndirilməsi və ixrac potensialının artırılmasında önəmli rol oynayır. Amma, qeyd edək ki, texnologiyalar dövrüdür və innovasiyaların işlənilməsi və mənimsənilməsi, tətbiqi ilə bağlı ölkəmizdə ixtisaslaşdırılmış innovasiya mərkəzlərinin, elmi-texniki innovasiya tətbiqi üzrə sınaq, sazlama, təcrübə mərkəzlərinin yaradılması və bununla bağlı yüksək texnologiya parklarından səmərəli istifadə edilməsi, elmtutumlu və maliyyətutumlu innovasiya layihələrinin reallaşdırılmasında digər ölkələrdən müvafiq şirkət və firmaların, investorların bu sahələrə cəlb edilməsi, xüsusilə "dövlət-özəl" sektor əməkdaşlığının yüksək səviyyəyə qaldırılması tələb olunur.

Müasir dövrdə sənaye müəssisələrinin inkişaf etdirilməsi, onların fəaliyyət strategiyasının təkmilləşdirilməsi və xüsusilə, sənaye sahələrinin innovasiyalaşdırılması mühüm əhəmiyyət kəsb edir. Qlobal çağırışlar şəraitində sənaye müəssisələrinin və sənaye sahələrinin bütövlükdə inkişaf etdirilməsində maliyyə resurslarının və maliyyə mənbələrinin böyük əhəmiyyəti vardır. Belə ki, bu sahələrin innovasiyalaşdırılması, yüksək texnologiyaların cəlb olunması və transfer edilməsi, elmi-texniki yenilik-

lərin sınaqdan çıxarılması və müəyyən müddətdən sonra istehsal proseslərinə tətbiq olunması mürəkkəb məsələlərdir, həm də kifayət qədər maliyyətutumludur [8]. Sənaye sahələrinin əksər istiqamətləri üzrə innovasiyaların işlənməsi və tətbiqi uzunmüddətli proseslərdən ibarətdir və bu vəziyyət fəaliyyət subyektlərinin vəsaitlərini dövriyyədən çıxarır, buna görə də iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdə sənaye müəssisələri və digər subyektlər yeni innovasiyaların işlənməsində və tətbiqində çətinliklər çəkirlər.

Digər tərəfdən, sənaye sahələrinin innovasiyalaşdırılması və maliyyə mexanizmi kifayət qədər çoxfunksiyalı və cəlbedici olmalıdır ki, bu istiqamətdə fəaliyyətin davamlı şəkildə planlaşdırılması və nəzərdə tutulan layihələrin gəlirlik səviyyəsinə çıxmasına qədər maliyyələşdirilməsi problemləri həll edilsin. Yəni burada daxili və xarici investisiyalar, o cümlədən birbaşa xarici investisiyaların cəlb olunması, xarici partnyorların motivasiyalaşdırılması, bununla əlaqədar zəruri tədbirlərin görülməsi olduqca vacib şərtlərdəndir. Ümumilikdə, ölkə iqtisadiyyatının innovasiyayönümlü inkişafının təmin edilməsi zərurəri Azərbaycan üçün xeyli xarakterikdir. Azərbaycan iqtisadiyyatı artıq müəyyən mənada struktur formalaşdırılmasını təmin etmişdir. Lakin yeni çağırışlara uyğun şəkildə innovasiyalı iqtisadiyyatın və ilk növbədə bilik iqtisadiyyatının, həmçinin rəqəmsal iqtisadiyyatın formalaşdırılması prosesləri, hələ ki, intensiv olaraq tətbiq olunmamışdır. Bu baxımdan, maliyyə mexanizmlərinin və maliyyə alətlərinin cəlbediciliyi sayəsində müxtəlif sənaye sahələrində mövcud problemləri həll etmək olar [9].

Belə bir sual yaranır ki, sənaye sahələrinin innovasiyalaşdırılmasında hansı problemlər vardır və bununla bağlı ən mühüm məsələlərdən biri olan maliyyə problemlərinin strateji aspektləri nə ilə əlaqədardır? Bunu bir neçə amillərlə izah etmək mümkündür: 1) Ölkəmizdə hazırda texnoparklar şəbəkəsi və digər bununla bağlı yeni iqtisadi mexanizmlər, qurumlar yaradılmaqdadır. Bunların hər biri kifayət qədər maliyyətutumludur. Amma xüsusi istiqamətlər üzrə, yəni ayrı-ayrı sənaye sahələri üzrə texnoparkların yaradılması böyük həcmdə maliyyə resursları tələb edir. Digər tərəfdən, yeni yaradılan texnoparklarda, sənaye parklarında və digər bu qəbildən olan müəssisələrdə innovasiya xidmətlərinin təmin edilməsi və sənaye sahələri subyektlərinin həm texnoloji, həm mühəndislik, həm də digər vacib olan sahələr istiqamətində xidmətlərin təmin edilməsi, innovasiyaların işlənməsinə əsaslı zəmin yaradılması vacibdir; 2) Tətbiq olunan innovasiyalaşdırmanın, innovasiya funksiyalarının maliyyətutumu üzrə hesabatlar aparılmalı, əsaslandırmalar tərtib edilməli və bu proseslərdə, layihələrdə iştirak edən investorların maraqları qorunmalıdır; 3) Cəlbedilən investisiyaların qorunması problemləri və bununla bağlı investisiyaların geri qaytarılma müddəti ilə əlaqədar məsələlər investorlarla qarşılıqlı anlaşma mühitində həll olunmalı və onların bu sahəyə investisiya yatırması, yəni yeni innovasiya məhsullarının alınması, texnika və ya texnoloji mənimsəmələrin həyata keçirilməsi, bununla bağlı layihələrin uzunmüddətli dövr üçün maliyyələşdirilməsi vacibdir.

Ölkə iqtisadiyyatının innovasiyalaşdırılması prosesləri baxımından, Azərbaycanda gedən prosesləri qiymətləndirmək üçün son 10 ilin göstəricilərinə baxmaq kifayətdir. Təəssüf ki, həmin dövr ərzində ölkəmizdə sənaye sahələrinin innovasiyalaşdırılması prosesləri haqqında geniş mənada danışmaq xeyli çətindir. Belə ki, rəsmi statistikaya əsasən bir neçə iqtisadiyyat sahələrində müxtəlif dövrlərdə innovasiyaların tətbiqi, texnoloji innovasiyaların mənimsənilməsi baş vermişdir ki, bunlar da iri müəssisələrin tikilməsi ilə əlaqədar olmuşdur. Xüsusilə, maşınqayırma sənayesi müəssisələrində və bir sıra yeyinti sənayesi müəssisələrində bu proseslər baş vermişdir. Ümumilikdə ölkə iqtisadiyyatının perspektivlər vəd edən bir çox sahələrində innovasiyaların işlənməsi və bununla bağlı iri investisiya-innovasiya və maliyyə tutumuna malik olan layihələr reallaşdırılmamışdır.

Araşdırmalar göstərir ki, bunun əsas səbəblərindən biri sənaye sahələri müəssisələrinin özlərinin maliyyə imkanlarının aşağı səviyyədə olması, yəni öz vəsaitlərinin çatışmamasıdır. Yeni innovasiyaların işlənməsindəki problemlər, onların tətbiqi ilə bağlı çətinliklər və uzunmüddətli maliyyə mexanizmlərinin, həm də cəlbedici maliyyə mexanizmlərinin olmaması səbəbindən bu istiqamətdə mövcud layihələrin uğurla nəticələnməsində problemlərin olduğunu qeyd etməliyik. İnnovasiyaların işlənməsi və tətbiqi ilə əlaqədar olaraq maliyyə alətlərinin cəlbedici olması, bu proseslərdə bank-kredit sisteminin fəal, motivasiyalı iştirakı digər investisiya fondlarının və təşkilatlarının həmin sahələrə maraq göstərməsi məsələləri də kifayət qədər əlaqəli şəkil-

də tənzimlənməmişdir.

Azərbaycanda milli innovasiya sisteminin formalaşdırılması və ölkə iqtisadiyyatının aparıcı sahəsi olan sənaye sahəsinin innovasiyalaşdırılmasının maliyyə problemlərinin həll edilməsi istiqamətində müəyyən addımlar atılmasına baxmayaraq, bunlar kifayət deyildir. Əlbəttə, son illərdə bir sıra dövlət proqramları, o cümlədən sənayenin inkişafına dair 2015-2020-ci illəri əhatə edən geniş həcmli dövlət proqramı, xüsusilə burada ağır sənaye sahələrinin və məşğulluqla bağlı xüsusi əhəmiyyət kəsb edən sənaye sahələrinin innovasiyalaşdırılması proseslərinə müxtəlif maliyyə mənbələrinin cəlb edilməsi, dövlət büdcəsindən əlavə büdcədənkənar fondların formalaşdırılması, investisiyaların stimullaşdırılması istiqamətində addımlar atılmışdır. Lakin bunlar hələ ki, lazımi nəticələri əldə etməyə imkan vermir. Bunun əsas səbəbləri sırasında bir neçə amilləri qeyd etmək olar: 1. İlk növbədə ölkədə milli innovasiya sistemi formalaşdırılmamışdır. 2. Eyni zamanda, milli innovasiya sisteminin əsasları yaradılmamışdır. 3. Dövlət səviyyəsində mərkəzi innovasiya proseslərini idarə edə biləcək və tənzimləyəcək mərkəzi idarəetmə strukturu yenicə formalaşdırılmışdır. Təəssüf ki, bu qurum Rəqəmsal İnkişaf və Rabitə Nazirliyinin tərkibində yerləşir və Agentlik kimi fəaliyyət göstərir. Hesab edirik ki, belə bir qurumun müstəqil olması və həmin qurumun adevkat qərarlar verilməsində, bu istiqamətdə daha təsirli, operativ tədbirlərin görülməsində imkanlarının genişləndirilməsi məqsədəuyğundur. 4. Ölkədə innovasiya mərkəzləri, innovasiyayönümlü müəssisələr və innovasiyaların işlənməsi, sınaqdan keçirilməsi, tətbiqi ilə bağlı texnoloji mərkəzlər, demək olar ki, fəaliyyət göstərmir. 5. Azərbaycanda yüksək texnologiyaların transferinin təşkili məqsədi ilə əlverişli mühitin yaradılması istiqamətindəki proseslər lazımi səviyyəyə qədər çatdırılmamışdır. Bu proseslərdə maliyyə mənbələrinin cəlb olunması və əsas etibarilə birbaşa investisiyaların neft-qaz sənayesindən başqa, digər sənaye sahələrinə cəlb olunması məsləsində problemlər qalmaqdadır. Yaxşı olardı ki, bu kimi problemlər işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyat quruculuğu proseslərində mütləq şəkildə nəzərə alınsın [10].

Beləliklə, qanunauyğun şəkildə sual yaranır ki, nə üçün xarici investorlar, texnoloji mərkəzlər, dünyanın transmilli kompaniyaları Azərbaycanın qeyri-neft qaz sahələrinə maliyyə resursları yönəltməkdən, bu sahələrin innovasiyalaşdırılmasında iştirak etməkdən yayınırlar. Əslində, bu, belə deyildir, belə ki, bu istiqamətdə çoxlu sayda şirkət və firmaların ölkəmizə cəlb edilməsi mümkündür. Bunun əsas səbəblərindən biri həmin sahələrdə müəyyən problemlərin mövcudluğu, ilk növbədə, qanunvericilik bazasının zəifliyi, inhisarçılığın mövcudluğu və sağlam rəqabət mühitininin olmaması ilə əlaqəlidir. Digər əsas səbəblərdən biri isə uzun illər ərzində ölkəmizdə “Rəqabət məcəlləsi”nin qəbul edilməsi üzrə qanun layihəsinin olmasına baxmayaraq, bu Məcəllənin Milli Məclis səviyyəsində qəbul edilməməsidir. Bu isə iqtisadi fəaliyyət subyektləri arasında sağlam rəqabət mühitinin yaradılmasını əngəlləyir.

## YEKUN

Azərbaycanın sənaye sahələrində, ümumiyyətlə real iqtisadiyyat sahələrində şəffaflığın təmin edilməsi, maliyyə hesabatlarının dürüstlüyü istiqamətində son 10 ildə atılan addımlar hələ də kifayət deyildir. Real iqtisadiyyat sahələrinin kredit əlçatanlığının təmin edilməsi üçün bir sıra təsirli tədbirlərin görülməsi vacibdir:

- Beynəlxalq səviyyədə mühasibat uçotu prinsiplərinin və meyarlarının tətbiqi, eyni zamanda maliyyə şəffaflığı ilə bağlı problemlərin sistemli və kompleks şəkildə həll olunub başa çatdırılması tələb olunur;
- İnvestisiya mühitinin cəlbediciliyi istiqamətində atılan addımlar kifayət deyildir, belə ki, ölkə regionlarında mövcud resursların, sənaye sahələrinin tələb olunan fəaliyyət istiqamətlərinə yönəldilməsi və cəlb olunması, filiz və qeyri-filiz yataqlarının işlənməsi, təbii sərvətlərimizin səmərəli istifadə olunması istiqamətində iri investisiya-innovasiya layihələrinin olması olduqca vacib şərtlərdəndir;
- Yaxın perspektivdə Azərbaycanda real iqtisadiyyat subyektlərinin kredit əlçatanlığının təmin edilməsi məqsədilə əsaslı tədbirlər görülməli və daha işlək fəaliyyət mexanizmləri tətbiq olunmalıdır və s.

**Açar sözlər:** *sənaye sahələri, innovasiyalar, maliyyə problemləri, sənayenin innovasiyalaşdırılması, sənaye müəssisələrinin maliyyələşdirilməsi problemləri, sənaye sahələrinin innovasiyalaşdırılması problemləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Mustafayev, Ş. Azərbaycan sənayesi: tarixi yolun uğurlu davamı // Dövlət idarəçiliyi".-2014. № 4(48), –s.139-144.*

*2. Mahmudova, L.F. Azərbaycanda strateji innovasiya fəaliyyətinin investisiya-maliyyə təminatının aktual məsələləri // Audit № 4, Cild 26, 2019, – s.24-36.*

*3. Рахмани, Ф.П. Механизмы применения инновационной стратегии в развитии промышленных предприятий Азербайджана// Audit 2020, 4 (30), s. 81-94.*

*4. Hüseynov, S.M. Vençur fondları: kicik və orta sahibkarlıq subyektlərinin maliyyələşməsində vençur kapitalının əhəmiyyəti // İnnovasiyalı iqtisadiyyat və menecment – 2022. №1, – s.158-167.*

*5. Aslanlı, K. Azərbaycanda innovasiya siyasətinin effektivliyinin artırılması yolları. Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu / Bakı – 2017. 51 s. - http://edf.az/uploads/documents/innovasiya_siyaseti.pdf.*

*6. Səlimova, G., Səlimova, A. İnnovasiya fəaliyyətini stimullaşdıran beynəlxalq əhəmiyyətli və müstəqil təhsil, tədqiqat və işləmələr (inkişaf) mərkəzinin yaradılması// "İqtisadi islahatlar" elmi-analitik jurnal. 2021, № 1(2). –s.108-120.*

*7. Rəsulova, Ü.R. Sənayedə innovasiya fəaliyyətinin nəzəri və praktiki aspektləri // UNEC Elmi Xəbərləri, Cild 7, yanvar - mart, 2019, s. 182 – 194.*

*8. Əliyev, Ə.Q. Elmi nəticələrin kommersiyalaşdırılması proseslərinin idarə olunması problemləri // İnformasiya cəmiyyəti problemləri, 2021, №2, s.52-69.*

*9. Babayev, F. Azərbaycanın qida sənayesinin innovasiyalı inkişafı: imkanlar və məhdudiyyətlər // İpək Yolu, №2, 2020, s.5-12.*

*10. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri //Jurnal "Geostrategiya", Bakı, sentyabr, 2021. №4, –s.67-72.*



## РЕЗЮМЕ

**Стратегические аспекты финансовых проблем инноватизации сфер промышленности в современном периоде**

В статье рассматриваются стратегические аспекты финансовых проблем инноватизации сфер промышленности в современном периоде с учетом новых вызовов. Анализированы существенные проблемы и факторы, замедляющие интенсификацию инноватизации сфер промышленности, в том числе, инноватизацию промышленных предприятий. Обоснована необходимость разработки и применения более эффективных и доступных финансовых механизмов по ускорению освоения и применения новых инноваций. Подготовлены рекомендации и даны предложения по рассматриваемым проблемам.



**Ключевые слова:** *промышленные сферы, инновации, финансовые проблемы, инноватизация промышленности, проблемы финансирования промышленных предприятий, проблемы инноватизации промышленных сфер.*



## SUMMARY

**Strategic Aspects of Financial Problems of Industrial Innovation in the Modern Period**

The strategic aspects of financial problems of innovating industries in the modern period, taking into account new challenges are considered in the article. Significant problems and factors that slow down the intensification of innovatization of industries, including the innovation of industrial enterprises are analyzed. The need to develop and apply more effective and affordable financial mechanisms to accelerate the development and application of new innovations is justified. Recommendations and proposals on the issues under consideration are given then.



**Key words:** *industrial spheres, innovations, financial problems, innovation of industry, problems of financing of industrial enterprises, problems of innovation of industrial spheres.*

UOT 658;005

# MEHMANXANA MÜƏSSİSƏLƏRİNİN FƏALİYYƏTİNİN İDARƏ EDİLMƏSİ MƏQSƏDİ İLƏ İNFORMASİYA TƏMİNATI SİSTEMİNİN FORMALAŞDIRILMASI

**GÜNAY ƏSƏDOVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*
*E-mail: günay.asadova30@gmail.com*

Xidmət sferasının inkişafı istənilən ölkənin sosial-iqtisadi kompleksinin vəziyyətini səciyyələndirən mühüm göstəricilərdən biridir. Mürəkkəb ictimai proseslərin təsiri altında formalaşan həmin sahə sosial-iqtisadi problemlərin bütün istiqamətlərini, onların dinamikasını və həlli perspektivlərini əks etdirir. Əhaliyə xidmət göstərilməsinin təşkilinin əsas vəzifəsi kompleks məişət xidmətlərinin təqdim edilməsi, həmin xidmətlərin əldə edilməsi zamanı əhalinin vaxta qənaət etməsi və bu zaman müəssisənin işinin gəlirliyinin təmin olunmasıdır.

Müasir mehmanxana təsərrüfatı dinamik inkişaf edən sahədir. Onun inkişaf meyli göstərilən xidmətlərə tələbin artımı və həmin xidmətlərin spektrinin genişləndirilməsi ilə əlaqədardır. Rəqəmsal transformasiya şəraitində informasiya texnologiyalarının inkişafı səviyyəsi və onlardan istifadə əhaliyə xidmət sferasının vəziyyətinə böyük təsir göstərir. Yeni informasiya texnologiyalarının tətbiqi, onların həyat təminatı sistemləri ilə inteqrasiyası mehmanxana kompleksinin bütün xidmətləri və servisinin fəaliyyətinin optimallaşdırılmasına imkan verir. Əhaliyə xidmətin təşkilinin uğurlu inkişafı üçün menecmentin bütün aspektlərinin vahid sistemdə birləşdirməyə qadir olan kompleks idarəetmə sistemi hazırlanmalıdır [1; 2; 5].

Araşdırmalar göstərir ki, praktikada mehmanxana kompleksinin idarə olunmasının informasiya təminatının təkmilləşdirilməsi hesabına onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin üç əsas variantını fərqləndirmək lazımdır [2; 3; 5; 6].

Birinci variant təşkilatın özü tərəfindən idarəetmə sisteminin işlənib hazırlanmasını nəzərdə tutur. Belə ki, hesablaşmaların avtomatlaşdırılması üçün ofis proqramlarının (məsələn, Exsel makrosları) köməkliyi ilə qeyd edilmiş prosedurlar tətbiq olunur. Lakin vurğulayaq ki, avtomatlaşdırmanın bu üsulu yalnız böyük olmayan təşkilatlar üçün effektli ola bilər. Biznes mürəkkəbləşdikdə belə vasitələr idarəetməni mürəkkəb qurluşlu məlumatlarla təmin edə bilmir Əhaliyə xidmət üzrə ixtisaslaşmış təşkilatların idarə edilməsinin informasiya təminatının işlənib hazırlanmasının əsas prinsiplərinə daxildir [2; 6]:

- vahid prinsiplər əsasında alt-sistemin müxtəlif elementlərinin hazırlanması, onların səmərəli və səhvsiz qarşılıqlı hərəkətinin təmin edilməsi;
- informasiya təminatının tərkibinə daxil olan müxtəlif işarəli alt-sistemlərin (təsnifatlar, nomenklaturalar, göstəricilər, sənəd formaları) vahidliyi;
- alt-sistemlərin və informasiya təminatı elementlərinin sistemliyi və informasiya qarşılıqlı uyğunluğu;
- strukturun tipləşdirilməsi və blokluğu (funksional və məzmununa görə informasiya sistemi blokları) vahid nümunəvi qaydalarla tərtib olunur və bir dildə şərh edilir;
- dilin unifikasiyası və qaydaya salınması daxil olmaqla informasiyaların mübadilə formalarının unifikasiyası və strukturlaşması;
- informasiyaların işlənməsinin inteqrasiyası, daha doğrusu, maşın oxu daşıyıcılarının seçilməsi, sənədlərin EHM-na ötürülməsi üçün rahat hesab olunan cədvəl formalarına salınması, paralel olaraq maşın daşıyıcılarının hazırlanması və s.

Kənar təşkilatlardan-istehsalçılardan avtomatlaşdırılmış sistemlərin əldə edilməsi ikinci varianta aiddir. Bir qayda olaraq, bu qəbildən sistemlərin seçilməsi əsasən mühasibat proqramları ilə məhdudlaşır. Bu, onunla izah olunmalıdır ki, mühasibat uçotu ciddi və konservativ metodologiyaya malikdir. Bu sahədə qanunvericilikdə, hesabat sənədləri formalarında tez-tez baş verən dəyişikliklərə baxmayaraq, prinsiplər və məlumatların strukturu praktiki olaraq dəyişməz qalmaqdadır [1; 3; 5]. Nəzərə almaq lazımdır ki, müxtəlif şirkətlərdə kommersiya fəaliyyəti böyük növmüxtəlifliyi ilə xarakterizə olunur. İşin məntiqi güclü fərqlənir, vurğulayaq ki, bu, yalnız müxtəlif sahələrlə və ya fəaliyyət növləri ilə əlaqədar deyil. Bazarda kommersiya fəaliyyətinin kompleks avtomatlaşdırılması üçün universal sistemə az rast gəlinir. Universal sistemin əldə edilməsi haqqında qərar nisbətən az məsrəflə biznesin informasiya təminatı ilə əlaqədar çox problemləri həll etməyə imkan verir.

Üçüncü variant informasiya texnologiyalarının

tətbiqi üzrə kənar təşkilatların funksiyalarının və səlahiyyətlərinin bəyan edilməsidir, daha doğrusu, autsorsinqdən istifadə olunmasıdır [2; 6;]. Əlbəttə, bu yanaşma respublikada çox təsadüfi halda tətbiq edilsə də, onun bir sıra üstünlükləri vardır. Bura aşağıdakıları aid etmək olar:

- xərclər yeni sistemin yaradılmasına sərf olunan xərclərdən aşağıdır (bu zaman elə bir qərar qəbul edilir ki, onun özəyi digər təşkilatlarda uğurla tətbiq olunmuşdur);
- professional icra. Sistemi təqdim edən təşkilat bu sahədə ixtisaslaşmışdır və yüksək tətbiq vərdişlərinə malikdir.
- servis dəstəyi;
- əgər biznes genişlənərsə və mürəkkəbləşərsə sistemin gələcək inkişafının mümkünlüyü.

Eyni zamanda, mehmanxana biznesi təşkilatlarının fəaliyyətində autsorsinqin tətbiqi potensial təhlükə yaradır ki, bu təhlükə informasiya sisteminin inkişafının mümkünlüyünün itirilməsi, məlumatların daxili strukturunun bilməzliyindən informasiyaların itirilməsi, icraçı-şirkətin uğurlarından asılılığı ilə xarakterizə olunur.

Hazırda avtomatlaşdırma problemi respublikanın əksər mehmanxanaları üçün mühüm məsələ olmaqdadır. Mehmanxana servisinin avtomatlaşdırılması prosesi bir-biri ilə qarşılıqlı əlaqəli hərəkətlər həlqəsindən ibarətdir [2; 3;7].

Birinci mərhələ - istehsalın avtomatlaşdırılmasına tələbin dərk edilməsidir. Bu mərhələdə qarşıda duran problemin mühümlüyü başa düşülməli, avtomatlaşdırma layihəsinin məqsəd və vəzifələrini formulə etməlidir ki, sonra mümkün təkmilləşdirmə istiqamətini dəqiq müəyyən etmək mümkün olsun.

İkinci mərhələ - respublika bazarında təqdim edilən müasir texnologiyalar haqqında bütün informasiyaların toplanması və təhlili, əldə edilən sistemlərə mülkiyyət formasının müəyyən edilməsidir.

Üçüncü mərhələ - sistemlərin seçilməsidir. Qeyd etmək lazımdır ki, seçim meyarları tələbatdan və müəssisənin imkanlarından asılıdır. Praktika göstərir ki, sistemlərin seçilməsi zamanı daha çox tələb onun dəyəri, servis (müşayiət) səviyyəsi, müəyyən bazarda tətbiqiliyi, yerinə yetirilən hərəkətlərin operativliyi, funksional imkanları və s. əsas götürülür. Obyektdə informasiya sisteminin tətbiqinin səmərəliliyini səciyyələndirən göstəricilərin hesablanması, həmin sistemin tətbiqi gedişatında mehmanxananın üzləşə biləcəyi risklərin qiymətləndirilməsi.

Dördüncü mərhələ - sistemin tətbiqi üçün zəruri resurslara tələbatın planlaşdırılması.

Beşinci mərhələ - təşkilatların axtarışı, müqavilələrin bağlanması, yeni texnologiya sistemlərinin tətbiqi prosesi, əməkdaşların öyrədilməsi.

Əhaliyə xidmət sferası təşkilatlarının idarə olunmasının informasiya sistemi aşağıdakı xüsusiyyətlərə malik olmalıdır [2; 3]:

- etibarlılıq (istənilən texniki nasazlıq zamanı məlumatların zəmanətli qorunması və girişi, məlumatların kənar müdaxilələrdən effektli qorunmasının təmin edilməsi);
- artımın mümkünlüyü (miqyaslılıq, genişlənmək, modulluq, sifarişlə modulların işlənməsi);
- müxtəlif fəaliyyət növlərinin avtomatlaşdırılması dərəcəsi (bütün fəaliyyət növlərinin avtomatlaşdırılmasının tamlığı);
- interfeysin intuitivliyi (interfeysdə onun müfəssəl şərhi olmadan istifadəçinin başa düşməsi imkanı);
- elektron sənəd dövriyyəsi ilə inteqrasiyasının mümkünlüyü;
- müştərinin biznesinə adaptasiya olunması (mal göndərənlərlə hesablaşmaların başa çatdırılması zamanı sistemin xüsusiyyətlərinin müştərinin tələbləri ilə uzlaşdırılması dərəcəsi);
- qiymətin münasibliyi.

Mehmanxana kompleksinin idarə olunması proseslərinin avtomatlaşdırılmasının üstünlükləri özünü vahid məlumatlar bankı bazasında tam, operativ və dürüst informasiyaların əldə edilməsi hesabına rəhbər işçilər və mütəxəssislər tərəfindən şirkətin idarə edilməsinin, məlumatların ayrı-ayrı struktur bölmələr, filiallar və mərkəzi aparat arasında dövriyyəsinin səmərəliliyinin yüksəldilməsində, informasiyaların işlənməsinin bütün mərhələlərində məlumatların qorunmasının və tamlığının, idarəetmənin bütün səviyyələrində valyuta vəsaitlərinin daxil olması və xərclənməsinin uçotu və nəzarətin təmin olunmasında göstərir. Əhaliyə xidmət sferası təşkilatlarının idarə edilməsinin avtomatlaşdırılması sistemi proqram məhsulların xüsusi paketidir və təşkiulatın əməkdaşlarının öz iş yerlərində işlə təmin edilməsi üçün qərardır və istehsal tsiklinin bütün mərhələlərində operativ idarəetmə qərarının qəbul edilməsi üçün imkanın yaradılmasıdır. Vurğulamaq lazımdır ki, mehmanxana kompleksinin avtomatlaşdırılmış idarəetmə sisteminə aşağıdakılar daxildir:

- qonaq və mehmanxananın cari vəziyyəti haqqında müxtəlif bölmələrdən daxil olan tam müvəqqəti informasiyaların rahat formada toplanması üsulu və mənbəyi;
- idarəetmənin və mehmanxanada və xidmət bazarında daima dəyişən situasiyalara tez reaksiya verilməsi alətləri və vasitələri;
- qonaqla işlərin bütün mərhələlərinin (sifarişin alınmasından son haqq-hesaba qədər) avtomatlaşdırılması sistemi;
- mehmanxananın nömrə fondundan və digər elementlərindən səmərəli istifadənin, nəticə etibarı ilə, onun gəlirlərinin artmasının mümkünlüyü;
- sistemdə heyətin hüquqlarının dəqiq hədlərini müəyyən etməyə və hər bir əməkdaşın hərəkətinə nəzarət etməyə imkan verən kadr siyasəti aləti ;
- idarəetmə və servis sahəsində yeni imkanlar (belə ki, toplanmış məlumatlar mehmanxanalar üçün qiymətsiz kapitala çevrilir. "Qonağın tarixi" məlumat bazası daimi müştəriləri mükafatlandırmağa, məqsədli mehmanxana bazarını dəqiq öyrənməyə, xidmətlərə tələbi proqnozlaşdırmağa, effektli marketinq və kredit siyasətini həyata keçirməyə əlverişli imkan yaradır.

Mehmanxananın idarə edilməsinin avtomatlaşdırılmış sisteminin tətbiqinin məqsəd və vəzifələri aşağıdakıları özündə birləşdirir [7]:

**Şəkil 1. Mehmanxanalarda avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılmasının məqsəd və vəzifələri**




Mehmanxana kompleksinin daha effektli avtomatlaşdırılmış idarəetmə sistemi özündə mühüm elementləri birləşdirməlidir (cədvəl 1).

**Cədvəl 1.**
**Mehmanxana kompleksinin avtomatlaşdırılmış idarəetmə sisteminin funksional komponentləri və onların xarakteristikası**

| Alt sistemin adı | Alt sistemin xarakteristikası |
|---|---|
| İdarəetmə | Mehmanxananın rəhbərinin fəaliyyətinin avtomatlaşdırılması işgüzar sənədlərin işlənməsini, icra üzərində nəzarəti, mehmanxana təsərrüfatının və bölmələr üzrə işlərin vəziyyətinin, servisin yoxlanmasını təmin edir |
| Kommersiya şöbəsi | Mehmanxananın qonaqlara xidmət bölməsinin fəaliyyətinin avtomatlaşdırılması korporativ müştərilərlə danışıqların aparılmasını, qonaqların qəbul edilməsinin planlaşdırılmasını və onlara xidmət göstərilməsini, kommersiya fəaliyyəti üzrə hesabat informasiyalarının toplanmasını, tərəfdaşlarla nağdsız hesablaşmaların vəziyyəri üzrə soraq (arayış tipli) informasiyaların toplanmasını təmin edir. |
| Qapıçı | Mehmanxananın əsas istehsal fəaliyyətinin avtomatlaşdırılması nömrələrin ehtiyata saxlanmasını və bronlaşdırılmasını, qonaqların qeydiyyatdan keçməsini, sənədləş-dirməni və yerləşdirilməsini, ödənişlərin qəbul edilməsi və sənədləşdirilməsini, mehmanxananın yüklənməsinin uçotunu və operativ nəzarəti təmin edir. |
| Mərtəbə xidməti | Mehmanxananın mərtəbə xidmətinin fəaliyyətinin avtomatlaşdırılması nömrə fondunun uçotu vəzifələrini, mehmanxananın nömrə fondunun vəziyyəti haqqında müxtəlif arayış xarakterli informasiyaların verilməsini, göstərilən xidmətlərə görə borcluların izlənməsini, otaqları təmizləyənlərin işinin idarə olunmasını, nömrə fondunun təmiri qrafikinin aparılmasını təmin edir |
| Dispetçer | Dispetçer xidmətinin fəaliyyətinin avtomatlaşdırılması mehmanxanada cari təmir işlərinin aparılmasına ərizələrin işlənməsini, nömrə fondunun plan üzrə təmiri qrafikinin aparılmasını təmin edir |
| Restoran | İctimai iaşə xidmətinin fəaliyyətinin avtomatlaşdırılması resepturaların və texnoloji məcmuələrin aparılması, menyuların tərtib edilməsi, yeməklərin və menyunun kalkulyasiyasını, anbarda və istehsalda məhsulların mövcudluğunun monitorinqi, sərf edilmiş məhsulların hesablanması, istehsalda məhsulların hərəkətinin və anbar üçün məhsul sifarişinə tələbnamələrin tərtib edilməsi, məmulatların satışı sənədlə-rinin tərtib edilməsi, məmulatların satışının yekunu üzrə və istehsaldan məhsulların silinməsinin sənədləşdirilməsi, müxtəlif hesabat və arayışların formalaşdırılması, qonaqların qidalanması proqramının aparılması və zalların yüklənməsinin idarə olunması məsələlərini həll edir. |
| Anbar uçotu | Material qiymətlilərin və ərzaq məhsullarının qəbulu, saxlanması və verilməsinə cavabdeh olan mehmanxana bölməsinin işinin avtomatlaşdırılması onların uçotu və hərəkəti üzrə sənədləşmələrin aparılmasını təmin edir. |
| Kadrlar şöbəsi | Mehmanxananın kadr xidmətinin fəaliyyətinin avtomatlaşdırılması |
| Əmək haqqı | Mövcud qanunvericilik aktları nəzərə alınmaqla mehmanxananın hər bir işçisi üçün qəbul edilmiş qaydalara görə əmək haqqının hesablanması üzrə məsələlərin həllini təmin edir. |
| Mühasibat uçotu | Mehmanxananın istehsal və təsərrüfat fəaliyyətinin mühasibat uçotunun avtomatlaşdırılması |
| Gəlirlərin operativ uçotu | Müxtəlif vaxt intervallarında təşkilatın istehsal fəaliyyəti növləri üzrə hesabat sənədlərinin formalaşdırılmasını təmin edir. Hesabat sənədlərinin növləri, formaları və tərkibləri təşkilatın tələbatından asılı olaraq müəyyən edilir və tərtib olunur. |

Bütövlükdə, mehmanxana biznesinin avtomatlaşdırılmış idarəetmə sistemi qəbuletmə və yerləşdirmə xidmətlərinin, xidmətlərin keyfiyyətinin idarə olunması, mənfəətin optimallaşdırılması, mərkəzləşdirilmiş bronlaşdırma və müştərilər üzrə mərkəzləşdirilmiş informasiyaların saxlanması, satışların və tədbirlərin idarə olunması, iş yerlərinin (nömrə fondunun administratoru, mərtəbələr üzrə növbətçilər, xidmətçilərin, informasiya arayış və

digər xidmətlərin) avtomatlaşdırılması ilə əlaqədar funksiyaların idarə olunması ilə əlaqədar vəzifələri yerinə yetirməlidir [3;7].

Mehmanxana biznesində istifadə olunan avtomatlaşdırılmış idarəetmə sistemlərinin tədqiqi göstərir ki, effektli sistemin seçilməsi üçün aşağıdakı meyarlara üstünlük verilir [2; 3; 4; 7]:

⁎ sistem və onun yaradıcıları haqqında ümumiləşdirilmiş informasiyaları əhatə edən ümumi xarakteristikalar;

⁎ sistemin funksional imkanları (avtomatlaşdırılmış idarəetmə sisteminin təqdim etdiyi əsas servis və funksiyaları). Sözügedən meyara əsasən təklif olunan sistemin otelin fəaliyyəti həcminin hansı hissəsinin avtomatlaşdırılacağını müəyyən etmək mümkündür.

⁎ sistemin texniki parametrləri – sistemin texniki cəhətdən həyata keçirilməsini qiymətləndirməyə imkan verən meyarlar (məsələn, informasiyaların və idarəetmə sisteminin istifadə etdiyi məlumatlar bazasının qorunmasının mümkünlüyü).

⁎ sistemin lokallaşdırılması (interfeysin və sistemin təşkilatın fəaliyyətinə adaptasiyasının mümkünlüyünün qiymətləndirilməsi).

⁎ texniki xidmət- sistemin istehsalçılarının sonrakı xidmətləri və sistemin dəyəri.

Kommunal xidmətlərinin ödənişi xərclərinə, əməkhaqqı fonduna, rabitə xərclərinə, xammalların yenidən bölüşdürülməsi xərclərinə, sənəd dövriyyəsinin təminatı xərclərinə (kağız, printerlər üçün rəng vasitəsi, dəftərxana ləvazimatları, heyət və i.a.) qənaət mehmanxana kompleksinin idarə olunmasının informasiya təminatının təkmilləşdirilməsinin əsas nəticəsi hesab olunur. Mehmanxana biznesinin avtomatlaşdırılmış idarəetmə sisteminin tətbiqindən mümkün qeyri-maddi faydalar özünü əmək məhsuldarlığının yüksəlməsi, informasiyaların keyfiyyətinin yaxşılaşması, xidmətin sürətlənməsi və yaxşılaşması, nəzarətin və bütövlükdə, menecmentin keyfiyyətinin artımı, informasiya-texniki vasitələrdən tam istifadə olunması, gecikdirilmiş ödənişlərin sayının azalması ilə xarakterizə olunur [5; 7].

Beləliklə, mehmanxanaların fəaliyyətinin avtomatlaşdırılmış sistemindən istifadə müştərilərə xidmətin dəqiqliyini, xidmət heyətinin fəaliyyəti üzərində nəzarəti və xərclərin azalmasını təmin edir. Mehmanxana biznesinin idarə olunmasının avtomatlaşdırılmış sistemi bütün göstərilən xidmətlər kompleksinin modernləşdirilməsinə, informasiyaların işlənməsi sürətinin və heyətin hərəkətlərinin uzlaşdırılması səviyyəsinin artırılmasına imkan verəcəkdir. Bu zaman, əl əməyinin avtomatlaşdırılması səhvlərin baş verməsinin mümkünlüyünü azaldır ki, bu da, hesabatın aparılmasının keyfiyyətində öz əksini tapır.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Qasımov V.Ə. İnformasiyanın qorunmasının müasir texnologiyaları. – Bakı. DTX Akademiyasının nəşriyyatı. 2011. – 112 s.*

*2. Ramazanov M.K. İnformasiya sistemləri menecmenti. Dərslik. – Bakı. DTX Akademiyasının nəşriyyatı. 2017. –187 s.*

*3. Агафонова М.С., Козярска Л.К. Совершенствование информационного обеспечения управления организацией //Концепт.- 2017. – т.39. – с. 216-220*

*4. Демурин В.Б. Модель безопасности автоматизированной системы управления гостиничным предприятием //Вестник Астраханского государственного технического университета. Серия: управление, вычислительная техника и информатика. – 2011. № 1. – с.114-11 8*

*5. Быстров С.А. Организация гостиничного дела. – М.: ИНФРА-М. 2016. – 432 с.*

*6. Гончарова Л.П. Гостиничный сервис. – М.: ИНФРА-М. 2018. – 174 с.*

*7. Прудникова Н.Г., Панасенко А.Н. Автоматизация гостинного бизнеса //Наука и туризм: стратегии взаимодействия. – 2016. – № 5 (3).. – с.69-72*


## XÜLASƏ


Əhaliyə xidmət təşkilatlarının idarə olunmasının səmərəli informasiya sistemi onların rəqabət qabiliyyətinin artırılmasının mühüm amillərindən biridir. Daxili və kənar informasiyaların təhlili və əsaslandırılmış səmərəli idarəetmə qərarının qəbul edilməsi üçün mehmanxana biznesi təşkilatlarının infrastrukturu və səmərəli arxitekturasının formalaşdırılması kimi informasiya texnologiyası obyektlərinin effektli avtomatlaşdırılması obyektiv zərurət kəsb edir. Məqalədə həmin məsələlərin mahiyyəti, həlli yolları nəzərdən keçirilmişdir.



**Açar sözlər:** *mehmanxana biznesi, informasiya sistemi, avtomatlaşdırılmış idarəetmə sistemi.*

## РЕЗЮМЕ

Эффективная информационная система управления организациями государственной службы является одним из важных факторов повышения их конкурентоспособности. Эффективная автоматизация таких объектов информационных технологий, как формирование инфраструктуры и эффективной архитектуры организаций гостиничного бизнеса, объективно необходима для анализа внутренней и внешней информации и принятия обоснованного эффективного управленческого решения. В статье были рассмотрены сущность этих вопросов и пути их решения.



**Ключевые слова:** *гостиничный бизнес, информационная система, автоматизированная система управления.*



## SUMMARY

An effective information management system for public service organizations is one of the important factors in increasing their competitiveness. Efficient automation of such information technology objects as the formation of infrastructure and effective architecture of hotel business organizations is objectively necessary for the analysis of internal and external information and the adoption of a reasonable effective management decision. The article examined the essence of these issues and ways to solve them.



**Key words:** *hotel business, information system, automated control system.*

UOT 1

# КУЛЬТУРА И РАЦИОНАЛЬНОЕ: РАЗМЫШЛЕНИЯ В КОНТЕКСТЕ ТЕОРИИ РАЦИОНАЛЬНОСТИ Ю.ХАБЕРМАСА

**ЗАКИР МАМЕДАЛИЕВ**
*Профессор кафедры гуманитарных дисциплин Азербайджанского государственного экономического университета*
*E-mail: zakirm57@mail.ru*

**Введение.** С 70-х годов прошлого века, ряд фундаментальных ценностей новоевропейского рационализма стали подвергаться жесткой критике представителями постмодернизма. В тот же самый период немецкий философ Ю.Хабермас проделал титаническую работу по реабилитации ценностей европейского рационализма. Ниже, прослеживая ключевые моменты проделанной им работы, попытаемся выяснить, настолько эффективным оказалось запущенное Хабермасом это грандиозное предприятие.

Ю.Хабермас недоволен тем, что постмодернисты в своей бескомпромиссной критике разума одержимы твердым намерением сравнять крепость разума с землей и воздвигать на его развалинах иной, ложный, по его мнению, абсолют. Отправным пунктом его собственных теоретических построений является концепция рационализации Макса Вебера. Эффективность социального действия и успех, согласно Веберу, выступают критерием рациональности. Предпосылкой данного подхода служит философия субъекта, следовательно, монологическое (распорядительное) сознание. Однако последнее, подчеркивает Хабермас, отнюдь не исчерпывает содержание разума; оно даже не является существенной характеристикой последнего. Монологическое сознание выдвигается на первый план лишь при определенных обстоятельствах, когда истинная природа разума подвергается искажению.

Хабермас хочет доказать, что человеческое действие в идеале ориентировано на полное взаимопонимание путем плодотворного коммуникативного дискурса. Называя это действие коммуникативным, он характеризует его как эталон социального действия. Тип рациональности, воплощенный в коммуникативном действии, гораздо шире и содержательнее монологического сознания, так как коммуникативная рациональность предполагает согласие относительно всех видов рациональности [7, с. 131-161]. Хабермас убежден, что все нападки, направленные на дискредитацию разума, не выходят за пределы критики монологического сознания и потому не имеют никакого отношения к подлинной сущности разума, воплощенной в коммуникативной рациональности.

Поскольку за процессами социализации и солидарности, которые формируют истинно человеческий менталитет, стоит «жизненный мир», пока мы осознаем себя «перформативно, как переживающие субъекты, включенные в органические, жизненные процессы, а также как субъекты обобществленные» [6], т.е. пока находимся в «жизненном мире», нацеленность на взаимопонимание, и, стало быть, коммуникативное действие будет неотъемлемой чертой и сущностной характеристикой нашего социального бытия. Когда мы выходим за пределы «жизненного мира», т.е. воспринимаем себя преимущественно как экономическое или политическое существо, берет верх целерациональное действие и связанное с ним монологическое сознание.

Таким образом, Хабермас констатирует, что коммуникативная практика представляет собой подлинное изначальное место обитания разума, где он в состоянии исполнять завещанную ему Просвещением миссию по устранению раскола в обществе и реставрации утраченной солидарности. Он надеется, что «критическое знание», вызванное к жизни «эмансипаторским интересом», обладает потенциалом, который способен освобождать личности от диктата «объективных» и социальных сил (технократической идеологии и вредных социокультурных традиций) [1]. Однако, как показывает исторический опыт появления и наращивания силы амбициозной личности Нового времени, т.н. «эмансипаторские интересы» несут не столько освобождение, но, и прежде всего, эгоцентричные интересы, все больше и больше угрожающие коренным условиям существования человека.

Главная, основополагающая, идея Хабермаса заключается в том, что, по его глубокому убеждению, должным образом организованный дискурс способен вырабатывать общезначимые правила, регламентирующие непринужденное совместное проживание людей в обществе. В ходе дискурса его участники выдвигают определенные притязания на значимость и «на основании взаимозависимости различных форм аргументации, т.е. путем аргументации средствами прагматической логики … участники избавляются от своих субъективных воззрений ради рационально мотивированного согласия» [5, с. 324-325]. Однако люди далеко не часто склонны принимать всерьез рациональные аргументы. Даже в науке, где разногласия и раздоры, скорее всего, являются исключением из правил, ученые далеко не всегда оказываются восприимчивыми к рациональным аргументам своих оппонентов. В этом отношении весьма поучительны разработанное Т. Куном [2] и П. Фейерабендом [4] понятие «несоизмеримости» и концепция научно-исследовательских программ И. Лакатоса [3]. Кун красочно изображает ситуацию, которая складывается в периоды кризисного развития науки. В кризисных ситуациях ученые как участники дискурса живут как бы в разных мирах, поэтому их аргументы почти никогда не встречаются и проходят как бы мимо друг друга. В силу этого в подобных ситуациях разрешить конфликт между парадигмами путем рациональных аргументов не удается.

Но если это не удается осуществить в наиболее рационализированой сфере деятельности - науке, то тем более нелегко реализовать это в повседневной практике. Ценностные ориентации эпохи, субкультурная среда, частные интересы людей, различные (явные или неявные) идеологические сознания оказывают решающее воздействие на выбор людей, которые притупляют силу рациональных аргументов. Правда, Хабермас твердо намерен подвести согласованность с большинством указанных факторов также под рубрику рациональности: коммуникативная рациональность измеряет себя не только соответствием высказывания реальному положению дел («пропозициональной истиной»), но также и соответствием его нормативному (т.е. социкультурному) контексту («нормативной правильностью») и намерению говорящего («субъективной правдивостью») [5, с. 323-324]. На чем же основывается данное расширенное толкование рациональности? В частности, имеет смысл спросить, всегда ли требование соответствия высказывания (и действия вообще) нормативному контексту оказывается релевантным, ведь совсем нередко нормативный контекст легитимизирует патологическое социокультурное окружение? В этом случае релевантность данного требования по отношению к рациональности могла быть мотивирована, если бы оно способствовало достижению компромисса между участниками дискурса, на базе чего формируется консенсус, о котором Хабермас любит говорить как о непринужденном взаимопонимании: «более высокая степень коммуникативной рациональности расширяет – в рамках коммуникативного сообщества – масштабы непринужденной координации действий и консенсуального разрешения конфликтов (в крайнем случае в той мере, в какой последние обусловлены когнитивным диссонансом)» [7, с. 15]. На самом же деле, поскольку люди приходят к согласию под давлением патологической социокультурной обстановки, оно уже никак не может быть квалифицировано как непринужденное взаимопонимание. Понятие коммуникативной рациональности как «взаимозависимости различных форм аргументации» предполагает условие, при наличии которого социальная патология является, скорее, редкостным исключением, чем повсеместно распространенным явлением. В современной действительности, которая полна подобных явлений, вряд ли часто встречаются реальные аналоги хабермасовского понятия рациональности.

Несмотря на явное пренебрежение Хабермасом классической философией истории (и культуры), на самом же деле, в основе теории коммуникативного действия лежит вполне конкретная философия истории, примыкающая к финалистской концепции прогресса французского Просвещения. Историческая последовательность выделенных Хабермасом стадий социальной эволюции фиксирует возрастание рациональности с течением исторического времени в обществе: каждая последующая стадия эволюции более рациональна, чем предыдущая. В конечном итоге социальная эволюция приведет к достижению такого состояния общества, где рациональность

станет универсальным явлением, т.е. социальная коммуникация ничем не будет искажена. Свидетельством тому служит, утверждает Хабермас, рост независимости личности и возможности ее свободного волеизявления [5, с.355-356]. Кажется, отсутствие склонности к культурологическому анализу мешает ему видеть, что скрывается на самом деле за этими завораживающими его демократическими ценностями. Не эти ценности, лежащие на поверхности явлений, определяют сущность новой истории. Они, скорее всего, являются лишь побочными последствиями того фундаментального процесса, в поступах которого дает о себе знать сущность эпохи.

Довольно длительное время отсутствовали социокультурные предпосылки появления и самоутверждения личностного начала в историческом процессе. Культура Возрождения воспитала в человеке чувство самоуверенности; он обрел уверенность в том, что в мире нет силы, могущей противостоять его свободной воле. Для того, чтобы выдержать превратности судьбы и добиться свободного самоопределения, он должен найти точку опоры в самом же себе. Именно амбиции этой личности позднее создали индустриальное общество, корни которого уходят в глубины культуры Возрождения.

Поскольку амбициозная личность была основополагающим формирующим началом Нового времени, ее цели и притязания стали призванием эпохи. Подчинение бытия всеобъемлющим притязаниям личности требовало широкомасштабного и организованного воздействия на него. Поэтому призвание эпохи впервые и порождает метод как явление совершенно нового типа. В социальной сфере господство метода как сущностная характеристика Нового времени нашло свое выражение в системе демократических институтов индустриального общества. После того, как индустриализм породил конформистское общество, западная демократия обрела характер универсального принципа социального управления, действие которого совсем не редко оборачивается против самого человека. Поэтому сущность индустриализма как детища господства метода заключается в методическом принуждении как природы, так и человека.

Развертывание господства метода требовало свободы действия. Разрушение амбициозной личностью Нового времени системы привилегий феодального общества служило созданию свободного пространства для действия метода, одним из последствий которого оказалось освобождение человека от феодальных порядков и установление принципа формального равенства перед законом, легитимирующим волю этой личности. Поэтому утверждение принципа формального равноправия нельзя причислять к сущностным характеристикам Новой истории; оно, скорее всего, побочное следствие на пути подчинения бытия воле личности.

Главную проблему модерна, в т.ч. и новейшей истории, Хабермас усматривает в утрате солидарности в обществе, некогда поддерживаемой религией [5, с. 20]. В ее восстановлении он возлагает всю надежду на примиряющий потенциал разума, сосредоточенный на коммуникативной рациональности. Однако, кажется, ряд существенных обстоятельств, выявление которых возможно только в свете культурологического подхода, сводит на нет «примиряющий потенциал» рационального, приписанный ему Хабермасом.

Из сложного переплетения цивилизационного и культурного начал вырастает такое многомерное явление, как человеческая жизнь. В стадиях ее роста культурное начало превалирует над цивилизационным и между ними не возникают сколько-нибудь серьезных конфликтов; культурное пространство оказывается оптимальным и, в целом, благоприятным условием для гармоничного роста светских устремлений. Культура умеет контролировать рост приватных интересов и вписывать их в свои рамки. Когда же эгоцентричные интересы стремятся брать верх над культурой, возникает острый конфликт; культура мобилизует свои жизненные силы и стремится восстановить прежний статус-кво. Исход этой циклической эволюции жизни зависит от особенностей рационалистических тенденций в культуре, растущих вместе с ростом цивилизационного начала. Рациональное выступает организующим началом наступлений на владения культуры. Перекраивание карты культурной жизни осуществляется под эгидой разума. Происходит повсеместная секуляризация и рационализация культурных ценностей и традиций, что сопровождается их девальвацией; они перестают действовать, углубляются их стагнация и око-

стенение. Под толщей праха суеты цивилизации культурная жизнь уныло тлеет.

Заключение. Рациональное решение социокультурных проблем не затрагивает их происхождение в культуре. Эти проблемы культурно обусловлены, и потому требуют соразмерных им действий. Проблемы культуры возникают, когда действия и поступки людей не соразмерны с Истиной, не служат Добру и отклоняются от Прекрасного. Истина, Добро и Прекрасное как верховные интегральные ценности культуры (ее универсалии), хотя и не существуют вне человека вообще, но принципиально запредельны индивиду и освящены авторитетом традиций; поэтому они, как таковые, имеют духовную силу. Содержание же духовного никогда не может исчерпано рациональным суждением. В каком бы облике не проявилось рациональное, оно всегда покоится на холодном расчете, духовное же, как раз и не поддается последнему. Поэтому рациональность, в т.ч. и коммуникативная, не может служить основанием для кардинального решения социокультурных проблем.

## ЛИТЕРАТУРА:


1. *Громов И.А., Мацкевич А.Ю., Семёнов В.А. Западная теоретическая социология . Спб.: Ольга, 1996. 286 с.*
2. *Кун Т. Структура научных революций. М.: Прогресс, 1977. 300 с.*
3. *Лакатос И. Методология научных исследовательских программ // Вопросы философии. 1995. №4. С.135-154.*
4. *Фейерабенд П. Против методологического принуждения // Избранные труды по методологии науки / Пер. с англ. М.: Прогресс, 1986. С.125-466.*
5. *Хабермас Ю. Философский дискурс о модерне / Пер. с нем. М.: Весь мир, 2008. 416 с.*
6. *Хабермас Ю. От картин мира к жизненному миру // http://russia.ru/video/nauka_habermas/ (дата обращения: 25.04.2020)*
7. *Habermas J. The theory of communicative action. Vol. 1. Reazon and the rationalization of society. Boston: Beacon Press (1984). 465 p.*


## XÜLASƏ


**Zakir Məmmədəliyev**
**Mədəniyyət və rasionallıq: Habermasın rasionallıq nəzəriyyəsi haqqında mülahizələr**

Məqalədə Y.Habermasın kommunikativ əməl (fəaliyyət) nəzəriyyəsinin mədəniyyət və rasionallığın qarşılıqlı münasibətləri kontekstində təhlilinə cəhd göstərilmişdir. Habermasın rasionallıq nəzəriyyəsinin tənqidi dəyərləndirilməsi zəminində rasionallığın, o cümlədən də, kommunikativ rasionallığın, mədəniyyətin köklü problemlərini həll etməyə qadir olmadığı əsaslandırılmışdır. Kommunikativ rasionallıq konsepti, faktiki olaraq, modern cəmiyyətlərin kommunikativ-praqmatik sosial praktikasını ideallaşdırır və onun interpretasiyası zamanı məcburetmə amilinə biganə qalmaqla ciddi səhvə yol verir. Məqalədə, həmçinin, mədəniyyətin strukturunda rasional başlanğıcın fəallaşması və güclənməsi sosiumda eqosentrik (sivilizasion) meyillərin inkişaf göstəricisi kimi səciyyələndirilir.


**Açar sözlər:** *rasionallıq, eqosentrik maraqlar, kommunikativ rasionallıq, mədəniyyət, sivilizasiya.*

## SUMMARY


**Zakir G. Mammadaliyev**
**Culture and the Rational: Meditation in the Context of Habermas' Theory of Rationality**

In the article it has been attepted to analyze the theory of communicative action of J. Habermas in the context of the correlation between culture and rationality. With reference to the critical consideration of J.Habermas' theory of rationality it has been grounded that rationality, including communicative, is not capable of resolving fundamental problems of culture. The concept of communicative rationality idealizes the communicative-pragmatic social practice of modernity, in the interpretation of which ignoring of the coercive factor would be an insidious delusion. The activation and strengthening of the rational principle in culture is characterized as an indicator of the growth of egocentric (civilizational) aspirations in society.


**Keywords:** *rationality; egocentric interests; communicative rationality; culture; civilization.*

UOT 1

# HƏQİQƏTİN NƏZƏRİ-FƏLSƏFİ MODELLƏRİ

**ŞƏMS BÜNYATOVA**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: shams.bunyatova@gmail.com*

İdrak prosesinin nəticəsi olan bilik obyekt və subyektin qarşılıqlı əlaqəsi sayəsində gerçəkləşdiyi üçün onun məzmununda həm obyektin, həm də subyektin xassə və keyfiyyətləri özünü göstərir. Bu baxımdan yanaşdıqda bilik anlayışının məzmununda iki fərqli hissəni ayırmaq mümkündür:

1) İlk təbəqədə biliyin subyektin xarici aləmi qavrama səviyyəsindən, hiss üzvlərindən, dünyagörüşündən, emosional aləmi, həmçinin məlumatları qəbul edib, təkrar istehsalı dərəcəsindən asılı olması vurğulanır. Bu mənada birinci təbəqə sırf subyektiv xarakterli olub, özündə obyektiv məna daşımır.

2) Obyektiv həqiqət adlandırılan ikinci təbəqədə biliyin məzmunu subyektdən, ümumilikdə insanlıqdan asılı olmadan açıqlanır. Burada obyektin ayrı-ayrı elementləri, onlar arasında mövcud olan qarşılıqlı münasibət və zəruri əlaqələr əsas fakt kimi götürülür [9, s.436-437].

Ümumiyyətlə, fəlsəfi idrakın tarixi inkişaf yoluna nəzər yetirsək, görə bilərik ki, həqiqət problemi, onun əldə olunmasının üsul və vasitələri, həqiqətin mövcud olma formaları kimi bu və digər həqiqətə dair məsələlər burada aparıcı rol oynamışdır. Fəlsəfi ədəbiyyatda həqiqət anlayışına dair müxtəlif təriflər verilmişdir: Həqiqət - empirik bilikdir; həqiqət - biliyin reallığa adekvatlığıdır; həqiqət-razılaşdırılmış bilikdir; həqiqətin meyarı faydadır. Göstərilən təriflərə uyğun olaraq idrak fəlsəfəsində həqiqətə dair müxtəlif nəzəriyyə və konsepsiyalar mövcuddur. Onlar içərisində əksəriyyət tərəfindən qəbul olunanlardan həqiqətin korrespondent, koherent və praqmatik konsepsiyalarının adlarını çəkmək məqsədəuyğundur [9, s.438-439].

Fəlsəfi ədəbiyyatda korrespondent konsepsiya kimi də adlandırılan həqiqətin klassik nəzəriyyəsinin əsas müddəası fikrin gerçəkliyə adekvatlığıdır. Həqiqətin digər nəzəriyyələri arasında ən qədim tarixə malik olmasına və həqiqət anlayışının nəzəri cəhətdən öyrənilməsinin başlanğıcını məhz bu konsepsiyadan götürməsinə əsaslanaraq o, klassik nəzəriyyə kimi qəbul olunur. İdealist, eyni zamanda materialist interpretasiyaları mövcud olan klassik həqiqət anlayışı fəlsəfi cəhətdən heterogen xarakteri ilə seçilir. Belə ki, bu şərhlər idrak prosesinin mahiyyətinin, həmçinin təbiətinin dərk olunması baxımından bir-birindən fərqlənir. Lakin klassik konsepsiyanın əsasında dayanan gerçəkliyin kopyalanması və biliklər sistemində təsvir oluna bilməsi prinsipi həm idealistlər, həm də materialistləri birləşdirən ortaq müddəa olmuşdur. Eyni zamanda onu qeyd etməliyik ki, bu nəzəriyyə idealizmdən daha çox materialist təfəkkürə yaxındır və onun əsl inkişaf yolu məhz materialist baxışlarla əlaqəlidir.

Klassik həqiqət nəzəriyyəsinin tarixi kökləri antik fəlsəfəyə qədər uzanır və onun nəzəri mənalandırılmasına ilk cəhdlər Platon və Aristotel tərəfindən olmuşdur. Platon həqiqət anlayışını belə xarakterizə etmişdir: şeyləri gerçəklikdə olduğu kimi ifadə edənlər həqiqəti söyləyir, əks halda yalan danışır. Anoloji tərifə Aristotelin "Metafizika" adlı əsərində də rast gəlmək mümkündür: varlığın mövcud olmadığını və ya var olmayanın olduğunu söyləmək yanlış, varlığın var olmasını, yoxluğun olmadığını söyləmək isə həqiqətdir". Xarici aləmdəki obyektin fikrimizdəki obrazını "phantasm" adlandıran Aristotelə görə, phantasm obyekti və ya predmeti onun forması vasitəsilə beynimizdə əks etdirir. Bu mənada predmetlə fikrimizdə inikas olunan obraz üçün ortaq cəhət obyektin formasıdır [1, s. 87-88]. Sxolastik fəlsəfədə isə həqiqətin klassik konsepsiyası "veritas est adaequatio rei et intellectus" kimi formulə edilmişdir. Yəni həqiqət intellekt (fikir, düşüncə) və predmetlərin uyğunluğudur. Sxolastik fəlsəfənin ən önəmli mütəfəkkirlərindən olan Aristotelçi Akvinalı Foma bu nəzəriyyəni məqbul hesab etmiş və onun yayılmasında böyük xidmətləri olmuşdur. Ümumiyyətlə isə, digər həqiqət nəzəriyyələri kimi klassik həqiqət konsepsiyası da intibah dövrünü məhz XX əsrdə yaşamışdır [5, s. 60]. Xüsusilə də, məntiqçi pozitivistlərin fəlsəfi baxışlarında aparıcı mövqedə dayanan həqiqətin klassik konsepsiyası tənqidlərə və elmi mübahisələrə baxmayaraq öz önəmini qoruyub saxlaya bilmişdir. Bu dövrdə klassik nəzəriyyənin iki şərhi mövcud olmuşdur.

Birincisi, B.Rassel tərəfindən daha da inkişaf etdirilən həqiqət fikri obrazla gerçək obraz arasında uyğunluq kimi qəbul edən şərhidir. Rasselə görə, həqiqət daşıyıcıları ilə gerçəklik arasında struktural

izomorfizm əlaqəsi mövcuddur. Bu mənada onun fikrincə, hansısa fikrin həqiqət olması üçün bir neçə ilkin şərt mövcud olmalıdır: ideya öz daxilində həm həqiqəti, həm də yanlışlığı əhatə etməlidir; doğruluq-yanlışlıq münasibətinin yalnızca maddi dünyaya aid olmadığını qəbul etmək; ifadənin varlığı şüura əsaslansa da, onun həqiqilik keyfiyyəti şüurdan kənardır [8, s. 119-120]. Sadalanan məqamları təhlil etsək, deyə bilərik ki, birinci şərt özündə verifikasiya, yəni doğrulanma və falsifikasiya- yanlışlama prinsiplərini ehtiva edir. Bu xüsusiyyətə malik ifadə forması mühakimədir. Bu halda həqiqilik mühakimələrin keyfiyyət xassəsidir. İkinci şərtə əsasən həqiqətin daşıyıcıları xarici aləm deyil, məhz ifadələr və ya cümlələrdir. Bu mənada o, birinci şərtin fəlsəfi cəhətdən möhkəmləndirilməsi funksiyasını yerinə yetirir. Sonuncu şərtə əsasən, həqiqət daşıyıcıları ifadələr olsa da, həqiqətin özü ifadədən kənar olan, daha doğrusu, ifadənin ondan asılı olmayan obyektlə qurduğu uyğunluq əlaqəsidir. İkinci şərh isə ingilis filosofu C.L. Ostinin adı ilə bağlı olan həqiqətə korrelyasiya əlaqəsi aspektindən yanaşan şərhidir. Bu şərhə əsasən hər bir həqiqət biliklə müəyyən bir hadisə arasında mövcud olan qarşılıqlı təsirdən, onların mövcudluq şəraitindən, həmçinin məkan və zamandan asılıdır. Bu mənada həqiqət hansısa obyektin birbaşa kopyalanması kimi başa düşülmür [8, s. 123].

Qeyd etdiyimiz kimi, klassik konsepsiyanın mərkəzi ideyası fikirlərin gerçəkliyə uyğunluğudur. Bu baxımdan, gerçəklik və ya reallıq anlayışı klassik nəzəriyyədə əsas anlayışlardan biridir. İdrak xarici aləmə doğru fokuslandıqda, yönəldikdə bu anlayış obyektiv reallıq anlayışı ilə eyniləşdirilir. Lakin bu reallığın çox dar mənalandırılmasıdır. Belə ki, göstərilən fikri təsdiqləsək, klassik həqiqət nəzəriyyəsini yalnızca xarici aləmin dərk olunması ilə məhdudlaşdırmış olarıq. Halbuki, klassik nəzəriyyə universallıq iddiasındadır və nəinki yalnızca obyektiv reallığa, eyni zamanda mental-əqli obyektlərə tətbiq oluna bilmə müddəasını irəli sürür.

Klassik həqiqət konsepsiyasının tənqidi nəticəsində meydana gələn, həqiqəti "razılaşdırılmış bilik" kimi qiymətləndirən nəzəriyyə koqerent nəzəriyyə olmuşdur. Daha çox metafizik, rasionalist və idealist filosoflar tərəfindən məqbul hesab olunan bu konsepsiyanın mənbəyi gerçəkliklə bilik arasındakı əlaqə və kriteriyanın müəyyən olunması ilə bağlı klassik nəzəriyyənin üzləşdiyi çətinliklər olmuşdur. Koherent nəzəriyyə XIX əsrdə xüsusilə, Kant və Hegelin təsiri altında olan "Britaniya idealistləri" kimi tanınan filosofların fəaliyyətində öz əksini tapmışdır. Koherent nəzəriyyənin tərəfdarlarına görə, dünyada mövcud olan bütün nəzəri sistemlər əlin qola, qolların da bədənə bağlı olması kimi bir-birilə əlaqəlidir. Bu sistem canlı orqanizmi xatırladır, hər element ayrılıqda, həmçinin sistemin bir hissəsi kimi onun daxilində yerinə yetirdiyi funksiyalara görə dəyər qazanır. Holistik inanc sistemi kimi ifadə olunan bu mövqeyə əsasən, həqiqətin ən kiçik və sadə elementi bizi daha mürəkkəb və bütöv həqiqətə çatdıracaqdır. Buna nümunə kimi elementar riyazi biliklərin mənimsənilməsini göstərmək olar. On üçün birdən böyük olduğunu və ya iyirmi altının cüt ədəd olduğuna dair bilikləri bir-birindən təcrid olunmuş şəkildə öyrənə bilmərik [2, s. 27-28].

E.M. Çudinova istinadən koherent nəzəriyyənin iki növünü göstərmək mümkündür. Klassik konsepsiyanı təkzib edərək, ona alternativ kimi çıxış edən birinci versiyaya əsasən, həqiqət biliyin koherentliyi, özünü razılaşdırma xassəsidir. Məşhur alman filosofu İ. Kant koherent nəzəriyyənin ilkin versiyasının banilərindən biri hesab olunur. Lakin onu da qeyd etməliyik ki, Kantın həqiqət problemi ilə bağlı baxışları birmənalı və ardıcıl xarakterli deyildir. Bir tərəfdən, klassik həqiqət nəzəriyyəsinə sadiqliyini elan edən Kant, digər tərəfdən təcrübə və bilik arasında təktərəfli uyğunluğun olmadığını və təcrübənin elə insanın rasional fəaliyyətindən asılı olduğunu qeyd edir. Beləliklə, Kanta görə, həqiqətin mahiyyəti və mənasını müəyyənləşdirən hissi və məntiqi idrakın birliyinin ifadəsi olan qarşılıqlı razılaşma mövcuddur [4, s. 21]. Bu mənada bilik formal məntiq qanunları ilə ziddiyyət kəsb etmirsə, eyni zamanda subyektdən asılı olmadan öz obyektinə uyğundursa, o həqiqi bilikdir [10, s. 62].

İkinci versiya həqiqətin klassik şərhini saxlasa da, biliyin gerçəkliyə uyğunluğunun yalnızca həqiqətin koherentlik kriteriyası, xassəsi vasitəsilə mümkün ola biləcəyini irəli sürür. Bu versiyanın mənbəyi kimi eley məktəbinin nümayəndələri Zenon və Parmenid qəbul olunur. Onlar fikrin gerçəkliyin adekvatlığı nəticəsində əldə olunan biliyi həqiqət hesab etməklə yanaşı, bu biliyin mövcud olan biliklər sistemi ilə üst-üstə düşməsi ideyasının tərəfdarı olmuşlar. Bu mənada mübahisəli, ziddiyyətli fikirlər qəbulolunmazdır və onların real dünyada mənbəyi, istinad nöqtəsi mövcud deyil. Bu mənada Parmenidə görə, yoxluq anlayışı real dünyada təmsil olunmadığı üçün yalandır, yanlışdır.

Adıçəkilən hər iki nəzəriyyənin qarşılaşdığı çətinliklər səbəbi ilə praqmatik nəzəriyyənin tərəfdarları daha konkret xarakterli həqiqət nəzəriyyəsi irəli sürdülər. Bu baxımdan, praqmatiklərə görə, praktiki nəticələri də nəzərə alaraq təhlil apardıqda əksər

fəlsəfi məktəblər və onların müzakirə mövzularının vaxt itkisi olduğunu görmək mümkündür. Beləliklə, Uilyam Ceymsə görə, fəlsəfənin vəzifəsi insan həyatında hər hansı bir dəyişiklik törətməyən ideyanın irəli sürülməsi deyil, əksinə bir fikrin doğru və ya həqiqət kimi qəbul olunduğu halda onun fərdlərin yaşamında hansı istiqamətdə təsir edə biləcəyini müəyyənləşdirməkdir. Metafizikada ilahiləşdirilmiş anlayışlar (Tanrı, maddə, ağıl, absolyut) filosoflara görə, kainata sahib olmaq üçün sehrli açar sözlər idi. Lakin praqmatik metoddan istifadə nəticəsində, fəlsəfə ilə elm birlikdə çıxış edəcək və metafizikanın müəyyən anlayışlar toplusunu fetişləşdirməsinə əsaslanan qapalı və son dərəcə primitiv tədqiqat üsuluna artıq ehtiyac duyulmayacaqdır.

Praqmatiklərə görə, həm korrespondent, həm də koherent nəzəriyyə həqiqətin formal və qeyri-informativ tərifini vermiş, ona abstrakt və metafizik xarakterli anlayış kimi yanaşmışlar. Amerikan təfəkkürünün məhsulu olan praqmatik nəzəriyyənin əsası Çarlz Pirs tərəfindən qoyulsa da, praqmatik həqiqət konsepsiyası Uilyam Ceymsin adı ilə bağlıdır. Həqiqətin psixoloji aspektini vurğulayan U.Ceymsdən fəqli olaraq Ç. Pirs həqiqətə rasional- məntiqi problem kimi yanaşır. Pirsə görə, həqiqət ayrı-ayrı fərdlərin məhsulu deyil, məhz tədqiqatçılar cəmiyyətinin fəaliyyətinin nəticəsində əldə olunan son bilikdir. Belə ki, praqmatik dəyərə malik olan həqiqətlər yalnızca elm sferasında öz əksini tapa bilər. Çünki həqiqətlər elm adamlarının yekdil rəyi əsasında qəbul olunur. Araşdırma prosesində fərqli metod və vasitələrdən istifadə etmələrinə baxmayaraq, əldə olunan nəticə etibarilə sonda onların hər biri eyni mərkəzdə toplanır. Bu mənada həqiqət fatal xarakter daşıyaraq, sanki bütün elmi araşdırmaların "alın yazısı" kimi gündəmə gəlir. Bu kontekstdən yanaşsaq, deyə bilərik ki, Pirs həqiqətin əldə olunma üsullarını daha çox diqqət mərkəzində saxlamışdır.

Uilyam Ceymsə görə, insanın fəaliyyətindən kənarda mövcud olan həqiqət və gerçəklik anlayışlarından bəhs etmək doğru deyildir. Belə ki, insan gerçəkliyin passiv seyrçisi, sadəcə həqiqəti kəşf edən subyekt deyil, məhz gerçəkliyi formalaşdıran və mənalandıran, həqiqəti yaradan aktiv, fəal subyektdir [11, s. 178]. Həqiqət varlığını qoruyub saxlamaq, "yaşaya bilmək" üçün gerçəkliyə möhtacdır, lakin o, gerçəkliyin sadəcə mükəmməl bir surəti deyildir.

Ceyms həqiqətə radikal emprizm mövqeyindən yanaşaraq, onu təcrübə ilə və bu çərçivədə müəyyən verifikasiya prosesi sonunda əldə olunan nəticələrə məxsus keyfiyyət kimi qiymətləndirir. Epistemoloji baxımdan təcrübənin obyektiv- subyektiv təsnifatını mahiyyətcə qəbul etməyən filosof ona bütövlükdə bəşəriyyətin təcrübəsi kimi yanaşır. Çünki Ceymsin mövqeyinə görə, bilik dərk edən subyektdən və dərk olunan obyektdən ayrılmazdır, onlar bir-birilə qırılmaz əlaqədə olan vəhdətin, bütövlüyün bir parçasıdır [6, s. 36-37]. Bu mənada həqiqət nə obyektdə, nə də subyektdə deyil, birbaşa olaraq təcrübənin özündə axtarılmalıdır. Empirik nəticənin yoxlanılması üçün isə təcrübə-üstü bir istinad nöqtəsinə və ya meyara ehtiyac yoxdur. Çünki təcrübə və ya praktika hər hansı bir ideyanın doğruluğunun təsdiq olunması üçün yeganə metodoloji platformadır. Bu mənada daimi və mükəmməl həqiqət ideyasını əsas tutan, əqli dərk etməni mütləq hesab edən yanaşmaya qarşı çıxaraq, bu qəbildən olan baxışları rasional postulat adlandıran Ceymsə görə, təcrübə ilə yoxlanılmayan biliklərin nəinki doğruluq və ya yanlışlığından söhbət gedə bilməz, ümumiyyətlə bu biliklər nəzəriyyə sərhədlərindən kənara çıxa bilməzlər. Ümumiyyətlə, praqmatiklərə görə, həqiqət insan fəaliyyətinin təməlini təşkil etmək iqtidarında olmalıdır. O aktual və ya potensial olaraq faydalılıq xüsusiyyətini özündə daşımalı və insan fəaliyyəti prosesində özünü büruzə verməlidir. Bu mənada həqiqət hər hansı bir fikrin, ideyanın dəyişməz, immanent xüsusiyyəti deyil, çünki həqiqət proses və bu proses əsasında təcrübi olaraq təsdiqlənmiş və əldə olunmuş nəticədir. Filosof həqiqəti praqmatik yoxlanılma nəticəsində əldə olunan, insan həyatı üçün faydalı olan bilik kimi qiymətləndirir. İnsan əqli teleoloji istiqamətdə fəaliyyət göstərdiyi üçün həqiqət özü də utilitar xarakterli olmalıdır. Bu mənada istənilən fikrin həqiqilik dəyəri onun insanın həyatında tutduğu faydalılıq və əhəmiyyətlilik dərəcəsi ilə ölçülür. Belə olduğu halda həqiqilik biliyin statik və irsi keyfiyyəti deyil, praktika nəticəsində qazanılan və situasiyaya uyğunluq xüsusiyyətidir [7, s.103].

Filosofun nəzərincə, onun həqiqət anlayışının izahı realist xarakterlidir və ümumilikdə, epistemoloji dualizmə adekvatdır. Bu baxımdan o, mütləq həqiqət ideyasını dəstəkləyən absolyutizm və bu baxışın opponenti mövqeyində dayanan skeptisizm tərəfdarlarını tənqid etmişdir. Skeptiklərə görə, heç bir mütləq həqiqət yoxdur, olsa da, biz onun haqqında bilə bilmərik, hərçənd bilsək də, izah edə bilmərik. Ceymsə görə, bu fikir qəbul olunmazdır. Çünki hər hansı bir elm adamı həqiqətin olmadığını və onun tapıla bilmə ehtimalının sıfıra bərabərliyini qəbul edirsə, onu axtarmaq üçün heç bir çaba sərf etmirsə, bu həqiqət gerçəkdən də var olsa belə, onu tapmağımız qeyri-mümkün olacaqdır. Ceyms skeptikləri meşədə azmış və çıxış yolunu tapa bilməyəcəyini düşünərək,

bir kənarda oturub aclıqdan ölməyi gözləyən insan obrazına bənzədir. Onun fikrincə, mövcud sualların qarşılığı olaraq əldə olunacaq cavablar varsa, onların tapılmasına maneə yaradan istənilən metod rasionallıqdan uzaqdır. Məhz buna görə də Ceyms absolyutizmi doqmatik, skeptisizmi isə irrasional xarakterli olması səbəbilə rədd edir.

Ümumilikdə, deyə bilərik ki, Ceymsə görə, hər hansı bir ideya və ya fikrin həqiqət statusunu ala bilməsi üçün onun "pozitiv dəyər" və verifikasiya oluna bilmə kriteriyalarını özündə ehtiva etməsi vacibdir. Lakin burada da müəyyən istisnalar mövcuddur. Belə ki, hər hansı bir inanc və ya fikir mövcud zamanda təsdiqlənmədiyi halda insanların həyatında pozitiv dəyərə malikdirsə və heç bir problemin yaranmasına səbəb olmursa, onun təsdiqlənmə prosesi sonrakı dövrlərə kimi təxirə salına bilər. Bu mənada o, insanın nəhəng kainat qarşısında təhlükəsizlik ehtiyacını təmin edən, həmçinin ona psixoloji rahatlama bəxş edən, həm sosial münasibətləri, həm də fərdlərin daxili aləmlərini tənzimləyən faktor kimi Tanrı ideyasının bəşəriyyətin sonrakı inkişaf mərhələlərində təsdiqlənə biləcəyini qeyd edir. Belə nəticəyə gəlmək mümkündür ki, praqmatik həqiqət nəzəriyyəsində metafizika ilə rasionalizm əks qütblərdə durmamış, əksinə "çiyin-çiyinə" fəaliyyət göstərən istiqamətlərdir. Çünki yuxarıda da qeyd etdiyimiz kimi, nəticələri insan həyatı üçün faydalı olan heç bir hipotez praqmatik həqiqət nəzəriyyəsi tərəfindən rədd edilmir. Bu məqamda Ceymsin tutduğu mövqe ideya yoldaşları tərəfindən tənqidə məruz qalmışdır. Hətta Pirsin fikrincə, Ceyms praqmatizmin mənasını anlamsız və qarışıq sözlər yığınından ibarət olan ənənəvi metafizikada tapmışdır. Həmçinin Con Dyui də, Ceymsin "məmnunluq yaradan şeylər həqiqətdir" fikrinə qarşı çıxaraq, onun praqmatik həqiqət anlayışının mənası və dəyərini bir-birilə qarışıq saldığını bildirir. Çünki Dyuinin mövqeyinə görə, özünü praqmatik kimi təqdim edən filosofun vəzifəsi metafizik və teoloji inancların təcrübi mənasının olmadığını sübut etməkdir.

Yuxarıda təhlil olunan digər konsepsiyalar kimi həqiqətin praqmatik nəzəriyyəsi də müəyyən problem və tənqidlərdən yan keçə bilməmişdir. Belə ki, praqmatik nəzəriyyə öz daxilində ziddiyyətli xarakterə malikdir. Ceymsin ən kəskin tənqid olunduğu məqam fəlsəfənin mərkəzi problemlərindən hesab olunan həqiqət anlayışını, həddindən artıq "elastik" xarakterli fayda anlayışı ilə əsaslandırmağa çalışması olmuşdur. Həqiqətin meyarı kimi götürülən "faydalılıq, utilitarlıq" kriteriyası özlüyündə nisbi xarakterə malikdir. Buna əsasən deyə bilərik ki, praqmatik konsepsiya həqiqətin universal tərifini verməkdə yetərsizdir. Fayda fərdlərin dünyagörüşündən, mental düşücə tərzindən, eyni zamanda onun aid olduğu cəmiyyət və mədəniyyətin qəlibləşdirdiyi baxışlar sistemindən bilavasitə asılı olduğu üçün praqmatik konsepsiyanın təklif etdiyi "həqiqətin" obyektivliyi, bununla yanaşı universallığı şübhə altına düşür. Bu baxımdan adıçəkilən konsepsiyanın ilk tənqidçilərindən Corc Mura görə, həqiqətin meyarı kimi fayda anlayışının dəyərləndirilməsi qəbulolunmazdır. Bu kontekstdə, Mur nəzəriyyənin relyativist mövqeyini bir daha vurğulamış olur. Həmçinin Ceymsin, həqiqətin situativ xarakterli olmasını vurğulanması da praqmatik konsepsiyanın əleyhdarlarının artmasına səbəbiyyət vermişdir. Öz dövründə üzləşdiyi tənqidlərə, təbii ki, Ceyms cavabsız qalmamışdır: "Yeni meydana çıxmış bütün nəzəriyyələrin keçdiyi mərhələlərdən praqmatik həqiqət nəzəriyyəsi də keçəcəkdir. Bilindiyi kimi, hər yeni nəzəriyyə ilk başda cəfəngiyyat adlandırılaraq hücumlara məruz qalır. Zaman keçdikcə müəyyən mənada qəbul olunsa da, dəyərsiz hesab olunur. Nəhayət, sonda bu nəzəriyyəyə o dərəcədə önəm verilir ki, bir zamanlar bu nəzəriyyəni cəfəng adlandıranlar indi özlərini onun yaradıcıları kimi qələmə verirlər. Bizim həqiqət nəzəriyyəmiz də hazırda bu üç mərhələdən birincisindədir " [3, s. 111].

Ümumiyyətlə, həqiqət anlayışı ikili mənada anlaşılan bir proses kimi başa düşülməlidir. İlk növbədə, obyekt və ya predmetin daha təfərrüatlı inikas olunması yönümündə baş verən dəyişiklik prosesi kimi, ikinci isə nəzəriyyə və konsepsiyaların daxilindəki yanılmaların aradan qaldırılması prosesi kimi. Bu mənada daha bütöv, tam həqiqətə çatmaq üçün həqiqət prosesi öz daxilində bir-birilə vəhdətdə olan statik və dinamik momentləri birləşdirir. Bu cür vəhdətin pozulması həqiqəti təşkil edən elementlərin zəifləməsinə və ya tamamilə yoxa çıxmasına səbəb olur. Həqiqətin məzmununda statik və ya mütləqlik xassəsinin qədərindən artıq olması ehkamçılığa, doqmatizmə, avtoritarizmə, pərəstiş münasibətlərinin yaranmasına gətirib çıxarır. Eyni zamanda bir nəzəriyyənin digərini əvəz etməsi mənasında biliyin nisbilik xassəsinin də mütləqləşdirilməsi yolverilməz haldır. Bu cür mütləqləşdirmə son nəticədə mənasız şübhəçiliyə, skeptisizmə, həmçinin aqnostisizmə gətirib çıxarır. Həqiqət anlayışının öyrənilməsi həqiqətin müxtəlif konsepsiyaları və onlar arasındakı münasibətlərin təhlilinə, bundan əlavə həmin nəzəriyyələrin fonunda həqiqətin fərqli formalarının mövcud olub-olmaması məsələsinin tədqiqinə şərait yaradır. Bu mənada, idrak prosesində həqiqətin

yeni formaları aşkar edildikdə onlara düzxətli-tənqidi mövqedən deyil, yeni və köhnə formaların sintezinə əsaslanan strategiya mövqeyindən yanaşmaq vacibdir. Məhz L.A.Mikeşinaya görə, həqiqət konsepsiyaları komplementar xüsusiyyətli olub, biri digərini inkar etmir və hər biri ayrılıqda həqiqi biliyin epistemoliji, qnoseoloji, semantik, ictimai-mədəni aspektlərini ifadə etdiklərindən bu nəzəriyyələr bir-birilə qarşılıqlı əlaqədə nəzərdən keçirilməlidir. Bu mövqedən yanaşsaq, yuxarıda da təhlil olunan konsepsiyalardan heç biri universal, yeganə həqiqət olmaq iddiası irəli sürmədiklərindən, onların hər biri əldə olunan biliyin həqiqiliyinin həm metodoloji, həm də qnoseoloji analizi üçün yetərincə qiymətli vəsaitdir. Eyni zamanda bu konsepsiyaların həqiqətə dair irəli sürdükləri müxtəlif meyarlar eynigüclü olmamalarına baxmayaraq, qarşılıqlı təsirdə və vəhdət halında götürülməlidir [9, s. 457]. Bu mənada müasir həqiqət anlayışı müxtəlif fəlsəfi konsepsiyaların dialoqunu və elmi-mədəni yeniliklər kontekstində ən məhsuldar fikirlərin sintezini özündə ehtiva edir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Анкин, Д.В. Теория Познания, - Екатеринбург: Издательство Уральского Университета, - 2019. – 192 с.*

2. *Blackburn S. On Truth. – Oxford University Press, - 2018. – 160 p.*

3. *Çelik, S. Pragmatizm Pratik Bir Felsefe Seçme Yazılar, - İstanbul: Doruk Yayınları, - 2008. -176 s.*

4. *Чудинов, Э.М. Природа Научной Истины. – Москва: Политиздат, - 1977. – 312 с.*

5. *Çüçen K.A. Bilgi Felsefesi. - Bursa: ASA Yayıncılık, - 2005. – 280 s.*

6. *Джохадзе, Д.И. Прагматизм У. Джеймса: основные идеи и их развитие // - Москва: Философский журнал, - 2015. № 2 , - с. 31-43.*

7. *James, W. Pragmatism. – New York: Barnes & Noble Publishing, - 2003. - 160 p.*

8. *Kirkham, R.L. Theories of truth: A critical introduction. – MİT Press, 2001*

9. *Məmmədov, Ə.B. Rasionallıq və qeyri-rasionallıq / Ə.B.Məmmədov, V.İ.İsmayılov, F.Ə.Məmmədov – Bakı: Elm, - 2010. – 879 s.*

10. *Tepe, H. Platondan Habermasa Felsefede Doğruluk ya da Hakikat. – Ankara: BilgeSu Yayıncılık, - 2016. – 224 s.*

11. *Türer, C. Pragmatizmin Doğruluk Evi // - Kayseri: Bilimname, - 2009. № 17 , – s. 165-185.*


## XÜLASƏ


İdrak nəzəriyyəsində həqiqət problemi başlıca və mühüm yerlərdən birini tutur. Həqiqətə verilən bu status təsadüfi olmayıb, onun idrak prosesində oynadığı roldan, nəzəri-empirik əhəmiyyətindən irəli gəlir. Bu mənada məqalədə həqiqətin müxtəlif nəzəri modelləri (klassik, koherent və praqmatik) təhlil olunmuşdur. Həmçinin məqalədə adı çəkilən nəzəriyyələrin hər birinin həqiqətə verdiyi təriflər, həmçinin çatışmazlıqları və qarşılaşdıqları problemlər öz əksini tapmışdır.



**Açar sözlər:** *həqiqət, klassik nəzəriyyə, korrespondent nəzəriyyə, koherent nəzəriyyə, praqmatik nəzəriyyə, uyğunluq, fayda, dəyər, bilik.*


## Теоретические-философские модели истины

## РЕЗЮМЕ


Проблема истины занимает одно из главных и важных мест в теории познания. Этот статус, присвоенный истине, не случаен, он вытекает из той роли, которую она играет в познавательном процессе, и ее теоретико-эмпирического значения. В этом смысле в статье анализируются различные теоретические модели истины (классическая, когерентная и прагматическая). Также в статье отражены определения истины каждой из упомянутых в статье теорией, а также их недостатки и проблемы, с которыми они сталкиваются.



**Ключевые слова:** *истина, классическая теория, теория соответствия, когерентная теория, прагматическая теория, релевантность, полезность, ценность, знание.*


## Theoretical-philosophical models of truth


The problem of truth occupies one of the main and important places in the theory of knowledge. This status assigned to truth is not accidental, it follows from the role it plays in the cognitive process and its theoretical-empirical significance. In this sense, the article analyzes various theoretical models of truth (classical, coherent and pragmatic). The article also reflects the definitions of the truth of each of the theories mentioned in the article, as well as their shortcomings and the problems they face.



**Keywords:** *truth, classical theory, correspondence theory, coherent theory, pragmatic theory, relevance, utility, value, knowledge.*

UOT 2:14

# ƏLİ BİN ƏBU TALİBİN "NƏHCÜL-BƏLAĞƏ" ƏSƏRİNİN HƏDİS ELMİNDƏ YERİ

**RÜFƏT QARAYEV**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun doktorantı*

*E-mail: rufetelekberoglu@gmail.com*

**Hədisin lüğət və terminoloji mənaları:**

Hədis lüğətdə "qədimin" ziddi "cədid" mənasına gəldiyi kimi, "xəbər" mənasına da gəlir və bu kəlmədən törəyən bəzi felləri xəbər vermək və nəql etmək kimi mənalarda işlədilir [2, I, s.267].

Hədis kəlməsi Qurani-Kərimdə "söz" və "xəbər" mənalarında işlədilmişdir. "Qoy onlar bunun kimi bir kəlam gətirsinlər!" [3, Tur, 34] ayəsində "söz", "Musanın xəbəri sənə çatdımı?" [3, Taha, 9] ayəsində "xəbər" mənasında işlədilmişdir.

Qurani-Kərimin digər bir ayəsində "hədis" kəlməsi "söz" olaraq keçir. Məsələn: ***"Yoxsa bu sözə inanmasalar arxalarınca təəssüflənib özünü həlak edəcəksən?"*** [3, Kəhf, 6].

Qurani-Kərimdə hədis kəlməsinin **"əhsənül-hədis"** [3, Zümər, 23] və **"bi-hədisin mislihi"** [3, Tur, 34] şəklində tək forması, **"təvilül-əhadis"** [3, Yusif, 21] şəklində də cəm forması keçməkdədir.

Şəxsən Peyğəmbər (s) tərəfindən istifadə edilmiş forması belə, Tabiun və daha sonrakıların ifadələrində keçən "hədis" təbirləri, ya Peyğəmbərin (s) sözü, ya da Peyğəmbərə dair bir xəbər mənasında qəbul edilmişdir. Zaman keçdikcə bu "söz" və "xəbər" mənaları birləşdirilərək hər iki məna tək bir termin içinə alınmış və belə tərif edilmişdir [4, I, s.35].

Nəhayət, hədis ləfzi, Peyğəmbərin (s) sözlərini ifadə etməsi və onunla əlaqəli bütün xəbərlərə aid işlədilmişdir [5, s.24].

Hədisin termin mənası isə söz, fel, təqrir, əxlaqi və fiziki vəsf olaraq islam Peyğəmbərinə (s) izafə edilən hər şeyin yazılı mətnləri deməkdir.

Hədisi termin olaraq belə tərif edə bilərik. Hədis, söz, fel, təqrir, yaradılış və xasiyyətiylə əlaqədar sifət olaraq Peyğəmbər (s) və ya səhabə və tabiuna izafə edilən hər şeydir." [6, s.19].

**Sünnə kəlməsinin mənaları:**

Sünnə, lüğətdə yol, üsul, adət, yaxşı və pis bir kimsənin davranışları (getdiyi yol), vərdiş halına gətirdiyi davranışlar mənasındadır. Kəlmənin alındığı "sənnə" feli, əsas etibarı ilə bir cığır açmaq, yaxşı və ya pis bir yol tutmaq mənasına gəlir [1, XIII, s.225]. Quran-Kərimdəki "Sünnətül-əvvəlin" (öncəliklərin sünnəsi) bu mənadadır. Sünnətullah (Allahın Sünnəsi) isə hökm, əmr və nəhyləri (qadağaları) kainatın idarəsi üçün qoyduğu fiziki qanunlar deməkdir. Sünnə kəlməsinin cəm forması "Sünən"dir [2, s.1586].

Sünnə kəlməsi dini terminlər lüğətində belə tərif edilir: Sünnə, yol, qanun, adət, Allah Taalanın açıq şəkildə bildirməyib, Peyğəmbərin (s) edilməsini xoş qarşıladığı, yaxud davamlı olaraq etdiyi, yaxud da edilərkən görüb səs çıxarmadığı işlərdir [7, II, s.193].

Bu məfhum lüğətdə yaxşı və ya pis yol mənasına gəldiyi kimi surət, çöhrə [1, II, s.226] mənalarında da işlədilməkdədir. Sünnə, islam elmləri terminologiyasında bir neçə mənada işlədilməkdədir.

1- Peyğəmbərdən (s) istər peyğəmbərliyin gəlişindən əvvəl olsun, istərsə də sonra olsun, nəql edilən hər cür söz, fel və təqrirlərdir.

2- Fərz və vacib olmadan Peyğəmbərdən (s) gələn şeylərdir. Bu tərif fəqihlərin Sünnəyə verdiyi tərifdir. Məsələn: Namazın, orucun, həccin Sünnələri v.s.

3- Peyğəmbərin (s) həyatı boyunca etməyi ehtiyat etdikləri yoldur. Bu mənada Sünnə deyiləndə Peyğəmbərin (s) yemə və içmə daxil bütün davranışlarını içərisinə alır.

4- Rəslullahdan (s) sonra gələn xəlifələrinin tətbiqatı və dini mövzuda qoyduqları hökmlərdir.

5- Peyğəmbərdən (s) əvvəl gələn peyğəmbərlərin təqib və tətbiq etdikləri yoldur.

Məhəmməd (s) ilə səhabələrin etiqad və əməl sahəsində təqib etdikləri yolu izləyənlərə "əhli-Sünnə", xüsusilə də əqaid (iman) mövzularında öz bəşəri düşüncələrinə tabe olanlara da "əhli-bidət" deyilmişdir [8, s.641].

Qurani-Kərimdə Sünnəyə işarə edən ayələr vardır: ***"İnsanlara bir hidayət gəldiyi zaman ona iman gətirməyə və Rəbbindən bağışlanmalarını diləməyə manə olan şey yalnız əvvəlliklərin başına gələnlərin onların da başına gəlməsini, yaxud da gözləri baxa-baxa əzabın gəlib onlara yetişməsini gözləmələridir"*** [3, Kəhf, 55].

Eyni lüğəvi məna Peyğəmbərin (s) bir hədisi-şəri-

fində də görülməkdədir: *"Hər kim İslamda yaxşı bir Sünnə (yol, adət) açarsa, həm onun, həm də onunla əməl edənlərin savabından o kimsəyə yazılar. Kim də pis bir yol açmış olarsa, həm onun, həm də onunla əməl edənlərin günahlarından da o kimsəyə yazılar."* [9, elm-6]. Yuxarıda zikr edilən mənalarda işlədilmiş olan Sünnə kəlməsi İslamın başlanğıcından etibarən xüsusi bir məna qazanmış, yeni yol və gediş (sirət) mənalarını mühafizə etmiş olmaqla bərabər bu mənalar sadəcə Peyğəmbərin (s) tutduğu yol və davranışlarına xas olmuşdur.

Ancaq Peyğəmbərin (s) Sünnəsinin, Allahın təbliğ etdiyi din ilə əlaqəli olması, kəlmənin lüğətdə görülən pis və ya məzmun yol mənası terminindən qaldırılmışdır. Çünki Peyğəmbərin (s) Sünnəsi qınamağa layiq pis bir Sünnə deyildir. Əksinə bu Sünnə, öyülməyə və örnək alınmağa layiq bir Sünnədir (yol, gedişat) [10, s.1-2].

Hədis elmində Sünnə Peyğəmbərin (s) sözləri, felləri, təqrirləri, istər peyğəmbərliyindən əvvəlki dövrə, istərsə də peyğəmbərlik dövrünə aid olsun əxlaqi vəsfləri və davranışlarıdır. Bu tərif muhəddislərin tərifidir. Bu tərifə görə, Sünnə hədislə eynimənalıdır.

Fiqh üsulu alimləri Sünnəni, Peyğəmbərdən (s) Qurani-Kərim xaricində meydana çıxan və şəri hökmə dəlil ola biləcək xüsusiyyətli söz, fel və təqrirlər kimi tərif etmişlər. Fəqihlərə görə Sünnə, fərz və ya vacib olmamaq şərtiylə Peyğəmbərdən (s) meydana çıxdığı sabit olan davranışlardır. Qısaca olaraq Sünnə " Peyğəmbərin (s) seçdiyi və Allahın əhkamıyla əməl edərək getdiyi yol" deyə tərif edilir. Sünnəyə Peyğəmbər (s) tərəfindən öyrədilmiş və vəz edilmiş qaydaların bütünü mənasını da vermək mümkündür [5, 26].

**Xəbər kəlməsinin mənaları:**

Xəbər (خبر) doğru və yalan olma ehtimalı olan, söz, hər hansı bir kimsədən rəvayət olunan söz, şəhadət sözcüyü zikr etmədən, bir kimsəyə aid digəri üzərində bir haqq olduğunu söyləmək deməkdir.

Xəbər lüğətdə hər hansı bir hadisə və ya hər hansı bir məsələ ilə əlaqəli nəql edilən bilik mənasına gələn bir məfhumdur. Cəm forması "əxbar"dır [1, IV, s.226].

Xəbər hər hansı bir mövzuda alınan yazılı və ya sözlü bir elmdir [8, I, s.144].

Hədis elmində xəbər, Sünnə və hədis təbirləri ilə eyni mənadadır. Bəzi alimlərə görə xəbər, Rəsulullah (s) xaricində olan şəxslərdən, məsələn səhabələrdən rəvayət edilən sözlərdir [9, s.126].

Xəbərin hədislə eynimənalı olması, Sünnənin hədislə eynimənalı olmasından daha münasibdir. Təhdis (hədis rəvayət etmək) ixbar (xəbər vermək) mənasındadır. Rəsuli Əkrəmin (s) hədisi demək, ona qədər çatan xəbər deməkdir. Tarix və ona bənzər elmlərlə məşğul olanlara "əxbari" deyilməsi, bəzi alimləri Sünnələ məşğul olanlara "muhəddis" adını verməklə onları tarixçilərdən ayırmağa sövq etmiş, başqalarından gələn "xəbər"dən ayırmaq üçün də mühəddislərin rəvayətlərinə "hədis" deyilmişdir. Bu izahda "xəbər" ilə hədis arasında mütləq bir ümumilik və xüsusilik vardır, bununla yanaşı hər hədis xəbərdir, fəqət hər xəbər hədis deyildir", şəklindəki izahat kəlmələri daha yaxşı açıqlamaqdadır [10, s.8].

**Əsər kəlməsinin mənaları:**

Əsər (أثر) lüğətdə bir şeyin geri qalanına deyilir. Bir şeyin varlığına dəlalət edən izə də əsər deyilir. Əsər kəlməsinin cəmi "asar" və ya "usur"dur [1, IV, s.5]. Başqa bir lüğətdə isə "əlamət", və "iz" deməkdir [2, I, s.489].

Hədis elmində əsər, xəbərlə eyni mənaya gələn bir termindir. Bəzi hədis alimlərinə görə, xəbər hədislə eynimənalı olduğuna görə əsər hədis deməkdir. İmam Nəvəviyə görə hədisçilərin nəzərində Peyğəmbər (s) Səhabələrə və ya Tabiunlara aid olan bütün rəvayətlərə əsər adı verilir. Ümumi olaraq hədis və xəbər terminləri ilə eynimənalı olaraq işlədilən əsər termini Xorasan fəqihlərin istilahına görə "muhəddisin" qarşılığıdır. Onlar Peyğəmbər (s) və səhabədən gələn nəqllərə ümumi mənada əsər, hədis elmi ilə məşğul olanlara isə əsəri aid etmişlər.

**Hədisin və Sünnənin dindəki yeri:**

İslam dininin ikişafında və onun qısa bir zaman içərisində bütün Ərəbistan yarımadasına yayılmasında hədis və Sünnənin böyük rolu olmuşdur [4, s.267].

Hədislər, ixtilafa düşdükləri mövzularda insanları ayıdınladan, beləcə onlar üçün hidayət və rəhmət qaynağı olan Qurani-Kərimin endirildiyi bir peyğəmbərin sözü olaraq üstün bir dəyər ifadə etdiyi kimi, Quranı hər kəsdən yaxşı başa düşən və ayələrdəki ilahi məqsədlərin nə olduğunu ən yaxşı bilən Allah Rəsulunun görüşü olaraq da böyük önəm daşıyır. Peyğəmbərin (s) insanlara sözləriylə açıqladığı, şəxsən tətbiq edərək göstərdiyi ilahi əm-

rlərin başında namaz, oruc, zəkat və həcc kimi ibadətlər gəlir. Namazların hansı vaxtlarda, neçə rükət və necə qılınacağı, orucun necə tutulacağı, zəkatın hansı mallardan, nə qədər veriləcəyi, həccin necə yerinə yetiriləcəyi kimi xüsusiyyətlər Quranda yer almayıb hədislərlə açıqlanmış, İslam hüququnun bir neçə məsələsi hədislərdə verilən məlumatlarla həll olunmuşdur. Digər yandan Quranda bir neçə cür yorumlana bildiyi üçün mənası asanlıqla anlaşılmayan (müşkül) ayələr, "şirkin", "zülm" kəlməsi ilə təfsir edilməsində olduğu kimi bir çox mənalar ifadə edən ayələr də hədis rəvayətləri sayəsində yorumlanmışdır. Hədislər eyni zamanda Quranda yer almayan bir neçə məsələyə də açıqlıq gətirmiş, bu mövzulardakı tətbiqat formalarını göstərmişdir. Məsələn; bir qadının adət halında ikən qılmadığı namazları qəza etməyəcəyi, bir kişinin arvadından əlavə olaraq onun bibisi və xalası ilə evlənməyəcəyi [12, Nigah-31], nəsəb yaxınlığı səbəbiylə evlənilməsi haram olan kimsələrlə süd yaxınlığı səbəbiylə də evlənmənin haram olduğu kimi xüsuslar, ayrıca şufa haqqı ilə əlaqəli hökmlər, nənəyə və ata tərəfindən olan qohuma düşəcək miras kimi məsələlər Peyğəmbər (s) tərəfindən həll edilmişdir.

Qurani-Kərimdə təmas edilməklə yanaşı haqqında ətraflı məlumat verilməyən axirət həyatı ilə əlaqəli məsələlər, qəbir həyatı, yenidən diriliş, məhşər, hesab, mizan, cənnət və cəhənnəmdəki həyat kimi mövzular da hədislər vəsitəsi ilə öyrənilməkdədir. Əxlaqi fəzilətləri, mənəvi və ruhi inkişafı təmin edəcək qaydaları, sağlam bir ailə həyatı üçün lazım olan davranış formaları, insanlar arasında ictimai və ticari münasibətləri nizamlayan hökmləri, idarə edənlərlə idarə edilənlər arasındakı münasibətləri və.b. mövzularda da hədislərdə geniş məlumatlar mövcuddur [13, XV, 28].

Bilindiyi kimi, Kitab Allah tərəfindən Peyğəmbərə endirilən və İslamiyyətin bütün əsaslarını içərisində toplayan Qurani-Kərimdir. Sünnə isə, öncədə açıqladığımız kimi, Peyğəmbərin söz, fel və təqrirləridir [4, s.262].

**Bir qaynaq olaraq Sünnənin dəyəri:**

Peyğəmbərə (s) nisbət sabit və səhih Sünnənin, İslam hüququnun qaynaqlarından olduğu və bununla əməl etmənin vacib olması üzərində bütün müctəhidlər ittifaq etmişlər. Onlar bu nəticəyə gələrkən Rəsulullaha (s) itaəti Allaha itaət sayan, ona tabe olmanın Allahın sevgisinə çatmağa və günahların bağışlanmasına vəsilə olaraq göstərən, onun hökmünə riza göstərməyənin imansız olduğunu ifadə edən, ona müxalifət edənə şiddətli əzabların olduğunu bildirən ayələrə əsaslanırlar. Bu mövzuda ayələr xeyli çoxdur. Bu ayələrdən bir neçəsini misal olaraq xatırladaq.

***"Allaha və Peyğəmbərə itaət edin. əgər (itaətdən) boyun qaçırsanız bilin ki, Peyğəmbərimizin vəzifəsi yalnız açıq-aşkar bir təbliğdir"*** [3, Maidə, 92].

Təbəri bu ayə haqqında belə deyir: "Bu ayə əmr və nəhylərdən (qadağanlardan) üz çevirənlər üçün, Allah tərəfindən bir təhdiddir [15, II, s.42].

Digər bir ayədə Allah Taala belə buyurur: ***"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik"*** [3, Nisa, 80].

Allah Taala, bu ayəti kərimədə qulu və elçisi Məhəmməd (s) itaət edənin Allaha itaət etmiş olacağını, ona üsyan edənin də Allaha üsyan etmiş olacağını xəbər verir. Bunun yeganə səbəbi, Peyğəmbərin (s) öz istəyilə danışmaması, danışdıqlarının ancaq ona vəhy ediləndən ibarət olmasıdır.

Allah Taala elçisi Muhamməd (s), bundan ötrü sənə bir vəbal yoxdur, sənə tabe olan qurtuluşa çatar. Onun üçün meydana gələn əcrin bir misli eyni zamanda sənədir. Kim də sənə üz çevirərsə, xüsrana düşmüş olar. Ondan sən məsul deyilsən [16, IV, 1679].

Həşr surəsinin 7-ci ayəsində Allah Taala belə buyurur: ***"Peyğəmbər sizə nə verirsə onu götürün, nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir"*** [3, Həşr, 7].

Peyğəmbər sizə nə verirsə onu götürün, o sizə haladır.

Allah Taala başqa bir ayədə belə buyurur: ***"Ey iman edənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibariylə daha yaxşıdır"*** [3, Nisa, 59].

Hökmlər ancaq Allahdan alınacaqdır. Nəsildən-nəsilə, cəmiyyətdən-cəmiyyətə dəyişən sosial həyatın dalğalanmalarıyla ortaya çıxacaq olan və haqqında Quran və Sünnədə kəsin bir dəlil olmayan, o məsələlər ilə əlaqəli fərqli görüşlər və fərqli yorumlar ilə ortaya atılan məsələlərin həlli Uca Allaha

həvalə ediləcək, beləcə fərqli düşüncələrin, fərqli görüşlərin və fərqli yorumların hakimliynə başvuracaqları dəyişməz bir ölçü, sabit bir düstur əldə ediləcəkdir. Elə bu məqsədlə də Uca Allah bir şəriət müəyyən edərək onu Quran-i Kərim vəsitəsilə insanlara çatdırmışdır. Sonra isə bu ayələri insasnlara anladacaq bir peyğəmbər göndərmişdir. Bu peyğəmbər "həvadan (boşyerə) danışmaz". Buna görə də onun Sünnəsi (sözləri və tətbiqatı) Uca Allahın şəriətinin bir parçasıdır.

Uca Allaha itaət məcburidir. Möminlər ilk olaraq Uca Allaha itaət etməklə vəzifəlidirlər. İkinci dərəcədə Peyğəmbər (s) itaət etmə vəzifəsi gəlir. Çünki, Allahın elçisi, Allahdan aldığı mesajı qullara çatdırma vəsfini daşıyır. Bu xüsusiyyətinə görə ona itaət etmək, onun vasitəçiliyi ilə bu şəriəti göndərmiş olan Allaha itaət etmənin vazkeçilməz bir bölməsidir. Digər yandan, Peyğəmbər (s), Sünnə vasitəsi ilə bu şəriəti açıqlayır. Buna görə də, onun Sünnəi, onun hökmləri əməl olunması məcburi olan şəriətin ayrılmaz bir parçasıdır [18, II, s.522].

